**ADİL BABAYEV**

**ƏSƏRLƏRİ**

ON YEDDİ CİLDDƏ

XVI CİLD

# REPRESSİYA QURBANI – AZƏRBAYCAN DİLÇİLƏRİ

**BAKI – 2023**

Redaktor: akad. NİZAMİ CƏFƏROV

**BABAYEV Adil Məhəmməd oğlu**.**Əsərləri.17 cilddə.**

**XVI cild**. “MSV NƏŞR” nəşriyyatı, 2023

Bu cilddə sovet-bolşevik rejimi dövründə əsassız ittihamlarla panislamist, pantürkist, nasionalist damğaları ilə repressiyaya uğramış görkəmli Azərbaycan dilçiləri və onların zindan həyatı haqqında müəllifin 2020-ci ildə yazmış olduğu “Repressiya qurbanı – Azərbaycan dilçiləri” əsəri yer almışdır.

*Adil Babayev, 2023*
*“MSV NƏŞR” nəşriyyatı, 2023*

**ADİL BABAYEV**

# REPRESSİYA QURBANI – AZƏRBAYCAN DİLÇİLƏRİ

**BAKI – 2020**

**Redaktor:** professor Cəlal Qasımov

**Rəyçi:** professor İkram Qasımov

*Kitabda 30-cu illərdə repressiyaya məruz qalmış Azərbaycanın dilçi alimlərinin zindan həyatı, elmi yaradıcılığı və taleyi haqqında arxiv məlumatları əsasında bilgilər verilir. Azərbaycanda repressiya qurbanlarının sayı bütün başqa respublikalara nisbətən daha çox olmuşdur. Bunun əsas səbəblərindən biri günümüzlə səsləşən erməni problemi idi. Ona görə də müasir oxucuda erməni xisləti haqqında təsəvvür yaratmaq üçün ermənilərin Azərbaycanda törətdikləri cinayətlər və onlar haqqında məşhur adamların dediklərini də qısa şəkildə kitaba əlavə etmişik. Kitab bu problemlə maraqlanan hər bir adamda maraq doğura bilər.*

**Babayev Adil Məhəmməd oğlu.**
REPRESSİYA QURBANI –AZƏRBAYCAN DİLÇİLƏRİ.

Bakı –2020

## Müəllifdən

Əziz oxucu, əlinə aldığın bu kitabda sənə deyəcəyim sözlərlə səninlə görüşmək mənim çoxdankı arzum idi. Əgər xalqını, Vətənini, dilini, ədəbiyyatını, tarixini, musiqini, adət-ənənələrini əsl məhəbbətlə, mənim kimi sevirsənsə bu kitabı oxu (Mən ilk növbədə yuxarıda dediklərimi sevir, sonra isə bütün millətlərə aid olan həmin tarixi-milli dəyərlərə hörmət edirəm). Əgər millətinin soyqırımını eşidəndə beynində əsəblərin gərginləşdiyini hiss etməyəcəksənsə, öz dilinin, xalqımın mənəvi dəyərlərinin məhv edildiyini həyacansız oxuyacaqsansa, Vətəninin alimlərinin, başbilənlərinin, bəzən də adi adamlarının məhv edildiyinə biganə qalacaqsansa və nəhayət xalqımızın əslərlə yaradıb, qoruyub saxladığı, dünya xalqlarına sevdirib, özü də sevdiyi milli musiqimizə ağız büzüb, bayağı, mənasız, yüngül estradadan, orada oxunan mənasız və səviyyəsiz sözlərdən zövq alaraq vaxtını barlarda keçirirsənsə, min bir əyri yolla alınmış xarici qara maşında gündə bir qızla əylənir, min bir fırıldaqla vətəni qorumaqdan qaçırsansa, bu kitabı yerə qoy. Bu kitab sənin üçün deyil!

Bu kitab cinsindən asılı olmayaraq millətimin o nümayəndələri üçün yazmışam ki, onlar bu əsəri oxuyub fanatikcəsinə (erməni kimi) –"Mən bütün millətlərə düşmənəm" deməyib, öz xalqının başına gətirilən müsibətlər haqqında aldığı kiçik məlumatdan böyük məna şıxartsınlar.

Özümə və yaşıdlarıma yazığım gəlir ki, gənclik illərində bizə başqa cür siyasi tərbiyə vermişdilər. Elə bilirdik ki, dostluq

deyəndə Şaumyan-Əzizbəyov, Lenin-Stalin, qardaşlıq deyəndə Hayıstan-Azərbaycan, xalq deyəndə Sovet xalqı düşünməlidir. Sən demə bizdən başqa xalqlar özü haqqında düşünürmüş.

1920-ci ildən bizim gözümüzün odunu elə almışdılar ki, biz marksizm-leninizmdən, bolşeviklər partiyasının dediyindən kənarda heç nə düşünə bilməzdik. Nəhayət, 1956-cı ildə (o vaxt mən orta məktəbdə oxuyurdum) Sov. İKP XX qurultayı (14-15 fevral) buzu sındırdı. Bundan sonra Stalinin şəxsiyyətinə pərəstiş aradan qaldırıldı və repressiya qurbanlarına bəraət verilməyə başlandı. 1961-ci ildə Sov. İKP XXII qurultayı (17-31 oktyabr) Stalini tamamilə ifşa etdi, amma "Xalqlar dostluğu" haqqında xüsusi qərar qəbul etdi. Stalinə nə istəyirsən de, hətta onun tarixi xidmətlərini inkar et, amma Şaumyana, Əmiryana və başqa "yanlara" toxunma, çünki onlar vahid Sovet xalqının nümayəndəsidir.

Bəs Zori Balayan 1985-ci ildə niyə bizi, bütün türk xalqlarını vəhşi, qaniçən kimi qələmə verdi, niyə Silva Kaputikyan bizi bütün dünya xalqları qarşısında rüsvay edirdi. Onlarla "yanlar" bizim əleyhimizə min cür böhtanlar yağdırır? biz isə susurduq! Bax, məsələ bunda idi.

*Burada böyük Şəhriyarın sözləri yada düşür:*
*Dil acmada karlıq da gedər, korluğumuz da,*
*Çün lallığımız doğmuş idi karlığımızdan...*
*Düşmən bizi əlbir görə təslim olu naçar,*
*Təslim oluruq düşmənə naçarlığımızdan,*
*Düşmənlərimiz qorxuri huşyarlığımızdan.*

Biz isə o illərdə sosialist beynəlmiləlçiliyinə, "xalqların Lenin dostluğuna", "Sovet xalqlarının qardaş birliyi" ideyasına sadiq qalaraq susurduq. İndi danışmaq, müsibətlərimizi dünyaya yaymaqda ermənilərdən geri qalmağımız da təcrübəsizliyin, həmin susmağın nəticəsidir.

1988-ci ildə onlar SSRİ-nin dağılacağını əvvəlcədən görüb öz himayədarlarının dəstəyi ilə bizə qarşı müharibəyə başladılar. Ermənistanı axırıncı türkdən təmizlədilər, millətimizin namusunu təhqir etdilər, Quqarkda, Xocalıda qətliamlar törətdilər, dünyaya isə car çəkdilər ki "vəhşi türk bizi qırdı". Bunun nəticəsi olaraq Amerika Kongresi Azadlığı dəstəkləmək haqqında akta 907-ci maddəni əlavə etdi. Bu haqda müasir oxucunun məlumatı var. Əgər 1993-cü ildən başlayaraq Azərbaycan diplomatiyası fəallaşmasaydı, ermənilər Xocalını da ermənilərin qətliamı kimi qələmə verərdilər. Çünki bütün tarix boyu onlar ölkəsində və qonşuluğunda yaşayan xalqlara xəyanət etmiş "bizi qırdılar" deyə timsah kimi göz yaşı tökmüşlər.

Gəlin, ermənilər haqqında bir neçə kompetentli, bitərəf adamların sözlərinə nəzər salaq:

*-Dünyanın hər tərəfinə hər dil ilə elan olunsun: dünya inansın ki, ermənilər beş yüz ildən bəridir Osmanlı dövlətinin adil idarəsində mütləq şəkildə xoşbəxt yaşamışdır.(Manuk Əfəndi, Hələb millət vəkili.1877)*

*-Ermənilərin qovğacı təbiəti özlərinə böyük fəlakət gətirə bilər.(Trotter, İngiltərənin Ərzurum konsulu.1879)*

*-Vəziyyətini xəbər aldığım erməni: "Savaş içində türklərin idarəsi altında bundan daha xoşbəxt idim", -dedi. (Biliotti.İngiltərənin Trabzon konsulu.1879)*

*-Ermənilərin əqəliyyətdə olduqları unudulmamalıdır:bir çox yerlərə səpələnib yaşayan ermənininin bir parçasıdır...(Ser Layard, İngiltərənin Osmanlı böyük elçisi.1879)*

*-Öldürmə hadisələri erməni partizanlarının ucbatından baş vermişdir. Əgər bunlar olmasaydı və ya səssiz otursaydılar, kimsənin burnu qanamazdı. İnkarı imkansız olan həqiqət budur!Aranı qatıb-qarışdıran özləri oldu. Nəticəsini erməni kütləsi çəkməli oldu. Qan sulayanlar qaçıb canlarını qurtardılar.*

*-Əgər İngiltərənin və Rusiyanın hüsn-rəğbəti və təşviqi olmasaydı, ermənilər heç nə bacarmayacaq qədər sakit və fərağat qalardılar. (Georgi Hipvort, Amerika qəzetçisi.1897)*

*Andranik qardaş!*
*Gedəlim Türkiyəyə,*
*Qıralım türkləri-*
*Olsun Ermənistan!..*
*(Ermənilərin "Hıncaq" marşından.)*

*-Ərzurum bir xarabə halında idi. Camilər tamamən hamam və anbarlara çevrilmişdi. Gecə səkkizdən sonra türklərin evlərindən çölə çıxmaları kəsinliklə yasaqlanmışdı. (Otto Fenşer.1918)*

*-Mən ermənilərin vəhşətindən özümü qoruya bildim və Ulu Tanrıya çox şükürlər olsun ki, ermənilərə deyil, türklərə təslim oldum. Kiyevdə sağlığımı duysunlar deyə bunları yazdım. (Yüzbaşı İvan Qokilaviç Pılyat.1918)*

*-Soyqırımın qarşısını almaq tamamilə erməni başçılarının əlində idi: buna görə də qırğınlarda təkcə quldur-qaçaq ermənilər deyil, eyni zamanda erməni ziyalıları da iştirak edirdilər. (Vladimir Nikoloyeviç Tverdoxlebnikov. Ərzurum Kala Topçu Alayı komandiri.1918)*

*-Kütləvi qırğınları təşkil edənlər Andranik paşa fransız albayı Moreldir. Ərzurum daxilində toplanan cəsədin miqdarı dörd mindir. Bir çox qadın və uşaq bura daxildir. (Yüzbaşı Rəfiq. May, 1918)*

*-Ərzurumda elə acı mənzərələr gördük ki, insanı insan olduğundan iyrəndirirdi. Sağ qalanlar gözüyaşlı ora-bura qaçır, kimi oğlunu, kimi atasını,kimi arvadını süngülənmiş və yıxılmış halda tapır, dəhşətlə saçlarını yolurdu.Küçələrdə həyat əlaməti görünmürdü. Yerlərdə çocuq, qadın, yaşlı qanlar içində yatırdı.*

*Yalnız son gecə (11-12 mart, 1918) içində üç min müsəlmanı boğazladıqlarını ermənilər öyünərək ruslara da söyləmişlər.*

*Dəmir yolu stansiyasında sanki bir məzarlıq qoynundakı ölülərin birdən-birə firlanıb torpağın üstünə atmışdı. (Kazım Qarabəkir Paşa, 25 sentyabr, 1919)*

*-“Mənə elə gəlir ki, siz erməniləri səkkiz yaşında çox təmiz və məsum bir qız kimi zənn edirsiniz. Bunda çox yanılırsız. Zira ermənilər xüsusilə son dərəcə vəhşi davranışları ilə nə qədər qantökücü bir toplum olduqlarını bilavasitə özləri isbat etmişlər...”(Lord Kurzon. “Tan” qəzeti. 12 mart, 1920)*

*-İnsaın vicdanı dəyərli almaz kimi ləkəsiz yaradılmışdır və ləkəsiz qalmalıdır. Ermənilər vicdan əzabı nədir bilməzlər.(Yarbay Tverdoxlebnikov)*

*-Ermənilər rüzgar əkdilər. Fəqət rüzgar əkənin firtına biçəcəyini unutdular (Leo, erməni tarixçisi)*

*-İlıcadan kəndlərə gedən yollarda bədən üzvləri kəsilib eybəcər hala salınmış türk cəsədlərilə qarşılaşdıq. Ermənilər bunları söyə-söyə və tüpürərək keçib gedirdilər. Bir caminin dəhlizində iki arşın dərinlikdə quyu qazmışdılar. Qadınları, körpələri, qocaları dəhşətlər içində vəhşicəsinə qətlə yetirib bu quyuya tökmüşdülər. Öldürməzdən əvvəl qadınlarla namussuzcasına davranmışlar. O cəsədlərə sakit baxmaq mümkün deyildi.*

*Erməni birlikləri yanında telefon-rabitə xidməti ilə məşğul olan bir-iki qız vardı: onları ibrət üçün cami dəhlizindəki quyuya tökdükləri qadın-qız qarışıq bu cəsədlərə baxmağa çağırdım. Axçiklərin bu vəhşət mənzəri qarşısında üzüləcəklərini düşünmüşdüm. Əksinə, necə fəxrlə baxıb gördüklərinin şahidi oldum. İndi anladım ki, qadınları da olmaqla erməni xalqı nə*

*qədər rəzil və qəddar bir xalqdır. Hərbiçinin tükünü ürpədən bu mənzərə qarşısında təhsil görmüş, guya tərbiyə almış bir qızın insanlığın bu halına sevinməsi gəldiyim qənaətin dəlil-dəlaləti sayılar. (Qryaznov, Rus hərbiçisi, albay,1918)*

*-İlıca qəsəbəsində qaça bilməyən ixtiyarların hamısını ermənilər küt baltalarla ənsələrindən parçalayıb qətlə yetirmişdilər. (General Odişelidze, rus ordusunun Ərzurum baş komandanı)*

*-Ermənilər qaçarkən Axırkələkdə dörd aydan bəri vəhşicəsinə əzab verməkdə olduqları kənd əhlini topdan qırdılar. Cəsədlərin bir çoxunu quyulara töküb qaz yağı ilə odladılar. Cəsədləri bu halları ilə də qoymadılar; evlərini başlarına yıxaraq aradan çıxdılar.*

*Budur XX yüzilin Ermənistanda yaşayan mədəni ermənilərin törətdikləri vəhşət.*

*(Xoroşenov, Birinci Aksigin dairəsi müfəttişi. May 1918)*

*-Rus qızışdırıcılığına tutularaq və rus silahına güvənərək qarışıqlıq və üsyanlar çıxaran erməni komitələri qarçısında Osmanlı hökuməti özünü qoruma tədbiri göstərmişdir (söhbət təhqirdən – erməniləri başqa yerə köçürmədən gedir). (Leo, erməni tarixçəsi)*

*Ermənilər 8 əsr ərzində əvvəlcə Səlcuq, sonra isə Osmanlı hökmranlığını məmnuniyyətlə qəbul etmiş,idarə sistemindən qətiyyən şikayət etmədən öz dininə asudə itaətlə məşğul olmuş,*

*dövlətdə mühüm vəzifələr tutmuş və ticarətdə hakim mövqeyə nail olmuşlar (Fransız alimi, jurnalist və hüquqşunası Jorj de Molkvil).*

*Biz həyatımız boyu türk millətinə borcluyuq, türklər olmasaydı bu gün nə erməni milləti olardı, nə də erməni mədəniyyəti. (Erməni yazıçısı Torkum Stepanyan)*

*Türkləri hər hansı bir vəhşilikdə ittiham edirlər etsinlər yalnız bunu deyə bilərəm ki, Türkiyənin müxtəlif şəhərlərində erməni-müsəlman toqquşmaları haqqında şəxsən bütün mənə məlum olanlardan belə qənaətə gəlirəm ki, qanlı işlər hər yerdə məhz ermənilərin öz təşəbbüsü ilə başlamışdır.*

*Türklər Asiyanın nəinki müsəlman, həm də başqa xalqlarının ən yaxşı hissəsidir. (Çar Rusiyasının Van və Ərzurumdakı baş konsulu Moyevski).*

*Görün müasir bitərəf araşdırmaçı nə deyir.*

*Türkiyə tarixi keçən yüzillikdə ermənilərin kütləvi təqibi haqqında heç bir fakt bilmir. Əksinə onlardan çoxu 1915-ci il faciəsinə qədər yüksək dövləti vəzifələr tutmuşlar.*

*Dinə kürd, türk və erməni əhalisi arasındakı təlafat hər iki tərəfdən döyüş əməliyyatının qanunauyğun nəticəsidir ki, genosid hesab edilə bilmir. (Stasburq Şərq Tədqiqatları insitutunun direktoru Pyer Dyümon).*

Qeyd etmək lazımdır ki, Sovet imperiyasında antitürk əhval-ruhiyyəsi ilə ermənilərin türkə qarşı düşmənçilik ideyası üst-üstə düşürdü. Erməni xisləti - imperiya siyasətindən bacarıqla istifadə edərək azərbaycan xalqına qarşı amansız divan tutardı.

Qeyd etmək yerinə düşərdi ki, erməni xarakteri-erməni xəstəliyi hər yerdə, hər an özünü göstərir. Bu da ondan ibarətdir ki, erməni harda varsa, orada insan övladına dinclik, sakit həyat yoxdur. Öz mənafeyi xatirinə hansı cildə desən girməyi bacaran erməni xəstəliyi yeri gələndə göz yaşı tökər, ağlayıb-sızlayar, başqa bir şəraitdə amansız canavara dönər, 200 uşağı diri-diri böyük bir turbaya doldurub ağzını qaynaqlayır, başqa bir şəraitdə namusundan keçərək işi düşdüyü adamı evinə dəvət edib onunla kirvə olar. Bütün bunlar üçün kimin hansı millətə mənsub olmasının fərqi yoxdur. Çünki erməni özündən başqa bir milləti sevməz. Doğrudur, yaradan ermənini yalnız türkün düçməni kimi yaratmışdır. Amma elə tarixi faktlar da vardır ki, onlar ermənin bütün millətlərə qarşı qeyri-insani münasibətini bildirir. Məsələn, deyək ki, türkə qarşı onun qəlbində uşaqlıqdan nifrət oyadırlar; 1000 ildən bəri onlar türkə qarşı hər cür alçaq hərəkətlər etmişlər. İstər açıq, istərsə də gizli şəkildə türk millətinə qarşı hər cür xəyanətlər etmişlər. Yuxarıda dediyimiz kimi, erməni harda varsa, özünə hər vasitə ilə yaxşı şərait yaradacaq, hansı xalq olursa olsun ona min bir xəyanətlər və alçaqlıqlar edərək özünə yol açacaq, sonra başqa erməniləri mütləq yanına yığacaq yeni tədbirlər hazırlayacaq. Biz bu mövzuya ötəri toxunmuşuq. Dediklərimizi sübut etmək üçün Azərbaycanın qeyrətli oğullarından biri Məmməd Cəfərlini "Politiçeskiy terror i südba Azerbaycanskix nemçev" kitabında SSRİ XDİK Azərbaycanın Şəmkir rayonunda sürgün həyatı keçirən almanlara qarşı yeritdiyi

cəza tədbirlərində ermənilərin necə iştirak etdiyini göstərmək kifayətdir. Orada oxuyuruq: "Almanların sıxışdırılması, vətəndaş hüquqlarının pozulması təkcə hakimiyyət orqanları tərəfindən həyata keçirilmirdi, habelə bu iş başında ermənilər duran təşkilatlar tərəfindən də icra edilirdi. Bu işdə nə vaxtsa Ermənistandan gəlib həmin regionda (söhbət Şəmkir rayonundan gedir – A.B) koloniyalarda muzdurluq edən ermənilər onlara fəal kömək edirdi. Ermənilər əvvəlcə kənd təsərüfatında vaxta-muzd işləyərək ildən-ilə kolonyadakıları və yerli əhalini (azərbaycanlıları – A.B) sıxışdırırdı..." (səh.77)

Həmin əsərdə (həmin səhifədə) öyrənirik ki, 1928-ci ilin yanvarın 1-nə olan məlumata görə Yelenendorfda kaloniyada işləyən və heç bir əmlakı olmayan 150 erməni muzdurluq etməyə məcbur olmuşdur. Müəllif sonra yazır: "Yaranmış vəziyyəti yaxşı başa düşərək, hakimiyyət orqanlarının almanları sıxışdırdığı vaxt ermənilər bu vəziyyətdən öz məqsədləri üçün bacarıqla istifadə etdilər. Hakimiyyət orqanları da öz növbəsində kalonyada öz siyasətini yerinə yetirmək üçün erməni faktorundan istifadə edirdi (səh.77)

Xalq Daxili İşlər Kommissarlığı tərəfindən represiyaya məruz qalanların və Sibirə göndərilən alman ailələrinin evlərini və torpaq sahələrini tuturdular. Yerli əhali (koloniyalarda yaşayan almanlara gəlincə ermənilər arasında lokal toqquşmalar olurdu ki, bunlar ilk baxışda məişət xarakteri daşıyırdı. Almanların hakimiyyət orqanlarına rəsmi müraciətləri ən yaxşı halda cavabsız qalırdı. Çox halda müraciət edənləri millətçilikdə ittiham edirdilər) Baş siyasi idarənin məlumatlarına görə 1934-cü ilin may ayının 14-də Yelenendrof klubunda divara "Ermənilər

həşaratdır, onlar kəndlilərin son damla qanını sorurlar'' sözləri yazılmış vərəqə yapışdırmışdılar (səh 78).

1940-cı ilin oktyabrında almanlar Şəmkir rayonunda ermənilərin zorakılığı haqqında məktub tərtib etmişdilər. Bu məktubda onlar alman dəqiqliyi ilə rayonda yaranmış vəziyyətin sosioloji təhlilini vermişdilər: Ermənilər Şəmkir rayonunda əhalinin cəmi 10 faizini təşkil etdikləri halda rayonun müxtəlif müəssisələrindəki rəhbər vəzifələrin 90 faizini tuturdular. Məktubda yerli əhali olub, 90 faiz təşkil edən azərbaycanlıların hüquqlarının pozulması da göstərilirdi. Tərtib edilmiş məktub poçt şöbəsindən göndərilmədi. Çünki poçtda da əsas kütləni ermənilər təşkil edirdi. Buna görə də məktubu Almaniyanın konsulluğu olan Batumidən göndərmişdilər. Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırovun adına ünvanlanmış həmin məktubu 22 oktyabr 1940-cı ildə Azərbaycan KP MK-nın katibi Karkaryanın stolunun üstünə qoydular. Kitab müəllifi (Məmməd Cəfərli) həmin məktubu olduğu kimi vermişdir. Biz də onu tərcümə etmədən, üslubuna toxunmadan veririk. Qoy oxucular onunla tanış olsunlar:

## СЕКРЕТАРЮ ЦК КП АЗЕРБАЙДЖАНА М.БАГИРОВУ

Доводим до Вашего сведения о том, что в Шамхорском районе имеется 26 селъских советов, из коих толъко 7 армянских.

В Шамхоре всего будет не более 10% армян, а если считать количество руководящих и не

руководяших и не работников то 90% армяне. Азербайджанцы составляют самое незначителъное количество.

Например:

1.Райком партии-первый секретаръ Юсибов. Сидит просото во главе райкома (как фигура), рулъ находится в руках 2-го секретария Манучарова, который является ярым националистом. В течении двух лет в Шамхоре выживая азербайджанцев везде расстановил армян. Третий секретаръ Назаров несмотря на то, что русский, фактически играет под диктовку Манучарова.

Возъмем осталъных работников РК КП (б):

Заведующий отделом пропоганды – Васканян.

Заведующий организационно-инструкторским отделом – Назарян.

Заведующий учетным отделом – Габрилян и другие.

В райкоме комсомола кроме первого секретаря осталъные руловики армияне.

В исполкоме толъко председател Шабанов и то не рыба-не мясо. Основную ролъ играет заместителъ председателя Согомонян и заведующий кадрами – Симонян.

Управляющий ОМП – Яндян.

Заведующий производственно – каменным карьером при ОМП бывший старшина – Данелян.

Заведующий НХУ – Баграмов.

Заведующий комунхозом – Согомонян.

Заведующий строителъством при ОКХ – Вирабян.

Заведующая баней – Мария (армиянка).

Заведующая гостиницей – Баласанова.

Управляющая госбанком – Абрамова.

Управляющий селъхозбанком – Ходжанян.

Уполкомзаг – Арутюнов.

Упоравляющий объдинением конторы шерстъ – кожа –Данелян Арменяк, турецкий арм-

иянин – гахтанаган.

Заведующий артелем – Захарян.

Заведующий пищеблоком – Данелян.

Заведующий военторгом – Осипов и весъ состав военторга, армяне.

Заведующий кулътмагом – Марго (армянка).

Председателъ горпо – Варян.

Заведующий сенопунктом – Карапетян, кахтаган.

Директор МТС- Саркисян.

Заведующий школой в центре района армиянин, 80% преподавателей армяне.

Началник детдома – Баграмов.

Заведующий артели инвалидов – Гагарин Данелян.

Парторг Анинского немецкого колхоза – Акопджанов Исаак.

Секретар парткома РИКа Ходжанян.

Секретар парткома артелей при коперации – Мелик и т.д.

Кроме того, где руководители армяне, там весъ состав состоит из армян. 20.10.40 г. (səh. 80).

Kommunist (bolşeviklər) Partiyası bileti arxasında gizlənmiş Daşnak Karkaryan bu məktubu alan kimi, onu AXDİK-ə deyil, Xalq Daxili İşlər Komissarlığının DTİ-in Şəmkir rayon şöbəsinə göndərir və tələb edir ki, raykom katibi Manuçarovu millətçilikdə günahlandıran anonim məktub müəllifini tapıb cəzalandırsın. Bu məlumatı verməklə oxucunu bir daha inandırmaq istəyirik ki;

1) Erməni harda varsa, maqnit kimi o birini yanına çəkəcək.

2) Onlar birləşib hamıya, xüsusilə türkə qarşı mübarizə edəcək.

3) Keçən əsrlərdə çar Rusiyasının, sonra isə Sovet dövlətinin Azərbaycan xalqına qarşı apardığı cəza tədbirlərindən öz məqsədləri üçün istifadə edə bilirdilər.

4) Bu iş 1937-38-ci illərdə də (biz bu kitabda bəhs etdiyimiz hadisələrdə də fəal rol oynamışlar).

5) Azərbaycan xalqının görkəmli oğul və qızlarının “Kolxoz düşməni”, “Əksinqilabçı”, “Sovet quruluşunun düşməni”, “Müsavatçı”, “Pantürkist”, “Panislamist və s. damğalarla məhv edilməsində 90-95 faiz rolu bütün Azərbaycan DTK-na məqsədli şəkildə soxulmuş ermənilər oynamışlar.

Sual olunur – nə üçün Azərbaycanın istər mərkəzdə, istərsə də rayonlarda olan DTK orqanlarının hamısında ermənilər 90-95 faiz təşkil etməli idi? Bəs nə üçün Ermənistanın müvaviq orqanlarında bircə nəfər də olsun azərbaycanlı yox idi?

Buna görə də Azərbaycan xalqı təkcə 1937-38-ci illərdə 27854 nəfər qurban verdi. Bu iş sonralar da davam etdirildi (1956-cı ildə səngidi).

Oxucuya təqdim olunan “Represiya qurbanları – Azərbaycan dilçiləri” adlı kitab bu mövzunun mində birini əhatə edə bilmir. Hər halda oxucuda kiçik bir məlumat yarada bilər.

# TÜRKÇÜLÜYƏ QARŞI SOYQIRIM

Sovet dövründə yazılmış bütün əsərlərdə dilimizin inkişafına şərait yarandığı kimi, dilçiliyimizin də inkişafına şərait yarandığını qeyd etmişlər. Sovet hakimiyyəti xüsusilə özünün ilk illərində başqa respublikalarda olduğu kimi, Azərbaycanda da xalq maarifinin inkişafına hər cür şərait yaradırdı. Bu, ona görə də lazım idi ki, ali və orta məktəblər açmaqla milli respublikalarda inqilabi-bolşevik doktrinasını adamların beyninə yeridə bilsinlər. Biz bolşeviklər partiyasının Lenin milli siyasəti kimi alqışladığımız bu proses ayrı-ayrı respublikalardan daha çox mərkəzin özünə lazım idi.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində dilçiliyin nəzəri problemlərindən daha çox tətbiqi məsələləri ilə məşğul olmaq lazım gəlirdi. Necə deyərlər, qaçanı qovarlar; o vaxtlar elmi-nəzəri problemlərdən daha çox orfoqrafiya, əlifba, terminologiya məsələləri gündəlikdə dururdu. Buna görə də hər yerdə savadsızlığı ləvğ etmə kursları (likbez) (1.Geniş məlumat üçün bax: Atakişiyev A.История Государственного Университета. Б.1989) açılır, yeni əlifbaya keçmək üçün tədbirlər görülürdü (2.Babayev A.Azərbaycan dilçiliyinin tarixi. B.1996,s.135–155). Bu tədbirlərdən ən böyüyü 1926-ci ilin fevralın 25-dən martın 6-nadək davam edən I Ümumittifaq Türkoloji qurultayı oldu. Qurultayın keçirilməsi ideyası

Azərbaycanda başlasa da, mərkəzi hakimiyyət bu qurultayın keçirilməsinə etiraz etmədi. Hətta öz nümayəndələrini də göndərdi.

Birinci Türkoloji Qurultay haqqında çox deyilib, çox da yazılmışdır. Bu sətirlərin müəllifi bu qurultay haqqında çoxlu məqalə və kitablarında geniş məlumat vermiş, 1996-cı ildə bu qurultay haqqında geniş yazılar çap edilmişdir. Hətta mənim rəhbərliyimlə bu haqda, dissertasiya işi də yazılır. Amma bu qurultay haqqında nə qədər deyilib yazılsa da, yenə onun tarixi əhəmiyyətini tamamilə əhatə etmək olmaz. Biz bu qurultayın materialını istər "stenoqrafik otçetdan", istər 1926-cı ilin qəzetlərindən və başqa mətbu və qeyri-mətbu mənbələrdən öyrəndikdən sonra belə bir qərara gəldik ki, bu qurultaya həddindən artıq çoxtərəfli prizmadan yanaşmaq olar. Bu yaxınlarda Yakutstandan Bakıya Yuri Vasilyev adlı bir nəfər gəlmişdi. Bu şəxs Yakutski Universitetinin dosenti, RSFSR Yazıçılar İttifaqının üzvüdür. O, İ.N.Baraxov haqqında bizdən material istədi. Mənə I Türkoloji qurultay materiallarından bəlli idi ki, Moskvada yaşayan İ.N.Baraxov /yaqut/ Türkoloji qurultayda iştirak etmiş və rəyasət heyətinə seçilmişdir. Y.Vasilyev birldirdi ki, İ.N.Baraxov 1938-ci il repressiya qurbanı olmuşdur. Bu söz məni qurultaya başqa prizmadan yanaşmağa sövq etdi. Bu qurultayın türk xalqlarının tarixi inkişafında xüsusi bir mərhələ olduğu getdikcə aydınlaşacaq. Biz bu qurultayın başqa böyük hadisələr

kimi türk xalqlarına verdiyi böyük xeyirlə bərabər, türk dünyasına sonradan vurduğu ziyan haqqında danışmazdan əvvəl, indiyədək qurultay haqqında deyilməmiş bəzi məlumatları qeyd etmək istərdik.

Hər şeydən əvvəl qurultayın nümayəndəliyi barədə. Qurultaya seçilmiş 131 nümayəndədən 93-ü türk, 38-i qeyri-türk idi. Qurultay nümayəndələri içərisində bircə nəfər qadın nümayəndə – Ayna Sultanova idi-qurultaya nümayəndələr həm regionlar, həm də millilik üzrə seçilmişdir. Belə ki: Azərbaycandan 6, Naxçıvandan 1, Təşkilat Komitəsindən 15, Gürcüstandan 1, Ermənistandan 1, Acarıstandan 1, Türküstandan 4, Krımdan 3, Tatarıstandan 6, Başqırtıstandan 3, Qazaxıstandan 3, Özbəkistandan 6, Türkmənistandan 4, Qırğızıstandan 2, Oyrot vilayətindən 1, Yaqutstandan 3, Kalmık vilayətindən 1, Çuvaşstandan 2, Çinin Uyğur vilayətindən 1, Abxaziyadan 1, Xakasiyadan 1, Karaçaylardan 1, Şimali Qafqazın Türkmən vilayətindən 1, Elmlər akademiyasından 3, Şərqşünaslar cəmiyyətindən 2, Daşkənd universitetindən 1, Leninqrad universitetindən 1, Şimali Qafqaz İcraiyyə komitəsi Millətlər Sovetindən 2, Ufa XMK 1, RSFSR Millətlər Sovetindən 4, SSRİ MİK Millətlər Sovetindən 1, Cənubi Azərbaycandan 2...

Fərdi şəkildə dəvət edilmişdir:

Azərbaycandan 2,
Tatarıstandan 2,

Şimali Qafqazdan 2,
Moskvadan 2,
Ukraynadan 1,
Leninqraddan 4,
Krımdan 2,
Dağıstandan 2,
Zaqafqaziyadan 2,
Ermənistandan 1,
Özbəkistandan 4,
Başqırtstandan 2,
Türkiyədən 3,
Almaniyadan 2,
Macarıstandan 1 və s.

Qurultayda məruzələrin demək olar ki, hamısı rusca olmuşdur. Burada ilk dəfə Azərbaycan müəllimləri adından qurultayı Bayraməlibəyova azərbaycanca təbrik etmişdir. Stenoqrafik məlumatı diqqətlə oxuyub hesablama apardıqdan sonra müəyyən etdik ki,qurultayda cəmi 59 dəfə türk dillərində çıxış olmuşdur. Bunlardan 8-i əvvəlcə türkcə, sonra tərcüməsini rusca oxumuşdur. 51-i isə türk dillərində səslənmişdir. Stenoqrafik məlumatda türkcə danışan haqqında təkcə belə bir məlumat vardır. Məs. Q.Qabitov /türkcə/ (opplodismentı). Belə çıxışlar tez-tez təkrar olunmuşdur. Belə ki, Qabduraxman Saadi – 5 dəfə tatarca, Çobanzadə B.-3 dəfə azərbaycanca/məruzələri rusca etmişdir. Fərhad Ağazadə 3, Həbibulla Habitov 5 dəfə başqırdca,

Neymət Həkimov – 4 dəfə Qazan-tatarı dilində, Mehmed Fuad Köprülüzadə 3 dəfə, türkcə məruzə etmişdir.

Bunları deməyin mənası və məqsədi bundan ibarətdir ki, əlimizdə olan stenoqrafik məlumat tam deyil. Yəni qurultayın 17 iclasında tərtib edilmiş rusca "stenoqrafik otçet" 426 səhifə olsa da, tam deyil. Çox təəssüf ki, türk dilində edilmiş 59 çıxışın nə müəllif əlyazması, nə də stenoqrafik yazısı heç yerdə yoxdur. Şübhəsiz ki, çıxışların bir qismi də latın qrafikasında olmuşdur. Çox təəssüf ki, bu çıxışların (51 çıxış) mətni nə keçmiş DTK arxivində, nə də Əlyazmalar İnsitutunda tapıldı... Bəlkə elmimizin daha da inkişafı xatirinə bu mətnləri bir nəfər öz arxivində saxlayır. Onu elmi ictimaiyyətin istifadəsinə versə, daha da yaxşı olar.Bu da istisna edilmir ki, bu mətnlər qurultayın ya katibliyinin ya da fəal iştirakçılarından birinin arxivinə düşmüş, repressiya vaxtı əlyazmalar halında yandırılmışdır. Bax söhbəti bu məcraya gətirməkdə məqsədimiz bunu deməkdir ki, I Türkoloji qurultayda iştirak edən demək olar ki, bütün türk nümayəndələri repressiya qurbanı olmuşdur. Niyə? Çıxışlara diqqət edək:

I Yaqut xalqının 3 nümayəndəsi qurultayda iştirak edirdi. Onların heç biri öz vətənindən deyil, Moskvadan gəlmişdir:

a) Baraxov İsidor Nikiforoviç (rəyasət heyətinə seçilmişdir).
b) Avanov Aleksey Andreeviç (jurnalist)

c) Safronov Anempodist İvanoviç (ədəbiyyatçı)

Bu nümayəndələrin 3-nü də Yakutstan MİK-Moskvadan göndərmişdi. 1999-cu ildə M.İ.Baraxovun anadan olmasının 100 illiyi keçirildi. Baraxov Yakutstanda RK sədri olmuşdur. Baraxov da Türkoloji qurultay çağırmağa razı olmuş, sovet demokratizminə inanaraq qurultayda 2 dəfə çıxış etmişdir. Qurultayın 12-ci iclasında çıxış edən İ.N.Baraxov demişdi: “biz yaqutların latın qrafikasından istifadə etməkdə zəngin təcrübəsi vardır. Təəssüf ki, biz qurultaya xüsusi məruzə təqdim etməmişik. Amma biz indi qurultaya xüsusi öz tezislərimizi təqdim edir və inanırıq ki, onlar qurultayın “bülletenində” çap ediləcək. Hər şeydən əvvəl, qeyd etmək istərdim ki, biz yaqutlar üçün latın əlifbasına keçmək zərurəti olmamışdır. Bu, onunla əlaqədardır ki, bizdə əvvəl ərəb əlifbası qəbul edilməmişdir. Biz tarixin iradəsilə uzaq Şimala atılmışıq, bununla da türk xalqlarının əsas hissəsindən təcrid olunmuşuq... Bir çox halda dil ümumiliyini də itirmişik. Ərəb əlifbasının əsas olduğu islam dini də bizdə qəbul olunmamışdır. Biz türk xalqları ilə rastlaşanda, əsasən bizim adımıza görə, “İvan”, “Sergey”, “Vasili” adlandırdığımıza görə bizi

rus kimi qəbul edirlər. Amma elə ki, bizim üzümüzə baxırlar, onda inanmıram ki, bir adamda şübhə ola ki, biz türkə oxşamırıq...Dillərimizin uzaqlaşmasına və fərqli cəhətlərinə baxmıyaraq, bizim Azərbaycan dilini başa düşə bilmədiyimizə baxmayaraq, bizim dilimizin kökü birdir. Buna görə də biz bu qurultaya fövqəladə bir məhəbbətlə yanaşırıq". (3.Первый Всесоюзный съезд / стенографический отчет. Стр 289–290). Belə bir çıxışla yazıq İ.N.Baraxov gələcəkdə öz "pantürküst" damğasının əsasını qoymuş oldu. Moskvada yaşayan Baraxovun öz türk-yaqut xalqı haqqında dedikləri heç də müxtəlif təşkilatların nəzərindən yayınmamışdı.

Başqa bir türkün – oyrat Aleksey Makaroviç Sobaskinin çıxışına baxaq.A.Sobaşkin qurultayın II iclasında – 27 fevralda çıxış etmişdir. O deyirdi: "Burada iştirak edən yoldaşlar öz milliyyətini bilmir. Onların sırasında mən də varam. Mən oyrat xalqının nümayəndəsiyəm. Keçmiş zamanlarda bizi müxtəlif millətlərə aid edirdilər. Gah Kalmık adlandırırdılar, "yadxalq", altaylı, teleut və s. deyirdilər.Ancaq ali məktəbdə oxuyanda türkoloqların elmi səyləri nəticəsində mən bildim ki, türkəm. Bizi hörmətli alimlər Rodlov, Verbitski və Xuzlin belə titullaşdırmışlar. Habelə prof. Rudenko öz məruzəsində bizim millətimizi belə müəyyənləşdirir: "türkləşmiş monqollar". Belə milli müəyyənləşməyə qarşı mən etiraz edirəm. Belə ki, mən o millətin üzvü olmaq istəyirəm ki, bu qurultay həsr olunmuşdur. Bizim rus millitarizmi qar-

şısında geri çəkildiyimizi yaxın keçmiş təsdiq edir. Bizim qəbiləmiz İranın ətrafında yaşayırdı və rus millitarizmi tərəfindən sıxışdırılan biz, çay boyunca geri çəkilib Cənuba doğru getdik. Sibirin cənubuna doğru getməklə biz Yakutstanı taleyin hökmünə buraxdıq... Qırğızlar deyir: biz satqınıq, onlar deyir ki, vaxtı ilə vahid bir xalq olan oyratlar öz yurdlarını ruslara verib oranı tərk etdilər.

Sabaşkin çıxışında daha bir neçə məsələyə toxundu. Məruzəçi Leninqraddan gəlmiş Sergey İvanoviç Rudenko, Özbəkistan Akademiya mərkəzinin sədr müavini Qazi Alim Yunusovun da müəyyən mənada Sabaşkini müdafiə etdiyini görüb əlavə söz istədi. O dedi: "İcazə verin mən şəxsən mənə qarşı yönəldilən bir neçə suala cavab verim. Burada qısa nitqlə çıxış edən Sabaşkin yoldaş məsələni belə qoyur ki, doğrudanmı Oyratlar türkləşmiş monqollardır. Öz sualını və öz fikrini o, bu tribunadan bəyan etdi. Mən çox təəssüflənirəm ki, yoldaş Sobaşkin məni düzgün başa düşməmişdir. Mən öz məruzəmdə qeyd etmişəm ki, oyratlar yox, teleutlar, altaylar, telentlər türkləşmiş monqollardır. Onlar nəinki türk adətlərində qalmışlar. Məsələ burasındadır ki, türk xalqlarının necə paltar geyməsi mənə məlum deyil".

Burada  çıxış edən bütün türk alimləri ümumtürk birliyindən azad surətdə, həvəslə danışırdılar. Yakutstan nümayəndəsi İ.N.Baraxov Moskvaya qayıtdıqdan sonra Yakutstanda çıxan "Хозяйство Якутии» adlı dərgidə qurultayın yekunları haqqında 13 səhi-

fəlik böyük bir məqalə yazmışdır. İ.Baraxov: "M.Köprülüzadənin bütün türklər üçün vahid ədəbi dil yaratmağın mümkünlüyü haqqındakı məruzəsi çox maraqlı fikir mübadiləsinə səbəb oldu (4.Барахов. И.Н."Хозяйство Якутии".1926,№5, стр.37–50). Qurultayı keçirən təşkilat komissiyası tərəfdən Leninqraddan göndərilən professor Aleksandr Nikolaeviç Samoyloviç görün hansə şərtlə M.F.Köprülüzadə ilə razılaşır. O, demişdi: O şey ki, biz ümumtürk adlandırmağı şərtləşmişik bir neçə dialektdən (dildən – A.B) ibarətdir... Əgər başqa türk dillərindən güclü surətdə seçilən-ayrılan çuvaş və yaqut dillərini saymasaq, onda əvvəlkilər (başqa türk dilləri-A.B) xüsusi dillər deyil, yalnız dialekt və şivələrdir ki, slavyan və german qrupuna daxil olan dillərdən daha yaxın qohumluq münasibətləridir" (5.Барахов.И.Н."Хозяйство Якутии".1926, №5, стр.47).

Qurultayda ehtirasların coşduğu anlar da olmuşdur. Tatarıstan nümayəndələri latın qrafikası əleyhinə çıxıb ərəb əlifbasını saxlamaq, Qazaxıstan nümayəndəsi Tınıstanov özü tərtib etdiyi əlifbanı (uğursuz əlifba idi-A.B) qəbul etdirmək istəyirdisə, bəziləri məs.prof.Yakovlev və Jirkov rus qrafikasını təklif etməkdə ehtiyat edirdilər.

Hər şeydən əvvəl, indiyədək tarixçilərimizin və başqa elm nümayəndələrinin birtərəfli şərh etdikləri bir məsələni izah etmək istərdik. Qurultayda ərəb əlifbasının qızğın tərəfdarı kimi şıxış edən Q.Şərəfov

S.Ağamalıoğlunun, Jirkovun və Yakovlevin mövqelərini kəskin tənqid etmişdir. O, deyirdi: "Mən öz üzərimə məsələnin bir qədər siyasi cəhətini şərh etmək məsuliyyətini götürürəm... Əgər kəndlilərin bir hissəsinin və ya hamısının münasibəti (yeni əlifbaya – A.B) mənfidirsə, onda yeni əlifba qəbulunun xeyiri nədir? Nə qədər ki, müstəmləkəçilik məsələsi, elə həmin kəndli məsələsidir, onda bütün məsələlər (o dörd cəhəti qeyd etmişdir – A.B.) burada birləşir. Böyük Lenin burada da öz böyüklüyünü göstərib S.Ağamalıoğlu ilə söhbətində ona belə bir sual vermişdi: "Bəs kəndlilərin işə münasibəti necədir?" A.Ağamoğlunun "Bu işə kəndlinin xeyirxah münasibəti" haqqındakı cavabında Lenin demişdi: "Bu Şərqdə inqilabdır". Bu msəsləyə Leninin münasibəti və siyasi təhlili son ifadədə deyil, "Bəs kəndlilərin bu məsələyə münasibəti necedir" sualındadır. İcazə verin soruşum: Leninə "Kəndlilərin bu işə münasibəti yaxşıdır" deyən S.Ağamalıoğlu özü məsələni çaşdırmamışdırmı?" (6.bax: Türkoloji Qurultayın stenq. məlumatı. s.29) Bu qurultayın IX iclasında yeni əlifba məsələsi üzrə Q.Şərifin məruzəsində deyilmişdi. Martın 4-də qurultayın XIII iclasında məruzə ətrafında müzakirələrdə Q.Şərif Jirkovun və Yakovlevin ona qarşı tənqidi mövqelərini bütün türk xalqlarına qarşı qiymətləndirərək həyəcanla dedi: İcazə verin, prof.Jirkovun səmimiliyinə bir qədər şübhə edim. Burada prof.Jirkovun və Yakovlevin, başqalarının bu məsələdə iç üzü açılır. Həmin

iclasda Q.Şərəfə cavab olaraq prof.Yakovlev çıxış etdi: "O (Q.Şərəf – A.B.)məruzəçilərin şəxsiyyətini elə qiymətləndirdi ki, güya nə pis məruzəçilər imiş. O dedi ki, prof.Yakovlevin və prof.Jirkovun arxasında nə isə gizli bir ruslaşdırma meyli gizlənir" (s.317)

Qurultayda türk probleminin belə açıq şəkildə qoyulması o vaxt hamını sevindirdi. Yenə bir-iki misala müraciət edək. Martın 26-da Bakıya Türkiyədən 2 nəfər gəlmişdi. M.F.Köprülüzadə və Ə.Hüseynzadədən müsahibə alanda Mehmet bəy demişdi: "Türkiyədə Əlifba məsələsi hətta 13 ildən bəri bir müzakirə və münaqişə obyekti olduğu kimi, gələcəkdə də xüsusi bir komissyon təşkil ediləcək (7.Bax: Kommunist qəzeti (ərəb əlifbası ilə), 24.03.1926. №47). Deməli Türkiyədə hələ qəti bir addım atıla bilməmişdir. Bu qurultay isə məsələni köklü surətdə həll etdi. Məlumdur ki, qurultay keçirildiyi günlərdə böyük özbək şairi Əlişir Nəvainin 500 illik yubileyi qeyd edilirdi. Martın 4-də böyük türk alimi Bəkir Çobanzadə və Mehmet Köprülüzadə Ə.Nəvai haqqında "Kommunist" qəzetində məqalə ilə çıxış etmişdir. Bəkir bəy yazırdı: "Türk dilinin dörd böyük müdafiəçisi olmuşdur ki, bunlardan birincisi "Divani- Lüğət-it Türk"ün sahibi Mahmut Kaşğaridir, ikincisi "Qəribnamə" sahibi Şeyx Aşıq Paşa, üçüncüsü Nəvai, dördüncüsü "Misir əl-Ulum" namındakı sərf sahibi berqamalı Kadrindir. Bunlardan bir Əlişir Nəvai Mənsərinin Orta Asiyada ilk-son parlaq dövrü-

nün yetişdirmələrindən, alim-filosof şairlərindən biridir".

Mehmet Fuad bəy isə bir ədəbiyyatşunas kimi hərəkət edərək yazırdı: "Birinci türkoloji qurultayın Nəvainin 500 illiyinə rast gəlməsi məsud bir təsadüf olduğu kimi, bu münasibətlə haqqında etiraflar tərtib edilməsi də türk xalqlarının öz əski mədəniyyət xadimlərinə qarşı nasıl hərəkət göstərdigini parlaq bir surətdə meydana qoymaqdadır." (8.M.F.Köprülüzadə. Əlişir Nəvai (həmin qəzetdə). Qurultayın stenoqrafik hesabatından da məlum olur ki, bütün nümayəndələr Nəvainin 500 illik yubileyi münasibətilə təntənəli gecəyə gedirlər.

Göründüyü kimi, qurultayda türkçülük sərbəst şəkildə cərəyan edirdi. Əlbəttə, bu cərəyan heç də müxtəlif əlaqədar təşkilatların nəzərindən yayınmırdı. Bu sərbəstlik qurultayın 9 problem ətrafında bəyanat qəbul etdirməsində özünü göstərirdi. Burada qəbul edilmiş bəyanatlardan deyil, yalnız 7-ci bəyanat haqqında qısaca danışmaq istərdik. Çünki bu bəyanat qurultaydan sonrakı işlərə çox təsir etmişdir. Təşkilat komissiyası haqqında bəyanat:

1.Yerlərdə türkoloji mərkəzlər yaratmaq;

2. Bu komitələrin vəzifəsi aşağıdakılardan ibarətdir:

a) Türkologiyaya aid bütün materialların toplanması, artıq çap olunmuşların uçota alınması;

b) Bütün yerli əlyazmaların toplanıb uçota alınması

3.Bütün yerli türkologiya komitələri öz aralarında daima əlaqə saxlamalı. Material və iş mübadiləsi.

4.Türk elmi işçilərinin ekspediyalarda fəal iştirak etməsinə tədbirlər görmək

5...Bu protokolların (qurultay iclaslarının- A.B) çap edilməsi üçün Azərbaycan tətəbbö cəmiyyətində üç nəfərdən, prof.B.Çobanzadə, yoldaş Zifeld və yoldaş Cəbiyevdən ibarət komissiya yaradılsın;

6.Arzu olunardı ki, ikinci qurultay iki ildən sonra Səmərqənddə çağırılsın (səh.405).

Bununla da pantürküzizm bir termin-ideya kimi türkçülüyün düşmənlərinin leksikonuna keçdi. Demək olar ki, həmin qurultayda iştirak edən bircə nəfər türk öz yaxasını "pantürkizm" damğasından qurtara bilmədi. Hətta türkoloq olmayan İ.Baraxov, R.Axundov, H.Cəbiyev və onlarla başqaları məhz bu qurultayda "qara siyahıya" düşdülər. Soruşula bilər, DTK əmək-

daşları fəal türkoloqların koordinatlarını haradan bilirdilər? Əlbəttə türkoloji qurultayın materiallarından! Müqayisə edin. Qurultayın qəbul etdiyi 7-ci bəyanatın birinci maddəsi: Yerlərdə türkoloji mərkəzlər yaratmaq (s.405). 1937-ci il 3-5-də müstəntiq Şer məhbus B.Çobanzadədən soruşur: "Siz Azərbaycanda, Özbəkistanda və başqa respublikalarda pantürkist işlər aparmaq üçün mərkəzlər yaratmışdınızmı?

**Cavab:** Yox.

**Sual:** Siz hədər danışırsınız. Bəs nə üçün bu işi başlamışdınız? Respublikalara gedirsiniz? (9.Bax: A.Babayev.Bəkir Çobanzadə. Bakı, 1998, səh 42).

Beləliklə, şübhə etməmək olar ki, I Türkoloji qurultayın keçirilməsinə icazə verməklə "yuxarı təşkilatlar" başqa bir məqsəd izləyirmişlər. Bu da əsil türk oğlu türklərlə yanaşı, türkizmə meyl edənlərin müəyyənləşdirilməsi imiş.

Azərbaycan dilçiliyinin tarixini yaratmaq işində çox iş görülməsinə baxmayaraq, mükəmməl dilçilik tariximizin yarandığını söyləmək olmaz. Doğrudur biz Azərbaycan dilçiliyimizin tarixində bir çox mətləbləri əhatə etməyə çalışmışıq, amma 100 illik bir elmin tarixini yazmaq üçün bir-iki kitab və ya dissertasiya kifayət etməz. Dilçiliyimizin tarixindəki bütün böyük əsərləri, tarixi faktorları dərindən təhlil etmək üçün çoxlu monoqrafik araşdırmalar aparılmalıdır. Biz bu

sahədə bəzi işləri indidən görməklə gələcək tədqiqatçıların işini asanlaşdırmaq niyyətilə repressiya qurbanı olan dilçilərimiz haqqında qısa-təsviri məlumat verməklə gələcək tədqiqat işinə yardım edə biləcəyimizə inanırıq. Bir çox dilçilərimiz haqqında, onların elmi-ictimai fəaliyyəti haqqında elmimizdə ya məlumat yoxdur, ya da ki, yanlış məlumatlar vardır. Çünki belə alimlər haqqında yazmaq çox böyük vətandaşlıq cəsarəti tələb edir. Bu səbəbdən də A.Qurbanov və B.İbrahimovun böyük xeyirxahlıqla 1970-ci ildə tərtib etdikləri Azərbaycan dilçiləri adlı kitabda represiya qurbanı olan bədbəxt alimlərimiz haqqında heç bir məlumat verməmişlər. 1966-cı ildə Azərbaycan KP MK-nın şöbə müdiri filoloq olmasına baxmayaraq B.Çobanzadə haqqında məqaləni gənclər qəzetində buraxmağa icazə vermədi. 1960-cı ildə EA Dilçilik İnsitutunun rəhbəri "Ruslar Polivanova əsər həsr etməmişlər, biz niyə B.Çobanzadə haqqında dissertasiya yazıb müdafiə etməliyik" – sözlərini şəxsən bizə demişdir. Yenə hər halda cəsarət öz işini görür. Mən inandım ki, elə sözlərdən sonra mənim keçən illər çəkdiyim zəhmət heçə gedəcək. Ona görə də 1969-cu ilin aprelində Moskvaya gedib. SSRİ EA Dilçilik insitutunda böyük uğurla seminardan keçdim. Görkəmli türkoloqların hamısı bu işi alqışladı. Tanınmış türkoloq F.D.Aşnin mənə oppenent olmağa razılıq verdi. Atalar demişkən, gəzən ayağa daş dəyər. Amma bu daşdan gərək qorxmayasan, yol gedəsən. 1969-cu ildə iyunun 18-də xeyirxah Azərbaycan alimlərinin

(Dəmirçizadə, Y.Seyidov, M.Hüseynzadə, A.Qurbanov və onlarla başqalarının)köməyilə və rus türkoloqu F.D.Aşinin şəxsi iştirakı ilə B.Çobanzadə haqqında dissertasiya işi müdafiə edildi. Sonrakı illərdə başqa dilçilərimizlə yanaşı, A.Tahirzadə 1988-ci ildə Xalid Səid Xocayev (10.Тагирзаде А.,Х.С. Ходжаев. «Советская тюркология», 1988, № 3, с.96–97), yenə A.Ş.Tahirzadə və Ə.H.Quliyev 1989-cu ildə A.Şərifov (11. Тагирзаде А.Ш., А.Гулиев., А.Шарифов. «Советская тюркология», 1989, № 2, с.86–87), yenə onlar prof. Qulam Bağırov, yenə həmin müəlliflər prof.Artur Rudolfoviç Zifeld (12.А.Р.Зифелд-Слумяги. «Советская тюркология», 1988, №6, с.81–82) haqqında dəyərli elmi məqalələr nəşr etmişlər. Həmin müəlliflər Xalid Səid Xocayevin “Divani-lüğət-it-türk” məqaləsini və A.R.Zifeld-Slumaqinin “K voprosu o azıke Xazar” adlı məqalələrini müvafiq oçerklərdən sonra vermişlər. Amma bu müəlliflər obyektiv səbəb üzündən bu repressiya qurbanlarının “DTK zindanlarındakı həyat”ından bəhs etməmişlər.

Azərbaycan dilçiliyinin inkişafında çox böyük xidmətləri olan belə alimləri elmi ictimaiyyətə tanıtmaq indiki nəslin vətəndaşlıq borcudur. Doğrudur, 1966-cı ildən biz belə alimlərdən biri Bəkir Çobanzadə haqqında bəzi arxivlərdən, xüsusi fondlardan material toplamağa başladıqsa da, bu repressiya qurbanlarının həyat və fəaliyyətini əks etdirməyə kifayət etməzdi. Çünki, o vaxt DTK arxivinə girməkmi olardı? Bu işdə ilk addımı vətəndaş cəsarətilə, əsl qəh-

rəman kimi tariximizə daxil olan akademik Ziya Musa oğlu Bünyadovun (Allah rəhmət eləsin) xüsusi xidməti olmuşdur. Akademik Ziya Bünyadov özünəməxsus bir cəsarətlə DTK arxivlərinə yol tapmış, bir çox başqa sənət sahibləri ilə yanaşı 23 alim haqqında da material toplamışdır ki, onlardan 7 nəfəri bizi maraqlandıran dilçi alimləri idi. Biz Ziya Bünyadovun bu işini ona görə qəhrəmanlıq adlandırırıq ki, hələ o vaxtlar DTK-KQB olaraq qalırdı, ona yaxınlaşmaq, onun haqqında yazmaq demək olar ki, çox çətin idi. Amma indi, Allaha şükür, müstəqil Azərbaycanın bütün sturukturları kimi MTX-də xalqımızın, vətənimizin mənafeyinə xidmət edir. Ona görə də Milli Təhlükəsizlik naziri N.R.Abbasovadan (biz araşdırmanı 1996-cı ildə aparmışıq ona görə də işçilərin adları o illərə aiddir) və onun köməkçisi Bağır müəllimdən tutmuş, MTN arxiv idarəsinin rəhbəri Xaqani müəllimə, muzeyin müdiri Camal müəllimə, arxivin işçiləri Minəxanıma, Tahirə xaıma, MTN-nin əməkdaşı Araz müəllimə bu işdə mənə xeyirxahlıqla və məmnuniyyətlə kömək etmiş bütün işçilərə öz minnətdarlığımı bildirirəm.

Yuxarıda qeyd etdiyim kimi akademik Ziya Bünyadovun “Qırmızı terror” (1993) kitabında 6 nəfər repressiya qurbanı dilçi-alim haqqında məlumat var:

1.Bəkir Vahab oğlu Çobanzadə

2.Abdulla Məmməd oğlu Tağızadə

3.Qulam Kərim oğlu Bağırov

4.Xalid Səid Xocayev

5.Abdulla Məhəmməd oğlu Şərifov

6.İdris Məşədizaman oğlu Həsənov

Bizim bu kitabda həmin alimlər haqqında A.Tahirzadə, Ə.Quliyev və Z.M.Bünyadovun verdiyi məlumatlar təkrar olunmur. Birinci Tahirzadə və Ə.Quliyev. Alimlərin yalnız elmi yaradıcılığına və həyatına toxunaraq "Məhbusluq" dövrlərindən danışmırlar. Z.M.Bünyadov isə onların cinayət işi ilə bağlı DTK həyatından bəhs edir.

Biz bu kitabda həmin alimlərin həm elmi, həm də DTK dövrü həyatından bəhs etmişik. Bununla da,

a) Azərbaycan Sovet Ensiklopediyasında olmayan Abdulla Şərifov, Abdulla Tağızadə, Xalid Səid Xocayev, Qulam Bağırov haqqında geniş məlumat veririk;

b)ASE-da gedən tarixi təhrifləri düzəltməyə çalışırıq. Məsələn: ASE-nin X cildinin 113-cü səhifəsində Xuluflu Vəli Məmmədhüseyn oğlunun ölüm tarixi 1939-cu il göstərilir.

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının sədr müavini ədliyyə podpolkovniki V.Borisoblevski Azərbaycan SSR DİN baş milis idarəsi rəisinə, SSRİ DİN I xüsusi şöbəsinin rəisinə, Baş Hərbi prokuroruna 17.10.56-cı ildə 15055/56 № təliqə ilə yazırdı: "Xuluflu Fatma Əli qızına, onun əri Xuluflu Vəli Məmmədhüseyn oğlunun ölüm şəhadətnaməsi haqqında müvafiq VVAQ-a göstəriş verilsin ki, əri 12.10.37-ci il tarixində SSRİ Ali Məhkəməsi hərbi kollegiyası tərəfindən məhkum edilmiş və 19.10.41-ci ildə (görəsən bu tarixi haradan uydurmuşlar?-A.B.) cəzasını çəkərkən ölmüşdür". Bəs, əslində necədir? Vəli Xuluflunun cinayət işinin 314-cü səhifəsində SSRİ XDİN 12 şöbəsinin I xüsusi Bölməsinin rəisi DT leytenantı Şevolovun imzaladığı arayışda Xuluflu Vəlinin güllələnməsi haqqında hökmün 13.10.37-ci ildə yerinə yetirilməsi qeyd edilir. Əlbəttə bu üç tarixdən yalnız 1937-ci il daha dəqiqdir.

Bu əsərdə biz repressiya qurbanı olan filoloqlar Abdulla Kazımov haqqında ilk dəfə məlumat vermişik. Ələkbər Babazadə və Davud Quliyev kimi dilçilər haqqında isə sözügedən arxivdə material yoxdur.

Bundan əlavə, biz, alimlərin cinayət işlərindəki məlumatlarının olduğunu nəzərə alıb, onların geniş tərcümeyi-halını verməmişik. Cəsarət tələb etsə də, bir məsələni bu cür qeyd etmək lazımdır və olar. Biz həmişə repressiya qurbanı olmuş alimlərin heç bir günahı olmadan güllələndiklərini deyib, onları yazıq vəziyyətdə təsvir edib göz yaşı tökmüşük. Doğurdan

da, 100 faiz əmin olmaq olar ki, repressiya qurbanı olanların heç birinin işində cinayət tərkibi, sübut, dəlil yoxdur. Biz bircə nəfər repressiya qurbanının cinayət işində ya bir əşyayi-dəlil, ya da bir məktub və ya hər hansı elə bir şeyə rast gəlmədik ki, onların "cinayətini" sübut etsin. Təkcə işgəncə və zor işlətmə nəticəsində müttəhimin "boynuma alıram", "Filankəsin dediyi doğrudur" kimi "Sübutlardan" başqa heç nə yoxdur. Amma bizə belə gəlir ki, cəllad müstəntiqlərin – Siz türk dünyası haqqında düşünürdünüzmü? Siz Azərbaycanı SSRİ-dən kənarda təsəvvür edirdinizmi? Siz millətçisinizmi? –suallarına müttəhimlərin qorxudan "yox" – deyə verdikləri cavablara bu günün mövqeyindən, o dövrü nəzərə alaraq yanaşmalıyıq. Əslində, repressiya qurbanlarının hamısı öz xalqının, vətəninin oğlu kimi, dövlətimizi, xalqımızı, dilimizi müstəqil görmək istəyirdilər. Buna istənilən qədər sübut vardır. Bəkir Çobanzadənin və başqalarının həbs olunana qədər millət, türk dünyası haqqında yazdıqları az idimi?

Bundan əlavə, daha bir faktla oxucuların diqqətini bir məsələyə cəlb etmək istərdik. Alimləri bir-birilə üzləşdirir, onları bir-birinin üzünə dirənməyi təşkil edirdilər. Belə bir üzləşdirmə 1937-ci iyunun 11-də B.Çobanzadə ilə Vəli Xuluflu arasında olmuşdu. Müstəntiqlər tələb edir ki, onlar bir-birini siyasi cəhətdən ifşa etsinlər. Hər şeydən əli üzülmüş müttəhimlər nə deyəcəklərini, öz həmkarını necə ləkələyəcəyini belə bilmirdi. Burda B.Çobanzadənin

bir məhkəmə sorğusunu qeyd etmək yerinə düşərdi: **Sual** (müstəntiq): – Siz Vəli Xuluflunun əksinqilabi söhbətləri haqqında nə kimi konkret faktlar göstərə bilərsiniz?

**Cavab:** (B.Çobanzadə) (-1934-cü ildə) bəlkə də 1933-cü ildə) Biz, mən Çobanzadə, Refatov, Əli Kazım, daha kim isə yadımda deyil Xuluflugilə toplaşmışdıq. Qəzətlərdə dövlət büdcəsi haqqında söhbət düşdü. Söhbət üçümüzün: mənim, Əli Kərimovun və Vəli Xuluflunun arasında gedirdi. Söhbət belə gətirdi ki, mən dedim: Azərbaycan məhkum vəziyyətdədir və ədalətsizliyə məruz qalır, çünki Gürcüstan və Ermənistan büdcədən daha çox pay alır, nəinki Azərbaycan və bu Azərbaycanın sərvəti hesabına edilir. Biz burada Əli Kərimovu da tənqid etdik. Bu söhbət bizim milli fəaliyyətimizin bir epizodu idi. Bu mənim pantürkist Vəli Xuluflunun isə millətçi olmağından xəbər verir. Çünki məni tənqid etmədi. Diqqət edin, Vəli Xuluflunu B.Çobanzadə onda ittiham edir ki, niyə mənim sözümü ya tənqid etməyib, ya da bir yerə xəbər verməyib. Burada çox şey aydın olur...

1.Deməli, o vaxt ziyalılar bir yerə toplaşırmışlar. Tutaq ki, V.Xuluflu ilə B.Çobanzadə iş yoldaşı idi. Bəs Azərbaycan dram teatrının direktoru Əli Kərimov? Deməli, ziyalıları birləşdirən ümumi bir dərd var imiş.

2.Müttəhimlər bir-birlərini necə sevirmiş ki, özünü ittiham edərək, yoldaşına tənqidi material verir. Demək istəyirik ki, həmkar müttəhimlər əlacsız qalıb hətta özlərini qurban verməklə yoldaşlarını xilas etmək istəyirdilər.

3. Tutaq ki, hər ikisi yuxarıda deyilən büdcə məsələsində həmfikir olmayıblar. Bu adamı güllələmək üçün əsas idimi? Amma məlun Avanesyan bilmirdi ki, cismən məhv etdiyi iki nəfərin ürəyindəki ürəyindədir. Onları məhv etmək olar. Amma qəlblərindəki nifrət tufanını söndürmək olmaz. Vətənlərinə, xalqlarına, əqidələrinə olan sonsuz məhəbbətlərini təhqir etmək olmaz.

Hörmətli oxucular, diqqətinizi bir neçə məsələyə cəlb etmək istərdik. Kitabda müstəntiqlərin verdiyi suallara cavab olaraq çox vaxt görəcəksiniz ki, müttəhim deyir: Bəli, filankəslər də, millətçidirlər, əksinqilabçıdırlar, sovet hökumətinin düşmənidirlər. Və ya müstəntiqlər bildikləri elə üsuldun istifadə edirlər ki, yenə müttəhimlər bayaqkı sözləri deyirdi. Yəni filankəs xalq düşmənidir. Bax burada düşünmək lazımdır. Hissiyyata qapılmaq olmaz. Deyək ki, filan müttəhim o vaxt deyib ki, bəli A.Tağızadə xalq düşmənidir, heç də filan müttəhim haqqında pis fikrə düşmək lazım deyildir. Əgər belə olsa, biz keçmiş, yaxın tariximizi öyrənə bilmərik. Çünki onda elə biz bir-

birimizlə ədavət apararıq. Bəs nə etməli? Məsələ burasındadır ki, əvvəlcə özümüzə sual verək. Həmin “adamsatan” müttəhimin yerində mən olsaydım, nə edərdim və ya nə edə bilərdim? İkincisi, bəzən müttəhim “satdığı” adamların üzünü belə görmədiyi halda hazır siyahıya qol çəkirdi. Niyə? Çünki o qədər işgəncə verilirdi ki, müttəhim nə etdiyini bilmirdi. Buna görə də xahiş edirəm, kitabdakı “dindirmələrdə” öz yaxınlarınızın və ya hörmət etdiyiniz adamların “satıldığını” görəndə bu və ya digər müttəhimə nifrət etməyəsiniz. Çünki “o vaxtlar Azərbaycan Respublikası müttəfiq respublika kimi Sovetlər İttifaqının tərkibində olduğu halda, təəssüflər olsun ki, bu orqanlarda, xüsusən, təhlükəsizlik orqanlarında işləyən adamların tam əksəriyyəti azərbaycanlı deyildi... QTUM, QPU, NKVD, MQB, MVD, KQB görürsünüz adları nə qədər dəyişibdir. Bu orqanlar və onlarda işləmiş insanlar çox mürəkkəb yol keçiblər. 1920–30–40-cı illərdə bu orqanlar Azərbaycan xalqına, onun mənəviyyatına, bütün həyatına çox böyük zərər gətirmişdir, zərbələr, yaralar vurmuşdur... Xüsusən 1937–38-ci illərin repressiyaları Azərbaycan xalqına, onun ziyalılarına, zəkalı adamlarına, onun intellektual potensialına çox böyük zərər vurmuşdur (13. MTN orqanları əməkdaşlarının peşə bayramı gününə həsr edilmiş təntənəli yığıncaqda H.Ə.Əliyevin çıxışından. “Xalq qəzeti”, 06.07.1997.,№ 146 (22542).)şüurlu surətdə edilir. Moskvadan planlı şəkildə şəkildə təşkil olunurdu.

Azərbaycan DTK orqanları “ağzına qədər” erməni və qeyri-millətlərlə dolu olduğu halda, Ermənistan DTK-da bircə nəfər azərbaycanlı yox idi. Niyə? Çünki Moskvadan bədnam mikoyanlar Azərbaycanda istədiyini edə bilirdi. Belə bir ənənə yaranmışdır ki, DTK orqanlarında azərbaycanlıya etibar edilə bilməz.

1921-ci ildən 1991-ci ilə qədər 70 ildə cəmi 4 nəfər azərbaycanlı üst-üstə 11 il DTK sədri olmuşdur. 2 dəfə DTK-ya rəhbər gələn M.C.Bağırov olmuşdur. Onda aydın olur ki, xalqımızın başına gələn müsibətlərin səbəbkarı kimlər olmuşdur. Azərbaycan xalqına divan tutan illərdə DTK rəhbərliyində kimlər olmuşdur. D.Sumbatov (Topuridze) –1934–38, S.F.Yemelyanov – 1939–53.

1953-cü ildən başlayaraq DTK-da sanki dönüş yaranmışdır. Stalinin vəfatından L.P.Beriyanın, Yejovun, Yemelyanovun və onların əlaltısı M.C.Bağırovun həbsindən sonra vəziyyət başqa bir istiqamətə yönəlmişdir. DTK-da azərbaycanlılara və bütövlükdə xalqımıza münasibət dəyişmişdir. Belə ki, 1967–69-cu illərdə DTK-da olan 300 zabitdən 169-u azərbaycanlı (51,3%), 80-i (26,6%) rus, 33-ü erməni, 18 nəfəri isə qeyri-millətlər olmuşdur.

Bu rəqəmlər o vaxtlar DTK-ya rəhbərlik edən şəxsin –H.Əliyevin həmin orqanı azərbaycanlaşdırma siyasətinin nəticəsi idi.

# XULUFLU VƏLİ MƏMMƏDHÜSEYN OĞLU






Azərbaycanin represiya qurbanı olmuş hərtərfli elmi təfəkkürə malik olan alimlərindən biri də Vəli Məmmədhüseyn oğlu Xulufludur. Vəli Xuluflunun bir anketində tarixçi yazılmasına baxmayaraq, O, dilçi, ədəbiyyatşunas və ictimai xadim kimi xalqımızın

mədəniyyət tarixinə daxildir. Cəmi 43 il ömür etmiş bu məhsuldar alim ictimai fəaliyyətindən əlavə, tarix, dilçlik və ədəbiyyatşunaslıq elmimizə 7 ildə (1925–32) 10 kitab  bəxş etmişdir. Onun 1925-ci ildə 1, 1927-ci ildə 1, 1928-ci ildə 2, 1929-cu ildə-3, 1930-cu ildə 2, 1932-ci ildə 1 kitabı nəşr edilmişdir.

Alimin əsərlərindən və həbsxana günlərindən bəhs etməzdən əvvəl onun şəxsiyyəti haqqında Azərbaycan Sovet Ensiklopediyasının verdiyi məlumata baxaq: "Xuluflu Vəli Məmməd Hüseyn oğlu (1894, indiki Şamxor rayonunun Xuluflu k. – 1939) – Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübariz, folkloru, tarixçi professor (1931), 1919-cu ildən Sov.İKP üzvü, 1917-ci ildə Gəncədə müəllimlər insitutunu bitirmişdir. Müəllimlik etmiş və sonralar inqilabi hərəkata qoşulmuşdur. 1920-ci ildə AK (b)-nin I qurultayının nümayəndəsi olmuş, AK(b)P-nin Gəncə qəza komitəsində işləmişdir. 1921-ci ildə partiya sıralarında təmizləmə işləri ilə əlaqədar olaraq Sov. İKP üzvlüyündən çıxarılmış, 1927-ci ildə yenidən qəbul edilmişdir. 1922–29-cu illərdə ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin təlimatçısı, "Bakinski raboçi" nəşriyyatının və "Azərnəşr"in redaktoru, 1929–1936-cı illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnsitutunun elmi katibi, Dil, Ədəbiyyat və İncəsənət bölməsinin direktoru, Azərbaycan SSR Mərkəzi Dövlət arxivinin müdiri, SSRİ EA Azərbaycan Tarix İnsitutunun direktor müavini və s. vəzifələrdə çalışmışdır. Azərbaycan SSR MİK-nin üzvü olmuşdur.

Azərbaycan Sovet Ensiklopediyasının bu məlumatında bəzi dəqiq olmayan faktlar vardır. Bu, hər şeydən əvvəl alimin ölüm ili və ictimai fəaliyyəti ilə əlaqədar olan məlumat-faktlara aiddir. Əvvələn, V.Xuluflu 1939-cu ildə vəfat etməmiş, 1937-ci ilin oktyabrın 13-də güllələnmişdir. Bu haqda cinayət işinin 314-cü səhifəsində onun güllələnməsi haqqında arayış vardır. Bundan başqa onun dil, ədəbiyyat və tarix insitutunun direktoru olması haqqında da irəliyə məlumat veriləcək. Vəli Xuluflu Azərbaycanda yeni əlifba ideyasının qızğın tərəfdarlarından və xadimlərindən biri olmuşdur. Alimin bədbəxtlik yoldaşı Xalid Səid Xocayevin yazdığına görə, Vəli Xuluflu yeni türk əlifbasına keçmək işinə lap əvvəldən əməli işi ilə yardım etmişdir: “Zatən Osmanlılar, qazaxlar və özbəklər arasında bu fikir (yeni əlifba ideyası – A.B.) yox deyildi. Ancaq onlar bu məsələni ortaya atmağa cəsarət etməyirdilər. Yeni əlifba vasitəsi ilə əldə edilən müvəffəqiyyət komitəyə (Azərbaycan Yeni Türk Əlifbası Komitəsi – A.B.) daha artıq cəsarət verdi. O, müvəffəqiyyətlərinin yekununu göstərməyə və qonşu türk cumhuriyyətlərinin fikrini almağa cəsarət verdi. Bunun üçün bir konfrans çağırmaq lazım idi. Komitə bundan əvvəl onlar ilə xüsusi surətdə görüşməyi daha müvafiq gördü. 1924-cü ilin sentyabr ayında bir heyəti səfəriyə təşkil edildi. Bunlar şuralar ittifaqında olan bütün türk cümhuriyyətlərinin mərkəzlərinə gedəcək səlahiyyətdar adamlar ilə görüşəcəklər. Heyət aşağıdakı dörd nəfərdən təşkil olunmuşdur:

1.Səmədağa Ağamalıoğlu – Yeni Türk Əlifbası Komitəsinin sədri.

2. Mirzə Cəlil Məmmədquluzadə – “Molla Nəsrəddin” jurnalının mühərriri.

3.Vəli Xuluflu – Yeni Əlifba Komitəsinin üzvlərindən.

4.Xalid Səid-Əmələ fakültəsi və Meliorasiya texnikumunun İnsan və ədəbiyyat müəllimi.

Vəli Xuluflu öz vəzifəsi və geniş erudisiyası ilə əlaqədar olaraq 20–30-cu illərdə Azərbaycanın elmi və mədəni həyatında çox böyük rol oynamışdır. Vəli Xuluflu Yeni Əlifba Komitəsinin üzvü kimi yeni latın qrafikalı yazı sistemi ilə xalqımızın daha sürətlə savadlanması işində çox fəal iştirak edirdi. Vəli Xuluflu rəsmi sənədlərdə tarixçi kimi tanıdılsa da, onun dilçiliyə və ədəbiyyatşünaslığa aid əsərləri heç də tarixə həsr edilmiş əsərlərindən az deyil. Vəli Xuluflu hələ yeni türk və latın əlifbası qəbul olunduqdan bir az əvvəl, 1925-ci ildə yazmış olduğu “Yeni türk əlifbası ilə yazı qaydaları” adlı kitabçasında savadlı bir dilçi alim kimi diqqəti cəlb edir. Məlum olduğu kimi, birinci ümumittifaq türkoloji qurultayında iştirak etmiş, məruzə etmiş və kiçik bir məlumatla çıxış etmiş türkoloqların hamısı qara siyahıya alınaraq məhv edilmişlər. Alim 1928-ci ildə

Mirzə Fətəli Axundovun vəfatının 50 illiyi münasibətilə "tapmacaları toplayıb nəşr etdirmişdir". Bəlkə də min ilə qədər bir dövrdə xalq arasında dolaşan tapmacalardan sətraltı məna tapan DTK əməkdaşları alimə qarşı bir vasitə kimi istifadə etmişdilər. Məsələn, cavabını, açmasını, uşaqların da əzbər bildiyi bir tapmaca: "Hamını bəzər özü lüt gəzər". Bu tapmacada sətiraltı məna tapan müstəntiq deyir: "Siz bununla düşmən dəyirmanına su tökürsünüz.Yəni Sovet adamları hamını geyindirir, özü lüt gəzir".

Burada izaha heç bir ehtiyac yoxdur. Əldə zərrəbin tutan bədxahlar alimi həyatdan götürmək istəyirlər. Bunun üçün onun elmi və ictimai fəaliyyətində sovet hökumətinə qarşı nöqsan axtarırdılar. Buna görə də hər vasitədən istifadə edən Gerasimovlar, Qalstyanlar alimi 12493 nömrəli "cinayətlə əlaqələndirirdilər". Alim bu cinayət işinin 80-ci iştirakçısı oldu. 1937-ci ilin yanvar ayının 27-də dördüncü şöbənin rəis müavini, dövlət təhlükəsizlik leytenantı Şer (bu adam həmin gün, həmin maddə ilə B.Çobanzadə haqqından arayış tərtib etmişdir). Həmin şöbənin rəisi mayor Gerasimovun təsdiqi ilə belə bir arayış tərtib edir: Xuluflu Vəli Məmmədsoyun oğlu (Məmmədhüseyn əvəzinə – A.B.) SSRİ vətəndaşı türk ÜİK(b) üzvü, SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Tarix, Dil və Ədəbiyyat İnsitutunun direktor müavini. Müttəhim Stikalov, Tixamirovun verdiyi ifadələrə və başqa məlumatlara əsasən müəyyən edilir ki, Xuluflu Vəli əksinqilabçı, millətçi təşkilatın üzvüdür. Deyi-

lənlərə əsasən Vəli Xuluflunu həbs etməyi və Az.SSR-nin Cinayət Məcəlləsinin 72-73-cü maddələri üzrə cinayətə cəlb etməyi zəruri hesab edirik. Cinayət işinin üstündə isə ittiham maddələri aşağıdakı kimidir:

Maddələr: 73, 64, 69, 17-70. Şeirin bu qərarını 28.01.1937-ci ildə AXKS idarə rəisi 3-cü dərəcəli komissar Sümbatov təsdiq etmişdir. İşin üçüncü səhifəsində yenə həmin Sumbatovun təsdiqi ilə Vəli Xuluflunun həbs qərarı verilir. Həbs qərarını kim qəbul edir? Həmin idarənin üçüncü şöbəsinin rəisi dövlət təhlükəsizlik leytenantı Qalstyan! Qalstyan həbs qərarını belə əsaslandırır: “Əksinqilabçı millətçi təşkilatın üzvü olaraq əksinqilabı təxribat və ziyankarlıq işləri aparılmış terror mövqeində dayanmış və ümumittifaq kommunist bolşeviklər partiyasının Zaqafqaziya komitəsinin katibi L.P.Beryaya və Azərbaycan Kommunist Partiyasının katibi yoldaş Bağırova qarşı terror aktı haqqında məlumatlandırılmışdır.

**Qərara alıram:**Vətəndaş Xuluflu Vəli Məmmədsoyun oğlu Azərbaycan SSRİ CM-nin 73, 64, 69, 17, 70-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb edilsin.

Üçüncü şöbənin dördüncü bölməsinin rəisi leytenant Qalstyan. **Razıyam:** DTK-nin dördüncü bölməsinin rəisi dövlət təhlükəsizlik kapitanı Sinman.

DTİ-nin əməkdaşı Sosninə 28.01.1937-ci il tarixdə 68 nömrəli order verili ki, komenisti küçəsində 102 saylı evdə yaşayan Vəli Xuluflunun evi axtarılsın. Qəribədir, işdə olan sənəd isə sübut edir ki, Vəli xuluflunun evi order veriləndən bir gün əvvəl, yəni 27.01.1937-ci il tarixdə axtarılır. Axtarış zamanı tapılıb:

Buxarinin kitabları və şəkli (?), habelə Kamenevin, Trotskinin və Zinovyevin kitabları aşkar edilib (?) götürülmüşdür. Yəni Buxarinin 16, Trotskinin 3, Komenevin 1 kitabı götürülmüşdür. Bundan əlavə 1429085 nömrəli partbilet, 191303 nömrəli, hərbi bilet, 59 ədəd müxtəlif kitab, 30 şəkil və məktub götürülmüşdür.

Axtarışda MİS (JEK nümayəndəsi) Səlimov Heybət iştirak etmişdir.

Məhbusun anketi:

Xuluflu Vəli Məhəmmədhüseyn oğlu
Anadan olmuşdur 1894-cü ildə
Şamxor rayonunun Xuluf kəndində yaşayır:

Bakı komenitski küçəsi 102, mənzil 9.

İxtisas – müəllim, vəzifəsi Az.filialının Tarix, Dil və Ədəbiyyat İnsitutunun direktor müavini

İctimai mənşəyi-kəndli

İctimai vəziyyəti-qulluqçu

İnqilaba qədər taxıl əkməklə məşğul olmuşdur.

Təhsili ali Partiyalılığı – 1927-ci ildən ÜİK (b) P-nın üzvü

Milliyyəti – türk

Hərbi vəzifəli

Həbs edilməyib

Ailə vəziyyəti – arvadı Fatma 34 yaşında

Oğlu Çankun (Çingiz) –13 yaşında

Qızı Sunquz – 15 yaşında

Qaynanası – Fatma (əhsən müstəntiqin savadına ana ilə qız eyni adda imiş – A.B.)-56 yaşında

Həbs edilib 28.01.37-ci il

Saxlanılır XDİK-nin həbs evində

DT serjantı Ohanesov partbileti qəbul edir. AK(b) P.Voroşilov rayon komitəsinin katibi Y.Okin-

şeviç raykomun 16 aprel 1937-ci il tarixli büro iclasında V.Xuluflunu Trotskiçi, partiyanın və xalqın düşməni kimi partiya sıralarından xaric edir. Alimi həbsxanada çox "intizarda" saxlamırlar.

XDİK DTİ 5-ci şöbəsinin rəisi DT kapitanı Avanesyan səhərisi gün, yəni 29 yanvar 1937-ci ildə alimi dindirməyə başlayır.

Dindirmə protokolundan:

**Sual:** Siz millətçilik ruhundan olan daha kimləri tanıyırsınız?

**Cavab:** Tağı Şahbazini, Məmməd Səid Ordubadini (o mənə partiya zəmanəti verib), Əfəndiyev Süleymanı, Əli Kərimovu, Talıblı Böyükağanı, Mustafa Quliyevi, Həbib Cəbiyevi, Ruhulla Axundovu.

**Cavabın davamı:** Mənə şəxsən məlumdur ki, Böyükağa Talıblı yeni latın əlifbasının fəal düşməni olmuşdur. Mənimlə şəxsi söhbətində latın əlifbası haqqında mənfi fikir söyləyib. Mənə deyib ki, latın əlifbasının qəbulu köhnə mədəniyyətin, köhnə irsin məhvi deməkdir (s.6).

Sual:Kitablarınızda müəmmalı fikirlər ifadə etməklə əksinqilabi, antisovet görüşləri təbliğ etmisiniz. Bunu boynunuza alırsınızmı?

**Cavab:** “Xeyir, bu mənim səhvimdir.”

**Sual:** Siz ÜİK (b) P üzvü olanda Sizin səhviniz olubmu?

**Cavab:** 1924 və ya 1928-ci ildə (yazığı gör nə günə salıblar ki, kitabının nəşr ilini də unudub – A.B.) “Tapmacalar” (“Zaqadki”) nəşr etmişəm. Burada çoxlu tapmacalar vardır.

**Sual:** Məsələn, hamını bəzəyir, oğlu isə çılpaqdır. – Hamını bəzər özü lüt gəzər. Bununla Siz düşmən dəyirmanına su tökürsünüz (yəni sovet xalqı dünyanı yedizdirir, özü isə acdır).

**Cavab:** Mən səhv etmişəm.

**Sual:** Siz Müsavat tapmacasını (?! – A.B.) bura salmısınız.

**Cavab:** Təkrar edirəm, mən səhv olaraq bu tapmacaları bura salmışam. Folklor materialını təhrif etməmək üçün onu elmi dairələrdə qəbul olunduğu kimi vermişəm.

Erməni müstəntiqlər türkü dindirməyə həvəslə girişir. Çünki onlara verdikləri işgəncələrdən zövq alırdılar. İki gün sonra, yəni yanvarın 31-də Avanesyan öz katibi Ohanesovla birlikdə türk alimini ələ salıb ondan intiqam alırlar. Həmin günkü dindirmə protokolunda Qraberin V.Xulufluya Trotskinin kitabını verməsi ilə əlaqədar söhbət gedir. Məhbus deyir: “Təkrar edirəm, yenə əvvəlki fikrimdə qalıram. Mənə Qraberin nə üçün Trotskinin kitabını verməsi məlum deyil, çünki mənə Qraberin əksinqilabçı olması məlum deyil”.

Bu dindirmədə də məhbusun boynuna bir şey qoyub qol çəkdirə bilmirlər. Ertəsi gün, yəni fevralın 1-də Ovanesyanla Ohanesov məsləkdaşları, alimə daha ciddi hücumlar edir, ondan daha çox söz qoparmağa çalışırlar.

**Sual:** Siz professor Bəkir Çobanzadəni tanıyırsınızmı?

**Cavab:** Bəli, onunla yalnız rəsmi surətdə tanışam.

**Sual:** İstintaqa məlumdur ki, Siz Çobanzadə ilə dostsunuz. Etiraf edirsinizmi?

**Cavab:** Bəli, təsdiq edirəm ki, Çobanzadə ilə 1927-ci ildən dostluq münasibətindəyik.

Görünür, birinci sualla ikinci sual arasında müstəntiqlər müttəhimi çox ciddi hədələmək, qorxutmaq, döymək yolu ilə öz istədikləri istiqamətə sala biliblər. Yoxsa birinci sualda B.Çobanzadə ilə yalnız rəsmi münasibətdə olduğunu dedikdən sonra ikinci sualda 1927-ci ildən dost olduğunu deməzdi. Bundan əlavə, müstəntiqlər o qədər malbaş ola bilməzdilər ki, birinci suala inkar cavabı alan kimi ikinci sualı yenə həmin xarakterdə, həmin mövzuda versinlər. Mütləq müttəhimi incitdikdən və qorxutduqdan sonra onun boynuna belə bir şeyi qoya bilərdilər ki, bəli B.Çobanzadə ilə 1927-ci ildən dostuq.

Suallar yenə davam edir. Görünür, müstəntiqlər özləri də başa düşüblər ki, birinci sualla ikinci sualın eyni olmasına baxmayaraq, müxtəlif xarakterli cavablar sonradan şübhə oyada bilər. Ona görə də özlərini sığortalamaq üçün suallar verirlər.

**Sual:** Niyə birinci suala cavab verdiniz ki, B.Çobanzadə ilə rəsmi tanışsınız.

**Cavab:** Mən Sizi dərhal başa düşə bilmədim (?! – A.B.) Ona görə də səhv etmişəm.

**Sual:** İstintaq belə hesab edir ki, siz Çobanzadə ilə münasibətlərinizin xarakterini qəsdən gizlədirsiniz, elədirmi?

**Cavab:** Xeyir, mən əvvəlcə səhv etdim, dedim ki, mənim Çobanzadə ilə münasibətlərim rəsmidir (C.21.s.22).

Fevralın 3-də həmin 2 nəfər daşnak Vəli Xuluflunu artıq əqidə düşməni kimi, Müsavat partiyası üzvü kimi və ya tərəfdarı kimi istintaq edirlər.

Avanesyanın sualı: Axtarış zamanı Sizin evdən tapılan 1926-cı ildə İstanbulda nəşr edilən Müsavat lideri M.Ə.Rəsulzadə "Rusiyada siyasi vəziyyət" kitabçası tapılmışdır. Bu kitab sizin əlinizə hardan düşüb?

**Cavab:** Mənə elə gəlir ki, mən həmin kitabçanı Şaumyan adına institutdan almışam. Onun üstündə institutun peçatı olmalıdır.

**Sual:** Kitabı sənə göstərirəm; Burada heç bir peçat və ştamp yoxdur.

Müstəntiqin hədəsindən sonra müttəhim boynuna alır ki, kitabı Hənəfi Zeynallıdan almışdır. Bu da Hənəfi Zeynallının həbsi üçün arqument. Bura qədər keçirilən üç dindirmədə müstəntiqlər istədiklərinə nail ola bilməmiş, müttəhimin boynuna çoxlu şeylər qoya bilməmişlər. 22 günlük hazırlıqdan və axtarışdan sonra həmin müstəntiqlər – Avanesyan-Ohanesov cütlüyü 25 fevralda 3 gün arası kəsilmədən alimə aman-

sız hücumlar edir. Yəni 25 fevralda başlayan dindirmə protokolu 28-də bağlanır. Bu üç gün içərisində daşnaklar V.Xulufluya əksinqilabçı, müsavatçı, millətçi olduğunu sübut etməyə çalışırlar.

**Sual:** İstintaq müəyyən edib ki, Siz əksinqilabçı, millətçi təşkilatın üzvüsünüz. Boynunuza alırsınızmı?

**Cavab:** Mən bunu qəti çəkildə rədd edirəm.

**Sual:** Sizin müqavinətinizin xeyiri yoxdur. Dostunuz B.Çobanzadənin izahatını Sizə oxuyuram (oxuyur). O, burada Sizin adınızı çəkir.

**Cavab:** Mən həqiqəti deməyi qərara aldım. B.Çobanzadənin əksinqilabçı olduğu, həqiqətən, mənə bəlli idi. Mən onunla əks-inqilabi söhbətlər etmişəm... Professor Bəkir Çobanzadəni mən qatı millətçi, pantürkist kimi tanıyıram. Xüsusilə o belə bir fikir irəli sürürdü ki, indiki Orta Asiya Respublikaları ərazisində SSRİ tərkibindən çıxmaqla və ya oradan ayrılmaqla müstəqil dövlət qurmaq zərurdir.

Mart ayının 2-5 arasında üçgünlük dindirmə zamanı Avanesyanla Ohanesov cütlüyü alimin Ruhulla Axundov tərəfindən əksinqilabi işə cəlb edildiyini onun boynuna qoymaq istəyirlər.

Məlumdur ki, R.Axundov yeni latın əlifbasına keçməyin qızğın tərəfdarlarından biri idi. Hətta O, Birinci Türkoloji Qurultayın rəyasət heyətinə də seçilmişdir. Amma yeni əlifba məsələsində R.Axundov M.C.Bağırovla düz gəlməmişdi. Bağırovun mühafizəkarlığı haqqında R.Axundov partiyanın MK-sına yazdığı məktubda deyirdi: Fövqəladə komissiyaya (M.C.Bağırov bu komissiyanın rəhbəri idi) tövsiyə edilsin ki, başı çıxmayan yerə burnunu soxmasın. (Qaraş Mədətov, R.Axundov. 1957- Bakı, s. 19).

M.C.Bağırov isə bu məsələni tamamilə başqa istiqamətə yönəltmiş, partiyanın mərkəzi komitəsində rəhbərliyi ələ aldıqdan sonra R.Axundovun özünü yeni əlifba düşməni kimi ittiham etdirmişdi.

V.Xuluflunun 23 mart 1937-ci il tarixli dindirmə protokolunda daşnak cütlüyü məhz bunu alimin dilindən eşitmək istəyirdilər.

**Sual:** R.Axundovun yeni latın əlifbası əleyhinə mübarizəsində ona yaxın olan adamların adını deyin.

**Cavab:** R.Axundovun qrupuna H.Zeynallı, Trinic Əhməd, Əli Kərimov, Məmməd Səid Ordubadi daxil idilər.

Müstəntiqlər lazımi cavablar ala bilmədikləri üçün dindirməni dörd gündən sonra, yəni martın 27-

də davam etdirdilər. Yəni həmin adamlar, yenə həmin mövzu.

**Sual:** Keçmişdə R.Axundovun rəhbərlik etdiyi əksinqilabi qrup haqqında izahatınızı davam etdirin. H.Cəbiyev haqqında nə deyə bilərsiniz?

Alınan cavab müstəntiqləri tam qane etmir. 31 mart və 1 aprel dindirmələrində Avanesyanla Ohanesov dairəni genişləndirərək buraya İsmayıl Hikməti və Mühistdini də əksinqilabçılara qoşmağa çalışırlar. Aprelin 9-dakı dindirmədə Vahab Həsənzadə və Qənbər Sadıqov haqqında məlumat toplayırlar. V.Xuluflu Vahab Həsənzadəni yalnız müsbət cəhətdən xarakterizə edir.

Qənbər Sadıqov haqqında isə Avanesyanın sualına belə cavab verir:

-Şaumyan adına institutda işləyəndə o, tez-tez iş şəraitindən narazılıq edərdi. Bundan əlavə, mən onunla olan söhbətlərimdə V.İ.Leninin əsərlərinin tərcüməsində terminologiya problemlərində millətçilik meylləri müşahidə edirdim. Qənbər Sadıqov B.Talıblı ilə birlikdə Sovet Hüququ İnstitutunda rus millətindən olan müəllimlərə qarşı prinsipsiz milli mübarizə aparırdı. Axı Qənbər Sadıqov bu institutda rəhbər işdə idi. Bunun nəticəsi olaraq AK(b) P MK tərəfindən

yoxlanış aparıldıqdan sonra B.Talıblı və Qənbər Sadıqov Sovet Hüququ İnstitutundan xaric edildilər.

**Sual:** Qənbər Sadıqovu siyasi cəhətdən səciyyələndirən daha nə kimi faktlar Sizə məlumdur?

**Cavab:** Mən daha heç nə bilmirəm

**Sual:** Yox, Siz çox şey bilirsiz! İstintaqa düzgün ifadə verin.

**Cavab:** Bəli, mən qeyd etməliyəm ki, 1936-ci ildə belə bir hadisə olmuşdu. Səhv etmirəmsə, 1936-cı ilin əvvəlləri idi. Mən Qənbər Sadıxovla – o hələ institutda işləyəndə Kommunist küçəsində - Bakısovetin yanında, ya da oradan çox uzaq olmayan yerdə görüşdüm. Bizim söhbətimiz ingilis liderlərindən birinin Sovet ittifaqına qarşı etdiyi çıxış barəsində SİTA-nın məlumatı haqqında oldu.Bununla əlaqədar olaraq Qənbər Sadıxov dedi ki, İngiltərə Sovet hakimiyyətini yaşamağa qoymayacaq. Bunu Sovet hakimiyyətinin mütləq süqut edəcəyi kimi başa düşmək lazım imiş.

**Sual:** Siz Sadıxovun bu çıxışını necə qəbul etdiniz? Ona qarşı çıxdınızmı?

**Cavab:** Ona cavab vermədim. Çünki sözlərini zarafat kimi qəbul etdim. Bundan sonra müstəntiq

müttəhimi beş dəfə hədələyir, yenə məhbus eyni sözləri təkrarlayır:

–Təkrar edirəm: Mən həmin sözləri zarafat hesab etmişəm. Boynuma da heç nəyi almıram!

Avanesyan nə qədər inad göstərsə də, hədə-qorxu gəlsə də, işgəncələr versə də, V.Xulufludan özünü təmin edən heç bir cavab ala bilmir. Buna görə də “istintaq bəyanatı” tərtib edir. Orada deyilir: Dindirməni bitirərək istintaq belə hesab edir ki, Siz özünüzü təqdim etmək, beləliklə, öz inqilabçıəks, ikiüzlü fəaliyyətinizi, öz inqilabi işlərinizi ört-basdır etmək yolu tutmusunuz. Halbuki istintaq Sizin təhsil səviyyənizi bilir, Sizin professor olduğunuz da bizə aydındır. Habelə ictimai-siyasi təcrübəniz Sizin bu cəhdinizin yersiz olduğunu göstərir.

Bəyanatın altında Avanesyanın imzası vardır. 11 gün müttəhimə “istirahət” verirlər. Amma əslində müttəhim üçün yeni “ləkələr” axtarırlar.

Bu 11 günün içərisində müttəhim də bezikir, özünün heç bir təqsiri olmadığı halda nə üçün həbs edildiyini soruşur. Buna görə də 12.04.1937-ci il tarixdə ərizə yazaraq özünün günahsız olduğunu sübut etmək istəyir. Üç gündən sonra ərizə ilə birlikdə yenə həmin Avanesyan peyda olub alimi sorğu-suala tutur.

**Sual:** Siz ayın 17-də özünüzü tam günahsız olduğunuzu bəyan edirsiniz.Bu ərizəni sizin əvvəlki ifadələrinizdən imtina etməyiniz kimi qəbul etmək olarmı? Halbuki Siz əksinqilabi millətçisiniz və həmin təşkilatın üzvüsünüz.

**Cavab:** Bəli mən özümü heç bir şeydə təqsirkar hesab etmirəm. Özümün həbs edilməyimi düzgün hesab etmirəm. Mən əksinqilabçı təşkilatın üzvü və millətçi olmamışam. Avanesyan yenə istədiyinə nail ola bilmir. 23.04.1937-ci il tarixdə yenə müttəhimin gözünə Əzrayıl kimi görünüb beşcə sual verir və bir səhifəlik protokol tərtib edir.

**Sual:** Siz ayın 20-də olan keçən dindirmədə özünüzün əksinqilabçı millətçi təşkilatın üzvü olduğunuzu inkar etdiniz. Sizin özünüz etiraf etməsəniz də, Sizin əksinqilabçı millətçi təşkilatın üzvü olmağınız istintaqa məlumdur. İndi Siz özünüzün ifadələrinizdən imtina etməyinizin səbəbini deyin.

**Cavab:** Mən həmin ifadələrdən ona görə imtina edirəm ki, mən heç bir təşkilatın üzvü olmamışam.

**Sual:** Onda Siz özünüzün əksinqilabçı təşkilatın üzvü olmağınız haqqında verdiyiniz konkret ifadədən imtina etməyinizi nə ilə əsaslandırırsınız?

**Cavab:** Mən özümü itirmişdim. Çaşmışdım (Səbəbini oxucu özü müəyyən edər – A.B.).Türmə rejimi (!) məni cana doydurduğu üçün demişdim ki, mən əksinqilabçı təşkilatın üzvüyəm. Burada hər şey aydınlaşır. Əgər ərizə əsasında dindirməni düşmən Avanesyan deyil, insanlıq hissinə malik olan bir müstəntiq aparsaydı, işdə çox şey aydınlaşardı. Bu isə müttəhimin işini bir qədər də çətinləşdirir və ona heç bir  xeyri olmur. 25 aprel 1937-ci il tarixlu dindirmədə yenə Avanesyan peyda olub sual edir:

**Sual:** H.Zeynallının siyasi əqidəsi necə idi?

**Cavab:** H.Zeynallının siyasi əqidəsi haqqında heç nə bilmirəm.

Mayın 7-də Avanesyan alimin Naxçıvana getdiyini öyrənib müəyyən bir fikir qoparmaq üçün yenə dindirmə aparır.

**Sual:** Siz Naxçıvanda olmusunuzmu? Nə vaxt və nə üçün?

**Cavab:** Mən Naxçıvanda cəmi 2 dəfə olmuşam. 1932-ci və 1935-ci illərdə.

**Sual:** Mehmanxanada Sizin yanınıza kim gəlmişdi?

**Cavab:** Mənim yanıma heç kəs gəlməyib.

**Sual:** Siz Naxçıvanda kimin əksinqilabçı olduğunu bilirsiniz?

**Cavab:** Mən Naxçıvanda Novruzovdan (raykom katibi) başqa yerli işçilərdən heç kəsi tanımıram.

Onun səhərisi gün, yəni 8 may 1937-ci ildə Avanesyan yenə dindirmə aparır:

**Sual:** Həsən İmanovun evində olmusunuzmu?

**Cavab:** Bəli, çox tez-tez olurdum.

**Sual:** Onun evinə kimlər gəlirdi. O kimlərlə əlaqədə idi?

**Cavab:** Ağamir Mamedovla, Mehdi Erivanski ilə, Çobanzadə ilə, Əli Məmmədbəyovla. Habelə Ruhulla Axundovun, Ə.Qubaydulinin və H.Zeynallıın adını çəkir.

Bir gün sonra, mayın 9-da keçirilən dindirmədə müstəntiq B.Çobanzadənin, Qubaydulinin, Əzizin və H.Zeynallının ifadələrini bildirərək müttəhimə qəbul etdirmək istəyir ki, o, əksinqilabçı olmuşdur.

Cavab: Mən ayın 8-də verdiyim ifadəni tamamilə və bütövlükdə təsdiq edirəm. Təkrar edirəm ki, mən heç vaxt əksinqilabi təşkilatın üzvü olmamışam və orda heç iştirakım olmayıb. Yenidən bir daha təkrar edirəm: Qubaydilin, Çobanzadə və H.Zeynallı düz danışmır.

Dindirmə saat 5-də dayandırılır. Göstərilir ki, sabah davam etdiriləcək.

Hörmətli oxucu yaxşı diqqət et:

–Mayın 8-də Vəli Xuluflunun dilindən qoparırlar ki, Ağamir Məmmədov, Mehdi Erivanski, Bəkir Çobanzadə, Əli Məmmədbəyov, Ə.Qubaydulinin, H.Zeynallı və başqaları əksinqilabçıdır. Sən demə həmin gün iki dəfə dindirmədən sonra Qriqoryan və Ohanesov da Bəkir Çobanzadənin dilindən qoparmışlar ki, Vəli Xuluflu əksinqilabçıdır (geniş məlumat üçün bax: A.Babayev, Bəkir Çobanzadə. Bakı, 1998, s.35). Nəhayət, ayın 10-dakı dindirmədə Avanesyan müttəhimdən belə bir cavabı qopara bilir:

-Bəli, mən Vəli Xuluflu, B.Çobanzadə, Qubaydulin, İmanov, Həsənov, Ağamir Məmmədov millətçi və pantürkist olmuşuq.

Avanesyan mayın 11–13-də üç gün fasiləsiz olaraq Vəli Xuluflunu dindirərək B.Çobanzadə haqqında məlumat istəyir:

**Sual:** İstintaq Sizin B.Çobanzadə ilə münasibətlərinizə qayıdır.

**Cavab:** Mən Çobanzadə ilə 1924-cü ildə Krımda tanış olmuşam. Krıma mən S.Ağamalı oğlu ilə birlikdə yeni latın əlifbası ideyasını təbliğ etmək üçün getmişdim. Biz orada 3-4 gün qaldıq. B.Çobanzadə ilə mən Krım XKS sədrinin kabinetində görüşmüşəm. Bundan sonra o, demək olar ki, bütün mədəni müəssisələri gəzdiyimiz zaman bizimlə oldu.

**Sual:** Sizə Krımda B.Çobanzadənin siyasi görüşləri haqqında demişdilərmi?

**Cavab:** Bəli, yadıma gəlir ki, kommunist partiyası üzvlərindən biri Velidov (və ya Camalov) Çobanzadəni latın əlifbasının ən qatı düşməni kimi xarakterizə etmişdi. Onun böyük millətçi, keçmişdə "milli firqə"nin lideri olduğunu demişdi. İşə baxın, Vəli Xuluflunun öz yanında baş verən bir hadisəni Xalid Səid Xocayev belə təsvir edr ki, gənc alim professor B.Çobanzadə Krımda 5 əsasla yeni əlifbanın labüdlüyünü göstərdi. O dedi: "Bizə bir-birinə yaxın dildə danışan türk-tatar xalqlarını kəndi ətrafında toplayıb bir elm  və mədəniyyət yolu ilə sürətlə irəliləyəcək bir

əlifba lazımdır" (X.S.Xocayev. Yeni əlifba yollarında xatirə və duyğularım.1929).

Görün yazıq Vəli xuluflunu nə günə qoymuşlar ki, o öz gözü ilə gördüyünün əksini "deməli olmuşdur", qol çəkmişdir.

Vəli Xulufludan ayın 11–13-də aldıqları məlumatı ayın 14-də B.Çobanzadəyə demişlər (B.Çobanzadənin cinayət işi.səh.525–528).

Yenə həmin dindirmə protokoluna müraciət edək:

**Sual:** B.Çobanzadə haqqında dediklərinizi faktlarla əsaslandırın.

**Cavab:**1936-cı ilə qədər B.Çobanzadə sistematik olaraq belə bir xətt-hərəkət yeritmişdir ki, Azərbaycan dili türk dillərinin bir qoludur, başqa faktlar mənə məlum deyil.

22.06.1937-ci il tarixli dindirmə protokolundan:

**Sual:** Tamamilə ifşa edilmişsiniz.

**Cavab:** əks-inqilabi millətçi təşkilatın üzvü olmamışam və bu haqda əvvəlki ifadələrimi yenidən təsdiq edirəm.

Protokol cəmi səhifə yarımdır. Nə qədər çalışırsa, müstəntiq müttəhimin boynuna əksinqilabçı adını qoya bilmir. Müttəhim 4 dəfə bu iddianı rədd edir.Bundan sonra onu dindirmədən təxminən 13 gün ciddi, dözülməz şəraitdə saxlayırlar. Nəhayət cana doyan, hər şeydən ümidini itirən alim onun dindirmələrini özü xahiş edir.

**Sual:** Siz bəyanat vermək üçün bizi çağırmağı xahiş etmisiniz.

**Cavab:** Dövlət qarşısında öz cinayətlərimi bütün ağırlığı ilə dərk edirəm. Ona görə hər şeyi düzgün deyirəm.

Müttəhim əks-inqilabçı təşkilatın üzvləri kimi aşağıdakı adamların adlarını çəkdi:

1.Əli Kərimov – Mədəniyyət işləri üzrə komitənin işçisi

2.Qənbər Sadıxov-Şaumyan adına institutun işçisi

3.Ələkbərli Məmmədkazım-Şaumyan adına insitutun işçisi

Cəmi 13 nəfərin adını deyir.

Müttəhimlərin hər birini ayrı-ayrılıqda danışdırdıqdan sonra onları üzləşdirirlər.

İyunun 11-də V.Xuluflunu B.Çobanzadə və Q.Bağırovla üzləşdirirlər. Onların əksinqilabçı təşkilatın üzvü olduğunu sübut edə bilmirlər (C.i.səh 165–270). 13.06.1937-ci il tarixdə isə V.Xuluflunu Q.Bağırovla üzləşdirirlər. Onlar əvvəlcə "dediklərini" təsdiqləmir. Beləliklə, müstəntiqlər onların №12493-li işə aid olduğunu sübut edə bilmirlər.

Nəhayət Vəli Xuluflu deyir:

-Təkrar edirəm, mən əksinqilabçı təşklatın üzvü deyiləm. Üzləşmə zamanı ittihamlar məni ifşa etsə də, mən özümü təqsirkar bilmirəm (C.i.səh 274). İndi bu protokollara nəzər salaq

11 iyun 1937-ci il tarixli üzləşdirmə protokolundan:

**Sual** (V.Xulufluya): Siz qabağınızda oturmuş bəkir Çobanzadəni tanıyırsınızmı? Sizin onunla münasibətləriniz ecədir? Aranızda düşmənçilik yoxdur ki?

**Cavab:** Bəli, mən bu B.Çobanzadəni tanıyıram. Mənim onunla münasibətim yaxşıdır. Mənim onunla heç bir vaxt düşmənçiliyim olmayıb.

**Sual** (Çobanzadəyə): Siz prof. V.Xuluflunu tanıyırsınızmı? Sizin onunla münasibətləriniz necedir? Aranızda düşmənçiliyiniz yoxdur ki?

**Cavab:** Prof V.Xuluflunu mən 1924-cü ildən tanıyıram. Biz onunla dostuq. Aramızda düşmənçilik olmayıb.

**Sual** (V.Xulufluya): Çobanzadəni siyasi siması Sizə bəllidirmi?

**Cavab:** Çobanzadəni millətçi, pantürkist, keçmişdə Krımda millətçilik işi aparmış və öz əksinqilabi işini Azərbaycanda da davam etdirən bir adam kimi tanıyıram. Onun işlərindən bəzi momentlər mənə bəllidir.

**Sual** (Çobanzadəyə): Vəli Xuluflunun siyasi fizionomiyası haqqında Sizə nə məlumdur, deyin?

**Cavab:** Mən Vəli Xuluflunu 1924-cü ildən millətçi təmayülçü kimi tanyıram. Vəli Xuluflu millətçi pantürkist mövqedə durmuşdur. Bunun əsas ifadəsini onun Azərbaycanı SSRİ-dən ayırıb burjua-demokratik respublika qurulmasındakı arzularında görmək olar.

**Sual** (Çobanzadəyə): Siz Vəli Xuluflunun Sizin siyasi simanız haqqında verdiyi səciyyə ilə razısınızmı?

**Cavab:** Bəli, Vəli Xuluflunun mənim haqqımda verdiyi siyasi qiymət tam dolğun olmasa da, doğrudur. Belə ki, Vəli Xuluflunu mənim siyasi fəaliyyətimin yalnız bir neçə məqamını bilir. O mənim respublikadan kənarda apardığım əksinqilabi işlərimi bilmir.

**Sual** (Vəli Xulufluya): B.Çobanzadənin Sizə verdiyi siyasi qiymət doğrudurmu?

**Cavab:** Çobanzadə haqlıdır. O məni əksinqilabçı kimi düzgün xarakterizə edir. Amma mənim onunla münasibətim ona əsas verməməli idi ki, belə bir sözü desin. Mənim millətçi olmağım haqqında isə Çobanzadə düz demir. Habelə Azərbaycanın SSRİ-dən ayrılıb müstəqil burjua respublikası qurmaq haqqında da onun fikri düz deyil.

**Sual** (Çobanzadə): Vəli Xuluflunun əksinqilabi fəaliyyəti haqqında başqa faktları da deyin.

**Cavab:** Əks-inqilabçı kimi Vəli Xuluflu türk təmayüllüdür. Mənimlə söhbətlərində həmişə o, türk mədəniyyəti haqqında müsbət fikir (?!-A.B.) söyləmişdir. Praktik fəaliyyətində Vəli Xuluflu həmişə mənim Azərbaycan dilinin türkləşməsi haqqındakı xəttimi müdafiə etmişlər. Mən və Vəli Xuluflu hesab

edirdik ki, Azərbaycan dili türk dilinə tabe rol oynayır.

Azərbaycan Sovet Ensiklopediyası məsələsində mən Vəli Xuluflu ilə danışdım ki, biz ensiklopediyaya Orta Asiya və pantürkizm haqqında çox məlumat salaq ki, bununla pantürkist ideyaları yaya bilək. Yadıma gəlir ki, mənə böyük pantürkist ədəbiyyatşünaslar Həsən Səbri Atvazov və Osman Ağköçərli haqqında məqalə yazmaq tapşırılmışdı. Bu məqalələrdə mən onların ədəbiyyat sahəsindəki baxışları üzərindən sükutla keçmişdim. Xuluflu bu məqalələr haqqında bilirdi, həmin məqalələri o buraxdı, baş redaktor İsmayılov (ensiklopediyanın baş redaktoru) həmin məqalələri qəbul etmədi.

Burada üzləşdirmə dayandırılır. Sonra üzləşdirmə davam etdirilir:

**Sual:** (Çobanzadəyə): Siz Vəli Xuluflunun əksinqilabi söhbətləri haqqında daha nə kimi konkret faktlar göstərə bilərsiniz?

**Cavab:** 1934-cü ildə (bəlkə də 1933-cü ildə) biz – mən Çobanzadə, Refotov, Əli Nazim, daha kim isə yadımda deyil, Xuluflugildə toplaşmışdıq. Qəzetlərdə Dövlət büdcəsi haqqında çıxmış material əsasında respublikaların dövlət büdcəsi barədə söhbət düşdü. Söhbət üçümüzün – mənim, Əli Kərimovun və Xuluflunun arasında gedirdi. Söhbət belə gətirdi ki,

mən dedim: Azərbaycan məhkum vəziyyətdədir. Və ədalətsizliyə məruz qalır. Çünki Gürcüstan və Ermənistan büdcədən daha çox pay alır, nəinki Azərbaycan və bu, Azərbaycanın sərvətləri hesabına edilir. Biz burada Əli Kərimovu da tənqid etdik. Bu söhbət bizim milli fəaliyyətimizin bir epizodu idi ki, mənim ardıcıl pantürkist, Vəli Xuluflunun isə millətçi olmağımızdan xəbər verirdi.

Vəli Xuluflu:

–Bu, 1932-ci ildə olmuşdur.1934-cü ildə yox.

Gürcüstan və Ermənistan büdcəsinin Azərbaycanın hesabına olması haqqında söhbəti mən xatırlamıram.

Diqqət edin, deməli, Vəli Xuluflunu B.Çobanzadə onda ittiham edir ki, nə üçün mənim pantürkist baxışlarımı ya tənqid etməyib, ya da bir yerə xəbər verməyib. Bir aydan da artıq müddətdə Vəli Xuluflunu ifşa edə biləcək heç nə tapa bilmirlər. Vəli Xuluflu bu həyatdan bezdiyinə görə ərizə yazıb dindirilməsini xahiş edir. Buna görə də Avanesyan "rəhmə gəlib" iyulun 19-da alimi dindirir:

**Sual:** Siz ərizə vermisiniz ki, nəhayət öz əksinqilabi fəaliyyətiniz haqqında doğru-düzgün ifadə verəcəksiniz.

**Cavab:** Bəli, mən müqavimət göstərməyi dayandırmağı qərara almışam. Çünki müqavimət heç bir nəticə vermədi. Mən ifşa oldum.

Bəli, alim nəhayət inandı ki, DTK zindanından daşnak Avanesyanın əlindən qurtara bilməyəcək. Heç bir fakt, heç bir sübut onlara təsir edə bilməyəcək. O, inanırdı ki, Füzuli demişkən: **"Tərki can derlər, bu dərdin mötəbər dərmanına**".

Alim belə bir qərara gəlir ki, hər nə desələr təsdiq etmək, nə günah desələr boynuna almaq, nə versələr qol çəkməkdən başqa əlac yoxdur. Bu söhbətdə də daha 16 nəfər "əksiniqilabçının" adını çəkir. Sonra əksinqilabçı olduğunun 8 səbəbini göstərir. Bunlardan üçüncüsü:

Böyük Azərbaycan ideyası problemini həll etmək üçün indiki Azərbaycan ərazisinə azərbaycanlılar yaşayan Dağıstanın, Gürcüstanın və Ermənistanın bir hissəsini birləşdirmək.

Alimi 29 avqust 1937-ci ildə də dindirməyə çağırmış, lakin boynuna heç nə qoya bilməmişdir.

25 sentyabr 1937-ci ildə isə qəddarcasına yeni ittihamlar irəli sürmüşlər. Həmin dindirmədə Avanesyan deyir:

-Sizə əlavə ittihamlar irəli sürülür, bu haqda nə deyə bilərsiniz.

Cavab: Azərb. SSR CM. 73, 64, 69, 17/70-ci maddələri üzrə mənə qarşı irəli sürülən ittihamlarda özümü tam təqsirkar bilirəm.

Burada o, özünə 6 bəndlik süni təqsir də qəbul edir.

Bunlardan bəzilərinə diqqət edək:

1.1925–26-ci ildən başlayaraq 1937-ci ildə həbs edilənə qədər mən partiya və sovet hakimiyyətinə qarşı barışmaz mübarizə mövqeyində dayanmışam. Məqsədim Azərbaycancanda Sovet hakimiyyətini devirmək və müstəqil burjua-demokratik dövlət yaratmaq olmuşdur...

4.Azərbaycanı SSRİ-dən ayırmaq üçün fəal praktik iş aparmışam (Necə – A.B.).

5.ÜİK(b)P və Sovet Dövlətinin rəhbərlərinə qarşı terror mövqeyində dayanmış və Azərbaycan K(b) PMK Katibi M.C.Bağırova qarşı hazırlanan terror aktının müzakirəsində fəallıq etmişəm (əcəb sübutlardır – A.B.)

Göründüyü kimi istər Avanesyanın irəli sürdüyü, istərsə də özünün özünə qarşı dediyi ittihamlar

heç bir sübuta, dəlilə söykənməyən boş sözlərdir. Avanesyan çox şeyə əl atmışdı. Belə ki, Vəli Xuluflunu mayın 21-də Çiçikolovla, 23-də H.Zeynallı ilə, mayın 11-də isə B.Çobanzadə ilə üzləşdirir. Bütün üzləşdirmələrdə Avanesyan Qriqoryanı da köməyə çağırmışdı.

Üzləşdirib: Qalstyan, Avanesyan

İştirak edib: Badalyan

Məsul katib: Ohanyan

Bəh-bəh. DTK idarəsinin və Azərbaycanın rəhbərlərinin qeyrətinə. Bir alimin taleyini 4 nəfər vəhşi canavarın, daşnak ixtiyarına verirlər. Bəs bu millətçilik deyildi?...

Nəhayət 1937-ci ilin oktyabr ayının 5-də Vəli Xulufluya ittiham qərarı elan edirlər. Ona qarşı sürülən ittiham 6 maddədən ibarətdir:

1) Trotskiçi, Zinovyevçi əksinqilabi terrorçu təşkilatın üzvü olmuşdu (nə ilə sübut etdiniz – A.B.)

2) 1925-ci ildən həbs olunan qədər əksinqilabçı təşkilatla əlaqədar olmuş, ümumittifaq səviyyəli inqilabçı, pantürkist B.Çobanzadə

və Ə.Qubaydulun ilə əlaqədar olmuş və partiya sovet hakimiyyəti ilə barışmaz mübarizə möveində dayanmışdır.

3) 1935-ci ildə əksinqilabçı millətçi leqal təşkilata daxil olmuşdur və həmin təşkilatın rəhbərləri ilə sıx əlaqə saxlamışdır.

4) Azərbaycan rayonlarında tətil özəkləri yaratmaq yolu ilə silahlı üsyan etmək üçün fəal iş aparmışdır.

5) Elmi sahədə ziyankar iş aparmışdır.

6) AK(b)PMK katibi M.C.Bağırova qarşı hazırlanan terror aktının müxtəlif variantlarının müzakirəsi və hazırlanmasında iştirak etmişdir. Belə-belə əsassız, sübutsuz dəlillərlə alimin həyatını söndürmək üçün fitva hazırlandı.

11 oktyabr 1937-ci il. SSRİ Ali məhkəməsi hərbi kollegiyasında hazırlıq iclası.

Sədr: İ.O.Matuleviç (hərbi hüquqşunas): İ.M.Zaryanov və Y.K.Jiqur.

Katib hərbi hüquqşunas: A.F.Kostyuşenko.

İştirak edir SSRİ baş prokurorluğunun baş köməkçisi: R.S.Rozovski.

Bu iclasın qərarını həmin gün müttəhimə verirlər (s.310). Qərarda deylir ki, iş məhkəməyə göndərilsin, işə şahidsiz, prokurorsuz və vəkilsiz baxılsın.

Ertəsi gün oktyabrın 12-də saat 18-də "məhkəmə" başlayır və 18.20-də qurtarır.

Hökm:

Sovet Sosialist Respublikaları İttifaqı adından SSRİ Ali Məhkəməsinin Səyyar Hərbi Kollegiyası.

Sədr: Matuleviç İ.O.

Üzvlər: Zaryanov İ.M., Jiqur Y.K.

Qərara alır: Vəli Məmmədsoyun oğlu Xuluflu ən yüksək cəzaya-güllələnməyə məhkum edilsin.

Qərar qətidir. Dərhal yerinə yetirilməlidir.

Səhərisi gün, yəni oktyabrın 13-də alimi güllələyirlər (C.İ.s.314)

İndi də "xalq düşməninin ailəsi" barədə:

-Əri Vəli Xuluflu həbs ediləndən sonra Fatma xanımın evi axtarılmaq üçün 31 mart 1938-ci ildə №867-li order vermişlər. Evi axtaranda şübhəli heç nə tapılmır. Axtarışda tapılmışdır: 1 bufet, 1 divan, qoz taxtasından şifoner. "Xalq düşməninin ailəsi" üçün saxlanılsın: 1 yemək stolu, kuşetka, yazı stolu, divar asılqanı. Bakı şəhər mənzil idarəsinin tələbi ilə Oktyabr rayon xalq məhkəməsi 9 iyul 1937-ci ildə (iş üzrə icra vərəqi № 952-37) belə bir qərar verir:

İddia təmin edilsin.Xuluflu Fatma Əli qızı özü ilə yaşayan bütün ailə üzvləri ilə birlikdə Bakı şəhər soveti tərəfindən verilmiş evdən çıxarılsın. Boşaldılmış ev Bakı şəhər mənzil idarəsinin sərəncamına verilsin.

Beləliklə, Fatma xanımı ailəsi ilə birlikdə bayıra atırlar. Hələ utanmadan arayış da alırlar ki, evi boşaldanda mənə kobudluq etmədilər.

16.06.1937-ci il tarixdə yazılan arayışda göstərilir ki, ev boşaldıldı, telefon isə ATS sərəncamına verildi. Götürülmüş ev əşyaları 29.07.1938-ci

il tarixdə Baqdasarov, Dominski və Berq tərəfindən 3050 manata qiymətləndirilir (akt № 403).

Fatma xanım həbs ediləndən sonra ərizə ilə xahiş edir ki, mənə saxlanılan ev əşyalarını anamın himayəsində olan uşaqlara verin. Biçarə qadının yalvarış ərizəsinə cavab olaraq I xüsusi şöbənin rəisi Sovçenko və müavini Xvatov Temnikov islah əmək düşərgəsinin rəisinə 13.03.1940-cı il tarixdə №16/157524-li təliqə ilə yazırlar:

Xahiş edirik, məhbus Xuluflu Fatma Əli qızına bildirəsiniz ki, onun həbs edildiyi zaman evdə saxlanılan şeylər satılmış və ondan gələn gəlir dövlətin hesabına keçirilmişdir.

Amma zamanın hökmü başqa idi "Xalq düçməninin arvadı da cani olar" məntiqi öz işini görür. Xuluflu Fatma Əli qızı həbs edilərək onun haqqında № 23339-li cinayət işi açılır. Həbs 10.04.1937-ci il tarixli protokolda oxuyuruq: Xuluflu Fatma Əli qızı vətən xaininin ailə üzvü 8 il I islah əmək düşərgəsində saxlanılmaqla azadlıqdan məhrum edilsin. Həbs tarixi 1938-ci ilin aprelin 10-dan hesablansın. 1 fevral 1957-ci ildə Azərbaycan SSR prokuroru A.S.Babayev Azərbaycan SSR Ali Məhkəməsinə nəzarət qaydasında protest göndərir. Burada o, xahiş edir ki, SSRİ XDİK-in xüsusi müşavirəsinin 29.02.1938-ci il tarixli

Xuluflu Fatma Əli qızının həbsi haqqındakı qərarı ləvğ edilsin.

Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası Respublika prokurorunun protesti əsasında 15 fevral 1957-ci il tarixdə sədr M.Əliyevin, üzvlər Y.Quliyev və Abuşevin, prokuror İ.Hacıyevin iştirakı ilə işə yenidən baxır. Nəhayət 20 il keçdikdən sonra həqiqət öz yerini tapır. Kollegiya qərara alır:

SSRİ XDİK xüsusi müşavirəsinin Xuluflu Fatma Əli qızı barəsində 29.02.1938-ci il tarixli qərarı ləvğ edilsin. Onun işində cinayət tərkibi olmadığı üçün işə xitam verilsin.

1 noyabr 1953-cü ildə SSRİ XDİK I xüsusi şöbəsi Xuluflu Fatmanın işini tələb edir.

Az.XDİK 7.10.1953-cü ildə № 16/12493-li təliqə ilə işi Sverdlovskdan tələb edir.

21.11.1953-cü ildə Az.XDİK xüsusi şöbəsinin rəis müavini Fatmanın məhkumluğunun götürülməsilə əlaqədar verdiyi ərizəsi əsasında işə baxmaq üçün SSRİ DİN 3-cü şöbəsinin 1-ci xüsusi bölməsindən məhkumun şəxsi işini istəyir. Habelə onlar Vəli Xuluflunun hökmünün surətini də istəmişlər. 14.12.1953-cü ildə VX №711018-li təliqə ilə hökmün

sürəti “tamamilə məxfi” başlığı altında Bakıya göndərilir. Fatma Xuluflu öz haqqını tələb etməkdə davam edir. Müxtəlif təşkilatlara yazdığı ərizə əsasında SSRİ Ali məhkəməsi hərbi kollegiyasının sədr müavini ədliyyə polkovniki V.Borisoqlebski Azərb. SSR DİN Baş Milis idarəsi rəisinə, SSRİ DİN I xüsusi şöbəsinin rəisinə Baş hərbi prokuror 27.10.1956-cı ildə UN 150555/56 təliqə ilə yazırdı:

-Xuluflu Fatma Əli qızına, onun əri Xuluflu Vəli Məhəmmədhüseyn oğluna ölüm şəhadətnaməsi verilsin ki, əri 12.10.1937-ci ildə SSRİ Ali məhməkəməsi hərbi kollegiyası tərəfindən məhkum edilmiş və 19.10.1941-ci ildə cəzasını çəkərkən ölmüşdür.

Görəsən, bu tarix V.Borisoqlevski haradan götürmüşdür. Axı V.Xuluflunun şəxsi işinin 314-cü səhifəsində SSRİ XDİN 12-ci şöbəsinin I xüsusi bölməsinin rəisi DT leytenantı Şevelovun imzaladığı arayışda açıqca yazılmışdır:

-“Vəli Məhəmmədsoyun oğlu Xuluflunun güllələnməsi haqqında hökm Bakı şəhərində 13.10.1937-ci ildə həyata keçirilmişdir. Hökmün yerinə yetirilməsi haqqındakı akt SSRİ XDİK I xüsusi şöbəsinin xüsusi arxivində (Cild 8, vərəq 33) saxlanılır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, V.Borisoqlevskinin uydurduğu 19.10.1941-ci il tarixi alimin ömrünü 4

il “artırmışdır” Azərbaycan Sovet Ensiklopediyasında da alimin ölüm ili 1941-ci il göstərilir.

23.06.1956-cı ildə SSRİ baş hərbi prokuroru ədliyyə polkovniki Plexanov, baş hərbi prokurorun köməkçisi ədliyyə polkovniki P.Laptevin razılığı ilə SSRİ Ali məhkəməsinin hərbi kollegiyasına göndərdiyi prtestdə Vəli Xuluflunun işində cinayət tərkibi olmadığı üçün əlavə edir ki, məhkumun arvadı Xuluflu Fatma Əli qızı Bakı şəhərində Nijni bulvar küçəsi, kvartal 643, blok 1, mənzil 14-də yaşayır.

Bundan ruhlanan Fatma xanım 26.09.1956-cı ildə SSRİ Ali Soveti Rəyasət heyətinin sədri K.Y.Voroşilova (ş.i.351) 18.07.1956-cı ildə Sov.İKP MK I katibi N.S.Xuruşşov (352) və SSRİ NS sədri N.A.Bulqaninə (səh.353) ərizə ilə müraciət edir ki, mənə qəti cavab verilsin və bu ləkə üzərimdən götürülsün. Nəhayət SSRİ Ali Məhkəməsi hərbi kollegiyasının №015055/56-li qərarı:

-V.Xuluflu haqqında SSRİ Ali məhkəməsi hərbi kollegiyasının 12.10.1937-ci il tarixli qərarı ləğv edilsin, işdə cinayət tərkibi olmadığı üçün işə xitam verilsin.

Sədr: Stuçek

V.Xuluflunun əldə olan kitabları bunlardır:

1.Yeni türk əlifbası ilə yazı qaydalı, B, 1925

2.Koroğunun Toqat və Bağdad səfəri.,1927

3.Tapmacalar (M.F.Axundovun vəfatının 50 illiyinə ithaf olunur), B., 1928

4.İmla lüğəti., 1929

5.Panislamizm, imperializm və ruhaniyyət

6.Din və mədəni inqilab., B.,1930

7.Din və qadın., B., 1930

8.Məhərrəmlik münasibətilə., B, 1932

# ZİFELD ARTUR RUDOLFOVİÇ



Cinayət işi № 24676 (pr.22326) bir cilddən ibarətdir.

Başlayıb: II-II-1938

Qurtarıb: 30.03.1939

Pantürkist təşkilat üzvü hesab edilən eston Zifeld Smumyaqi Artur Rudolfoviç Estoniyanın Revel şəhərində 1889-cu ildə anadan olmuşdur. 1912-ci ildə Odessa universitetinin tarix-filologiya fakültəsində oxumuşdur. Bakıya gəldikdən sonra 1924-cü ildə Azərbaycan tədqiq və tətəbbö cəmiyyətində işləmişdir, sonra həmin cəmiyyətin türkoloji seksiyasında sədr müavini (sədr B.Çobanzadə idi) işləmişdir.

B.Çobanzadənin və başqa türkoloqların əsərlərinin nəşrinə müsbət rəy vermişdir. Beləliklə, o, özünü türkoloq kimi də göstərmişdir. 1926-cı ildə təşkilat bürosunun üzvü kimi də birinci türkoloji qurultayın keçirilməsində fəal iştirak etmişdir. Bu vaxt "Ural-Altayka", "Türkoloji etüdlər" kimi elmi əsərlər yazmışdır. Təəssüf ki, o dövrün vandalist çinovnikləri elmin əhəmiyyətini qanmadıqlarından alimin bütün əsərlərini yandırıb fəxrlə bu haqda akt da tərtib etmişlər. Dranişnikov, Krillin və başqalarının 1939-cu ilin 29 martında alimin bir neçə əsərini yandırmaları haqqında akt tərtib etmişlər:

Biz 10947 sayılı cinayət işi ilə ittiham edilən Zifeld Artur Rudolfoviçin axtarış zamanı götürülmüş sənəd və əsərlərini yandırmaqla məhv etdik.

1.Müsadirə edilməli müxtəlif kitablar

2.Müxtəlif yazışmalar

3.Əlyazmaları

4.İşə dəxli olmayan müxtəlif sənədlər.

Bəli, SSRİ EA Azərbaycan filialının Tarix, Ədəbiyyat və Dilçilik İnsitutunun direktorluğuna qədər yüksəlmiş, əsil beynəlmiləlçi şərqşunas alim Zifeld Arturun da əsərləri və özü məhv edildi. Zifeld

Arturu həbs etməyə əsas nə olmuşdu? Cinayət işində bu haqda tutarlı heç bir fakt yoxdur. Alimin yaxın dostları, müxtəlif vaxtlarda DTK zindanlarına atılmış qələm yoldaşlarının məcburi ifadələrindən başqa, Zifeld Arturu ifşa edəcək heç bir şey yoxdur. Cinayət işində alimi tanıyan, onunla birlikdə işləmiş həmkarlarının ifadələri vardır. Bunlar aşağıdakılardır:

1.Axundov Ruhulla (səh. 56, 57)

2.Çobanzadə Bəkir (səh. 58, 64)

3.Xuluflu Vəli (səh. 65)

4.Qubaydulin Əziz (səh. 66–71)

5.Mahmudzadə Əli Nazim (səh.72–78)

6.Zeynallı Hənifi (səh.79)

7.Bağırov Qulam (səh. 86–91)

8.Tağızadə Qafar (səh.82)

9.Xocayev Xalid Səid (səh.83)

10.Tixomirov Boris (səh.84)

11.Tevosov Samson (səh. 85–89)

12.Kozin Yakov (səh.90–101)

13.Klimov Aleksey (səh.101–108)

Bu 13 nəfərin 11-i həbs edilmiş adamlardır ki, onların dediklərinin hamısını bir cür yekunlaşdırmaq olar ki, Zifeld Artur əksinqilabçı, pantürkistdir. Kozin Yakovu da başa düşmək olar. Çünki, akademiyanın Azərbaycan filialının elmi katibi kimi bu "canilərlə" əlaqədar idi. Onların "cinayətlərini" görə bilərdi. 1938-ci il dekabrın 8-də şahid sifəti ilə dindirilən Kozin müstəntiqin sualına belə cavab vermişdir:

Sual: Kazımov Cəfərin, Bağırov Qulamın, Həsənov İdrisin və Zifeld Arturun əlaqələri haqqında sizə nə məlumdur.

Cavab: Kazımov Cəfər Ruhulla Axundovun ən yaxın köməkçisi idi və akademiyanın filialında onun siyasətini yeridirdi. Bağırov Qulam Ədəbiyyat və Dil İnsitutunda R.Axundovun nümayəndəsi idi. Bağırov Qulamın R.Axundovla bilavasitə əlaqəsi var idi və onun rəhbərliyi altında işləyirdi. Zifeld Artur Akademiyanın Azərbaycan filialının partiya təşkilatı katibi A.Baskakova ilə yaxın idi. A.Baskakova da öz növbəsində R.Axundovun arvadı Şlemova ilə yaxın əlaqədə idi.

Həsənov İdris burada R.Axundovun, Q.Bağırovun, C.Kazımovun həbsindən sonra işləmişdi. Ona görə də İ.Həsənov haqqında heç nə deyə bilmərəm (guya başqaları haqqında tutarlı şey demisən – A.B.) Bundan əlavə, Bağırov Qulam Çobanzadə Bəkirlə, Qubaydulin Əzizlə və Zeynallı Hənifi ilə əlaqədar idi (ş.i.s.95) Görün, Dağlıq Qarabağın o vaxtkı Cerabert rayonunun Bank kəndində 1896-cı ildə anadan olmuş, müttəhimlərlə heç bir yaxınlığı olmayan, Akademiyada Kimya İnsitutunun direktoru Tevosyan Samson Petroviç 1938-ci dekabr ayının 15-də şahid qismində dindirilərkən nələr deyir:

Sual: Kazımov Cəfərin, Bağırov Qulamın, Həsənov İdrisin, Zifeld Arturun əksinqilabi fəaliyyəti haqqında sizə nə məlumdur.

Cavab: Mənə məlumdur ki, onlar zahirən bir-birinə qarşı çıxmırdılar (bu da cinayət imiş – A.B.). Onlar arasında mən düşmənçilik münasibəti də görmüşəm. Zifeld Tarix, Dil və Ədəbiyyat İnsitutunun direktoru olarkən maliyyə-təsərüfat işlərinə ziyan vurmuşdu. Kənar adamlarla öyrənilmədən müqavilə bağlayırdı. Maliyyələşdirmələr işlərin yerinə yetirilməsinə nəzarət etmədən aparılırdı. Pul sənədləri yoxlanılmırdı. Tarix, Dil və Ədəbiyyat İnsitutunda əmək intizamı tamamilə başlı-başına buraxılmışdı (səh.85–86).

Tevosyandan soruşmaq lazım idi ki, sən bunları haradan bilirdin. Sən İnsitutu yoxlamışdınmı.Nə isə... Beləliklə, Artur Zifeldi pantürkist kimi həbs etmək üçün əllərinə bəhanə keçdi. Niyə? O bizim tarixi-mizin, dilimizin keçmişi haqqında tədqiqat aparırdı. Buna görə də 27 dekabr 1938-ci ildə DTİ-nin 4-cü çöbənin 6-cı bölməsinin əməliyyat müvəkkili Qara-vəliyev, Azərbaycan SSR XDİK DTİ 4-cü şöbəsinin rəisi Persinin təsdiqi ilə belə bir qərar qəbul edir: Kazımov Cəfər Ələsgər oğlunun və Artur Zifeld Rudolfoviçin işlərini ümumi 10497 sayılı işindən ayırıb müstəqil cinayət işi (24676) başlamalı.

1937-ci il fevralın 11-də 3609 sayılı orderlə Mustafayevə əmr edirlər ki, Artur Zifeldin evini axtarsın (ş.is.8). Cinayət işinin 9-cu səhifəsində axta-rış protokolu vardır. Orada göstərilir ki, Az.XDİK DTİ əməkdaşı Mustafayev bir neçə şəxslə birlikdə (işdə olanların imzasıdır, familya yoxdur) Zifeld Artu-run Bakı şəhəri, Qasım İsmayılov küçəsi 25 sayılı evin 4 sayılı mənzilində axtarış aparır. Orada aşkar edilib götürülmüşdür:

1)1429011 sayılı partbilet

2)544024 sayılı pasport

3)191308 sayılı profbilet

4)Hərbi bilet

5)Müsadirə edilməli müxtəlif kitablar

6)Müxtəlif yazışmalar

7)Əlyazmaları

8)Müxtəlif sənədlər

Sonradan Mustafayevin, Dranişnikovun və Kirillinin imzaladığı (24.031939) aktda göstərilir ki, axtarış zamanı kitabları, yazışmaları, əlyazmaları və işə dəxli olmayan müxtəlif sənədlər yandırılmışdır (s.10). 1938-ci il 12 fevralda tərtib edilmiş məhbus anketindən (1570) öyrənirik ki, professor Zifeld Rudolfoviç 1889-cu ildə Estoniyanın Revel qəsəbəsində sənətkar ailəsində anadan olmuşdur. Həbs edilən vaxt ailəsi 35 yaşlı Saradan və 11 yaşlı qızı Uraltaydan ibarət idi. Alimin ilk dindirilməsi 1938-ci il fevralın 20-də olmuşdur. Alimin dindirmə protokolundan məlum olur ki, 1924-cü ildə hələ AK(b)P MK üzvü olmuşdur (ş.i.səh.22).

Müttəhimə verilən ilk sual:

-Sizə qarşı ittiham irəli sürülür ki, siz əksinqilabi pantürkist təşkilatın üzvüsünüz. Siz boynunuza alırsınızmı?

**Cavab:** Yox, təsdiq etmirəm. Mən əksinqilabi pantürkist təşkilatın üzvü olmamışam, indi də üzvü deyiləm.

**Sual:** İstintaq, sizin əksinqilabçı, pantürkist təşkilatın üzvü olduğunuzu dəqiq müəyyənləşdirmişdir. Düzünü deyin.

**Cavab:** Mən düzünü deyirəm. Yenə bəyan edirəm: Mən əksinqilabi pantürkist təşkilatın üzvü olmamışam.

Bununla da bu protokol tamamlanır. Sonra da protokolun-dindirmənin davamı gedir (səh.23–30)

Burada müstəntiq müttəhimdən Bəkir Çobanzadə, Ruhulla Axundov, Qubadulin Əziz, Xuluflu Vəli, Hənəfi Zeynallı, Abdulla Tağızadə, Xocayev Xalid Səid, Mahmudzadə Əli Nazim və Kazımov Cəfəri tanıması və onların haqqında nə bildiyini soruşur. Müttəhim onları tanıdığını təsdiq edir.

Həmin protokolun davamında müstəntiq soruşur:

**Sual:** Siz xarici pantürkist mətbuatla əməktaşlıq etmisinizmi?

**Cavab:** Bəli, 1916-cı ilin təxminən sonlarında mən xarici mətbuatla əməkdaşlıq etmişəm.

**Sual:** Siz "Türk yurdu" jurnalında hansı təxəllüslə əməkdaşlıq edirsiniz?

**Cavab:** Dəqiq deyə bilmərəm. Ola bilər ki, 1925-ci ilə qədər Arslan Nürəddinov təxəllüsü ilə bir neçə məqalə nəşr etdirmişəm.

Sonra həmin protokolun 37-ci səhifəsindən başlayaraq müttəhim özünü ifşa edir.

Mən şəxsən terminologiya məsələləri və Azərbaycan ədəbi dilinin inkişafı haqqında ümumi tendensiya haqqında türkoloji qurultaya qədər 1925-ci ildə "Azərbaycan kommunist" jurnalı səhifələrində yazdığım məqalələrdə özümü günahkar hesab edirəm. Hələ birinci türkoloji qurultaydakı "türk dillərində elmi terminologiya tərtib etmək prinsipləri" haqqında məruzəmdə mən həmin tendensiyada olmadım.

Müttəhim sonra deyir: 1929-cu ildə yazdığım və 1930-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu tərəfindən nəşr edilən "türkoloji etüdlər"ində Azərbaycan dilinin bəzi xüsusiyyətləri haqqında elmi əsaslandırmalar verməklə Azərbaycan dilini "pozulmuş" türk dili kimi deyil, müstəqil dil kimi vermişəm.

Həmin baxışları mən öz mülahizələrimdə də müdafiə edirəm (s.38).

Sonrakı dindirmə 1939-cu ilin mart ayının 26-da olmuşdur. 4 saat çəkən bu dindirməni Dranişnikov aparmışdır.

**Sual:** Siz nə vaxt və harada bolşeviklər partiyasına daxil olmusunuz?

**Cavab:** 1915-ci ildə İsveçrənin Surix şəhərində mühacirətdə olanda Rusiya sosial-demokrat (bolşeviklər) partiyasına daxil olmuşam.

Sonra məlum olur ki, 1906-cı ildə Odessa realnı məktəbinin şagirdi olanda eserler partiyasının üzvü olmuşdur.

Saat 16-da kəsilən dindirmə elə həmin gün saat 16-da başlanır. Dranişnikovun ciddiliyinə, səliqəsinə baxın: dindirmənin sonunda yazır ki, saat 16-da dindirmə kəsilib. Sonrakı protokolda elə həmin gün yazır: "Dindirmə saat 16-da başlandı" (ş.i.sş 41). Burada alimə menşeviklərlə əlaqəsini sübut etdirməyə çalışırlar.

**Sual:** Siz şəxsən Menşeviklər partiyasında olmusunuzmu?

**Cavab:** Yox olmamışam (səh. 41).

Sonra həmin protokolda B.Çobanzadənin 1937-ci il 17–20 aprel tarixli dindirmələrindən misallar gətirilir.

B.Çobanzadə həmin günlər demişdi:

“Azərbaycanda əksinqilabçı, millətçi təşkilatın üzvlərindən mənə bəllidir: Zifeld Artur. Mən onunla 1925-ci ildən əksinqilabi əlaqə yaratmışdım. Bu əlaqə mən həbs edilənə qədər davam etmişdir”.

**Sual:** Siz buna nə deyirsiniz?

**Cavab:** B.Çobanzadənin mənim haqqımdakı ifadəsini tamamilə rədd edirəm. Mən bütün qətiyyətlə bəyan edirəm: Mən heç vaxt, heç bir əksinqilabi təşkilatın üzvü olmamışam.

Dindirmə saat 17-də , yəni bir saat sonra kəsilir.

Estonun alnına Azərbaycan millətçisi-pantürkist damğası vura bilməyən Dranişnikov alimdən əl çəkmir. Elə həmin gün saat 23-də üçüncü dəfə müttəhimi dindirir. Sual oluna bilər: Nə üçün bir gündə üç dəfə dindirmə.Bəlkə bir dindirmədə hər şeyi soruşmaq olmazdı.

Məsələ burasındadır ki, soruşmaq olurmuş. Döymə və işgəncə nəticəsində müttəhim ifadə vermək vəziyyətində olmurdu. Ona görə də müttəhimə bir neçə dəqiqəlik, bəzən bir neçə saatlıq "istirahət" verirdilər. Həmin gün gecə saat 23-də yenə Dranişnikov deyir:

Sizi istintaq materialları ilə ifşa etməyi davam etdiririk. Bu materiallar sizin əksinqilabçı pantürkist təşkilatın üzvü olduğunuzu sübut edir. Müttəhim Qubaydulin Əziz 1937-ci ildə aprelin 19-20 tarixli dindirmədə demişdir: "Mən əksinqilabi mövqedə duran pantürkistlərdən aşağıdakıları deyə bilərəm:

Zifeld Artur Dudolfoviç və s.

**Sual:** Qubaydulinin ifadəsi haqqında nə deyə bilərsiniz?

**Cavab:** Qubaydulin Əzizin mənim haqqında verdiyi ifadəni rədd edirəm...

Sonra müttəhim deyir: Mən həqiqəti bəzi adamların pantürkist fəaliyyətini bildirdim. Məs: Çobanzadənin "Azərbaycanı öyrənmə cəmiyyəti"ndəki işlərini bilirdim. Bununla belə, mənim pantürkist iş haqqında məlumatım var idi. Mən bu haqda susamışam, əksinə partiya təşkilatında və başqa təşkilat-

larda məsələ qaldırmışam. Ona görə də Qubaydulinin ifadəsi yalan və bitərəflidir.

Sonra alim özünün 1924-cü ilə qədər pantürkist baxımından günahkar olduğunu deyir. Birinci türkoloji qurultayın açılışına yarımil qalmış mən anladım ki, pantürkist nə imiş. Hələ qurutaydan sonra da məndə bəzən pantürkist baxışlar qalmışdır. Sonralar mən pantürkizmdən uzaqlaşdım (səh.46).

Burada bəzi mətləblər açıqlanır. Əgər doğrudan da o vaxtlar belə bir ideya alimlər arasında varmışsa, deməli onlar qəhrəmancasına həlak olublar. Bu dindirmədə də alimin boynuna heç nə qoya bilmirlər. Düz iki il əvvəl güllələnmiş adamların dediklərini arxivdən tapıb gətirib onun gözünə soxurlar. Məs: A.Mahmudzadənin 25.07.37-ci ildəki, Bağırov Qulamın 10.05.38-ci ildəki “ifadələrini” ona oxuyurlar. Bu ittihamların hamısına alim deyir:

Qəti şəkildə rədd edirəm (s.49)

Dindirmə gecə saat 1-də (27.03.39) kəsilib (s.50).

Növbəti dindirmə 27 may 1939-cu ildə saat 11-in yarısında başlamışdır. Burada da müstəntiq vaxtilə (1931-ci ildə) B.Çobanzadə müdafiə etdiyini müttəhimə irad tutdu.Müttəhim boynuna alır ki, bəli, mən,

B.Çobanzadəni iftira iclasında müdafiə etdim. Mən onu bir alim kimi müdafiə edirdim.

Dindirmə saat 12-də qurtarıb. Cinayət işində Ruhulla Axundovun 09.04.37-ci ildə dostluq münasibətində olduğu adamlar sırasında 23-cü Zifeldin adını çəkməsi haqqında da çıxış vardır (s.57).

Deməli, R.Axundovun dostu olubsa, güllələnməlidir. Hələ bundan bir səhifə sonra həmin Dranişnikov işə R.Axundovun Zifeldi əksinqilabçı pantürkist adlandırmadığı haqqında arayış da əlavə edir (s.57).

1939-cu ilin mart ayının 27-də cinayət istintaq işinin tamamlanması haqqında protokol tərtib edilir (s.109). Müttəhimin xahişi ilə Dranişnikov işlə onu tanış edir. Cinayət işinin 110-cu səhifəsində 1939-cu ilin mart ayının 29-da Dranişnikov ittiham qərargahı tərtib edir. Onu Azərbaycan SSR XDİK müavini aprelin 1-də təsdiq edir. Zifeld Artur Rudolfoviçin işi SSR XDİK-ın xüsusi müşavirəsində baxılmağa göndərilməlidir. Çünki:

1.Azərbaycanda mövcud olmuş əksinqilabi, pantürkist təşkilatın üzvü olmuşdur.

Millətçi təşkilatın fəal üzvləri olan Qubaydulin, Xocayev, Çobanzadə, Bağırov və Mahmudzadə ilə yaxın əlaqədə olmuşdur.

3.Elmi məsələlərin şərhində millətçi mövqedən (işə baxan Estoniyalı bizim millətçimiz imiş – A.B.) çıxış edərək həmin təşkilatın təxribat fəaliyyətində əməli şəkildə iştirak etmişdir. Terminalogiya və orfoqrafiya tərtibində pantürkist xətt yeritmişdir və institutda elmi tədqiqat işlərinin ziyankar istiqamətləndirilməsində iştirak etmişdir (səh.112).

Beləliklə, alim Azərbaycan SSR CM 21/64 və 71-ci maddələri üzrə cinayət məsuliyyətinə cəlb edilir. Elə həmin ittihamnamənin sonluğunda qeyd edilir ki, müttəhim özünü təqsirkar bilmir (s.112). Buna baxmayaraq, Azərbaycan SSR prokurorluğunun xüsusi işlər üzrə müavini K.Seliverstov işin xüsusi müavinə rəyə göndərilməsinə razılıq verir (s.114). Cinayət işində B.Çobanzadənin, E.Qubaydulinin, X.Xocayevin, Q.Tixamirovun I dərəcəli cəzaya (güllələnməyə) məhkum olunduğunu, Q.Bağırovun, Ə.Mahmudzadənin, Ə.Məmmədbəyovun isə həbs edildiyi haqqında arayışlar var. Cinayət işinin 122-ci səhifəsində SSRİ XDİK BDTİ-nin kiçik müstəntiqi, kiçik leytenant Popkovun imzası ilə ittiham qərardadı vardır. Onu SSRİ XDİK 2-ci çöbəsinin əməliyyat müvəkkili, DTK leytenantı, Voxmyanin və XDİK xüsusi müşavirəsi katibliyinin rəisi DTK kapitanı Markeev təsdiq edir ki, cinayət işinə SSRİ XDİK xüsusi müşavirəsində baxılmalıdır (s.122).Sonra DCP hərbi prokuror Kuzmin 1939-cu il iyunun 3-də həmin qərarla razılaşaraq Zifeld Artura 8 il İƏD-də həbs cəzası müəyyənləş-

dirilir (s.125) 1939-cu il iyunun 21-də SSRİ XDİK xüsusi müşavirəsi alimi 8 il həbs cəzasına məhkum edir. Alim həbs ediləndən sonra cəmi 6 aydan sonra həbsxanada vəfat edir (s.27) Aktı Velnikov, Dorojin və Borelski imzalayıb. 1955-ci ildə dekabrın 7-də alimin həyat yoldaşı Xovanski Sara Yakovlevna ərizə ilə müraciət edərək ərinin taleyini soruşur və ona bəraət verilməsini xahiş edir.

1956-cı ildə iyunun 15-də şahid kimi Nizami adına Ədəbiyyat muzeyinin direktor müavini Aleksey Alekseyeviç Klimoyev dindirilir. O, Zifeldi yalnız müsbət cəhətdən tanıdığını deyir (s.132). Qəribədir. Tevosov Samson cinayət işinin 85–89-cu səhifələrində olan 1938-ci ilin 15 dekabrında verdiyi ifadəni 18 ildən sonra,1956-cı ildə verdiyi şahid ifadəsində deyir: Mən onu vicdanlı, namuslu, yüksək mədəniyyətli və hazırlıqlı bir alim kimi tanıyırdım. O, yaxşı dilçi, mütəxəssis idi. Zaqafqaziya hərbi dairəsi hərbi prokurorunun köməkçisi Q.Qarayevin 1938-ci il 15 dekabrındakı ifadəsində “onu ifşa etmisiniz” sualına Tevosyan belə cavab verir: Dindirmədə mənimlə çox kobud rəftar edirdilər”.

Yeri gəlmişkən, Q.Qarayevin sağ olması və ya rəhmətə getməsi mənə məlum olmasa da, deməliyəm ki, bu adam vaxtilə xalqımızın bir çox aliminin bəraət almasında əhəmiyyətli bir iş görmüşdür. 1956-cı ilin iyun ayının 22-də belə bir qərar qəbul edir: İşə yeni-

dən baxılıb SSRİ XDİK xüsusi müşavirəsinin Zifeld Artur haqqındakı qərarını ləvğ etmək üçün Azərbaycan Respublika Prokurorluğuna təqdim edilsin ki, o, bu məsələ haqqında Azərbaycan SSR Ali Məhkəməsinə protestlə müraciət etsin (s.147–148)

Azərbaycan SSR Prokuroru A.S.Babayev 27.06.56-cı il tarixdə Az.SSR Ali Məhkəməsinə göndərdiyi protestdə yazırdı: Xahiş edirəm SSRİ XDİK-nin xüsusi müşavirəsinin A.R.Zifeld haqqındakı qərarını ləvğ edəsiniz və işdə cinayət tərkibi olmadığı üçün ona xitam verəsiniz (s.142).

Azərb.SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının sədri İmanova S., üzvlər: Q.Məmmədov, Y.Quliyevin prokuror İ.Hacıyevin iştirakı ilə işə yenidən baxıb qərara aldı: SSRİ XDİK xüsusi müşavirəsinin A.R.Zifeld haqqında şıxardığı 21 iyun 1939-cu il tarixli qərarı ləğv edilsin və cinayət tərkibi olmadığı üçün işə xitam verilsin (s.145)

Bu haqda arayış da tərtib edilmiş Ali Məhkəmənin sədri M.Hüseynov imzalayaraq, arayış müttəhimin arvadı Sara Yakovlevaya da təqdim edilmişdir (s.147)

Bəli, hər şey öz yerini tutdu. Bircə şeydən başqa! Özündən başqa! Axı görkəmli dilçi-tarixçi-türkoloq kimi Zifeld çox iş görə bilərdi!

# BƏKİR VAHAB OĞLU ÇOBANZADƏ





Azərbaycan filologiyasının inkişafında özünəməxsus iz qoyub gedən görkəmli alim B.V.Çobanzadə 1924-cü ilin payızında Bakıya gəldikdən sonra Azərbaycan Dövlət Universitetində dərs deməklə, orada fakültəyə və kafedraya rəhbərlik etməklə yanaşı, yeni əlifba, orfoqrafiya, terminologiya, dialektologiya və s.

sahələrdə yorulmadan çalışırdı (Adil Babayev. Bəkir Çobanzadə.Bakı, "Şərq-Qərb" nəşriyyatı, 1998).

Belə geniş əməli və elmi, ictimai işlə məşğul olmasına baxmayaraq, eyni zamanda Azərbaycan dili və ədəbiyyatının müxtəlif problemlərinə aid əsərlər də yazırdı. Özünə xas olan bir enerji ilə milli filologiyamızın inkişafına kömək edirdi. Cəmi 16 il davam edən elmi-pedaqoji fəaliyyəti müddətində 15 kitab və 200-dən artıq əsər nəşr etdirmiş, hələ nəşr edilməmiş monoqrafiyaları da vardır.

Bəkir Çobanzadə hər bir əsərində yeni bir müddəa irəli sürməyə çalışmışdır. Alimin 1924-cü ildə Bakıda nəşr edilən "Türk-tatar lisaniyyətinə mədxəl" adlı kitabı o zamankı dilçiliyimizin manifesti sayıla bilər. Bu əsərlə o, nəinki Azərbaycanda, habelə ümumiyyətlə Türk dünyasında ümumi dilçiliyin əsasını qoydu. Bundan əlavə, o zamankı Azərbaycan dilçiliyinin nailiyyətlərindən olan "Türk dili və ədəbiyyatının tədrisi üsulu" (1926–27), "Türk-tatar dialektolojisi" (1927), "Türk dili" (1929), "Türk qrameri" (1929–30) və s. göstərmək olar.

Bu illərdə Azərbaycan Kommunist (bolşeviklər) partiyasının "rəhbəri" M.C.Bağırovun maymaqlığı (bəlkə bilrəkdən edilmiş) üzündən Azərbaycan XDİK və Dövlət təhlükəsizlik idarəsinə çoxlu erməni soxulmuşdu. Onlar çoxdan bu xalqa divan tutmağa

məqam gözləyirdilər. Nəhayət belə bir məqam gəldi. 1905, 1918, 1919-cu ildəki erməni qırğınını azərbaycanlılar çoxdan unutmuşdu. Amma ermənilər bir an belə türkün düşmən olduğunu unutmamışdı. "Bolşevizm", "beynəlmiləlçilik", "kommunizm işinə sədaqət" bayrağı altında onlar xalqımıza divan tutur, Moskvanın cəlladları ilə birləşərək xalqımızın 70 mindən çox oğul və qızını məhv edir. Bunun üçün bəziləri Stalindən "molodes" alırdı. 1937-ci ildə erməni xisləti özü üçün çox əlverişli şərait tapmışdı. 1934-cü ilə qədər hazırlıq işləri görüldükdən sonra "əzizimiz" bolşeviklər partiyası və sovet hökuməti əsl qırğına başlaya bildi. Yəni 1934-cü il dekabrın 1-nə qədər diktatura öz proletariatını belə bir qırğına psixoloji cəhətdən hazırlayırdı. "Qolçomaq", "Kolxoz düşməni", "Sosializmin düşməni" kimi damğalar şəhərə, ziyalıya vurula bilmirdi. Ona görə də yeni bir üsula əl atılmalı idi. Bu da Bolşeviklər partiyasının və Sovet dövlətinin rəhbərlərinə qarşı "terror aktı iştirakçısı" damğası oldu. Bəs terror? Bunun da əlacını tapdılar. 1934-cü ilin dekabrın 1-də Leninqradda S.M.Kirovu öldürdülər. Buna görə də SSRİ MİK xüsusi qərar verdi. Bu qərar Kommunist partiyası Sovet hakimiyyəti düşmənlərini dərhal məhv etməyi tələb edirdi. Azərbaycan XDİK DTİ-yə soxulmuş ermənilər bu qərardan millətimizə qarşı genosid aləti kimi istifadə etdilər. Onlar Dövlət Təhlükəsizliyi idarəsinə soxularaq böyük bir erməni bandası yaratdılar.

Markaryan, Qriqoryan, Qalstyan, Avanesov, Ohanesov, Badalyan və onlarla "yanlar" Azərbaycan xalqından- onun alimlərindən, şairlərindən, ziyalılarından, hərbi xadimlərindən kənddə bir balaca dərin düşünməyi bacaran nümayəndələrindən əsl intiqam aldılar. Az bir müddətdə 70 min nəfərə qədər azərbaycanlını sovet ölüm dəyirmanına tökdülər. Onlardan biri də öz elmi fəaliyyətilə bütün türk dünyasında məşhur olan, Bakıda apardığı geniş elmi, ictimai və pedaqoji fəaliyyəti ilə Sovet İttifaqında məşhur olan prof.B.Çobanzadə idi. 1936-cı ilin axırları və 1937-ci ilin əvvəllərində DTK zindanlarına atılanların şəxsi işinin arayışında yazılırdı ki, həmin dövrdə Azərbaycanda əksinqilabi millətçi, pantürkist təşkilat mövcud ollmuşdur. Həmin təşkilatın vəzifəsi silahlı üsyan və sovet dövləti rəhbərlərinə qarşı terror yolu ilə Azərbaycanı və başqa türk respublikalarını SSRİ-dən ayırıb müstəqil türk-tatar dövləti yaratmaqdır. Bu təşkilatla bağlı №12493-li cinayət işi başlanır. Bütün həbs edilib ölüm maşınının ağzına atılanlar məhz bu saylı cinayət işi ilə əlaqələndirilirdi.

26.01.1937-ci il tarixdə AXDİK DTİ 4-cü şöbəsinin 4-cü bölməsinin rəis müavini təhlükəsizlik leytenantı Şer B.Çobanzadə haqqında belə bir arayış tərtib edir. B.Çobanzadə 1893-cü il təvəllüdlü, simferapollu, krım-tatarı, SSRİ vətəndaşı, bitərəf, dilçi.

APİ və ADU-da dil və ədəbiyyat kafedrasının rəhbəri, SSRİ EA Azərbaycan filialının baş elmi işçisi B.Çobanzadə görkəmli pantürkist xadim, "milli firqə"nin keçmiş katibi, Krım qurultayının üzvü olub.

1924-cü ildən Bakıda yaşayır. Fasiləsiz əksin-qilabi iş aparır.

a) 1926-cı ildən firqə MK-sı adından Müsavat MK-sı ilə söhbət aparır (müttəhim Bahar-lının ifadəsindən)

b) Bu günə qədər əksinqilabçılarla (Yaqub Zəki, Şirinski və s.) əlaqəsi vardır. Onların arasında əksinqilabi, faşist və dağıdıcı iş aparır.

c) R.Axundov B.Çobanzadə ilə partiya və sovet hakimiyyəti əleyhinə söhbət aparıb (müttəhim Çiçikalovun ifadəsindən)

d) Öz ədəbi əsərlərində və mühazirələrində əksinqilabi millətçi ideyalar yayır.

Deyilənləri (nə tutarlı deyilənlər imiş! – A.B.) nəzərə alaraq B.Çobanzadəni həbsə almağı və onu

AzSSR CM 72/73-cü maddələri üzrə məsuliyyətə cəlb etməyi zəruri sayıram.

Bu vaxt alim Krımda "Dağ fəhləsi-mədənçi" (Qornyak) sanatoriyasında istirahət edirdi. Azərbaycan XDİK DTİ-nin məktubu əsasında SSRİ XDİK Şimali Qafqaz ölkəsi üzrə DTİ rəisi Pletnikov Pyatiqorsk türmə rəisinə yazır: "Məhbus B.Çobanzadə ikinci mərtəbədə №15-li kamerada saxlanmaq üçün göndərilir. Bizdən xəbərsiz onu heç yerə etap etməyin (göndərməyin).

31 yanvar 1937-ci ildə B.Çobanzadə üçün №554-li cinayət işi açılır. Piyatiqorsk həbsxanada açılan bir neçə anket və arayışı özündə birləşdirən, sonradan Bakıda tərtib ediləcək üç cildlik cinayət işinə əlavə edilən işdəki məlumatlardan bəlli olur ki, müttəhim B.Çobanzadə inqilabdan əvvəl heç bir partiyada olmayıb, ağların ordusunda iştirak etməyib, atası Vahab kişi 1928-ci, anası Zübeydə 1930-cu ildə vəfat edib. 26.01.1937-ci ildə haqqında arayış tərtib edilən kimi Azərbaycan XDİK DTİ-nin baş leytenantı Tsimanın rəhbərliyi, XDİK-ın əməkdaşları Səfər Məmmədovun, Zaidovun, Naumkinin və Zvenovun, habelə süpürgəçi Aqil Qulamın iştirakı ilə B.Çobanzadənin Voroşilov küçəsində yerləşən 3 sayılı mənzilində axtarış aparırlar. Həmin axtarışın şahidi olan, müttəhimin arvadı Rüqiyyə Kireyevna Çobanzadə sonradan danışırdı ki, alimin əlyazmalarını, kitablarını

balkondan (ikinci mərtəbədən) aşağıda dayanmış yük maşınının içinə atdılar. Beləliklə, Azərbaycan dilinin tarixinə aid qiymətli əsər olan “Kitabi Dədə Qorqud dastanının dili” və onlarla qiymətli əlyazması vərəq-vərəq olub məhv oldu.

Həmin axtarışda aşağıdakılar aşkar edilib götürülmüşdür:

1.Şəxsi kitabxanasından kitablar – 38 ədəd

2.İran və Türk qəzetləri – Cümhuriyyət və Turan

3.Məktubları

4.Foto şəkil – 5 ədəd

5.Qovluqlar içərisində müttəhimin əlyazmaları

6.Bloknot, tələbələrin dərs qiyməti olan dəftər.

Vəssalam, daha heç nə!

Bundan əlavə işdə olan №715-li protokolda göstərilir ki, paltarlar doldurulmuş bir çemodan komendaturaya təhvil verilib.

Bu Bakıdakı axtarışın nəticəsi. bəs Krımda müttəhimin qaldığı otaqda (“qornyak” sanatoriyasında)? Krım DTİ əməkdaşı Barski axtarış aparır. Axtarışda sanatoriyanın həkimi Çuqunov və XDİK Şimali Qafqaz ölkəsi üzrə idarənin əməkdaşı Poqrebnyak və Çutkin iştirak edir. Bu axtarış Bakıdakına nisbətən daha “dərin və ətraflı” olmuşdur. Axtarışda aşağıdakı əşyalar cinayət faktı kimi götürülmüşdür:

1.Pasport – 1 ədəd

2.Kislovodskdan göndərdiyi sifarişli məktubun qəbzi (1)

3.№677028-li kassaya daxil etdiyi 1000 manat pul

4.Hərbi bilet

5.Dil və ədəbiyyat institutunun verdiyi arayış (12.01.1937) (iş yerindən)

6.Vəsiqə №:686

7.Özbəkistan Dövlət Universitetindən məktub: №10/1811

8.Vəkalətnamə № 10/1597

9.48 manatlıq haqq-hesab

10.Qəbzlər №5001, № 20

11.Bakı-Minvod (qatara bilet) № 001719-1 ədəd

12.Dəri portmanat

13.Telefon nömrələri olan qeyd dəftəri

14.41 səhifədən ibarət olan elmi əsəri

15. elmi qeydlər olan dəftəri

Görün ittiham üçün nə qədər əşyayi-dəlil tapılıb?!

Fevralın əvvəlində başqaları kimi, yalan, uydurma ittihamlar əsasında həbs edilən B.Çobanzadəni Bakıya gətirirlər. Əsil faciəli günlər də bundan sonra başlanır. 1930-cu ildən nahaq töhmətlərə, yalan ittihamlara psixoloji cəhətdən alışmış olan B.Çobanzadə haqqında cinayət işi qaldırılır. Cinayət işi 3 cilddən, 1021 səhifədən ibarətdir. Cinayət işi başlanıb: 27.01.1937; qurtarıb: 1.09.1937

İttiham edilir: Azərbaycan SSR CM. 64, 68, 70, 73-cü maddələri üzrə.

Oxucuda tam təsəvvür yaratmaq üçün cinayət işi haqqında geniş məlumat verməyi lazımlı hesab edirik. Çünki belə bir təfsilat oxucuda DTK cəlladlarının Stalin, Ejov, Berya üçlüyünün göstərişi ilə alimlərimizin başına nələr gətirdikləri haqqında müəyyən fikir oyada bilər. Ümumiyyətlə, B.Çobanzadə Bakıya gətirildikdən sonra fevralın 7-dən avqustun 25-dək üst-üstə 57 dəfə dindirilməyə aparılmışdır. Bu dindirmələrin 11-i 3 gün fasiləsiz davam etmişdir. Dindirmə protokollarını təmkinlə, dəqiqliklə araşdırdıqdan sonra mütləq statistik məlumat verməyi lazım bildik. Birinci clddə 14 dindirmə protokolu, ikinci cilddə 12 dindirmə protokolu, 3-cü cilddə 8 dindirmə protokolu vardır. Aşağıda dindirmə tarixləri və dindirənlər haqqında tam və dəqiq məlumatı veririk (işdəki səhifələri göstərməklə)

Birinci cilddə:

7-9 fevral (s.18-69) – Şer, Ohanesov

14 fevral (s.70-82) – imzalar yoxdur, başqa xətlə yazılıb

16 fevral (98-108) – Şer tək.

Buradaca məlumata müdaxilə etmək istəyirik; 3 gün dindirmədən sonra cəmi 10 səhifəlik protokol tərtib edilir. Bu o demək deyilmi ki, Şer müttəhimin boynuna çox şeyləri qoya bilmir, öz siyahısını müttə-himə təkrar etdirə bilmir. Buna görə də daha amansız cəllad X.Qriqoryan işə qarışmalı olur. Görün indi səhifələrin sayı necə çoxalır, "canilərin" siyahısı genişlənir:

3-5 mart (s.109-168) – Qriqoryan, Ohanesov

16 mart (s.169-179) – Ohanesov

17 mart (s.180-205) – Şer, Ohanesov

20 mart (s.206-213) –Şer tək

20 mart (s.214-230) –Şer (bir gündə iki dəfə-A.B.)

21 mart (s.231-246) –Şer, Ohanesov

23 mart (s.247-259) –Şer tək

24 mart (s.260-269) –Şer tək

17–20 aprel (270-332) –X.Qriqoryan, Gerasimov

23–25 aprel (s.333-359) – X.Qriqoryan, Gerasimov

Bu dindirmə ilə istintaq işinin birinci cildi tamamlanır. Oxucuya bu faktlara dərindən nüfuz etməyi xahiş edirəm. X.Qriqoryan işə girişən kimi dindirmələr günlərlə uzanır və protokoldakı səhifələr də çoxalır. Nələri necə soruşub mütəhimin boynuna qoyur, bu haqda irəlidə bəh edəcəyik. İstintaq işinin ikinci cildi tamam dindirmələrdən ibarətdir. Qeyd edək ki, bundan sonra dindirməni X.Qriqoryan aparır:

27–29 aprel (s.360–393) X.Qriqoryan, Ohanesov

4-7 may (s.394–407) X.Qriqoryan, Ohanesov

7 may (s.408–524) X.Qriqoryan, Ohanesov, Gerasimov

Görün bugünkü dindirmədə nələr olub.

İşgəncə. Qayışla, təpiklə vurmaq, təhqir etmək nəticəsində 80 səhifəlik protokola yerləşdirilə bilən "dəqiq" məlumatlar. Kimin ağlına gələ bilər ki, ölüm qorxusu altında psixoloji cəhətdən əzilən, nəm, rütubət dolu yerdə gecələyən, allahın havasını udmağa belə həsrət olan bir adamı cəlladların qabağında belə dəqiq ifadələr verə bilər.

Bu dindirmə Özbəkistanda olan “əksinqilabçı” pantürkistlərin ifşa edilməsinə həsr edilmişdir. Müttəhim birgə fəal əksinqilabi iş apardığı özbək yoldaşlarının adlarını “deyir”. Bunlar aşağıdakılardır: Yunusov Fitrət, Haşımov Ağacan, Elbəy Çolpan, Abdül Həmid Qədri, Əbdürrəhman Sədətxoşsuvarov, Qəyyum Rolsazan, Əliyev Abdullaxan, Rəmzi, Batu, Aşur Əli Zahiri, Altay Səid Əhmədov, Feyzi, Hadi Qeylan, Səid Mahmud Əfəndi. Belə siyahıların sayını artırmaq üçün cinayət işini genişləndirmək daha çox adamı buraya cəlb etmək üçün iş davam edir. Yenə dindirmələr.

14 may (s.525–528) Qriqoryan (cəmi 3 səhifəlik dindirmə-A.B.)

11 iyun (529–541) X.Qriqoryan, Ohanesov

13 iyun (542–546) Qriqoryanın imzası

25 iyun (547–572) Görün neçə saat dindiriblər. 30 səhifəlik protokol. Dindirmələr-cəlladlar dəstəsi XDİK müavini Gerasimov, 4-cü şöbənin rəisi Qriqoryan, şöbə rəisi Zikov, IV şöbə katibi – Ohanesov

5–9 iyul (573-617) Qriqoryan, Ohanesov

13–14 iyun (618-654) Qriqoryan, Ohanesov

16–17 iyul (659-685) Qriqoryan, Ohanesov

20–21 iyul (686-703) Qriqoryan, Ohanesov

İkinci cild bu dindirmələrlə qurtarır. Üçüncü cild yenə dindirmələrlə başlanır:

27 iyul (704-719) Qriqoryan tək

28–29 iyul (720-719) Qriqoryan, Ohanesov

29 iyul (738-745) Qriqoryan, Ohanesov

29 iyul (746-751) Qriqoryan, Ohanesov

Diqqət edin: Bir gündə üç dəfə dindirmə

2 avqust (752-756) Qriqoryan tək

25 avqust (757-758) Qriqoryan tək. Cəmi bircə səhifəlik protokol. Çünki müttəhimi dindirmək olmur. O, ayaq üstə dura bilmir, cavab vermək iqtidarında da deyil.

25 avqust (759-760) Qriqoryan tək.

Göründüyü kimi ikinci dəfə həmin gün dindirməyə cəhd göstərilir. Ona isti və soyuq su verilir.Onu döymək lazım deyil, çünki onsuz da taqəti yoxdur.

Sentyabrın 1-də (761-771) altı günlük istirahətdən sonra Qriqoryan əzrail kimi yenə müttəhimin gözünə görünür. Müttəhimə cinayət işinin qurtarması və 10 bəndlə təqsirli bilinib işinin məhkəməyə göndərilməsi protokolunu oxuyur və ondan bu haqda qəbz alır.

Bu, dünya şöhrətli, məhsuldar bir alimin cəllad caynağında min bir əzablarla dolu dindirilmə tarixinin icrası idi.

İndi qayıdaq dindirilmənin mahiyyətinə. Yuxarıda dediyimiz kimi, alimi fevralın lap əvvəlində Bakıya gətirmişdilər. Onun hansı gün Azərbaycan DTİ-nə təhvil verilməsi haqqında işdə sənəd yoxdur. Birinci dindirmədə onu "başa salırlar" ki, hər şeyi desə buraxarlar. Filoloqlar sadəlövh, hər şeyə inanan olur. Ona görə də müstəntiqin məkrinə inanır. Birinci dindirmədə:

Müstəntiq: Hansı antisovet siyasi təşkilatda olmusunuz?

Cavab:Mən 1920-24-cü illərdə "Milli firqənin" üzvü olmuşam. 1920-22-ci illərdə "Milli firqə"nin

rəhbərlərindən biri – katibi olmuşam. 1926-cı ildə "Milli firqənin" əksinqilabçı olduğunu bildim. Amma mən onun əksinqilabi fəaliyyətində istirak etməmişəm. 1926-cı ildən "Milli firqə" ilə əlaqəmi tam kəsmişəm.

Burada müstəntiq onun boynuna "Milli firqə" ilə müsavat partiyası arasında əlaqə yaratdığını qoymaq istəyir. Müttəhim bunu etiraf edir. Müstəntiqin Əziz Qubaydulinin xariclə əlaqəsi haqqında nə bilirsən sualına o, belə cavab verir: Ə.S.Qubaydulinin xariclə əlaqəsi haqqında mənə heç nə məlum deyil.

Fevralın 16-dakı 3-cü dindirmədə müstəntiq soruşur:

İstintaqa məlumdur ki, siz həbs edilənə qədər əksinqilabi millətçi mövqedə olmusunuz. Boynunuza alırsınızmı?

**Cavab:** boynuma alıram. Həbs olunana qədər mən əksinqilabi millətçi mövqedə olmuşam.

**Sual:** Siz habelə əməli surətdə əksinqilabi iş aparmısınız.

**Cavab:** Boynuma alıram. Mən şəxsən həbs olunana qədər əməli olaraq əksinqilabi iş aparmışam.

Ötən protokolda dediklərimdən əlavə, mən aşağıdakı əksinqilabçılarla əlaqədə olmuşam:

–Yaqub Zəki, Kentaqoy Bilal, Əsgərzadə (Salman Mümtaz), Adıgözəlzadə Ələkbər, Şirinskaya Reveda xanım, Termatevosovov Aleksandr Qriqprye-viç (işə bax pantürkist erməni millətçisi ilə dost imiş-A.B.) Axundov Ruhulla, Həsənov İdris, Bukşpan Aleksandr Semenoviç, Zeynallı Hənəfi, Zifeld Artur Rudolfoviç, Baqri Aleksandr Vasileviç, Biləndərli Hüseyn, Qiyasbəyli Mədinə xanım, Feyzullayev K., Abbasov İsmayıl, Əsgərov Baba, Akimova Asiya, Refatov A., Axundov Ağa, Sultanov Rüstəmbəy.

Şimali Qafqazda: – Alimpaşa-Solqar, Əbusuf-yan – Kumık, Ədhəm Feyzi, Şövqi Bektora.

Özbəkistanda: Fikrət Yunusov, Hadi Alim, Əliyev (adı? – A.B.), Tulyaqanov Dusura, Qəyyum Ramazan, Həşimov Ataxan, Şakircan Rakim, Konkin-bek Abdulla, Dursun (adı? – A.B.)

Ermənistanda: Acaryan (adı? – A.B.)

Türkmənistanda:Keldenov, Borkev, Perenqanov

Leninqradda: Samoyloviç A.M., Malov S.Y., (1928-ci ildən onunla əksinqilabi əlaqədəyəm)

Müstəntiq: Bu məsələyə qayıdacağıq. Bunlarla əlaqəniz necə idi?

**Cavab:** Əksinqilabi görüşləri bir-birimizə deyirdik.

Dindirməni Şer aparıb. Ona görə də burada ermənilərin də adı çəkilib. Məntiqə bax pantürkist millətçi Ç.Bəkir türkün düşməni, millətçi Termatevosyan və Acaryanla birlikdə işləmişlər ki, sovet hakimiyyətini yıxıb müstəqil türk-tatar dövləti yaratsınlar! Bundan əlavə necə olurdu ki, uzun müddət birgə əksinqilabi iş apardığı adamın familyasını müttəhim deyir, adını bilmir. Bununla da müstəntiq razılaşır. Daha sonra bu dindirməyə dediyi adamlardan təkcə Yunusov Fitrətin, Atacan Haşımovun və Qəyyum Ramazanın adını mayın 7-də çəkir. Mayın 7-dəki dindirmədə ona daha çox özbək "həmməsləki", "həmkarı" tapırlar.

3-5 mart protokolundan:

**Sual:** Sizdə bu fikir (pantürkist) nə vaxtdan yaranmışdır?

**Cavab:** Pantürkizm ideyası hələ mən Türkiyədə oxuyarkən məndə yaranmışdı. Yuxarıda dediyim kimi əksinqilabi fikir isə məndə 1925-ci ildə yarandı.

**Sual:** Siz mübarizənin yolunu necə düşünürdünüz?

**Cavab:** mən hesab edirdim I Türkmənistan, Tatarıstan, Özbəkistan, Krım, Qazaxıstan və Azərbaycan əksinqilabçılarının işini əlaqələndirib birləşmiş mərkəzdən idarə etmək; 2. emiqrasiyada olan, pantürkist. əksinqilabi əhval-ruhiyyəli dairələrlə əlaqə yaratmaq. Bu cəhətdən mən D.Seyidametov və prof. Köprülüzadəyə ümid edirdim. (ş.i.səh 158).

**Sual:** Bu tədbirləri həyata keçirmək üçün siz nə etmişdiniz?

**Cavab:** bu suala cavab verərkən mən 1925–30-cu illər arasındakı əməli fəaliyyətimdən danışacağam. Bizim əksinqilabi təşkilat Bakıda 5 əksinqilabi qrup yaratmışdı.

Birinci qrup – Azərbaycan ziyalılarından ibarət idi. Rəhbəri B.Çobanzadə (niyə mən yox – A.B.).

İkinci qrup – Bakıda təhsil alan Krım tələbələri. Rəhbəri B.Çobanzadə (yenə mən əvəzinə B.Çobanzadə – A.B.).

Üçüncü qrup – Azərbaycan ziyalıları – rəhbəri İsmayıl Hikmət: O, 1927-ci ildə SSRİ-dən gedəndən

sonra qrupun bir hissəsi mənim ziyalılardan ibarət qrupuma qoşuldu.

Dördüncü qrup-Azərbaycan ziyalılarından ibarət idi. Rəhbəri Qubaydulin Əziz idi.

Beşinci qrup – Qazan tatarlarından ibarət idi. Rəhbəri Qubaydulin Əziz idi.

Müstəntiq Şer dairəni daha da genişləndirmək məqsədilə Çobanzadənin nəinki tələbələrinin, habelə heç tanımadığı adamların adlarını da buraya əlavə etdirirdi. Görün 3 gün aramsız davam edən, əzab və işgəncələrlə dolu dindirmə protokolunda nə qədər əksinqilabçı, millətçi adamların adları meydana gəlir. Yuxarıda deyilən 5 qrupun siyahısına baxın:

**Sual:** Əksinqilabçı qrupların tərkibini deyin.

**Cavab:** Əksinqilabçı qrupların aşağıdakı üzvləri mənə məlumdur:

I qrup: - Rəhbəri Çobanzadə (yenə niyə birinci şəxs yox – A.B.)

1) Cabbar Məmmədzadə-bitərəf, Bakıda ali məktəb müəllimi

2) Ağazadə fərhad (1929-cu ildə ölüb)

3)Qarabağlı (Şer siyahı tərtib edəndə müttəhimin adını da bilməyib)

4) Ələkbərli Qulam-bitərəf, ADU tələbəsi, indi pedaqoji institutun tələbəsidir.

5)Seyidov Əhməd – Ali partiya məktəbi müəllimi

7) Qasımov Əli Səbri – tərcüməçi, bitərəf

8) Əfəndizadə Əbdülkərim – 1934-cü ildə ölüb

9) Abdullayev (adı yoxdur) Bakı XMŞ işçisi

10) Salman Mümtaz – yazıçı

11) Əsgərov Baba – ADU müəllimi AK (b)i üzvü

12) Abbasov İsmayıl – keçmiş tələbə, indi haradadır bilmirəm

13) Əmirxanov (adı yoxdur) – bitərəf, keçmiş tələbə, yerini bilmirəm

14) Əlizadə İsmayıl ADU-nun keçmiş tələbəsi, indi AzFAN-da işləyir.

15) Sultanlı Əli – ADU-nun keçmiş tələbəsi, indi APİ-nin müəllimi

16) Çitinayevi (adı yoxdur) – keçmiş ADU tələbəsi, Moskvadadır.

İkinci qrup Krım tatarlarından ibarətdir (Bu qrup yalnız keçmiş tələbələrdir – A.B.) Rəhbəri Çobanzadə.

1.Yaqub Zəki – ADU-nun keçmiş tələbəsi, indi APİ-nin müəllimi

2.Kürkçü Hüseyn – ADU-nun keçmiş tələbəsi, Krımda müəllim

3.Akimova Asya – ADU-nun keçmiş tələbəsi, məktəb müəllimi

4.Toplu Osman – Krımda müəllim

5.Ametov İsmayıl – Krımda müəllim

6.Refatof Rəşid – Simferopolda müəllim

7.Enan Əbdürrəhman – Krımda müəllim

8.Refatov Asan – Krımda müəllim

9.Tanbəyli Ağmolla – Krımda işləyir

10.Gegarbayev Osman – Dağıstanda aqronom işləyir

11.Tarki Zəki – Krımda müəllim

12.Bayasanov Bilal – Bakıda müəllim

13. Bayasanov Osman – Bakıda müəllim

14.Qasımov Tofiq – Bakıda yaşayır

15.Şeyxamirov Osman – Bakıda yaşayır.

16.Cəlilov Rəcəb – Gəncədə yaşayır

17.Şeyxəhmədova Xədicə – həkim Simferopolda yaşayır

18.Hacı oğlu Məhəmməd – həkim, 1930-da ölüb

19.Jurqçi Ömər-həkim, simferopolda yaşayır

"Əhsən" Şerin "usta" – savadsız müstəntiqliyinə! Krım-tatar təşkilatı içində azərbaycanlılar da vardır.

Üçüncü qrup:

1.Musaxanlı Atababa – APİ tələbəsi. Bakıda müəllim.

2.Zeynallı Hənifə – AzQİZ keçmiş işçisi, indi “AZFAN” işçisi

3.Əfəndizadə Cabbar – 1928-də Türkiyəyə gedib

4.Tağızadə Abdulla – AzFAN işçisi

5.Xocayev Xalid Səid – “AzFAN”da elmi işçi

6.Müşfiq Mikayıl – keçmiş tələbə, indi şair

7.Hüseynzadə Əli – Leninqradda aspirant

8.Rzaquliyev Mikayıl – Pedaqogika İnstitutunun işçisi

9.Cavid Hüseyn – şair

10.Əhməd Cavad – yazıçı (Əhsən Şer ziyalıları yaxşı tanıyırmış)

11.Kəmbulat Mikayıl – 1929-da ölüb (ölənləri isə inandırmaq üçün burada daxil ediblər)

12.alim Paşa Soqavat – Dağıstanda yazıçı

13.Yusifov Surxay – Dağıstanda yaşayır

14.Şaiq Abdulla – yazıçı

Dördüncü qrpun rəhbəri Qubaydulin Əziz

1.Salamzadə Əziz – Leninqradda Akademiyada asistent

2.Məmmədov Ağamir – AzFAN işçisi

3.Bukşpan – ADU - professor (deməli yəhudi də pantürkist imiş)

4.Bayramov Məmməd – APİ müəllimi

5.Xuluflu Vəli – AzFAN işçisi

6.İmanov Həsən – AzFAN işçisi

7.Ələkbərov Ələsgər – AzFAN işçisi

8.Salamov Möhsün – Azərbaycan Dövlət Muzeyinin direktoru

9.Biləndərli Hüseyn Əli – ADU müəllimi

Qubaydulin Əzizin Kazan tatarlarından ibarət qrupu

1.Şərifov Abdulla – Bakı Ali Partiya məktəbi müəllimi

2.Səhətov (adı yoxdur – A.B.) yerini bilmirəm

3.Xəlfin Məcid – Bakıda müəllim

İndi oxucu təsəvvürünə gətirə bilərmi ayaqüstə, soyuq, rütubət yerdə qalasan, işgəncələr verələr, döyülüb təhqir ediləndən sonra cəlladının qabağında 60 nəfər haqqında dəqiq məlumat verə biləsən, özü də hər qrupu ayrı-ayrı. Yəni birinci qrupda 15 nəfər, ikinci qrupda 19 nəfər, üçüncü qrupda 14 nəfər, dördüncü qrupda 9 nəfər, beşinci qrupda 3 nəfər.

Buradan cəlladın siyahını necə savadsız-məntiqsiz tərtib etməsi də aşkarlanır.

Yenə həmin dindirmədə müstəntiq soruşur:

Siz Azərbaycanda, Özbəkistanda və başqa respublikalarda pantürkist işlər aparmaq üçün əksinqilabi mərkəz yaratmışdınızmı?

**Cavab:** Yox

**Sual:** Siz hədər danışırsınız. Bəs nə üçün bu işi başlamışdınız? Başqa respublikalara gedirdiniz.

Məlumdur ki, qurultaydan sonra alimin işi ümumittifaq miqyasına çıxmışdı. Yəni azərbaycan yeni türk əlifbası komitəsi türkoloji qurultayın qərarı ilə SSRİ MİK tərkibinə keçmiş, özü də ÜİYTƏMK (Ümumittifaq Yeni Türk Əlifbası Mərkəzi komitəsi) adlanmışdı. Buna görə də Çobanzadə 1927–30-cu illərdə türk respublikalarında yeni əlifba və orfoqrafiya problemlərilə əlaqədar olaraq konfranslar keçirmişdi. Bu haqda irəlidə geniş bəhs edəcəyik.

Aprelin 17-dən başlayaraq Qriqoryan işə qarışır. Bundan sonra suallar ciddiləşir. Dindirmə günlərlə - 3 gün davam edir. Bundan əlavə suallar sərtləşdikcə cavablarda özünüittiham daha da canlanır. 17–20 aprel dindirməsində (bu 13-cü dindirmə idi) müstəntiq Qriqoryan və Gerasimovun imzası belə yoxdur. Başqa xətlə Ohanesov qol çəkmişdir.

İşin ciddiləşdiyini görən B.Çobanzadə özünün ən qəddar cəlladlarından aman diləmək belə istəyir. Lakin ona imkan vermirlər.

İşin ikinci cildi də tam dindirmələrdən ibarətdir. Cinayət işinin üçüncü cildində alimin bədbəxtlik yoldaşları, cəlladın ölüm dəyirmanında üyüdülən başqa

ziyalılarımızın döyülərək B.Çobanzadə haqqında verdikləri ifadələr də vardır. Bunlara nəzər yetirin:

1.Vəli Xuluflunun 29.01.1937, 26-27.02.1937, 25-28.02.1937, 20.04.1937, 8.05.1937-ci il dindirmə protokolundan çıxarışlar.

2.Əli Kərimovun 15-17.04.1937-ci il

3.Ruhulla Axundovun 9.04.1937-ci il

4.Hənəfi Zeynallının 15-17.04. 1937, 15-20.05. 1937, 25-29.05.1937

5.Qubaydulin 19-20.04.1937, 23-30.04.1937, 19-23.05.1937, 1.07.1937, 4-5.07.1937, 4-5.08.1937, 16-17.08.1937

6.Mahmudzadə A. 27.04.1937, 1.06.1937, 4.07.1937, 7.07.1937

7.Tixomirov B.N. 10.05.1937

8.Biləndərli H. 20-23.05.1937, 26.08.1937

9.Yaqub Zəki 13.06.1937, 21.06.1937, 21-25.04.1937, 21-25.06.1937

10.Dadaşov Ağakərim– 19.06.1937, 27.07.1937

11.Xəlifin 19.06.1937, 13-19.06.1937, 13-14.07.1937

12.Xalid Səid 6-21.06. 1937, 13-14.07. 1937

13.Əfəndiyev M. 27.02. 1937,26.06. 1937, 27.06. 1937

14.Salmanov Rza-23.06. 1937, 29.06. 1937

15.Kərimov Əli 8-9.071937,27.07. 1937

16.Dövlətov İ.N 7.07.1937

17.Əhməd Cavad – 25.07.1937

18.Səfərov Həsən 27.07. 1937, 7.08.1937

19.Fərəcov A. 1.08. 1937

20. Kamal Sami Suriya 2.08. 1937

27 iyul 1937-ci il dindirməsində təzəcə rütbəsi artırılmış 4-cü şöbənin rəisi Dövlət təhlükəsizliyi başleytenantı X.Qriqoryanın "Sizə məlum olan əksin-qilabçıların tərkibini deyin" sualına B.Çobanzadə aşağıdakı cavabı verir. Cavab: mənə məlumdur ki, əksin-qilabçı tərkibə aşağıdakılar daxildir:

1.Baqri Aleksandr Vasileviç-professor, slavyanşunas

2.Juze Penteleymon Krestoviç-professor, tarixçi

3.Yelpitevski Sergey Vladimiroviç – professor, botanik

4.Pisarevski Qriqori Qriqoreviç – tarixçi, professor
5.Uvar-uvar (adı – A.B.) - elmi işçi

6.Belyayev (adı yox – A.B.) dilçi, indi Rostovdadır

7.Ryumin (adı yox – A.B.) - elmi işçi

8.Aşmarin Nikolay İvanoviç – dilçi professor (1926-da Bakıdan gedib – A.B.)

9.Baybakov-(adı – A.B.) - tarixçi professor

10.Lapuxin-(adı – A.B.) - professor

11.Kovonko Aleksandr Serqeviç-professor, riyaziyyatçı

12.Konfovski Boris Borisoviç – professor, pedaqoq

13.Makovelski Aleksandr Osipoviç – professor, psixoloq

14.Yevlaxov Aleksandr Mixayloviç – tarixçi, professor

15.Fridoloin Pyotr Petroviç – professor

16.Şirokoqorov İvan İvanoviç – professor, təbib

17.Akimov (adı yox – A.B)

18.Paxomov Yevgeni Aleksandroviç – dos.arxeoloq

19.Budnik Svirsk – elmi işçi

20. Linin (adı) – indi Rostovdadır

21.Sisoev(adı) – dosent

22.Selixanoviç – professor pedaqoq

23. Mizerpitski Polin Qriqoreviç – təbib professor, Moskva

24.Lukov İvan İvanoviç – professor

Görün Qriqoryan bəzilərinin adlarını belə bilmədiyi halda tərtib etdiyi əksinqilabçılar siyahısına bircə erməni salıbmı?

Çobanzadəni V.Xuluflu və Qubaydulin Əzizlə 1 avqustda, Ruhulla Axundovla 22 avqustda üzləşdirmişlər.

Ümumiyyətlə, B.Çobanzadənin işi 1021 səhifədən ibarətdir. Avqustun 22-də R.Axundovla üzləşdirirlər. B.Çobanzadəni əvvəlcədən R.Axundovun əleyhinə hazırlamışlar. Burada B.Çobanzadənin R.Axundov haqqında dediklərini ikinci dəfə qəti şəkildə rədd edir. Üzləşdirməni Qriqoryan aparır.

Sentyabrın 2-də Azərbaycan Xalq DİK Sumbatovun təsdiqi ilə 9 səhifədən ibarət ittiham qərardadı (заключение) tərtib edilir. Burada göstərilir ki, guya:

1.Həbs edilən günə qədər əksinqilabçı-pantürkist təşkilatın mərkəzinin üzvü olaraq ÜİK (b) P və Sovet hakimiyyəti ilə barışmaz mübarizə mövqeyində olmuşdur. Bu təşkilat Milli Respublikaların SSRİ-dən silah işlətməklə ayrılmasını və "vahid-türk-tatar dövləti" yaratmağı planlaşdırırdı.

2.Krımda, Azərbaycanda, Özbəkistanda və Dağıstanda silahlı üsyana hazırlaşmaq üçün bilavasitə və fəal iş aparmışdır.

3.Türkiyə və Polşa kəşfiyyatının agenti olaraq fəal cəsusluq işi aparmışdır.

Başqa sözlə, Azərbaycan SSR CM 21/64, 68, 70, 73-cü maddələri üzrə cinayətdə ittiham edilir (vəssalam-A.B.)

Bundan başqa, ittiham maddəsi, sübut-dəlil yoxdur.
Bundan sonra, müttəhim yenə də ümidini itirmədən görün kimə ərizə yazır.

Azərbaycan Sovet Sosialist Respublikası Xalq Daxili İşlər Komissarı 3-cü dərəcəli komissar Y.D.Sumbatova prof.filologiya doktoru Çobanzadədən

Ərizə

İstintaq qurtardıqdan sonra icazə verin aşağıdakıları bildirim:

Hər şeydən əvvəl, mən öz izahatlarımın tam səmimi-düzgün olduğunu təsdiq edirəm. Məhz mənim bu izahatlarım göstərir ki, bu bəyanatım boş, mənasız

deklarasiya deyildir. İstintaqa məlum olduğu kimi, mən uzun müddət burjua millətçi olmuşam. Mənim həyatımın əsas mərhələləri izahatlarımda tam əks olunmuşdur ki, mən burada onların bir neçəsini qeyd etməklə kifayətlənəcəyəm.

(Burada o müxtəlif yerlərdə, müxtəlif təsirlər altında pantürkist millətçi ideyaları qəbul etdiyini göstərir – A.B.)

Sonra davam edir. Bu keçmişimdə ağ ləkələr kimi aşağıdakıları göstərə bilərəm:

1. Mən bu ixtisas üzrə Sovet şərqində ilk professoram ki, mənə bu adı Sovet hakimiyyəti vermişdir. Mən bu respublikaların ana dilində ilk mühazirələr oxuyuram. Mənim ixtisasım üzrə üniversitetdə ilk kurslar yaradılmışdır (Bədbəxtliyinin səbəbi də bu imiş, ay yazıq – A.B.)

2.Mən bütün elmi yaradıcılığım boyu 150 elmi əsər yazmışam. Bunlardan 100-ü Azərbaycan dilində olub, Azərbaycan dili və ədəbiyyatı problemlərinə həsr edilmişdir (Sumbatov bunu istəyirdimi? – A.B)

Bu işlərin çoxu indi də öz elmi dəyərini itirməyib.

3.Mən demək olar ki, tamamilə boş bir yerdə yüzlərlə dilçi və ədəbiyyatşunas kadr yetişdirmişəm. Bunlar içərisində onlarla yüksək ixtisaslı elmi işçilər, asistentlər vardır ki, onlar ölkəmizdən xaricdə də məşhurdur. Təkrar edirəm, bununla mən öz cinayət fəaliyyətimi ört-bastır etmək, öz əksinqilabi işimi kiçiltmək istəmirəm. Mən tamamilə, səmimiyyətlə bildirirəm. Mən tamamilə tərksilah olmuşam, mən gələcəkdə hər hansı bir əksinqilabi iş görəcəyimdən qəti imtina edirəm və böyük Kommunist Partiyasının rəhbərliyi altında ucsuz-bucaqsız vətənimizdə sosializm quruculuğu işlərində sonsuz əzmimlə çalışmağa hazıram. Mən qəti və dönməz olaraq öz keçmişimlə, keçmişdə əlaqədə olduğu bütün əksinqilabi-millətçi təşkilatlar və şəxslərlə əlaqəni tamamilə və qəti şəkildə kəsməyi qərara almışam. Buna görə də mən böyük Kommunist Partiyasından və Sovet hökumətindən xahiş edirəm ki, mənə öz ixtisasım üzrə işləməyə, habelə Sovet İttifaqının qüdrətinin möhkəmlənməsi naminə işləməyə aman versin.

21.09.1937. prof.B.Çobanzadə.

Beş səhifəlik rusca çox savadlı, amma şəraitsizlikdən əyri sətirlərlə, göy mürəkkəblə yazılmış bu aman diləmə ərizəsinin üstündə sentyabrın29-da qırmızı karandaşla yazılıb: “tov, Qriqorən, sşitğ v delo!”- vəssalam.

Bu da böyük ümidlə həyatını xilas etmək üçün əl atılmış son saman çöpü.

Cinayət işinin 10-15-ci səhifəsində SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının səyyar sessiyasının hazırlıq iclasının protokolu gəlir (11.10.1937). İnsanlığın bəlkə də bizim millətin ən qəddar düşmənlərindən olan cəllad İ.Matuleviçin, İ.M.Zaryanovun, Y.K.Jiqurun, SSRİ prokurorunun baş köməkçisi V.S.Rozovskinin iştirak ilə "tərtib edilən" protokol bircə səhifədir. Hər şey əvvəldən yazılıb. Təkcə açıqca seçilən ittiham qurbanının familyası başqa makinədə yazılır.

Qərar hissəsi (əvvəlcədən hazırdır) belədir.

1.İşə (adı çəkilənlər) 1 dekabr 1934-cü il qanunu ilə baxılsın.

2.B.Çobanzadə (başqa xətlə yazılıb – A.B.) 64, 63-1, 70, 73 maddələrlə məhkəməyə verilsin.

3.İşə bağlı məhkəmə iclasında müdafiəçisiz, ittihamçısız, şahidsiz baxılsın.

4.Qəti imkan tədbiri kimi həbs qüvvədə saxlanılsın.

Bu haqda müttəhimdən qəbz də alıblar (Qanunun "aliliyinə" bax ki, özünə ittihamnamə vermək haqqında qəbz də alırlar – A.B.). Bağlı məhkəmə iclasının protokolu cəmi səhifə yarımdır. İclas 11:20-də başlanıb, 11:40-da qurtarıb.

Bu 20 dəqiqənin içində sədr kimin işinə hansı maddə ilə baxılacağını elan edir. Katib məlumat verir ki, müttəhim gətirilib, şahidlər çağırılmayıb (görəsən kimə məlumat verir, axı cəlladlar özü qurbanlarını qabağında görürdü – A.B.)

Sədr işin mahiyyətini müttəhimə izah edir və özünü günahkar bildiyini soruşur. Müttəhim özünün cinayətini tamamilə boynuna alır.

Sonra sədr müttəhimə son söz verir (Görəsən bu nə üçün imiş, axı hər şey hazırdır).

Məhkəmə müşavirəyə gedir. Bundan sonra hökm oxunur.

Hökm: Sovet Sosialist Respublikaları İttifaqı adından SSRİ Ali Məhkəməsi hərbi kollegiyasının səyyar sessiyası (Matuleviç, Zaryanov, Jiqur) 12 oktyabr 1937-ci ildə B.V.Çobanzadənin 64, 63-1, 70, 73-cü maddələr üzrə cinayət işinə baxaraq qərara alır:

B.V.Çobanzadə əmlakı müsadirə edilməklə ən yüksək cəzaya – güllənməyə məhkum edilsin. Hökm qətidir. Ondan şikayət vermək olmaz.

SSR MİK 1 dekabr 1934-cü il qərarına əsasən hökm dərhal yerinə yetirilməlidir.

İşin 1021-ci səhifəsində B.Çobanzadənin 13.10.1937-ci il tarixdə güllələnməsi haqqında Şevolovun imzaladığı arayış vardır. Güllələnmə haqqında akt SSRİ XDİK I şöbəsində cild-8, s.33 saxlanılır.

Arvadı Çobanzadə Ruqiyyə Kerey qızının heç yerdə evi olmadığı üçün Xaçmazdakı qohumu R.Abdulungildə qalır və oradan Zaqafqaziya hərbi prokurorunun baş köməkçisi Çesnokova 2 ərizə yazır. Orada göstərir ki, mən ərimə görə 8 il həbs düşərgəsində əziyyət çəkmişəm. İndi mənə məlum deyil ki, o ölüb, ya qalır.nəhayət 1956-cı il 18 sentyabrda SSRİ Baş Prokurorluğunun hərbi prokuroru ədliyyə polkovniki B.Plexanov SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasına məktub göndərir. Beş bəndli izahatla B.Çobanzadənin işində cinayət tərkibi olmadığını bildirir və ona bəraət verilərək işə xitam verilməsini xahiş edir (s.130).

Nəhayət SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası ədliyyə polkovniki Kostromininin – sədr, üzv-

lər: ədliyyə polkovnikləri Koleşovun və Paşkatovun iştirakı ilə qərara alır.

SSRİ Ali məhkəməsi hərbi kollegiyası səyyar sessiyanın B.V.Çobanzadə haqqında 12.10.1937-ci il tarixli qərarı ləğv edilsin. İşdə cinayət tərkibi olmadığı üçün işə xitam verilsin.

İş arxivdə ARX PR 26929-da saxlanır.

Oxucuda Matuleviç, Zaryanov və Jiqur cəllad-xanasının iş rejimi haqqında təsəvvür yaratmaq üçün aşağıdakı məsələlərə diqqəti cəlb etməyi lazım bilirik. Deməli hər bir müttəhimin qətlinə fərman vermək üçün cəmi 15-20 dəqiqə ayrılırdı. 1937-ci il oktyabrın 12-də saat 9-dan 11-20 dəqiqəyə (B.Çobanzadənin məhkəməsinə) qədər 7 nəfərin işinə baxılmışdı. B.Çobanzadənin "məhkəməsi" başlandı 11:20-də, bitdi 11:40-da.

Qubaydulin Əzizin "məhkəməsi" başlandı 11:40, qurtardı 12:00-da.

Diqqət edin. Bircə dəqiqəni belə boş buraxmırlar. Qurbanının birini bu qapıdan çıxarmamış digərini o biri qapıdan gətirirlər.

Əlimizə keçən sənədlərdə yenə buna inandırıcı sübutlar vardır.

Yenə həmin gün Böyükağa Talıblının "məhkəməsi" başlanıb 15-25, qurtarıb 15:45.

Hənəfi Zeynallının "məhkəməsi" başlanıb 16:25, qurtarıb 16:40.

Vəli Xuluflunun "məhkəməsi" başlanıb 18:00, qurtarıb 18:20.

Oktyabrın 13-də Əli Nəzminin "məhkəməsi" başlanıb 13:25, qurtarıb 13:40.

Xalid Səidin "məhkəməsi" başlanıb 15:10, qurtarıb 15:25.

Saniyev Kəbinin "məhkəməsi" başlanıb 22:05, qurtarıb 22:25.

Tixomirovun "məhkəməsi" başlanıb 22:25, qurtarıb 22:40.

Əziz oxucu, diqqət et. Gecə yarıya qədər davam edən "məhkəmələr"də xalqımızın say-seçmə oğullarının qırğını davam edirdi. Müqayisəsi uzaq olsun, bir qoyunu kəsmək üçün 25-30 dəqiqə lazım gəldiyi halda, həmin cəlladların ölüm hökmü verməsi üçün 15-20 dəqiqə kifayət edirdi. Əllərinə fürsət düşmüş cəlladlar fasilə də etmir, bayram da keçirmir (yeni il bayramında da) gecəli-gündüzlü işləyirlər. Amma həbsxanalar ağzına qədər dolu idi. Onlar adamlar üçün ölüm hökmü protokolunu belə doldurmur, 56 nüsxə kopirovkadan çıxmış protokola təkcə müttəhimin adını yazırdılar. Buna da vaxt çatmadıqda bəzi müttəhimi başqa şəhərdəki həmkarlarının sərəncamına göndərirlər. Məs: Taği Şahbazini Qroznı şəhərində "fəaliyyət göstərən" Nikitçenko, İyevlev və İşenko üçlüyünü sərəncama göndərmişlər. Orada 1937-ci il

yeni il axşamı ADU-nun rektoru Tağı Şahbazi günorta çağı 15 dəqiqəlik məhkəmədən sonra ölüm cəzasına məhkum edilmişdi. Bakıda iş daha çox olduğu üçün Nikitçenko, İyevlev və İşenko özlərinin qatil həmkarlarının köməyinə çatdırdılar. Tağı Şahbazidən cəmi 12 gün sonra Bakıda  Azərbaycanın istedadlı dilçi alimi Abdulla Məmməd oğlu  Tağızadənin qətlinə hökm vermək üçün buraya gəldilər.

Akademik Ziya Bünyadov qeyd edir ki, Matuleviç və Nikitçenkonun hərbi tribunalı 1937–38-ci illərdə xalqımızın 70 mindən çox oğul və qızını məhv etmişdir (Bax Bünyadov Z.M. “Qırmızı terror”. B., 1993, s.269)

# YAQUB FƏRƏC OĞLU ƏLİYEV



Ümumi dilçilik sahəsində çalışan görkəmli alimlərimizdən biri də Yaqub Əliyevdir. Ona görə görkəmli deyirik ki, 1942-ci ildə həbs olunana qədər o, 1938-ci ildə 27 yaşında Leninqradda namizədlik dissertasiyası müdafiə edib ilk azərbaycanlı alim, filoloq kimi işə başlamışdı. B.Çobanzadə 1937-ci ildə həbs ediləndə APİ-nin dilçilik kafedrasına bir müddət rəhbərlik etmişdi. ADU-nun filologiya fakültəsi və onun ümumi dilçilik kafedrası üzrə dosent səviyyəsinə qədər yüksəltmişdi.

Qeyd edək ki, Yaqub Əliyev Azərbaycanın ən istedadlı, ən vətənpərvər oğullarından olmuşdur. Cəmi 27 yaşında Leninqrad kimi bir şəhərdə dissertasiya müdafiə edib alimlik dərəcəsi almaq hər adamın işi

deyil. Demək olar ki, Yaqub müəllim rəsmi sənədi olan ilk dilçi alimlərdəndir. Buna görə də o, dərhal diqqəti cəlb etmişdi. Amma 1937-ci ilin küləyi ondan yan keçmişdi. Bu illərin ab-havasını yaxşı bilən Yaqub müəllim elə hərəkət etmişdi ki, yel qayadan bir şey qopara bilməmişdi. Amma daraq kimi Azərbaycanı ziyalıdan darayıb "Təmizləyən" o vaxtkı DTK erməni genosidinin əlində bir alətə çevrildiyi üçün repressiya davam edirdi. Buna görə də təhlükəsizlik kiçik leytenantı K.Aruşanyan 14 avqust 1942-ci ildə Əliyev Yaqub Fərəc oğlundan"şübhələnərək" Az.SSR CM 72-ci maddəsinin 2-ci hissəsi üzrə cinayət işi qaldırır. Onun qərarını öz şöbəsinin rəisi mayor Xoren Qriqoryan və Dövlət təhlükəsizliyi baş leytenantı Popov bəyənir. 15 avqust 1942-ci ildə Azərbaycan SSR XDİK təsdiqi və Respublika Prokurorunun sanksiyası ilə həmin qərar təkrarlanır. Buna görə də 1911-ci ildə Ordubadda anadan olmuş, Ermənikənddə 648-ci kvartal, 5-ci blok, 42-ci mənzildə yaşayan Əliyev Yaqub Fərəc oğlunun həbs edilməsi lazım bilinir. Çünki:

–Əliyev Yaqub sistematik olaraq antisovet-millətçi və təxribat xarakterli təbliğat aparır. Guya vahid bir millət olduqları üçün Azərbaycanın, Özbəkistanın və Türkmənistanın Türkiyəyə birləşməsini arzu edir. Əksinqilabi millətçi mövqedən çıxış edərək deyir ki, azərbaycanlılar rusların əsarəti və diktatorluğu altındadır.

Panfaşist və pantürkist fikirlər irəli sürür. Sovet həqiqətlərinə böhtan atır. Sovet məlumat bürosunun məlumatlarının düzgünlüyünü inkar edir və Almaniya ilə müharibədə Sovet hakimiyyətinin məğlubiyyətinin labüdlüyünü təsdiq edir. Əliyevin antisovet hərəkətləri xüsusi qaydada və məhbus Kazımov Abdullanın 11 avqust 1942-ci il tarixli ifadəsilə təsdiq edilir (s.30). Bu təsdiq görəsən nədən ibarətdir və "xüsusi qayda" nə deməkdir? Axı ittiham hissəsində heç bir fakt yoxdur. Bu sözləri eynilə Aruşanyanın və Qriqoryanın özləri üçün demək olmazmı?

18 avqust 1942-ci il tarixdə 942 saylı orderlə Əliyev Yaqub həbs edilir və evi axtarılır (s.31) Cinayət işinin 32-ci səhifəsi məhbusun anketidir. Arayışdan məlum olur ki, 1911-ci ildə anadan olmuş Əliyev Yaqub indi Bakıda Erməniknddə orta bulvarda 648-ci kvartalda II blok, 93-cü mənzildə yaşayır. Görəsən bu nə deməkdir? Cəmi 3 gün bundan əvvəl Yaqub 5-ci blokda 42-ci mənzildə yaşayırdı, indi isə 11-ci blokda 93-cü mənzildə yaşayır. Bizə belə gəlir ki, ikinci ünvan daha dürüst ola bilər, çünki anket məlumatlarını müstəntiqə müttəhimin özü demişdir. Birinci ünvan isə görünür xəfiyyə Aruşanyan ya özü uydurmuş, ya da kimdənsə səhv öyrənmişdir. 1939-cu ildən ÜİK (b) P üzvü olan (həbs ediləndə biletini əlindən alıblar) №2164-li məhbus Əliyev Yaqubun atası 1918-ci ildə, anası isə 1932-ci ildə vəfat etmişdir. Oğlu Əliyev Rafiq Yaqub oğlu 1937-ci ildə Moskvada

anadan olmuş (atası onda Moskvada aspiranturada oxuyurdu), ikinci oğlu Əliyev Əfşar 1942-ci ildə Bakıda doğulmuşdur.

Avqustun 27-də müttəhimin evinin axtarılması haqqında tərtib olunan protokoldan (s.35) məlum olur ki, 942 sayılı orderə əsasən evin axtarılmasında iştirak edib XDİK tərəfindən Aruşanyan və Kirillin. Bundan başqa burada olub: Əliyev Yaqubun özü, qonşu Mustafayeva Həvva İbrahim qızı və Mustafayev Əhməd. Axtarış zamanı götürülüb: Partbilet (№3224926), pasport-JQA №608660, şəxsi vərəqə, hərbi bilet əvəzinə verilmiş qəbz, Əliyevin gündəliyi (s.35). Daha heç nə tapa bilməyiblər. Türmədə isə Andrienko məhbusu axtararkən (protokol №2164,ş.i.səh 6) götürmüşdür:

1. Kiçik çamadan – 1ədəd (yazıq Yaqub elə bilirmiş ezamiyyətə gedir – A.B.)

2. Süni ipəkdən qalstuk – 1ədəd

3. Corab rezini –1 cüt

4. Şalvar qayışı – 1ədəd

5. Sabun qabı – 1 ədəd (alimin səliqəsinə baxın-A.B.)

6. Köhnə dəri əlcək – 1 cüt

Həbs ediləndən 3 ay sonra Qriqoryan 39289 saylı təliqə ilə (tamamilə məxfi) məhbus Əliyev Yaqubun partiya biletini bu ünvana – (diqqət edin). Zav O.O. VKP (b) Azərb. SSR Novikovu göndərir (s.37). Təhlükəsizlik mayoru Qriqoryan partiya nədir? Respublika nədir? suallarına cavab verə bilməzmiş. Bu ona lazım deyildi. Axı onun başqa sənət sahəsi vardır - Azərbaycanlıları məhv etmək.

Avqustun 27-də Yaqub müəllimin evinin əşyası aşağıdakılardan ibarət imiş:

1.Setkalı krovat köhnə -1 ədəd

2.Güzgülü şifoner -1 ədəd

3.Arxalı divan -1 ədəd

4.Servant köhnə -1 ədəd

5.Kitab şkafı -1 ədəd

6.Yazı stolu -1 ədəd

7.Yemək stolu -1 ədəd

8.Stullar -1 ədəd

9.Köhnə xalça  -1 ədəd (ş.iş səh.38)

Axtarışdan, əmlakı siyahıya alındıqdan sonra Qriqoryan arayış yazır (s.39) ki, mənzil peçatlanmış – bağlanmışdır. Elə həmin gün, yəni 27.08.42-ci il tarixdə Qriqoryanın müavini Aruşanyan məhbusu dindirir. Bu protokolda olanları olduğu kimi verməklə şəxsiyyətinə hörmət bəslədiyim həmkarım və eloğlum olan Yaqub müəllimin gələcəkdə yazıla biləcək tərcümeyi-halı üçün dəqiq material vermək istəyirəm: inqilaba qədər valideynlərinin himayəsində yaşamışdır, ailə tərkibi: təkdir, 3 dəfə evlənib, hər qadından bir uşağı vardır, aliment verir, əvvəlki anketdə (s.32) isə 2 oğlu olduğu göstərilir. Təhsili – ali pedaqoji. Əvvəllər mühakimə edilməmişdir, hərbi işə münasibəti ehtiyyatda olan baş siyasi rəhbər. Dzerjsinski rayonu hərbi komissarlığında uçotda dayanır. 1939-cu ildə təlim məşğələlərdə olmuş, 1941-ci ilin iyununda qızıl orduya çağırılmış, 3 aydan sonra xüsusi sərəncam olana qədər ehtiyata buraxılmışdır. (ş.i. s.40–41).

Aruşanyanın həbsxanada Yaqub müəllimə ilk sualı bu olub:

**Sual:** Hansı təhsil müəssisələrində oxumusunuz?

**Cavab:** 1933-cü ildə Bakıda V.İ.Lenin adına Ali Pedaqoji insitutu, 1937-ci ildə Moskvada Mərkəzi

elmi-tədqiqat millətlər insitututnun aspiranturasını bitirmişəm. 1938-ci ildə Leninqradda Namizədlik dissertasiyası müdafiə etmişəm. Verdiyi sonrakı cavablardan məlum olur ki, heç bir qohumu xaricdə yaşamır və həbs edilməyib (ş.i səh.41).

Müstəntiqin sualına cavab olaraq öz dostlarını sadalayır:

1.Kazımov Abdulla (Ordubadda birgə işdən tanıyır)

2.Nağıyev Əkbər

3.Hüseynov Ağa İsmayıl

4.Qənizadə Nemət

5.Rəhimov Cəmil

6.Quliyev Məmmədcavad

7. Babayev İmran

Bunlardan başqa daha heç kəslə yaxın dost olmamışam.

**Müstəntiq:** Siz antisovet hərəkətləriniz üçün həbs edilmisiniz. İstintaq sizdən tələb edir ki, düzgün ifadə verəsiniz.

**Müttəhim:** Qəti şəkildə bəyan edirəm: mən heç vaxt və heç bir sntisovet cinayəti etməmişəm və bu suala heç bir cavab verə bilmərəm.

**Müstəntiq:** Siz düzgün danışmırsınız. İstintaqla Sizin antisovet fəaliyyətiniz kifayət qədər müəyyən edilmişdir.

İstintaq burada dindirməni dayandırır və tələb edir ki, siz gələn dindirmədə öz antisovet fəaliyyətiniz haqqında ətraflı məlumat verəsiniz (s.42).

Ertəsi gün Yaqub müəllim öz dəsti-xətti ilə "ifadə verir". Cəmi bircə günə onu necə məcbur edirlər, bunu allah bilir, amma o, hər şeyi "boynuna alır". Ertəsi gün, yəni 28 avqustda yenə dindirmə aparılır (c.44). Dindirmə 11:30-da başşlanıb, 14:20-də qurtarıb. Protokol cəmi bir səhifədir. 3 saat müddətində cəmi bir sual verilib, bircə də cavab alınıb. Görünür 3 saatlıq işgəncə öz işini görürmüş. Bu dəfə o, özünün 2 "dostunu" da yadına salır. Quliyev Məmməd və Cəfərov Salmanla əlaqələrindən danışır. Daha müttəhimdən heç bir cavab ala bilmirlər. 10 gün keçir. Sentyabrın 9-da gecə saat 24:00-da yenə dindirmə başla-

nır. Dindirmə artıq setyabrın 10-a keçən gecə saat 3-də qurtarır. Yenə bircə sual, bircə cavab, bircə səhifə.

**Sual:** Düzgün, həqiqi və səmimi (işə baxın DTK müstəntiqi səmimiyyətdən danışır – A.B.) ifadə verin.

**Cavab:**Bəli, mən mənə qarşı irəli sürülən ittihamı tamamilə boynuma alıram ki, öz yaxınlarım arasında mütəmadi olaraq antisovet və təxribatçı söhbətlər aparmışam. Hitler ordusunun texniki üstünlüyünü təfiləmişəm. Məğlubiyyət əhval-ruhiyyəsi göstərmişəm. Mən partiya və vətən qarşısında məsuliyyət daşımağa hazıram (s.45). Vəssalam. Bundan ötrü – belə bir cavabı almaq üçün 3 saat müstəntiqlə müttəhim sakitcə üz-üzə oturmuşdurlarmı? Yoxsa... Yenə on gün keçir. 19.09.42-ci ildə gecə saat 22:30 dəqiqədə başlanıb. 03:30-da qurtaran (20.09.42) dindirmədə də bircə sual, bircə cavab, yarım səhifə protokol (46)

**Müstəntiq:** İstintaqa dəqiq şəkildə məlumdur ki, uzun müddət Siz antisovet mövqeyində olmuş və antisovet millətçi təslimçi iş aparmışsınız. İşin mahiyyəti üzrə geniş ifadə verin.

**Cavab:** Mən inkar etmirəm ki, öz yoldaşlarım (?) arasında bir neçə dəfə (? – A.B.) antisovet təslimçi söhbətlər aparmışam. Milli məsələ barəsində mən

demişəm ki, ÜİK (b) P Azərbaycan dili barəsindəki siyasəti düzgün aparılmır.

Vəssalam. Əgər protokol səliqəli yazılsa idi, cəmi bir səhifənin dörddə biri həcmində olardı. Görəsən 4 saat çəkən söhbət, özü də gecə aparılan istintaq dindirməsi nə cür olmuşdur? Və necə olmuşdur ki, müstəntiq təkcə bir mücərrəd cümləni müttəhimdən ala bilmişdir? Mücərrəd deyirik ona görə ki, "yoldaşlarım" sözünü işlədən müttəhimdən müstəntiq "hansı yoldaşların" sözünü dəqiqləşdirməmişdir. "Bir neçə dəfə" sözünü işlədən müttəhimdən soruşmamışdır ki, "nə vaxt və harada danışmısan". Nə isə. "İstintaq" arayıb axtarıb Yaqub müəllimin "dostlarını" tapır. 1942-ci il oktyabrın 23-də müəllimlər insitutunun ədəbiyyat fakültəsinin dekanı İmran Əliəşrəf oğlu Babayevi dindirərək ondan Yaqubun əleyhinə istədikləri cavabı qoparırlar. Ona görə belə qoparırlar, deyirik ki, 23.11.42-ci il tarixdə gecə saat 21-də başlanıb, 23:10-da qurtaran dindirmədə Əliyev Yaqubu "ifşa etmişdirsə". 1958-ci ilin 17 oktyabrında İmran Babayev yenidən dindiriləndə demişdi: "Siz dediyiniz kimi, guya Yaqub Əliyev mənim yanımda demişdir ki, almanlar tez gələ idilər, rus qadınlarından isə almanlarla birlikdə istifadə edərdik". Bu ifadəni mən qəti şəkildə rədd edirəm...Bir daha bəyan edirəm. Əliyev Yaqub haqqında 1942-ci ildəki ifadəmdə də, habelə üzləşdirmədə də mən belə ifadələr verməmişəm. Bunu mən bir komunist kimi bütün məsuliy-

yətimlə bildirirəm. (3 p. S.96–98). Qeyd edək ki, Yaqub Əliyevlə İmran Babayevi 23 oktyabr 1942-ci il tarixdə gecə saat 23:30-dan 24.10.42-də saat 01:10 dəqiqəyədək üzləşdirmişdilər.

Cinayət işində Məmməd Cəfər Cəfərovun, Salman Cəfərovun, Quliyev Məmmədin və Araslı Həmidin barəsində də cinayət işi qaldırmaq haqqında 25.10.42-də qərar qəbul edilməsi haqqında sənəd vardır (s.59).

Nəhayət, 1942-ci il oktyabr 27-də təhlükəsizlik xidməti serjantı Əliyev Yaqubun cinayət işinin istintaqının başa çatması haqqında protokol tərtib edir (ş.i.61). Nəhayət, 26.11.1942-ci il tarixdə Azərbaycan SSR XDİK SPO-xüsusi siyasi şöbənin rəisi təhlükəsizlik xidməti mayoru Xoren Qriqoryanın rəhbərliyi və tapşırığı ilə A.Panov və həmin idarənin əməliyyat müvəkkili serjantı B.Həmidov ittiham qərarı tərtib edirlər. İttihamnaməni Az.SSR XDİK Mayor Yemelyanov dekabrın 6-da təsdiq edir.

Buna görə də Azərb.SSR CM 72-ci maddəsinin 2-ci hissəsi üzrə ittiham edilən Əliyev Yaqub Fərəc oğlunun cinayət işi baxılmaq üçün Azərbaycan XDİK qoşunları sərhəd dairəsi hərbi tribunalına göndərilir.

19.12.1942-ci il tarixdə birinci dərəcəli hərbi hüquqşunas Mamayev, üzvlər: Abdullayev və Qizatulin, Katib – Şolamova

Məruzəçi: Qizatulindən ibarət məhkəmə heyəti qərara alır:

a) Işi öz icramıza qəbul etmək

b) işə aid ittiham qərarını təsdiq etmək.

c) Kazımovu və Əliyevi AzSSR CM 72-ci maddəsinin 2-ci hissəsi üzrə məhkəməyə vermək.

d) Işi bağlı məhkəmə iclasında tərəflərin iştirakı olmadan, şahidlər dəvət edilmədən dinlənməsi

e) Qətimkan tədbiri həbs qüvvədə saxlanılsın.

20 dekabr 1942-ci ildə dediyimiz tərkibdə məhkəmə işə baxır. Burada da Əliyev Yaqub deyir: Bizim antisovet qrupumuz olmayıb. Biz heç bir yığıncaqda toplaşmamışıq (s.79.)

Son sözdə də istintaqdakı ifadələri tam təsdiq etmir (s.79).

Buna baxmayaraq, hərbi tribunal Sovet Sosialist Respublikaları İttifaqı adından 3375 sayılı hökmü ilə Əliyev Yaqubu cəzasını islah əmək düşərgəsində çəkməklə 10 il həbs cəzasına məhkum edir.

Hökmdən şikayət etmək olmaz.

Əliyev Yaqubu Molotov vilayətinin Kizillaq şəhərinə həbs düşərgəsinə göndərirlər.

1958-ci ildə 19 iyulda Azərbaycan SSR NS yanında DTK-dən verilmiş sorğuya əsasən SSRİ DİN 3 şöbəsinin birinci xüsusi bölməsinin rəis müavini podpolkovnik Çijovun məlumatında deyilir ki, Əliyev Yaqub Fərəc oğlu (1911-ci ildə anadan olmuşdur) 30 mart 1943-cü ildə Azərb SSR DİN həbsxanalarından birində ölmüşdür.

Müttəhimin oğlu Əliyev F.Yaqub oğlu 15.06.59-cu il tarixdə atasının işinə yenidən baxmaq üçün Zaparojye hərbi dairəsinin hərbi prokurorunun müavininə ərizə ilə müraciət etmişdir (s.118). Sorumov 1959-cu il 7 iyul tarixdə 3/1 sayılı məktubla bildirir ki, Əliyev Yaqub haqqında cinayət işinin xətm edilməsi mümkün deyil.

Dünya xali deyil, demişlər, 7 iyul 1960-cı ildə SSRİ baş prokurorunun müavini I dərəcəli ədliyyə müşaviri A.Mişutin işi yenidən nəzərdən keçirərək Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasına protest verərək xahiş edir: ittiham sübut edilmədiyi üçün Azərbaycan SSR XDİK hərbi tribunalının Əliyev Yaqub Fərəc oğlu haqqında 20 dekabr 1942-ci ildə çıxardığı hökm ləvğ edilsin. Azərbaycan SSR Ali Məhkəməsi cinayət işləri üzrə məhkəmə kollegiyası 8 oktyabr 1960-cı ildə işə yenidən - ədalət və cəsarətlə baxaraq qərara alır: *AZƏRBAYCAN SSR XDİN QOŞUNLARI HƏRBİ TRİBUNALININ ƏLİYEV YAQUB FƏRƏC OĞLU VƏ KAZIMOV ABDUL RƏCƏB OĞLU HAQQINDA 20.12.1942-Cİ İLDƏ ÇIXARDIĞI HÖKM LƏĞV EDİLSİN VƏ CİNAYƏT İŞİNƏ XİTAM VERİLSİN. ONLARIN HƏR İKİSİNƏ BƏRAƏT VERİLSİN (səh.126).*

Bu da günahsız repressiya qurbanlarının aqibəti!

# ABDULLA MƏMMƏD OĞLU TAĞIZADƏ



1937-ci ildə AXDİK-ın DTİ-in uydurduğu cinayətlə bağlı məsuliyyətə cəlb edilərək məhv edilən Azərbaycan ziyalılarından biri də 39 yaşlı, SSRİ EA-nın Azərbaycan filialının elmi işçisi, Azərbaycan Pedaqoji İnstitutunun dilçilik kafedrasının müdiri Abdulla müəllim savadlı və perspektivli bir filoloq-kadr kimi diqqəti cəlb edirdi. Ona görə onu da 12493-cü cinayət işinə qarışdırmaq, həmin işlə əlaqələndirmək "lazım" idi. Belə də etdilər. Dövlət təhlükəsizliyi baş leytenantı Qriqoryan alimin izinə düşdü.

17 mart 1937-ci ildə XDİK-ın 4-cü şöbəsinin 4-cü bölməsinin rəisi baş leytenant Qriqoryan öz köməkçisi Şerlə birlikdə idarənin rəisi DT mayoru Gerasimovun təsdiqi-razılığı ilə 1898-ci ildə Gəncə şəhərində anadan olmuş, APİ-nin dilçilik kafedrasının müdiri Abdulla Tağızadəni həbs etmək və Az.SSR

CM-nin 72 və 73-cü maddələri üzrə cinayət məsuliyyətinə cəlb etmək haqqında qərar qəbul edirlər.

Buna səbəb Vəli Xuluflunun 26–27 fevral 1937-ci il dindirməsində verdiyi ifadə, Çiçkalovun 31.01.1937-ci  il tarixdə verdiyi ifadə, Çiçkalovun 31.01.1937-ci il tarixində verdiyi ifadə (guya Çiçkolova A.Tağızadənin əks-inqilabçı olduğunu V.Xuluflu demişdir – A.B.) və Əli Kərimovun 16-17.02.1937-ci il tarixdə dediyi "R.Axundovun əksinqilabçı-millətçi qrupuna A.Tağızadə də daxil idi" cümləsi olmuşdur. Habelə B.Çobanzadənin 7-9 fevral 1937-ci il tarixli ifadəsi də onun həbsinə səbəb olmuşdur.

Tağızadə Abdulla Məmməd oğlu. İstintaq işi 12493 / 900, 20932 ittiham edildiyi maddələr: 64, 69, 70 və 73. İş başlanıb 18.03.1937, qurtarıb 19.10.1937-ci il. İstintaq işi cəmi bir cilddir. 122 səh. Pr.28388.

Anket məlumatı: 1898-ci ildə Kirovabadda anadan olmuşdur. İxtisası: dilçi müəllim olmuşdur. Təktəsərüfatçı kustar oğludur. Bitərəfdir, heç bir orduda xidmət etməyib, mühakimə olunmayıb.

Ailə tərkibi: anası – Zəhra 68 yaşında

Bacısı – Yaqub 32 yaşında

Qardaşı – Mirzə 48 yaşında

Ünvan:Bakı Kolodeznaya küçəsi,ev 19,mənzil 4

Elə ayın 17-dəcə prokuror həbs edilmək üçün order verir. Martın 18-də müttəhimin evi axtarılır. Axtarışda 4-cü şöbənin müvəkkili A.Musatov, yenə həmin idarənin müvəkkilləri Malyan və Mustafayev iştirak edir. Axtarış protokolunda müttəhimin evindən görün nə qədər "qiymətli" əşya tapıblar:

1.Pasport – JQ N:054656

2.Prof.bilet – N:181349

3.Hərbi bilet

4.Şəxsi məktub və sənədlər

5.Fotoşəkil

6. 16 kitab (götürülməli) Kamenevin, Buxarinin redaktəsilə

7.İki qeyd dəftərçəsi

8.Əlyazmalar

Bundan əlavə, işdə müttəhimin evinin axtarılması haqqında 845 N:-li protokol da vardır. Orada əlavə olaraq bir pozan və iki blaknot tapılıbdır. Bunu da S.Fedorenko etmişdir.

19 gün Abdulla Tağızadənin boynuna heç nə qoya bilmirlər. Bütün işgəncə və təhqirlərə hələlik dözə bilən Abdulla Tağızadə haqqında Xoren Qriqoryan bir akt tərtib edir. Orada deyilir: 4-5 apreldə aparılan istintaq dindirməsində göstərir ki, B.Çobanzadə mənimlə heç bir əksinqilabi söhbət aparmamışdır. Tağızadə Abdulla istintaqda özünü səmimi (görəsən Qriqoryan hansı insan səmimiyyətindən danışır – A.B.) aparmır, istintaqla ardıcıl mübarizə aparır, istintaqın bütün suallarına quru cavab verir. Hər sualı inkar edir. Qəribədir aktın yuxarı hissəsində öz köməkçisi Şerin də adını yazan Xoren Qriqoryan M.L.Şerə qol çəkdirə bilməyib. Aktın axırında müttəhimin imzası yoxdur.

X.Qriqoryan ikinci dəfə imza edir ki, müttəhim imza etməkdən imtina etdi (ş.i.s.7)

17 oktyabr 1937-ci ildə Xoren Qriqoryan. M.Malyan və M.Qarayev A.Tağızadənin bütün elmi əlyazmalarını yandırmaq haqqında akt tərtib etmişlər. (ş.i.s.8).

İndi bu alimin elmi irsini araşdır görüm. Həbsdə qaldığı müddətdə onun 12 dindirmə protokolu vardır. Hamısını da xalqımızın qatili Xoren Qriqoryan aparıb.

I dindirmə - 20 mart 1937

II dindirmə - 22 mart 1937

III dindirmə - 28 mart 1937

IV dindirmə - 31 mart 1937

V dindirmə - 4 aprel 1937

VI dindirmə - 8 aprel 1937

VII  dindirmə - 21 aprel 1937

VIII dindirmə - 22 aprel 1937

IX dindirmə -12 sentyabr 1937

X dindirmə -15-17 oktyabr 1937

XI dindirmə - 18 oktyabr 1937

XII dindirmə - 19 oktyabr 1937

**I dindirmə - 20 mart 1937**

**Sual:** Siz əksinqilabçı millətçilərdən kimləri tanıyırsınız?

**Cavab:** Mən şəxsən əksinqilabçı və millətçilərdən heç kəsi tanımıram. Yalnız mətbuatda adı gedən əksinqilabçı millətçiləri tanıyıram.

**Sual:** Biz o əksinqilabçı millətçiləri soruşuruq ki, sizə şəxsən tanışdır.

**Cavab:** mən əksinqilabçılardan şəxsən heç kəsi tanımıram.

**Sual:** məsləhət görürük suallara səmimi cavab verəsiniz.

**Cavab:** Mən səmimi cavab verirəm.

**Sual:** Siz səmimi danışmırsınız. Bizə məlumdur ki, siz əksinqilabçı millətçilərlə şəxsən əlaqədar olmusunuz. İkinci dəfə düzgün cavab verməyi məsləhət görürük.

**Cavab:** Təkrar edirəm, mən heç bir əksinqilabçı tanımıram.

22 mart tarixli dindirmədə də (ş.i.s.12) heç bir əksinqilabçı tanımadığını deyir.

Dostlarınız kim olub? Sualına 4 nəfərin adını əlavə edir: Termatevosyan Aleksandr, Həsənov İdris, Zifeld Artur Rudolfoviç, Şaumyan Ruben. Qəribədir həmin dindirmədə 3 dəfə müttəhim qəti olaraq heç bir əksinqilabçını tanımadığını deyir. Növbəti səhifədə (s.13) 4 nəfər əksinqilabçının adını göstərir: Xalid Səid Xocayev,  Bəkir Çobanzadə, Hənəfi Zeynallı və Əli Nəzmi. Bu dindirmədə işgəncə öz nəticəsini verir. Onu o qədər döyürlər ki,  axırda öz əksinqilabçı və millətçiliyini "boynuna alır". (ş.i.s15).

31 martdakı dindirmədə B.Çobanzadə haqqında lazımi sözləri ala bilmirlər.

**Sual:** B.Çobanzadənin pantürkistliyi hardan bəllidir?

**Cavab:** Bu haqda mən gələn dindirmədə deyərəm.

"Əhsən" Xoren Qriqoryan! Deməli o qədər müttəhimə hörmət edir ki, onun nazı ilə oynayır. Material toplayıb 4 apreldə yenidən dindirir. Bu dəfə b.çobanzadə haqqında çox şey deyir.

Görəsən nə üçün 12 apreldən 12 sentyabra qədər A.Tağızadəni dindirməyi yaddan çıxarıblar. Nəhayət 15–17 oktyabr dindirməsində o deyir: Bəli,

doğrudur, mən əksinqilabçı, millətçi pantürkist təşkilatın üzvüyəm (ş.i.s.47).

İşdə Çiçikolovun 31.01.1937; B.Çobanzadənin 7-9 fevral; 3–5 mart, 17-20 qprel, H.Zeynallının 9 fevral, 15-20 may, V.Xuluflunun 25–28 aprel, 11–13 may, Əli Kərimovun 28 mart, 23–26 iyun, Qubaydulinin 19-20 aprel, 23-30 aprel, Mahmudzadənin 27 apreldə verdikləri ifadələr də vardır ki, burada onlar A.Tağızadənin əksinqilabçı olduğunu göstərir.

10 oktyabrda A.Tağızadə ilə B.Çobanzadəni üzləşdirirlər.

19 oktyabr 1937-ci ildə XDİK-ın DTİ-in əməliyyat müvəkkili M.Mustafayev istintaqın başa çatması haqqında protokol tərtib edir. Oktyabrın 22-də XDİK Sumbatovun təsdiqi ilə Tağızadə Abdulla Məmməd oğluna ittihamnamə tərtib edilir. O, Azərb. SSR CM. 64, 70, 73-cü maddələri üzrə təqsirkar bilinir. Çünki:

1.Azərbaycanda əksinqilabçı, millətçi pantürkist təşkilatın üzvü olmuşdur.

2.Bu təşkilatın işində əksinqilabi iş aparmışdır. Dilçi mütəxəssis kimi öz elmi-tədqiqat xətti ilə ziyankarlıq işi aparmışdır.

3.Öz pedaqoji fəaliyyəti ilə əksinqilabi iş aparmış, öz mühazirələrində əksinqilabi pantürkist fikirlər yaymışdır.

4.Milli respublikaların silahlı üsyan və partiya hökumət rəhbərlərinə terror yolu ilə SSRİ-dən ayrılması, vahid pantürkist dövlət yaradılması mövqeyində durmuşdur.

İttihamnaməni Tsinman imzalayıb.

Yenə həmin tanış protokol – ittiham hazırdır. Asanlıqla seçilən ad və familya yazılıb.

SSRİ Ali Məhkəməsi hərbi kollegiyasının hazırlıq iclasının protokolu: Sədr: Nikitçenko. Üzvlər: İevlev və İşenko. Katib: Kudryevsev. 1 yanvar 1938.

Qaniçənlər yeni il bayramını da keçirmirlər. Bəlkə də adamları qırmaqla bayram edirmişlər. Ertəsi gün yəni yanvarın 2-də gecə saat 20:20-də "Məhkəmə prosesi" başlandı. Müdafiəçisiz, müşahidəçisiz, şahidsiz.

Cəmi 20 dəqiqə "məhkəmə" (iclas). Saat 20:40-da hökm oxunur.

Hökm: Sovet Sosialist Respublikaları İttifaqı adından SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının

səyyar sessiyası Abdulla Tağızadəni güllələnməyə məhkum edir. Əmlakı müsadirə edilsin.

Hökm qətidir və SSRİ MİK 1.12.1934-cü il qərarına əsasən dərhal yerinə yetirilməlidir.

Şəxsi işin 100-cü səhifəsində elə həmin gün yəni 2.01.1937-ci ildə Tağızadə Abdulla Məmməd oğlunun güllələnməsi haqqında Şevolovun imzası ilə arayış vardır.

Işin 108-ci səhifəsində Koçetkov və Savçenkonun imzaladığı aktda isə A.M.Tağızadənin yanvarın 3-də güllələnməsi qeyd olunur.

1956-cı il noyabrın 10-da müttəhimin bacısı Cəfərzadə Yaqut Tağı qızı SSRİ NS-in DTK sədri İ.A.Serovun adına ərizə yazaraq qardaşının taleyini soruşur. Beləcə yanaşırdılar hətta ölümün taleyinə. Heç kəsə bildirmirdilər ki, müttəhim niyə tutulub, sağdır, ya ölüb? Zaqafqaziya hərbi prokurorluğun baş köməkçisi Çesnekov işdə cinayət tərkibi olmadığı üçün A.Tağızadəyə bəraət verilib işin xətm edilməsini xahiş edir.

SSRİ Ali məhkəməsi hərbi kollegiyasının UN-№07007-li qərarı ilə 19 noyabr 1957-ci ildə A.Tağızadəyə bəraət verilmişdir.

## ƏKRƏM CƏFƏR




Bu, Əkrəm Səfər oğlu Cəfərovun son ad və təxəllüsüdür. Biz Əkrəm Cəfər dedikdə nəzərimizdə klassik ədəbiyyatımızın, habelə Şərqin böyük bilicisi, fenomenal bir yaddaşa malik olan alim nəzərdə tuturuq. Əkrəm Cəfər Füzulini, Hüseyn Cavidi, habelə Şərq klassiklərindən çoxunu əzbərdən bilirdi. Azərbaycan əruzu haqqında doktorluq dissertasiyası müdafiə edən Əkrəm müəllim respublikada əruzun ən gözəl bilicisi hesab edilirdi.Əkrəm müəllim ədəbiyyatımızın hər bir nümunəsi üçün, yandığı kimi, hər bir şair və yazıçını da yana-yana qiymətləndirərdi. Əslində, onun sovet İmperiya rejiminin qəzəbinə düçar olmasının səbələrindən biri bu idi. (Niyə o demişdi: Hayıf Hüseyn Cavid!) Amma burasını da qeyd etmək lazımdır ki, Əkrəm müəllim 1942-ci ildə həbs ediləndə Dövlət Universitetində ümumi dilçilik kafedrasının müdiri idi. Dilçiliyə aid əsərləri də var idi.

Biz Əkrəm müəllimin dilçilik və ədəbiyyatşünaslıq fəaliyyəti haqqında bəhs etməyi qarşımıza məqsəd qoymamışıq. Bu ayrıca bir araşdırmanın mövzusudur. Amma bu sadəlövh insanın başına Aruşanyanın əli ilə keçmiş DTK zindanında nələr gətirildiyini arxiv sənədləri əsasında bugünkü oxucuya – gənc nəslə çatdırmağı özümə borc bilirəm.

CƏFƏROV ƏKRƏM SƏFTƏROVİÇ

İş №3224, maddə 72, II hissə

Başlanıb: 3.01.1942

Qurtarıb...

Arxiv№0185690

Bu cinayət işində eyni maddə ilə ittiham edilən Fərəməzov Kərim Kərim oğlunun da işi saxlanılır. Cinayət işi 151 vərəqdən ibarətdir. Işdə müttəhimlərin heç birinin şəkli yoxdur.

Deməli, idarənin baş əməliyyat müvəkkili Aruşanov (yan) 1942-ci il yanvarın 3də belə bir qərar tərtib edir.

Mən xüsusi siyasi şöbənin baş əməliyyat müvəkkili Aruşanov Az.SSR XDİK-na daxil olan

materiallara baxaraq müəyyən etdim: 1905-ci ildə İsmayıllı rayonunun Lahıc kəndində anadan olmuş, Azərbaycan Dövlət Universitetinin dilçilik kafedrasının dosenti bitərəf Cəfərov Əkrəm Səftəroviç – (ailəli, ünvanı pionerskaya 3 yaşayır).

Azərb.SSR CM 72 maddəsinin 2-ci hissəsi üzrə cinayət törətməkdə şübhəlidir. O azadlıqdadır, onun istintaqdan və məhkəmədən yayınmaması üçün qərara aldıq: Cəfərov Əkrəm Sattaroviç həbs edilsin.

Aruşanov, Popov 2-ci şöbənin rəisi, Qriqoryan – Az.XDİK XSŞ rəisi.

Əkrəm müəllim izah edib ki, həmin qərar mənə 6.01.1942-ci ildə elan edilib.

Artıq cinayət işinin 2-ci vərəqində həbs haqqında qərar vardır. Qərar 3 yanvar 1942-ci ildə saat 24-də AzSSR prokuroru Cəbrayılzadənin "Арест санкционирую" ştampı ilə təsdiq edilib. Həmin qərarda Aruşanyan müəyyən edib.

Cəfərov Əkrəm Səftaroviç tacir ailəsindəndir. Onun atasının keçmişdə baqqal dükanı olmuş və səs vermədən məhrum edilmişdir. Məişətdə pozulmuş elementdir. Öz vəzifəsindən istifadə edərək tələbə qızları əxlaqsızlığa (сожителство) təhrik edir, onları restoranlara aparır və sərxoşluğa öyrədir.

-Antisovet – millətçi əhvali-ruhiyyə yayır, Sovet hökumətinin və Kommunist partiyasının tədbirlərinə böhtan atır.

- Türk mədəniyyətini tərifləyir və Türkiyədəki qayda-qanunu mədh edir. Həbs edilmiş xalq düşmənləri üçün təəssüflənir və ÜİK(b)P rəhbərləri haqqında Kommunist partiyası və Sovet hökumətinin tədbirini antisovet ruhunda olan mövqeyindən qiymətləndirir.

Buna görə də 3 yanvar 1942-ci ildə Az.XDİK-in 21 sayılı qeydinə əsasən Əkrəm müəllim həbs edilir.

Cinayət işindəki – məhbusun anketindən məlum olur ki, (bunu Əkrəm müəllimin barmaq izi ilə təsdiq etmişlər). O, pasportunu 1937-ci ildə Moskva şəhəri 35-ci milis bölməsindən almışdır. Heç bir mühakiməsi olmamışdır.

Atası: cəfərov Səftər Cəfər oğlu-70 yaşında, Lahıc kəndində anadan olmuş, indi Bakı Pionerskaya 16 nömrəli evdə yaşayır.

Anası: Cəfərova Həcər Əbdülkərim qızı – 60 yaşında, həmin ünvanda yaşayır.

Arvadı: Cəfərova (Süleymanova) Mələk Fərəc qızı. 1913-cü ildə anadan olmuş, Bakı, Pionerskaya,

ev 38, mənzil 7-də yaşayır. (Görünür ki, Əkrəm müəllimlə valideynləri qonşu kimi yaşayırmışlar A.B.)

Oğlu: Cəfərov May Əkrəmoviç 1932-ci ildə anadan olmuş. Moskvada yaşayır.

Qardaşları: İbrahim (1908), İsgəndər (1914), Əli (1919)

Bacıları: Münəvvər (1910), Məryəm (1916), Səkinə (1924), Mirac (1931), ataları lə bir ünvanda – yəni Bakı şəhəri, Montin qəsəbəsi, Pioner küçəsi № 16-li mənzildə yaşayırlar.

Xarici əlamətləri:

Boyu – 159-164 sm, fiqura – orta, boynu – qısa, çiyinləri üfüqi, saçının rəngi – qara, gözünün rəngi (qara)

Alnı – dik, qaşları qövsəbənzər, burnu kiçik, ağzı balaca, dodaqları yoğun, yuxarı dodağı dik, çənəsi qabağa çıxmış, qulaqları – balaca, başının ortasında keçəllik.

Fevralın 2-də Əkrəm müəllimin evini axtarırlar. Axtarışda: Cəfərov, Süleymanova, Kazımov və Fərəməzov iştirak edir:

Ev əşyalarının təsviri:

1.Kitab şkafı– 4 ədəd

2.Bufet

3.Şifoner

4.Yazı stolu

5.Böyük Sovet ensiklopediyası – 5 c.

6.Ensiklopedik lüğət – 85.

7.Fars dilində kitablar – 26.

8.Tolstoyun əsərləri – 18

9.Mayokovskinin şeirləri – 11.

10.Molyer – 4.

11.M.F.Axundov – 3.

12.V.T.Belinski – 3.

13.Şiller – 8.

14.Şekspir – 10.

15.Bayron – 3

16.Amperı – 3.

17.Don Kixot – 3

18. Dəfinələr adası – 3

19.Dal (lüğət – A.B.) - 4.

20.Толковый словар русского языка – 4

21.Ədəbiyyat ensiklopediyası – 11

22.Kiçik Sovet ensiklopediyası – 10

23.Dilçilik məsələləri (məcmuə) – 5

24.Q.V.Plexanov – 24

25.Lenin – 30

26.Ərəb dilində kitablar – 10

27.Marks Engels – 31

28. İnsanlıq tarixi – 1

29.Hegel – 10

Yanvarın 5-də isə ilkin axtarış zamanı Əkrəm müəllimin evindən pasportunu, hərbi bilet əvəzi vəsiqəsini, № 712158-li professor biletini, cib dəftərçəsini, öz şəkillərini, 16 ədəd şəkil, xarici nəşrlər, kitablar 2, qadağan olunmuş kitablar (23 ədəd) müxtəlif məktublarını götürmüşlər.

Həbsxanada birinci gün özünü şəxsən axtarmış Kotov 1 ədəd qayış, köynək çexolu və 1 ədəd döş nişanı aşkar edib götürmüşdür (protokol N:795. C.işi.s.8).

Yanvarın 6-da Aruşanyan hazır qurbanı başqa bir müstəntiqə 6-cı bölmənin müstəntiqinə verir. Həmin gün müstəntiq onu dindirir. Dindirmə protokolunun birinci səhifəsi anket xarakterlidir.

Müstəntiq ilk sualı öz xətti ilə (xətti gözəldir və yaxşı oxunur, adamın üstündə Allahı var – A.B.) yazmışdır.

Sual: Öz tərcümeyi-halınızı təfsilən yazın.

Cavab: Əkrəm müəllim öz xətti ilə yazmışdır.

Burada o, özü haqqında ətraflı məlumat verir. Gələcəkdə filologiya elmləri doktoru professor, əruzun respublikada böyük bilicisi kimi Əkrəm Cəfər yaradıcılığını tədqiq edəcək həmkarlarıma dəqiq

məlumat çatdırmaq üçün mən də cavabı geniş yazıram. Cavabda deyilir: 1905-ci ildə Azərbaycan SSR-in İsmayıllı rayonunun Lahıc kəndində anadan olmuşam. Atamın əsas peşəsi misgərlik olmuşdur. İbtidai təhsilimi həmin kənddə almışam. Aprel inqilabından sonra Bakıya gəlib pedtexnikuma daxil olmuşam, yataqxanada qalmışam. Pedtexnikomu 1925-ci ildə qurtarmışam, sonra Lənkərana gedib orada pedtexnikomda və 1-ci dərəcəli məktəbdə işləmişəm. Sonra 1929-cu ildə Moskvaya gedib 2-ci MDU-ya (sonradan Moskva Dövlət Pedaqoji insitutu adlandırıldı) daxil olmuşam. 1932-ci ildə oranı bitirmiş, SSRİ MİK yanında SSRİ millətlər insitutunun aspiranturasına daxil olmuşam. Aspiranturanın dilçilik şöbəsini bitirib həmin ali məktəbdə elmi işə qəbul edildim. Burada 1937-ci ilin sentyabrında Bakıya gəlib Lenin adına APİ-nin Azərbaycan dili kafedrasının rəhbəri işlədim. Sonra ADU-ya keçirildim ki, bu günə qədər kafedra müdiri dosent işləyirdim. 1924-cü ildə Komsomola daxil olmuşam. Şeirlər yazıb çap etdirmişəm (işdə çox aydın şəkildə “peçatal” sözünün üstündən müstəqillik xətti ilə yazıldığı aydın seçilir – A.B.)

Antifaşist kitabçası (öz sahəmlə bağlı) yazmışam. Bu illərdə ilk dəfə ADU-da “Yaxın Şərq xalqlarının ədəbiyyatı tarixi” dərnəyi təşkil etmişəm.

1932–33-cü illərdə “İnqilab və yazı” ayrı jurnalda – Moskvada mən yazı, əlifba və orfoqrafiya

quruculuğu məsələsində mürtəce rol oynayan Peterson, Tunitski, Danilov haqqında məqalə yazmışam. Yeni Türk Əlifbası Komitəsinin plenumlarında çıxış etmişəm. Bu vaxta qədər mənim heç bir töhmətim olmayıb.

Mənim bütün uğurlarıma görə əlbəttə, bolşeviklər partiyasına və sovet hökumətinə minətdaram. Mən bir neçə dəfə pul mukafatları və istirahət evlərinə göndərişlərlə mükafatlandırılmışam. İctimai işlərimə tərifnamə almışam. Partiya təşkilatlarının etimadını qazanmışam. Tovuzda, Ağstafada və başqa yerlərdə "Allahsızlar" dərnəyi təşkil etmişəm. Moskvada olanda ÜİK (b) P MK-na gələn bir çox məktub və ərizələri pulsuz tərcümə etmişəm... Öz ömrümdə böyük hadisə kimi 15.04.39-cu il tarixdə Mir Cəfər Bağırov yoldaşla görüşümü heç vaxt unutmuram. Mən ərizə yazıb mənzillə təmin edilməyimi xahiş etmişdim. Görünür ərizəm kobud və qeyri-taktiki olmuşdu ki, yoldaş Bağırov məni əsaslı surətdə danladı və dedi ki, daha bu haqda heç yerə, heç kəsə yazmayım. Oturub növbəmi gözləyim. Bu günə qədər növbəmi gözləyirəm. Bu gün mən həbs edilmişəm. Bu mənim üçün o qədər gözlənilməzdir ki, özüm də səbəbini bilmirəm. Axı mən heç vaxt, heç bir əksinqilabi təşkilatda olmamışam. Mənim həyatım özü deyir ki, mən maymaqlığımdan və nahaq yerə "do six por" (bu sözləri müstəntiq öz xətti ilə üstdən yazıb – A.B.) kommunistlər partiyası sıralarına girməmişəm.

Növbəti dindirmə 1942-ci il yanvarın 7-də saat 10-da başlanır. Müstəntiqin ilk sualı:

İstintaqa özünüzün bütün yaxın əlaqələrinizdən danışın.

Müttəhim cavabında Əli Əjdər Seyidzadənin, Mehdi Erivanskinin, Fərəməzov Kərimin, İsgəndər Mehdiyevin, Davud Quliyevin, Ə.Dəmirçizadənin, M.Şirəliyevin adlarını çəkir və onlarla dostluq etdiyimi göstərir. Bu adamlarla Əkrəm müəllim "əmək haqqının yaşamaq üçün bəs etmədiyindən (Şirəliyevlə), rus dilinin Azərbaycan dilini sıxışdırdığından (Dəmirçizadə ilə), almanların müvəqqəti qələbəsindən (Davud Quliyevlə), əgər almanlar Bakını alsa, vəziyyətimiz necə olar (Mehdiyev İsgəndərlə), almanların uğurlarına Fərəməzovun sevinməsindən, əl-ələ verib Orta Asiyaya qaçmaq (Ə.Seyidzadə ilə) haqqında söhbətlər etdiyini deyir.

Həmin günün səhərisi, yəni yanvarın 8-də axşam saat 20:00-da yenə müstəntiq peyda olaraq:

-Öz antisovet və siyasi görüşləriniz haqqında istintaqa düzgün məlumat verin və onlar konkret olaraq nədən ibarət idi?

-Cavabı yenə müttəhim öz xətti ilə yazır:

-Mənim antisovet görüşlərim olmayıb, təkcə mənim səhvlərim olmuşdur. Bu da mənim şəxsi həyatımla, ictimai-elmi həyatımla bağlı olmuşdur. Sonra müttəhim öz ağır günlərini belə təsvir edir. 1920-ci ildən 1940-cı ilə qədər yataqxanalarda yaşamışam.

1920-ci ildən 1925-ci ilə qədər Bakıda pedtexnikumda oxuyarkən yataqxanada qalmışam.

1925-ci ildən 1929-cu ilə qədər Lənkəranda, Qazaxda texnikum və məktəb müəllimi olmuşam, yataqxanada qalmışam.

1929-cu ildən 1937-ci ilə qədər Moskvada oxuyub işləmişəm. İnsitutun yataqxanasında yaşamışam.

1937-ci ildə Bakıya gəlmişəm. APİ və ADU-da işləmiş, 1939-cu ilin noyabrına qədər APİ-nin yataqxanasında yaşamış, sonra mən Yaqubov yoldaşa müraciət etdim ki, məni XDİK-də işə götürüb işlə təmin etsinlər.

Dindirmə yanvarın 9-na keçən gecə saat 02-də dayandırılmışdır. Yəni 8-də saat 20:00-da başlanan sorğu-sual (cəmi 4 səhifə yarımdır. Cavabı Əkrəm müəllim öz xətti ilə yazıb) 6 saat davam etmişdir. Yaxşı, necə olmuşdur ki, savadlı bir adam cəmi 4 səhifə yarım şeyi 6 saata yazmışdır?

Dindirmənin sonunda müstəntiq öz xətti ilə yazır: Dindirmə saat 02-də 9 yanvar 1942-ci ildə dayandırıldı.

8 saatdan sonra, yəni yanvarın 9-da saat 10-da dindirmə davam edir. Müstəntiq soruşur:

-Öz antisovet görüşləriniz barədə ifadə verməyi davam etdirin.

Cavabda yenə Əkrəm müəllim öz güzəranından danışır: Mənim maaşımın tən 50 faizi iki icra vərəqəsi üzrə alimentə gedir (c.i.s.22)

Əkrəm müəllimin başına qəribə bir iş gəlməsi haqqında da özü həmin protokolda yazır:

-Böhtan məni çox sadə üsulla tapdı. Mənim Bakıdan Leninqrada olan ezamiyyətlərimdən birində geri qayıdarkən Moskvada 2 gün qalmaq lazım idi...Əlimdə bilet (Leninqraddan Bakıya) Moskvaya gəldim. Bütün mehmanxanaları gəzdim, nömrə olmadı. Onda mən bir tanış qadının, yəni Dostum Davud Quliyevin arvadının rəfiqəsinin evinə getdim.Onu Davud Quliyev bir il əvvəl mənimlə tanış etmişdi. Ondan gecələməyə mənə yer verməsini xahiş etdim. Sonra mən aspirant tanışımı tapıb onlarda qaldım. Ertəsi gün Bakıya gəldim. Budur, bir neçə gündən və ya həftədən sonra mən həmin qadından

məktub aldım. Məktubda mənə böhtan atılır və aliment tələb edilirdi. Mənim müxtəlif adamlara yazdığım ərizələr heç bir nəticə vermədi. İndi mənim əmək haqqımın müəyyən hissəsi ora gedir... yəni 960 manat ümumi əmək haqqımda mən yalnız 200-240 manat əlimə alıram.

Bundan sonra onu yanvarın 10-da saat 20-də, sonra yanvarın 12-də yenə saat 20:00-da (Bu dindirmə də gecə saat 2-dək davam edib, 2-də dayandırılıb), sonra həmin dindirmə 13 yanvarda saat 20-də davam etdirilib. Bu dindirmə gecə saat 2-dək davam edib. Artıq gün dönmüş, ayın 14-nə keçmişdi. 6 saat dindirmədən sonra cəmi bircə səhifəlik cavab qoparıblar. Bu da Fərəməzov Kərim haqqındadır. 3.07.1941-ci ildə Kərim Fərəməzov mənim balkonumla üzbəüz olan balkonundan mənə dedi, yoldaş Stalin xalqa yalvarışla müraciət edib, görünür vəziyyət çıxılmazdır...Mən ona etiraz etdim. O, Stalin yoldaşın sözlərini düzgün başa düşməyib.

Bu da inandırıcı görünmür. Yəni 6 saat müstəntiq müttəhim üz-üzə oturub sakitcə bir-birinə baxıb?

Bundan 8 saat 40 dəqiqə keçmiş, yəni yanvarın 14-də gündüz saat 10:40-da yenə dindirmə davam edir. Bu dindirmə də təxminən 6 saat çəkmiş (16:00-da dayandırılmışdır. Həmin gün 4 saat “istirahət”

etdikdən sonra saat 20-də (14 yanvar 1942-ci ildə) yenə dindirmə başlanır. Bu protokolların hamısında hələlik eyni sual təkrar olunur: öz antisovet əlaqələrinizdən danışın. Bu dindirmə gecə saat 12-də dayandırılıb.

Sonrakı dindirmə yanvarın 17-də gündüz 11-də başlayıb, 16-da qurtarıb. Cəmi 5 səhifə yarım cavabdır. Burada müttəhim öz dostları Nəsirzadə, İlyas Şeyxzamanov, Ağahüseyn Hüseynzadə, Muxtar Hüseynzadə (ictimai həyatda özünü siyasətə əks aparır, şəxşi həyatında şərab və qadınla əylənir, ailə həyatında səbatlı deyil (Bunlar əziz müəllimimiz Muxtar Hüseynzadə haqqında olduğu üçün yazdım – A.B.).

Abdulla Ağamməd, Cəfərov Səlim, Axundov Ağa, Səlim Ələkbərli, Qulam (təbiəti etibarı ilə intriqantdır), Əliyev Yaqub, Sultanlı Əli (onun haqqında mənfi heç nə deyə bilmərəm), Mikayıl Rəfili (həddindən artıq bədxah insandır), Qasımov Feyzulla (simicdir, xəsisdir, amma pis adam deyil) haqqında məlumat verir.

Sonrakı protokolu (19 yanvar 1942 saat 11, dindirmə saat 15:30-dək davam edir) müstəntiq öz əli ilə yazıb. Bu dindirmədə Azərb.SSR prokurorunun xüsusi işlər üzrə köməkçisi Ramazanov iştirak edir.

Yanvarın 23-də gündüz saat 11-də başlanan dindirmə gecə saat 2-dək davam etmişdir. 12 səhifəlik protokolu müstəntiq öz xətti ilə yazıb. Səhifələrin hamısı yarıda başlanır. Deməli, 15 dindirmə davam edir. Burada da müttəhimdən öz dostları və yaxınları haqqında soruşur.

Cinayət işinin 60-cı vərəqində Əkrəm Saftaroviç Cəfərova ittihamnamə elan edilməsi haqqında 20 yanvar 1942-ci il tarixli qərar vardır. Burada o, antisovet – millətçi əhvali-ruhiyyəli adam olub, oxşar anti-sovet millətçi adamlarla əlaqəli çəkildə mühüm şəraitdə həbs olunan günə qədər, onlarla görüşlərində kəskin millətçi təslimçi sözlər danışmış, faşist Almaniyasını tərifləmiş, Almaniyanın qələbə çalacağı təqdirdə öz aralarında rəhbər vəzifələri bölmüşdür. SSRİ vətəndaşlarının maddi vəziyyəti haqqında böhtanlara yol vermişdir.

Buna görə də Azərbaycan SSR CM 72-ci maddəsinin 2-ci hissəsi ilə təqsirkar bilinir.

Həmin il martın 5-də AXDİ-nin nazirinin müavini Qriqoryanın təsdiqi ilə onun istintaqını bir ay da uzatmaq üçün respublika prokurorundan icazə istəyirlər (Cİ.s.92).

Martın 25-də istintaqın qurtarması haqqında protokol tərtib edilir ( iş N693). Həmin protokolda 3 bəndlə Əkrəm Cəfər xahişini bildirir:

I. Mən böyük cinayət işlətmişəm, bunu istintaqda boynuma almışam.

II. Mənim səmimi etirafımı nəzərə almağı və cəzamı yüngülləşdirməyi istintaqdan xahiş edirəm.

III. İstintaqdan xahiş edirəm mənə səhvimi düzəltmək üçün imkan versin.

20 aprel 1942-ci ildə Ə.Cəfər haqqında ittiham qərardadı tərtib edilir. O beş bənddən ibarət ittihamla təqsirkar bilinir. Çünki o deyib:

a)Sovet hökumıti artistlərə, yazıçılara mükafat verir, amma yüzlərlə tələbə insitutlardan xaric edilir, təqaüd verilmir. Bəs hanı ədalət?..

b)Alman ordusu güclüdür...Sovet ordusu alman ordusunun hücumu qarşısında dura bilməyəcək. Almanlar qalib gələcək.

c)Artıq almanların qələbəsi labüddür. Moskva mühasirədədir.

d)Sovet mətbuatı 1930–39-cu illərdə müəllimi ağıllı xadim adlandırırdı, indi isə dəli adlandırır.

e)Keçmiş vaxtlarda indidən yaxşı yaşayırdılar. Mənim atam Cəfərov Səftər savadsız idi, 9 nəfərdən ibarət bir ailəni dolandırırdı. Mən isə elmi işçi öz-özümü dolandıra bilmirəm (ci.s.97–98)

Əziz oxucu! Görürsən necə böyük cinayətlərdir?!

Cinayət işinin99-cu səhifəsində SSRİ XDİK-in xususi müşavirəsinin 71 saylı protokolundan çıxarış vardır. Burada o, antisovet təbliğatına görə 8 il müddətinə islah əmək düşərgəsində qalmağa məhkum edilir.

Əkrəm müəllim Kuybışev çəhərindəki həbsxanalardan birinə göndərilir. Öz məhkumluq müddətinin yarısı keçəndən sonra belə özünün günahsız olduğunu sübut edə bilmir. Məhbus 1946-cı ilin iyun ayında (ərizənin altında tarix göstərilməmişdir) SSRİ DİN-ə ərizə yazır. Ərizə SSRİ DİN 28.06.1946-cı il tarixdə daxil olmuş, kimə aid olduğu məlum olmayan bir imza ilə 2.07.1946-cı ildə "işə tikilsin" dərkənarı ilə qəbul edilmişdir. Ərizə vx. № 274716-li siyahıya alınmışdır. Oxuculara aruşanyanlara müttəhimə necə yanaşdığını göstərmək üçün Əkrəm müəllimin həmin ərizəsini olduğu kimi (rus dilində) buraya köçürürəm.

Министру Внутренных Дел СССР

От З/к Джафарова Экрема

## ЗАЯВЛЕНИЕ

Я, азербайджанец г. Рожд 1905, кандидат филологических наук, бывш. Доцент Азгосуниверситета им.Кирова. Аристован 5.01.42 в гор.Баку по ст. 72 г // УК Аз.ССР (58 п.10 УК РСФСР). Меня арестовали по грубым подозреваниям, по клеветническим материалам. В НКВД Аз.ССР следствие почти ни чего не установило, в резулътате начали вздумыватъ не былицы, заставили меня поговорит на себя неправдоподобные веши, потом – материали еше искажали и сделали из мухи слона. Затребовали и у началъника главлита материалов, а тот по самостраховке подал 100 процентную лож: мои детские любовние стишки юношеских лет квалифицировали как политические, на это смеялся и сам следователъ, а все таки он перевел эту клевету с азербайджанского языка на русский и принесли мне протокол на подписъ в котором были жуткие вещи, обсолютно не имевшее места на огной ставке и вот по таким материалам составили обвинитилъный акт, ни единый пункт которого не обоснаван фактами. Думаю будет суд, там я их разоблачу. Суда так и

не было. Через 9 месячев объявили мне приговор ОСО 8 лет ИТЛ. Я 7 лет преподавал, 14 лет комсомолским пропогандистом работал, свыше 50 печатных трудов…Попал я под горячую руку в момент атаки врага на нашу родуну, не приятели исползовали момент, угробили меня. Я уже просидел болъше половины срока. Я не могу в этом кратком заявлении показатъ все стороны, своего дела и причины его. Прошу Вас взатъ меня и мое дело в Москву и тем пересмотретъ. Я уверен, что меня оправдаются. (c.i.səh 101).

Ərizə 25 iyulda, VX-D-3, tamamilə məxfi.

Məktubla SSRİ DİN xüsusi müşavirəsinin katibliyindən həmin katibliyin əməliyyat müvəkkili baş leytenant Afanasovanın mzası ilə baxılmaq üçün Azərb.SSR DTN (Dövlət Təhlükəsizliyi Nazirliyi) general-mayor Yemelyanova göndərilir (Cİ.s.103).

Həmin sənədlərlə tanış olduqdan sonra özümüzü kəsən baltalardan biri, Bağırov sənədləri yoxlayıb belə qərara gəlir ki:

Məhkum Cəfərov Əkrəm Səftəroviçin şikayəti əsassızdır. Ona görə də iddiası təmin edilməsin. Bu haqda Az.SSR DTN-nin “A” şöbəsi vasitəsilə məhbusa cəzasını çəkdiyi yerdə məlumat verilsin.

Bağırov, Belononov, Podarov (s.105).

Bu qərarı onlar 1946-cı ilin sentyabrın 9-da tərtib edib. Yemelyanov isə 3 gündən sonra təsdiq edib.

Əkrəm müəllim 8 oktyabr 1946-cı ildə yenə SSRİ DİN nəzdnindəki xüsusi müşavirənin sədrinə həmin məzmunda ərizə ilə müraciət edir.

Həmin ərizədə o yazırdı (tərcümə etmirəm):

Всем своим существом во весъ заявляю, что мои обвинителъные маериалы клевета, клевета, клевета! Я никаких политических преступлений не совершал, не совершал! Бакинским материалам не верте, не верте, не верте! Прошу проверит, проверит, проверит! Возмите меня и мое дело в одну из Московских тюрем и при мне проверите мое дело…Я уже 5 лет в тюрмах и на общих тяжелых и на работах лагарей окончателъно измучался. Прошу Вас не оставит это заявление без резулътата.

Мой адрес: Куйбышев – 4, МК / 73 а.

Джафаров Экрем, 8.X.1946 (c.i.səh 107.).

Bu ərizə də 17 fevral 1947-ci ildə (düz 4 aydan sonra. Görün ərizələrə necə operativ şəkldə baxmışlar)

xüsusi müşavirə rəisinin müavini Barovkovun və podpolkovnik Mamlennikovun imzası ilə SSRİ DTN-in !A” şöbəsinin rəis müavini Titova göndərilir. (№ 9/3- № 57. Cİ-səh109). Oradan 21 fevral tarixli məktubla Borovkovun köməkçisi Zaslovski Kuybışev şəhərindəki İslah əmək düşərgələri idarəsi rəisinə göndərdiyi məktubda deyirdi ki, xahiş edirik məhbus cəfərov Əkrəm Səftəroviçə (73-a düşərgəsində saxlanılır) bildirəsiniz ki, işinə təkrar baxılmaq üçün göndərdiyi ərizə əsassız olduğuna görə baxılmamış qalır (səh.110) .

Necə deyərlər, dünya düzələndən sonra, 1954-cü ildə (13 fevral) Türkmənistan SSR İçəri İşlər Ministriyi SSRİ DİN I Xüsusi şöbəsinin rəis müavini podpolkovnik Severinə məktub göndərir (№11/1-485).

Məktubda Cəfərov Əkrəm Səftəroviç mühaki-məsini və həbsini üstündən götürmək göstərilir.

Məktub və sənədlər yenə 2 mart 1954-cü il tarixdə Azərbaycan SSR DİN və surəti Türkmənistan Daxili İşlər Nazirliyinə göndərilir (№ 16/42).

Yenə Markin Əkrəm Cəfərin cinayət işini yoxlayaraq yazır: «Жалобы Джафарова А.С Как несостоятелные оставит без удовлетворения и сняти судимости ему отказат».

1955-ci ilin yanvar ayının 5-də SSRİ prokurorluğunun xüsusi işlər üzrə prokuroru Pavlov SSRİ NS yanında DTK uçot-arxiv şöbəsinə yazırdı ki, SSRİ Prokurorluğu SSRİ DTK-nın 1 iyun 1954-cü il tarixli qərarı ilə razıdır və SSRİ ALİ Sovetinə Cəfərov Əkrəmin mühakiməsinin götürülməsi ilə bağlı vəsatətlə müraciət etmişdir.

Beləliklə, həbs müddətindən 4-5 il sonra Əkrəm müəllimin mühakimə edilməsi üstündən götürülür. Bunu 25 mart 1957-ci ildə Azərb SSR prokurorunun köməkçisi Polkovnikin də təsdiq edir

19.07.89-cu ildə polkovnik R.T.Mansurov (sağ olsun) Az.SSR DTK-nın Qutqaşen rayon şöbəsinin rəisi podpolkovnik Nağıyevə yazırdı ki, keçmiş Pioner küçəsi 38, mənzil 7 (indi Həzi Aslanov adlanır) yaşayan Əkrəm Cəfərovun qohumlarına bildirəsiniz ki, Cəfərov Ə.S. SSRİ Aİİ Soveti 16.01.89-cu il tarixli fərmanına əsasən bəraət almış və onlar bu haqda Azərbaycan SSR prokurorluğundan arayış ala bilərlər.

Bəli, nəhayət, haqq yerini tapdı. 84 yaşında Əkrəm müəllim azad və dərindən nəfəs ala bilərdi.

# XALİD SƏİD XOCAYEV





Matuleviç, Zaryanov və Jiqur üçlüyünün ölüm dəryasında məhv olan günahsız Azərbaycan alimlərindən biri də Sovet hakimiyyətinin ilk illərində Azərbaycan dilçiliyinin inkişafında özünəməxsus yeri və xidmətləri olan Xalid Səid Xocayevdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklər partiyası yeni dünyagörüşünü, oktyabr doktrinasını

insanların, xüsusilə yeni yetişən nəslin beyninə yeritmək üçün mədəni quruculuq sahəsində xüsusi qayğı göstərirdi. Lenin qayğısı kimi qəbul etdiyimiz bu proses  sonradan xalqımızın başına yeni-yeni bəlalar gətirən proseslərlə əvəz olundu. ADU-da milli kadrlarımız çatışmadığı üçün başqa şəhərlərdən alimlər dəvət edilirdi. Bunlar o vaxt respublikada elmin və mədəniyyətin inkişafında böyük rol oynayırdılar. Belə alimlərə Ə.S.Qubaydulini, X.S.Xocayevi, B.V.Çobanzadəni, M.F.Köprülüzadəni, A.N.Aşmarini, A.Samoyloviçi və onlarla başqalarını göstərmək olar. Biz Xalid Səid Xocayev haqqında bəhs edəcəyik.Xalid Səid Azərbaycan filologiyasının inkişafında öz dəsti-xətti olan bir alimdir. Xalid Səid "Türk dillərinin müqayisəli qrammatikası" adlı əsərində bu dillərin tipoloji müqayisəsini vermişdir. Müəllif bu əsərdə Azərbaycan, özbək və başqa dillərin qrammatik quruluşundakı ümumi unversal cəhətləri üzə çıxarır və bunun səbəbini həmin dillərin eyni mənşədən olması ilə əlaqələndirirdi. Bundan əlavə, türk dilçiliyində üslubiyyata aid əsəri də il dəfə Xalid Səid yazmışdır. Bu əsər Əli Suktanlının dediyi kimi, "uzun müddət orta məktəb müəllimləri və filologiya fakültələri tələbələri üçün yeganə vəsait olmuşdur".

Xalid Səid Xocayev Azərbaycanda türkologiyanın inkişafı sahəsində xüsusi xidmətləri olan bir şəxsdir. O geniş erudusiyalı bir insan kimi bir neçə dəfə Türkiyədə olmuş, zamanın siyasi durumu ilə

tanış olmuş, sonra Özbəkistanın Azərbaycandakı nümayəndəliyinin yataqxana müdiri işləmiş, 1926-cı ildə yataqxana bağlandıqdan sonra universitetə dəvət edilmiş, Şərq fakültəsində ümumi dilçiliyin bir sıra sahələrinə aid mühazirə oxumuş və praktik dərslər aparmışdır. Xalid Səid rus və türk dillərindən başqa ərəb və fars dillərini də mükəmməl bilmişdir. Qədim ərəb mənbələrini dilimizə çevirməklə o, Azərbaycan filologiyasına böyük töfhələr verirdi. Təkcə bunu demək kifayətdir ki, M.Kaşqarinin "Kitabi-divani-lüğət-it türk" əsərinin dilimizə çevirilməsi elmimizin tarixində bir inqilab ola bilərdi. Bu əsəri tərcümə etdikdən sonra Xalid Səid onu şap etdirə bilmədi. Təəssüf ki, bu gün də həmin əsər işıq üzü görməyib.

Biz Xalid Səidin elmi yaradıcılığını tədqiq etməyi qarşımıza məqsəd qoymamışıq. Çünki bu, xüsusi tədqiqat tələb edən bir mövzudur. Burada Xalid Səidin həyatının yalnız son bir neçə ayı ərzində bəlalı başının nələr çəkdiyini göstərmək istəyirik.

1937-ci ildə uydurma 12493 N-li cinayət işinə Xalid Səidi də cəlb etdilər. DTK arxivində saxlanan cinayət işində nömrə belədir: 12493 / 72. Amma Xalid Səidin məhbus kimi döşünə 1108 nömrəsi vurulmuşdur.

Azərbaycan XDİK DTİ-nin I şöbəsinin 4-cü bölməsinin əməkdaşı, Dövlət Təhlükəsizliyi leytenantı

Klemençiç öz rəisi Sinmanın təsdiqi ilə 27 may 1937-ci il tarixdə tərtib etdiyi MN / 3 saylı arayışda deyilir: “Xalid Səid Xocayevin həbsini və Azərb SSR C.M. 72, 73-cü maddələri üzrə cinayətə cəlb edilməsini zəruri sayıram. Bu barədə 8-ci şöbəni və XDİK-na nəzarət edən prokuroru xəbərdar etmək. Beləliklə, X.Səidə cinayət işi açılır. İş № 1249 / 72”.

Xalid Səid Xocayev 1888-ci ildə anadan olmuşdur. Milliyyətcə özbəkdir. SSRİ vətəndaşıdır. SSRİ EA Azərbaycan filialının elmi işçisidir. Həbs olunmamışdır. Həbs edilmiş bir neçə nəfərin ifadəsi əsasında həbs edilib. Qərar 4/tk.

Təsdiq edirəm: Az.Xalq Daxili İşlər Komissarlığının idarə rəisi, III dərəcəli Dövlət Təhlükəsizliyi Komissarı Sumbatov.

Bitərəf Xalid Səidin əksinqilabi-millətçi təşkilatın işində iştirak etdiyi sübut edilmişdir.

Qərara alıram:

Xalid Səid Xocayev Az.SSR C.M. 72/73-cü maddələri ilə Cinayətə cəlb edilsin. O, həbs edilərək Az.XDİK daxili türməsində saxlansın.

I şöbənin rəisi: Klemençiç

Razıyam: Sinman

1937-ci il iyunun 4-də X.Səidin evini axtarırlar. Məhbusun evi Bakı şəhəri Qasım İsmayılov küçəsi, ev № 81/12, mənzil 3-də yerləşir. Axtarışda iştirak edir: Qabrielyan, Qaravəliyev və evlər idarəsinin rəisi Vəliyev.

Evdən axtarış zamanı tapılıb götürülmüşdür:

1.Pasport

2. №59-li vəsiqə

3.1927-ci ilə aid türk jurnalı-5ədəd

4. Türk qəzeti "Cümhuriyyət" (1933)

5. 2 ədəd fotoşəkil

6.Əlifba kitabçası

7.Müxtəlif kitablar -27 ədəd

Məhbusun ailə tərkibi:

Arvadı – Sara 35 yaşında

Qızı – Behdcə 12 yaşında

Qardaşı – Sultan -30 yaşında

Bacısı – Rüxsarə 28 yaşında

DTK müstəntiqi Petrunin X.Səidin işini aparan şəxs kimi həbs ediləndən 13 gün sonra 6 iyunda dindirir. Dindirmə protokoluna baxaq:

**Sual:** Siz pantürkistlərdən kimi tanıyırsınız?

**Cavab:** Mən pantürkistlərdən heç kəsi tanımıram

**Sual:** Bəkir Çobanzadəni tanıyırsınızmı?

**Cavab:** Bəli, mən B.Çobanzadəni tanıyıram.

**Sual:** O pantürkistirmi?

**Cavab:** Bəli, o pantürkistdir.

**Sual:** Qubaydulin pantürkistdirmi?

**Cavab:** Mən bunu bilmirəm.

Sual: Siz düz demirsiniz. Siz nə üçün 1925/26-cı ildə Özbəkistanın Bakıdakı nümayəndəliyinin yataqxana müdiri vəzifəsindən çıxarılmısınız?

**Cavab:** Mən yataqxananın bağlanması ilə bağlı olaraq işdən çıxarılmışam.

**Sual:** Siz düz danışmırsınız. Siz pantürkist hərəkətlərinizə görə işdən çıxarılmısınız.

İyunun 7-dən başlayıb 9-na qədər davam edən işgəncəli dindirmənin protokolunda görün necə müttəhimi yumşaldıb hər şeyi boynuna qoyurlar:

**Sual:** Siz yenə düz danışmırsınız. Sizin Bakıda elmi və pedaqoji kadrlarla əksinqilabi əlaqəniz olmuşdur.

**Cavab:** Məcburam boynuma alım ki, aşağıdakı şəxslərlə əksinqilabi-millətçi istiqamətdə əlaqədə olmuşam: Vəli xuluflu, Qulam Bağırov, Artur Zifeld, Cabbar Məmmədzadə, Hənəfi Zeynallı, Hüseynzadə Muxtar (Çobanzadənin aspirantı), Dəmirçizadə (Çobanzadənin aspirantı).

**Sual:** Sizin yuxarıda adlarını çəkdiyiniz şəxslərlə əksinqilabi-millətçi əlaqəniz necə olmuşdur? (nədə ifadə olunmuşdur).

**Cavab:** Bu şəxslərin hamısı ilə mən əksinqilabi millətçi mövzuda söhbətlər aparırdım, onlar da əksinqilabi-millətçi mövqedə dayanırdılar. Bundan əlavə, Vəli Xuluflu və Zifeld M.Kaşqarinin pantürkist

əsəri “Kitabi divani-lüğət-it-türk” əsərinin tərcüməsində mənə kömək edirdilər.

**Sual:** Türkiyə kəşfiyyatındakı işinizdən danışın.

**Cavab:** Mən Türkiyə kəşfiyyatında işləməmişəm.

Dindirdi: Zıkov

DTİ əməkdaşı: Petruşin

Düzgündür: Ohanesov

Lazım olan cavabı, Türk kəşfiyyatı ilə əlaqə haqqında cavabı ala bilmədiklərindən düz bir həftə məhbusa toxunmadan yollar axtarırdılar. Başqa müttəhimlərdən söz qoparmaq üçün onlara Xalid Səid haqqında suallar verirlər. Beləliklə, Qubaydulin Əziz Saleh oğlundan 8 dəfə, A.S.Bukşpandan 1 dəfə, Ruhulla Axundovdan 1 dəfə soruşurlar. 3-cü dindirmə 14–15 iyunda keçirilib. Burada da müttəhimə əsaslı heç nə dedirdə bilmirlər. Cəmi 3 dəfə dindirmə.

Bundan sonra X.Səid sanki yaddan çıxır. Sentyabrın 13-də (3-cü dindirmədən 3 ay sonra) daha yeni dindirməyə lüzum görmürlər. Sumbatovun təsdiqi ilə Sinman sentyabrın 13-də istintaqı başa çatdırır və ittihamnamə tərtib edir. Burada X.Səid

sübutsuz, dəlilsiz, başqalarının məcburi ifadəsi əsasında Az.SSR CM 70, 73 və 63-cü maddələri üzrə cinayətə cəlb edilir.

Müttəhim deyir: Mən 1928-ci ildə İstanbul Universitetinin bir qrup tələbəsi ilə birlikdə Nuru Paşanın türk ordusunun tərkibində Azərbaycana göndərilmişəm. Biz türk ordusunun "Şuba və Məxsusə" adlı xüsusi şöbəsinə təyin edilmişdik ("Şuba Məxsusə" – hərbi siyasi xidmət deməkdir-A.B.). Bu təşkilata Baxaydın Paşa rəhbərlik edirdi ki, bu eyni zamanda müsavat hökumətinin əks kəşfiyyat idarəsinin rəisi idi. Türk ordusu buradan gedəndən sonra mən 1920-ci ildən 1937-ci ilədək yenidən Türkiyə kəşfiyyatı ilə əlaqə yaratdım (Müttəhimin şəxsi işi.s.19,29).

Bu ittihamnaməni hazırlayıb məhkəməyə göndərirlər. Oktyabrın 11-də "SSRİ Ali Məhkəməsi hərbi kollegiyasının səyyar sessiyasının hazırlıq iclasının protokolundan (№ -siz) məlum olur ki, müttəhimin işinə amansız bir dəstə baxacaq:

Sədr: Matuleviç İ.S

Üzvlər: Zaryanov İ.M., Jiqur Y.K.

Katib: Kostyuşenko A.F

SSRİ prokurorunun baş köməkçisi hərbi hüquqşünas N.S.Rozovski iştirak edir. Burada da "eşidildi" və "müəyyən edildi" hissəsi əvvəlcədən hazırlanmışdır. Çünki bu hissələr bir neçə nüsxə makinada yazılır. Sonra oraya təkcə məhbusun nə adı, nə anket məlumatı maraqlandırır. Onlara yalnız qurban lazımdır. Bu səbəbdən də məhbusun adını çox yerdə düz yazmırlar. Xalid Səid əvəzinə Xəlil Səidi güllələyirlər. Yəni adını Xəlil yazırlar (ş.i.s.56). Həmin gün ondan qəbz alırlar ki, mənə ittiham elan edilib, işə məhkəmə baxacaq, özü də şahidsiz, müdafiəsiz. Sabah, yəni 12 oktyabr 1937-ci ildə məhkəmə başlayır. Məhkəmə həmin tərkibdə işə çıxır.

Məhkəmə başlanır: 15:10-da qurtarır 15:25-də.

Bu müddət ərzində (15 dəqiqədə) sədr gündəliyi elan edir ki, müttəhim Xəlil Səidin işinə RSFSR CM 70, 73, 61-1 maddələri üzrə baxılacaq. Katib elan edir: Müttəhim məhkəməyə gətirilib. Şahidlər çağırılmayıb. Sədr müttəhimin şəxsiyyəti ilə tanış olur (guya bunun işə əhəmiyyəti varmış), ondan ittihamnamə almasını soruşur. Müttəhim deyir ki, bəli, ittihamnamə almışam. Sonra sədr məhkəmənin tərkibini elan edir və soruşur ki, bu tərkibə etirazı varmı?

Müttəhim deyir: Etirazım yoxdur.

Sədrin təklifi ilə katib ittihamnaməni oxuyur. Sədr müttəhimdən soruşur ki, ittihamnamənin mahiyyətini başa düşürmü, özünü təqsirkar bilirmi?

Müttəhim Xocayev özünün təqsirini tamamilə boynuna alır. Sədrin – öz ifadələrinizi təsdiq edirsinizmi, yeni bir şey əlavə etmək istəyirsinizmi – sualına müttəhim ifadəmi təsdiq edirəm və heç nə əlavə etmək istəmirəm, cavabını verir.

Sədr məhkəmə istintaqının qurtardığını bildirir və müttəhimə söz verir. O, cəzasını yüngülləşdirməyi xahiş edir.

Məhkəmə müşavirəyə gedir. Qayıtdıqdan sonra hakim hökmü oxuyur. Bununla da məhkəmə iclası qurtarır.

Hökm:

Sovet Sosialist Respublikaları İttifaqı adından SSRİ Ali məhkəməsi – hərbi kollegiyasının səyyar sessiyası tərkibdə

Sədr: İ.O.Matuleviç

Üzvlər: İ.M.Zaryanov, J.K.Jiqur

Katib: A.F.Kostyuşenko

SSRİ baş prokurorunun köməkçisi N.S.Rozovskinin iştirakı ilə qərara alır:

Xocayev Xalid Səid ən ağır cəzaya - güllələnməyə məhkum edilsin, ona məxsus olan əmlak müsadirə edilsin. Hökm qətidir. SSRİ MİK I-XII-1934-cü il qərarına əsasən ondan sikayət vermək olmaz, hökm dərhal yerinə yetirilməlidir.

Müttəhimin şəxsi işində olan arayışda (ş.i.s.61) deyilir ki, Xocayev Xalid Səidin güllələnmək haqqında hökmü Bakı çəhərində 13.10.1937-ci il tarixdə yerinə yetirilmişdir. Hökmün icrası haqqında akt SSRİ XDİK I xüsusi çöbəsinin arxivində saxlanır.

SSRİ XDİK 1-ci şöbəsinin 12-ci bölməsinin rəisi Şevolov Petruninin imzaladığı arayışdan məlum olur ki, Xalid Səidlə aşağıdakılar əlaqədar olmuşlar. Başqa sözlə, aşağıdakı alimlər ya Xalid Səid haqqında ifadə vermiş, ya da Xalid Səid onlar haqqında ifadə vermişdir.

1.Qubaydulin Əziz – prof. №12493-li işlə əlaqədar həbs olunub.

2.Çobanzadə Bəkir – prof. №12493-li işlə əlaqədar həbs olunub.

3.Xuluflu Vəli – prof. №12493-li işlə əlaqədar həbs olunub.

4.Bağırov Qulmam – Xüsusi iş üçün ayrılır.

5.Zeynallı Hənəfi – №12493-li işlə əlaqədar həbs olunub.

6.Hüseynzadə Muxtar – Xüsusi icraata ayrılıb.

7.Dəmirçizadə Əbdüləzəl – Xüsusi icra üçün ayrılıb və s. Cəmi 18 nəfər.

Özbaşınalığa, qanunsuzluğa, nəhayət allahsızlığa bax ki, öldürülənlərin nəinki meyitlərini ailələrinə vermirdilər, habelə onlar haqqında bütün məlumatları gizli saxlayırdılar. Hələ də heç kəs bilmir ki, bu qədər güllələnmiş adamın meyidini nə etmişlər. Dənizəmi tökmüşlər? Bütöv cəsədi dənizə necə tökmək olardı? Nargin adasında "dəfn" etmişlərmi? Heç kəsə bəlli deyil. Buna görə də başqaları kimi Xalid Səidin həyat yoldaşı Sara xanım əri güllələndikdən 18 il sonra belə onun başına nə gəldiyini bilmir. Bolşeviklər partiyasının hümanizminə inanır ki, nə vaxtsa ərim gələcək. Bu ümidlə xalq düşməninin arvadı kimi 13 oktyabr 1937-ci ildə (bədbəxtliyin təsadüfünə bax, sən demə əri güllələnən gün) həbs edilib 1941-ci ilin may ayının 15-də günahsız olduğu üçün azad edilən, həbsdən sonra Bakı şəhəri Qızıl əsgər küçəsi, № 2/15-li evin

16-cı blokunun 141-ci mənzilində yaşayan Sara Rza qızı Xocayeva Zaqafqaziya hərbi prokurorunun köməkçisi Çesnokova ərizə yazır.

Həmin ərizədə sara xanım ərinin pedaqoji elmlər namizədi, professor olduğunu, çoxlu Şərq dillərini bildiyini qeyd edir və hətta Leninqradda akademik M.İ.Meşşaninovla əməkdaşlıq etdiyini göstərir. Bundan əlavə, ərinin bir çox respublikalar üçün kitab yazdığını xatırladır. Özü haqqında isə aşağıdakıları bildirir:

–Mən, Xocayeva Sara Rza qızı 1902-ci ildə Lənkəranda anadan olmuşam. 1925-ci ildə X.S.Xocayevə ərə getmişəm.13.10.1937-ci ildə həbs edilmiş, 15.05.1941-ci ildə həbsdən azad edilmişəm.

Sizdən acizanə artıq dərəcədə xahiş edirəm ki, mənim ərimin işini araşdırıb onun taleyi haqqında mənə məlumat verəsiniz. Mənim ərim heç vaxt öz respublikasının düşməni ola bilməzdi.

Çesnokov 15 dekabr 1954-cü ildə öz dərkənarı ilə  işi istəyir. X.Səidin işini 13.04.1955-ci ildə №10/634-55-li təliqə ilə göndərirlər.

Hələlik Çesnokovdan heç bir müsbət cavab yoxdur.Ərinin taleyi üçün nigaran qalan, şəxsiyyətə pərəstiş pisləndiyi üçün çoxlarının bəraət aldığı

təqdirdə onun ərinin də sağ qalıbsa qayıda biləcəyinə inanan Sara xanım 1955-ci ilin aprel ayının 8-də Respublika prokuroruna ərizə yazır. Orada göstərirdi: - 1937-ci il iyunun 3-də XDİk orqanları ərimi mənə indiyə qədər məlum olmayan səbəbə görə həbs etmişlər. 13 oktyabr 1937-ci ildə məni də onun ailə üzvləri kimi həbs etdilər. İstintaqsız, sorğu-sualsız, məhkəməsiz məni islah-əmək düşərgəsinə 8 illiyə məhkum etdilər. 1941-ci il 15 mayda mən azad oldum. Həbsdən qayıdandan sonra mən Bakıda yaşamaq hüququndan məhrum edildiyim üçün 12 il respublikanın rayonlarını dolaşdım. Amnistiyadan sonra, 1953-cü ildə mən Bakıda yaşamaq ixtiyarı aldım. Xahiş edirəm ərimin işinə yenidən baxasınız və yaşayış sahəmin və ev əşyalarımın qaytarılmasına kömək edəsiniz.

Bundan bir həftə sonra Azərbaycan SSRİ Daxili İşlər Naziri Qustkovun adına da ərizə yazır. Burada göstərir ki, 1937-ci ilin oktyabr ayının 10-na qədər mən ona (X.S.Xocayevə – A.B.) XDİK binasında yemək gətirirdim. Bu gündən (10.10.1937-A.B.) mənə dedilər ki, bizdə belə familya yoxdur. Bununla da mənim ərimlə formal əlaqəm kəsildi.

Xalid Səidin 1 cilddən ibarət kiçik bir cinayət işində heç bir əsaslı sübut və dəlil yoxdur. Bunun Çesnokov da 09.01.1956-cı il tarixdə SSRİ DİN-in

tarixində yazır. 23 fevral 1956-cı ildə məktuba cavab gəlir ki, heç bir əlavə məlumat yoxdur.

1956-cı ildə 5 nəfər inanılmış, nüfuzlu şəxs Xalid Səid haqqında şahid qismində ifadə vermişdir.

1)Sultanlı Əli Abdulla oğlu 1906-cı il təvəllüdlü professor 28 aprel 1956-cı il tarixdə deyir:

–O, (Xalid Səid – A.B) indi də əhəmiyyətini itirməmiş olan Türk dillərinin müqayisəli qrammatikasını yazmışdır. Bu kitab qohum dillərin müqayisəli qrammatika sahəsində çox qiymətli əsərdir.Onun üslubiyyata dair əsəri orta məktəb müəllimləri və ali məktəb tələbələrinin uzun-uzun müddət yeganə vəsaiti olmuşdur. Son illər azərbaycan dilinin tarixini öyrənmək üçün ərəb mənbələrini dilimizə tərcümə edirdi. Onun bütün əsərləri göstərir ki, O, özünü, bütün gücünü və enerjisini Azərbaycan dilçiliyinin inkişafı işinə həsr etmişdir.

Xalid Səid təazükar, az danışan, öz işinə həmişə vicdanla yanaşan adam idi.

Soruşdu: Zaqafqaziya Hərbi Dairəsi prokurorunun köməkçisi, Ədliyyə kapitanı Qarayev.

2) 5.05.1956-cı il şahid sifətilə 1898-ci ildə anadan olmuş, professor Feyzulla Səməd oğlu Qasımzadə dindirilir. O deyir:

Xalid səidin müəllim və tələbələr arasında böyük nüfuzu var idi. Onu tələbələr çox sevirdi. Mən onda antisovet, əksinqilabi meyl görməmişəm. Habelə onun bu istiqamətdə təbliğat apardığının da şahidi olmamışam. Mən belə hesab edirəm ki, o namuslu, vicdanlı və təvazökar bir sovet pedaqoqu idi.

3) Mayın 3-də 1909-cu ildə anadan olmuş professor Məmmədağa Şirəliyev şahid kimi dindirilir. O deyir: Mən Xalid Səidi 1933-cü ildən tanıyıram. Həbs olunana qədər o mənimlə köhnə mətnlərin oxunması məşğələlərini aparmışdır. Dərsdə olduğu kimi. Məsləhət saatlarında da heç vaxt antisovet hərəkətlərə yol verməmişdir. Habelə millətçi ruhda olan fikirlər söyləməmişdir. Mən Xalid Səidi vicdanlı, namuslu bir sovet vətəndaşı kimi tanıyırdım.

4) 1956-cı ilin mart ayının 23-də 1905-ci ildə anadan olmuş professor Mikayıl Həsən Rəfili şahid kimi dindirilərkən demişdi ki, Əbülrza Salamzadə, Seyid Hüseyn Sadiqzadə, Xalid Səid Xocayev, Vəli Xuluflu, Hənəfi Zeynallı, Əli Kərimov haqqında həmişə müsbət fikirdə olmuşdur. Onlar heç vaxt əksinqilabi-millətçi təşkilatın üzvü olmamışlar.

Qeyd edək ki, Tağızadə Qüdrət Baba oğlu da 1956-cı ildə Xalid Səid haqqında müsbət fikir demişdir. Bu şəhid ifadələrinin hamısını kapitan Qarayev almışdır.

Nəhayət, uzun yazışmalardan sonra Dövlət Təhlükəsizliyi orqanlarında, hərbi prokurorluqda və Ali məhkəmədə çalışan vicdanlı adamların sayəsində ədalət şərə qalib gəldi.27 sentyabr 1957-ci ildə güllələnməsinin 20 ilinə 14 gün qalmış hərbi prokuror ədliyyə podpolkovniki B.Plexanov SSRİ Ali məhkəməsinin hərbi kollegiyasına protest yazaraq 12 oktyabr 1937-ci il tarixdə SSRİ Ali məhkəməsi hərbi kollegiyasının 13 sentyabr 1937-ci il tarixdə SSRİ Ali məhkəməsi hərbi kollegiyasının səyyar iclasının qərarının ləvğ edilməli olduğunu əsaslı sürətdə sübut edir. SSRİ Ali məhkəməsi Hərbi kollegiyası Ədliyyə podpolkovniki Smirnovun iştirakı ilə işdə cinayət tərkibi olmadığı üçün SSRİ Ali məhkəməsi hərbi kollegiyasının Səyyar Sessiyasının Xalid Səid haqqındakı qərarını özünün 4 p-025089/56 sayılı qərarı ilə ləvğ etmiş, işi xətm etmişdir.

Bu, əlbəttə, lazımdır. Amma geniş və hərtərəfli biliyə malik olan, məhsuldar bir alimi geri qaytara bilərmi? Adam bu işləri oxuyub qurtarandan sonra belə bir suala cavab axtarır. Görəsən Matuleviç və onun yoldaşıları Azərbaycanda 15-20 dəqiqəyə qətlinə fərman verdikləri gözəl alimlərin bircə barmağına dəyərdimi. Görəsən, nə üçün Matuleviç və onun güruhu Azərbaycanda neçə min adamı mühakiməsiz, şahidsiz, müdafiəisiz, nəhayət yalvarışına, aman diləməsinə məhəl qoymadan güllələmişdir?!

Bununla belə, yenə mühakimələr Xalid Səidin xeyrinədir.Əgər onun günahı olmadığı halda 15 dəqiqənin ərzində qətlinə fərman vermiş Matuleviçləri həyat nifrət və lənət damğası ilə tarixin qara səhifəsinə yazdısa, Xalid Səid öz əsərləri ilə özünə heykəl qoymuşdur.

Yuxarıda dediyimiz kimi, Xalid Səidin Juze ilə birlikdə Mahmud Kaşqarinin "Kitabi-divani-lüğət-it türk" əsərini Azərbaycan dilinə tərcümə etməsi dilçiliyimizin tarixində böyük bir hadisə kimi əbədi yaşayacaq. Bu əsər 60 il keçməsinə baxmayaraq, hələ də çap edilməmişdir. Amma bu kitabın işıq üzü görməsi bütün filologiyamız üçün böyük bir hadisə olardı. Xalid Səid Dövlət Universitetinin əmələ fakültəsində, Meliorasiya Texnikumunda Azərbaycan dili və ədəbiyyatı dərsləri deməklə yanaşı, Respublikada geniş ictimai iş aparmışdır. Bəlli olduğu kimi, Respublikada yəni əlifba ideyasını həyata keçirmək üçün əlaqələndirmə komissiyası yaradılmışdı. S.Ağamalı oğlunun rəhbərliyi ilə yaradılan bu komissiya başqa türk respublikalarını dolanmalı, onların fikrini öyrənməli, yeri gəldikcə yeni əlifba ideyasını təbliğ etməli, görkəmli alimləri Azərbaycana dəvət etməli idi. O komissiyanın tərkibinə Xalid Səid də daxil idi. 1929-cu ildə artıq latın əlifbası Azərbaycanda qəti şəkildə tətbiq edildiyi vaxt Xalid Səid bu əlifbanın qəbul edilməsi tarixi və bu yolda qarşıya çıxan əngəllər haqqından yarı elmi, yarı xatirə səciyyəli bir kitab nəşr etdirmişdir. Kitab

belə adlanır: “Yeni əlifba yollarında əski xatirə və duyğularım” (Bakı. Krım-Türküstan-Bakı, Türküstan-Özbəkistan) adlanır. Qəribədir ki, “birləşmiş türk əlifbası ilə birinci olaraq bu kitab çap olunur.” Cümləsi ilə nəşriyyat qeydi də verilmişdir. Kitaba Əziz Qubeydulin qısa bir müqəddimə də yazmışdır. Müəllif əsərin əvvəlindəki qeydində göstərir ki, təxminən 5-6 illik xatirəsini 28 iyul 1928-ci ildə tamamlamışdır.

Əsərin əvvəlində (səh.9) “haraya, nə üçün gedirdik” başlığı altında müəllif əlifba tariximiz üçün çox maraqlı bir epizod danışır:...Zatən osmanlılar, qazanlılar, özbəklər qarşısında da bu məsələ (yeni əlifba ideyası – A.B.) yox deyildi. Ancaq onlar bu məsələni ortaya atmağa cəsarət etməyirdi. Yeni əlifba vasitəsi ilə əldə edilən müvəffəqiyyət komitəyə (Azərbaycan Yeni Türk Əlifbası Komitəsi – A.B.) daha artıq cəsarət verdi. O, müvəffəqiyyətlərinin yekununu göstərməyə və qonşu türk cümhuriyyətlərinin yekununu göstərməyə və qonşu türk cümhuriyyətlərinin fikrini almaq lazımdır. Komitə bundan əvvəl onlar ilə xüsusi surətdə görüşməyi daha müvafiq gördü. 1924-cü ilin sentyabr ayında (bizə belə gəlir ki, bu 1923-cü ildə olmalı idi– A.B.) bir heyəti səfəriyyə təşkil edildi. Bunlar Şuralar İttifaqında olan bütün türk cümhuriyyətlərinin mərkəzlərinə gedəcək, səlahiyyatdar adamlar ilə

görüşəcəklərdi. Heyət aşağıdakı dörd nəfərdən təşkil olunmuşdu:

1.Səməd Ağa Ağamalıoğlu – Yeni Türk Əlifbası Komitəsi sədri

2.Mirzə Cəlil Məmmədquluzadə - "Molla Nəsrəddin" jurnalı mühərriri

3.Vəli Xuluflu-Yeni Əlifba Komitəsi üzvlərindən Texnikumunun lisan və ədəbiyyat müəllimi (səh.9)

Burada S.Ağamalıoğlunun və Mirzə Cəlilin şəkillərini də vermişdir.

Müəllif 1924-cü ilin yay aylarındakı görüşləri haqqında sonra yazır:

–İyulun 3-də günortadan sonra saat 4 ilə 5 arasında Ağ məsciddə olduq (burada müəllif maşınla bir binanın həyətinə getdiklərini, burada hamının hesablaşdığı ortaboylu, enliüzlü, qarayanız bir adamla tanış olduğunu söyləyir. Bu, professor B.Çobanzadə idi. Sonra ziyalıların iştirakı ilə keçirilən müşavirəni təsvir edir – A.B.).

Müşavirədə ilk söz S.Ağamalıoğluna verildi. O, axırda dedi: – Yoldaşlar, həyat sizin təkamülünüzü gözləmir, o yüyürmək, çalışmaq istəyir. Bunu yapa

bilməsəniz, siz təkamülünüz ilə bərabər əzilib, əriyib puç olub gedəcəksiniz (s.20).

Sonra söz B.Çobanzadəyə verildi. O dedi:- Yoldaşlar, əlifbaya elmi nöqteyi-nəzərdən yanaşalım. Əlifbanı bir lisanda olan səslərə görə təşkil etmək lazımdır. Ərəb əlifbasə lisanımızda olan səsləri ifadədən acizdir.

İkinci, bir lisan şəxsi deyildir, ictimai bir müəssisədir (əhalisinin ümumi nəzəri etibara alınmalıdır). Üçüncü, bir cəmiyyətin təşəkkülü süni deyil, təbiidir. Madam ki, cəmiyyət təşəkkül etmiş, onun mazisi - keçmişi unudulmamalıdır. Dördüncü, yazıda fənni tərbiyə dəxi nəzər etibara alınmalıdır. Beşinci, bizə bir-birinə yaxın dildə danışan türk-tatar xalqlarını kəndi ətrafında toplayıb elm və mədəniyyət yolu ilə sürətlə irəliləyəcək bir əlifba lazımdır. Sizin əvvəlcə təklif etdiyiniz əlifba xüsusunda bizim fikrimiz tamam başqa idi. Verdiyiniz izahatdan sonra bizə qənaət hasil oldu ki, mədəniyyətcə irəliləmək üçün bu əlifbanı qəbul etməkdən başqa çarəmiz yoxdur.

Rusiyada yaşayan türk-tatar xalqları arasında yeni bir mədəniyyət mərkəzi lazımdır. Böylə bir mərkəzə namizəd ola biləcək ancaq Bakıdır. Bakıdan başlanan yeni əlifba məsələsinə bütün Krım xalqı və gənclərinin yardım etməsinə ümid edirəm. Sizin hər

xüsusda bizə yardım edəcəyinizə əminik. Biz sizin fikrinizi salamlayırıq (səh 21).

Alimin bu xatirələri həm B.Çobanzadənin həyatını, həm yeni əlifba ideyasının tarixini, həm də müəllifin öz bioqrafiyasını öyrənməkdə dəyərli bir mənbədir.

Xalid Səidin elmi fəaliyyətini qiymətləndirmək işində onun 1926-cı ildə Bakıda Azərbaycan tədqiq-tətəbbö cəmiyyətinin nəşr etdiyi "Osmanlı, özbək və qazax dillərinin müqayisəli sərfi" adlı əsəri xüsusi əhəmiyyətə malikdir.Yeri gəlmişkən göstərmək lazımdır ki, bu əsər müqayisəli tipoloji aspektdə türk dillərini tədqiq edən ilk ən sanballı əsərdir. Bu kitab 110 səhifədən ibarət olub Respublika kitabxanasında №23-li şiriflə saxlanır. Kitabı müəllif qurultay ərəfəsində yazmışdır. Əsərin lap əvvəlində müəllif yazır: –Türk dillərinin müxtəlif şivələri arasında elə bir dil düzəldə bilərmiyiz ki, onu bütün türk uluslarına yabancı olmayaraq hər biri tərəfindən ayrıca öyrənmək lazımlı olsun (səh.1).

Əsər beş qismdən ibarətdir: -Birinci qism isim, ikinci qism sifət, üçüncü qism zəmir (əvəzlik), dördüncü qism feil, beşinci qism ədat adlanır.

Müəllif, yuxarıda dediyimiz dillər arasında bu beş qism əsasında müqayisə aparır və əsasən belə bir

qənaətə gəlir ki, türk dillərinin hamısının lüğət fondu leksik kökü birdir. Məsələn:

| **Anadolu** | **Özbək** | **Qazax** |
|---|---|---|
| Baş | Baş | Baş |
| Qol | Qol | Qol |
| Baba | Baba | Baba |

Müəllif feilin əmr formasını o zamankı terminlə təkidi məsdər adlandırır . (məs: oxu-oxuma).

Hasili məsdər – oxuyuram

İsmi məsdər – almaq, satmaq.

Xalid Səidin elmi yaradıcılığında Abdulla Tağızadə ilə birlikdə (görünür bu, hər iki alimin son əsəri imiş – A.B.) yazdığı “Müxtəsər üslubiyyat” kitabıdır. 1934-cü ildə çap edilən bu əsər VII sinif üçün nəzərdə tutulmuşdur. Əsərin redaktoru prof. B.Çobanzadədir.

Əsər dörd hissədən ibarətdir:

A. Hissə üslubiyyat (stilistika), intonasiya və durğu işarələri.

B. Cümlə: Sadə cümlə. Müsbət və mənfi cümlə (burada xəbəri təsdiq və inkar olan cümlələr

nəzərdə tutulur).Məktəb açıldı - müsbət, məktəb açılmadı - mənfi

C. Bəyan. Hissi bəyan: Mübaliğə. Nida. Sual. Təkrir. Fikri bəyan: Tədric, rücu, təhdid, təzad

Ç. Yazının mənşəyi

Üslubiyyat haqqında müəlliflər deyir: Üslubiyyat danışıq və yazılarımızda ifadəni müxtəlif məqsədlərlə tamamilə və nöqtəsi nöqtəsinə uyğun olaraq qurmaq üsul və qaydalarını öyrənən elmdir (s.5)

Əgər bu zəhmətkeş və poliqlot, eyni zamanda güclü daxili məslək sahibi olan alim sözünün və qələminin yetginləşdiyi vaxtda repressiya dəyirmanında məhv edilməsə idi, kim bilir nə qədər samballı əsərlər yazardı...

# QULAM KƏRİM OĞLU BAĞIROV





Ümumi dilçilik sahəsində çalışan görkəmli alimlərimizdən biri də filologiya elmləri doktoru, professor Q.K.Bağırovdur. O, yenilməz iradəyə malik bir insan idi. Bir qıçı, bir qolu iflic vəziyyətdə o, “Azərbaycan dilində feillərin leksik-semantik inkişafı” mövzusunda doktorluq dissertasiyası yazıb

müdafiə etdi (1966). Universitetin ümumi dilçilik kafedrası, şəxsən Muxtar müəllim bu dissertasiyanın müdafiəsinin təşkilində fəal iştirak etdi. Qulam müəllim haqqında hələ 1969-cu ildə professor Y.Seyidov yazırdı:

-30-cu illərdə dilçilik aləmində B.Çobanzadə ilə yanaşı Q.Bağırov da fəaliyyət göstərirdi. Filoloji elmlər doktoru Q.Bağırov Azərbaycan dilçilik elminin əsaslarını yaradanların sırasında özünə layiq yer tutur. O, yaradıcılığının ilk illərində ümumi dilçilik məsələləri ilə ("Dilçilikdə marksist-leninçi nəzəriyyənin saflığı uğrunda", "Yafəs türk dili qarışığı"-məqalə), elmi qrammatika ("Elmi qrammatikanın əsasları. Giriş"- kitabça, B.Çobanzadə ilə birlikdə), dil və dilçiliyimizin təşkili ("Azərbaycan SSR-də dil quruculuğu"-kitabça,B.Çobanzadə ilə birlikdə) və s. məsələlərlə məşğul olur, dərslik və dərs vəsaitləri ("Azərbaycan dili qrammatikasının qısa təcrübi kursu", "Türk dili") hazırlayır, proqram tərtib edirdi.

Müəyyən səbəblər üzündən Q.Bağırov öz dilçilik yaradıcılığına ara verməli olmuş, lakin, 1950-ci illərin ikinci yarısından sonra, onu yenə də davam etdirməyə başlamışdır. Bu dövrdə o, ədəbi dil tarixinə-ədəbi-bədii dilimizin müəyyən dövrlərinə, inkişafına, tarixi qrammatikaya aid maraqlı məqalələr ("XV əsr Azərbaycan ədəbi dilinin leksik, fonetik, qrammatik xüsusiyyətləri haqqında", "Azərbaycan

ədəbi-bədii dilinin inkişafında Füzulinin rolu", "M.F.Axundovun dili və üslubu" və s.) yazmışdır. Q.Bağırovun son dövrkü əsərlərində semasiologiya, leksikologiya, xüsusən tarixi leksikologiya məsələləri əsas yer tutur. Bu cəhətdən onun "Azərbaycan dilində feilin leksik semantik inkişafı" doktorluq dissertasiyası xüsusi əhəmiyyətə malikdir. Bu əsər geniş əhatə dairəsinə malik olan zəngin dil faktları əsasında yazılmışdır. Burada qədim türk abidələri ilə, başqa türk dilləri ilə müqayisələr aparılmış və feillərin leksik-semantik inkişafını göstərən əhəmiyyətli nəticələr çıxarılmışdır (50).

Azərbaycanın represiyaya uğrayan oğullarından biri də istedadlı dilçi alim Qulam Kərim oğlu Bağırovdur. Azərbaycan (habelə bütün türk dillərini), ərəb, fars, rus dillərini mükəmməl bilən, dərin erudisiyalı alim kimi dilçilik tariximizə daxil olmuş Q.Bağırov, həqiqətən bədbəxt bir ömür yaşamışdır. Öz tərcümeyi hallarından və istintaq işindəki anketdən məlum olur ki, Q.Bağırov 1904-cü ildə Cənubi Azərbaycanın Mərənd mahalının Dizə kəndində sənətkar (gön-dəri aşılayan) ailəsində anadan olmuşdur. 18 fevral 1949-cu il tarixli dindirmə protokolunda müttəhim kimi öz tərcümeyi halında aşağıdakıları demişdir:

– Mən 1904-cü ildə İran Azərbaycanının Mərənd mahalının Dizə kəndində anadan olmuşam. Atam Araz üstəki Naxçıvan şəhərində dəri zavodunda gön aşılayan usta işləmişdir. Bizim ailəmiz, o

cümlədən mən 1911-ci ildə Naxçıvan şəhərinə köçdük. Atam 1933-cü ildə, ölənə qədər işləməkdə burada davam etdi. Mən 1911-ci ildə rus-tatar məktəbinə daxil olub, 1915-ci ildə oranı bitirdim. Atamın iqtisadi vəziyyəti mənim təhsilimi davam etdirməyə imkan vermirdi. Buna görə də mən təhsilimi atıb atam işləyən həmin gön zavodunda fəhlə işlədim. Naxçıvanda Sovet hakimiyyəti qurulduqdan sonra mən təhsilimi davam etdirmək üçün imkan tapdım. 1920-ci ildə Müəllimlər seminariyasına daxil olub, 1924-cü ildə oranı qurtardım. 1924-cü ildə (tərcümeyi-halında isə 1925-ci il yazılıb-bax. "Azərbaycan dilçiləri". Bakı-1970. səh.37). Naxçıvan vilayəti xalq Maarif Komissarlığının ezamiyyəti ilə Bakı Pedaqoji İnsitutuna ezam olundum. Oranı 1927-ci ildə bitirdim. İnsitutu bitirdikdən sonra Bakı şəhərində saxlanılıb Universitetdə elmi işçi kimi işlədim. Eyni zamanda Şərq fakültəsinin tələbəsi olmuşam. 1929-cu ildə vaxtından əvvəl bitirmişəm. 1929-cu ilin sentyabrında Azərbaycan Dövlət Elmi Tədqiqat İnsitutunun aspiranturasına daxil olub, 1931-ci ildə oranı bitirmişəm. Oxumaqla yanaşı eyni zamanda mən tədris müəssisələrində, elmi idarələrdə müəllimlik fəaliyyətilə məşğul olmuşam:

1.1927-ci ildən 1929-cu ilədək №33-li məktəbdə

2.1929-cu ildən 1931-ci ilədək Azərbaycan Tibb Politexnikumunda Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişəm.

3.1931-ci ildən 1936-cı ilə qədər Azərbaycan Kommunist İnsitutunda (Bakı Ali Partiya məktəbi-A.B) kafedra müdiri və Azərbaycan dili müəllim işləmişəm.

4.1934-cü ildən eyni zamanda (1935-ci ilə qədər) SSRİ EA Azərbaycan filialında şöbə müdiri (tətbiqi dilçilik şöbəsinin – A.B.), 1935-ci ildən 1937-ci ilə qədər SSRİ EA Azərbaycan filialının Dilçilik İnsitutunun direktor müavini işləmişəm. 1937-ci ildə partiyadan çıxarılmağımla əlaqədar olaraq mən insitut direktorunun müavini vəzifəsindən də çıxarılmışam. Təxminən 1937-ci ilin avqustunda EA Azərbaycan filialından da çıxarılmışam. Vororşilov rayon partiya komitəsi tərəfindən Azərbaycan Kommunal-təsərrüfat bankında inzibati təsərrüfat şöbəsinə müdir göndərilmişəm. Orda həbs olunan günə qədər, yəni 4 aprel 1938-ci ilə qədər işləmişəm. Dilçilik sahəsindəki işlərimi nəzərə alaraq (Azərbaycan dilində isim hallarının sintaktik vəzifəsi əsərinə görə – A.B.) SSRİ EA 1936-cı ildə mənə filologiya elmləri namizədi alimlik dərəcəsi verilmişdir.

**Sual:** Siz harada və nə vaxt ÜİK (b) P-yə daxil olmusuz?

**Cavab:** 1922-ci ildən 1931-ci ilə qədər mən ÜİLKGİ üzvü olmuşam. 1933-cü ildə komsomoldan məni Voroşilov rayon partiya Komitəsi ÜİK (b)P üzvlüyünə namizəd qəbul etdi.

**Sual:** Sizin qohumlarınızdan məhkəmə məsuliyyətinə cəlb edilən varmı?

**Cavab:** Mənim qohumlarımdan heç kəs məhkəmə məsuliyyətinə cəlb edilməmişdir.

Ailə üzvlərimdən doğma bacım və ögey anam Naxçıvanda yaşayırdılar, indi taleləri mənə məlum deyil (çünki bu dindirmədən 2 il əvvəl Q.Bağırovu həbs edib Uzaq Şimala göndərmişdilər. Xalq düşməninin isə məktublaşmağa ixtiyarı yox idi – A.B.). İki qardaşım müharibə vaxtı (194–45 nəzərdə tutulur – A.B.) Qızıl Orduya aparılmışdır, onların da taleyi mənə məlum deyil (yazıq Qulam, qardaşları canından keçirdilər ki, Matuleviçlər, Qriqoryanlar işlərini yaxşı görə bilsinlər – A.B).

Bu, yuxarıda dediyimiz kimi müttəhim Q.Bağırovun 18 fevral 1949-cu ildə müstəntiq Qolovanova verdiyi ifadəsindən götürülmüş məlumat idi (dindirmə səhər saat 10-da başlamış, 12:15-də qurtarmışdır). Qeyd etmək lazımdır ki, Q.Bağırov 1949-cu ildə başlamış № 72-li cinayət işinin içində "xüsusi paket" var-

dır. Buradan onun birinci həbsinin sənədləri toplanmışdır. Burada Q.Bağırovun adı çəkilən on bir ifadə vardır. Bu ifadələrdə müttəhimlər əksinqilabçı-millətçilərin sırasında onun da adını çəkirlər. Məsələn:

1.Məcburam boynuma alım ki, aşağıdakılarla əksinqilabi-pantürkist əlaqədə olmuşam:...2 Qulam Kərim oğlu Bağırov (Xalid Səid, 7-8 VP-1937.S.İ.səh 81)

2.Əksinqilabi-millətçi təşkilatın üzvləri mənə məlumdur:... 8.Qulam Kərim oğlu Bağırov... Mən professor və müəllimlərin bir hissəsi ilə Qulam Bağırovla əksinqilabi əlaqə yaratmışdım (Biləndərli Hüseynəli Süleyman oğlu. 20-23 may, 1937, ş.i. səh 82)

3.Azərbaycanda əksinqilabi millətçi təşkilatın üzvlərindən mənə aşağıdakı şəxslər məlumdur:... Qulam Kərim oğlu Bağırov – Vəli xuluflunun sözlərindən (B.Çobanzadə, 17/20 aprel, 1937, ş.i.s.70)

4.Vəli Xuluflu bildirmişdir ki, əksinqilabi millətçi təşkilata ondan əlavə aşağıdakı şəxslər daxildir. Q.Bağırov. Habelə bunu da bilirəm ki, B.Çobanzadə Q.Bağırovla bir neçə dəfə Azərbaycan rayonlarında olmuşdur (Qubaydulin Ə.S.4-5 VP-1937, ş.i.səh.74)

5.Qulam Bağırovun əks-inqilabi millətçi fəaliyyəti haqqında aşağıdakıları deyə bilərəm: Qulam Bağırov B.Çobanzadə ilə birlikdə “15 ildə Azərbaycanda elm” kitabında “Azərbaycan SSR-də dil quruculuğu” adlı məqalə çap etdirmişdir. Bu məqalədə pantürk fikirlər yayılırdı. Bu məqalədən aydın olur ki, dil və ədəbiyyat məsələlərində Q.Bağırov pantürkist mövqedə dayanır (Zifeld Artur Rudolfoviç II-XP-1938 ifadəsindən ş.i.səh.85). Əslində bu məqalədə müəlliflər 1920–1935-ci illər arasında Azərbaycanda dil və dilçiliyin inkişafı problemlərindən bəhs edir. 1931-ci ildən başlayaraq mətbuat səhifələrində onlara qarşı amansız tənqidi məqalələr çıxdığı üçün guya özlərinin pantürkist mövqelərini səmimi şəkildə tənqid edirlər. Qulam Bağırovun I həbsi haqqında işdə geniş material yoxdur. Burada SSRİ XDİK xüsusi üçlüyünün xüsusi müşavirəsinin №15-li protokolundan çıxarış vardır. Orada deyilir: Qulam Kərim oğlu Bağırov antisovet millətçi təşkilatın işində iştirak etdiyi üçün 8 il müddətində islah əmək düşərgəsinə göndərilsin. Cəza tədbirinin tarixi 4 aprel 1938-ci ildən hesablansın. İş arxivə verilsin

SSRİ XDİK Xüsusi Müşavirəsinin Katibliyinin rəisi Markayev.

Bu protokolun əsli SSRİ DİN I xüsusi şöbəsində saxlanan № 623722-li işində saxlanır.

Beləliklə, Q.Bağırov Uzaq Şimala göndərilir. Orada yol fəhləsi işləyir. Uzaq Şimalın soyuğu, rütubətli havası, aclıq, hər addımda təhqir, söyüş, nifrətli baxış, psixoloji sarsıntı qulamı əzir. Onun səhhəti pisləşir. Onu tibbi müayinəyə göndərirlər. Orada 15.06.1946-cı il tarixdə verilmiş № 21-li tibbi protokoldan çıxarışda deyilir: 1939-cu ildən Kalımda olan Q.Bağırovun ürək klapanında çatışmazlıq, arterial skifoz, ağ ciyərlərində emfizema müəyyənləşdirilib. Ondan yalız yüngül xüsusi işlərdə istifadə etmək olar (Sədr – Sazanov, həkim – Saakov). İşə bax. Burada da erməni Saakov. Onu hesabdar qoyurlar. Saakovun verdiyi arayışda Q.Bağırovun səhhətinin durumu düzgün göstərilmişdir. O iş qabiliyyətini tamam itirməkdə, haldan düşməkdə idi. Buna görə də o, 28 dekabr 1946-cı ildə Taskin enerji kombinatından çıxır, hələ ona 4 aprel 1946-cı ildə buxtaya-materikə çıxmaq üçün icazə verilmişdir. 1946-cı ilin dekabrın 30-da onu həbs düşərgəsindən buraxırlar. Ona verilmiş № 54-li haqq-hesab üzülüşmə vəsiqəsində deyilir ki, orta əmək haqqı 726 manat 80 qəpik olmuşdur. 1947-ci ilin yanvarın 5dək 5 günlük quru şörək verilir, yol xərci isə verilmir, 400 manatlıq istiqraza (30 sm) vərəqəsi verilmiş, 325 manatlıq tutulmuş, özünə 25 manat verilmişdir.

Sonra ona belə bir arayış verilmişdir: Verilir ona görə ki, B.Qulam 9 aprel 1946-cı lə qədər Uzaq Şimal tikintisində yol fəhləsi işləmişdir. Uzaq tikinti

sistemindən 59 K KZOT (Əmək Qanunları Məcəlləsi) 44 a maddəsi üzrə azad edilmiş və materikə çıxmağa icazə verilmişdir.

Uzaq Şimalda heç kəsi tanımayan, heç kəsdən kömək, səmimi münasibət görməyən Q.Bağırov başını aşağı salıb döyülməmək üçün heç kəslə danışmadan belə gücü çatınca işləmişdir. Hətta Yemelyanov 17.01.1949-cu ildə tərtib edilən № EM/4-li arayışın axırında yazırdı. Qulam Bağırov cəza çəkdiyi müddətdə onu ləkələyən heç bir material yoxdur. Sonradan özü dediyi kimi onu Şimal dənizində suda saxlayırmışlar.

Qulam Bağırov çox çətinliklə Azərbaycana gəlir. Lakin ona Bakıda yaşamağa icazə verilmir. Buna görə həm də Qalstyanların, Qriqoryanların cəngindən uzaqda olmaq üçün ən ucqar rayona-Laçın rayonuna gedir.Burada şəhər xəstəxanasında hesabdar işləyir, təsərüfat işlərinə baxır. 2002-ci ildə Moskvada «к истории Сталинского террора куда идит Россия» mövzusundakeçirilən doqquzuncu beynəlxalq simpoziumda Danilovun məruzəsində deyilir ki, ÜİK (b) P MK büyün vilayət və diyar komitələrinin katiblərinə və respublikalarında XDİK nümayəndələrinə təklif edir ki, öz doğma bölgələrinə qayıdan qolçamaqları və günahkarları dərhal həbs edib inzibati qaydada işlərini üçlüklər təqdim edib güllələnmələri üçün qeydiyata alsınlar. Təklif edilir ki, beş gün

müddətində üçlüklərin heyəti eləcə də güllələnməli şəxslərin sayı MK-ya göndərilsin (bax:Материалы девятого междинородного симпозиума. М.2002.с. 322–323). Bu sənəd Azərbaycana gələndə Qulam müəllim yenicə vətənə qayıdıb, uzaq Laçın şəhərində xəstəxanada təsərrüfat işində işləyirdi. Lakin burada da onu rahat buraxmırlar. Azərbaycan SSR DTN Şöbə rəisi Popov yenə Q.Bağırov haqqında iş qaldırır. 19 yanvar 1949-cu ildə tərtib edilmiş cinayət işinin 2-ci səhifəsində:

İş №-72

İttiham maddəsi: 21, 64, 73 (Azərbaycan SSP.C.M.)

Başlanılıb: 19 yanvar 1949

Qurtarıb: 19 fevral 1949

Həbs qəti imkan tədbiri seçilməsi 17.01. 1949

Mən, DTN şöbə rəisi Popov müəyyən etdim:

İxtisasca dilçi-pedaqoq, Laçın rayon səhiyyə şöbəsində sayıcı, bitərəf, ali təhsilli, azərbaycanlı Bağırov Qulam Kərim oğlu Azərb.SSR C.M. 21, 64 və 73-cü maddələri üzrə cinayət törətmişdir.

Bağırov Qulam Kərim oğlu antisovet-millətçi təşkilatın üzvü olmuş, SSRİ XDİK xüsusi müşavirəsinin 21 iyun 1939-cu il tarixli qərarı ilə 8 il islah əmək düşərgəsinə məhkum edilmişdir. Müharibə qurtardıqdan sonra islah əmək düşərgəsindən azad edilmişdir.Q.Bağırovun azadlıqda olması sosial cəhətdən təhlükəlidir.

Qərara aldım:

Bağırov Qulam Kərim oğlu axtarılıb həbs edilsin. Az.SSR DTN şöbəsinin rəisi Popov 19 yanvar 1949-cu ildə respublika prokurorluğunun razılığı ilə Bağırov Qulam Kərim oğlunun axtarılıb (yeri bilinirdi, Laçın rayonunda xəstəxanada kiçik bir işdə işləyirdi) həbs edilməsi üçün №58-li order yazılır.

Yanvarın 21-də Nəsibyan yerli sakin Lütvəliyeva Kimyanın iştirakı ilə müttəhimin evini axtarır. Nəsibyanın əlinə aşağıdakı əşyalar keçir:

Posport №517/127, Hərbi bilet №479151, vəsiqə № 54, Profbilet № 1199995, 4 ədəd fotoşəkil.

Sonradan cinayət işinin qurtarması haqqındakı protokolda yazılacaq ki, (19.02.1949) axtarış zamanı evdən daha heç nə tapılmadı.

Beləliklə, Qulam müəllim yenidən Nəsibyanların cənginə keçir. 26 yanvar 1949-cu ildə müstəntiq kapitan-leytenant Qolovanov işlə tanış olur. O müəyyən edir:

-Bağırov Qulam Kərim oğlu antisovet-milllətçi təşkilatın üzvü kimi Akademiyanın Azərbaycan filialında ziyanlı təxribat işləri aparmışdır.

Qərara aldım:

-Bağırov Qulam Kərim oğlunun ittiham edilməsi üzrə cinayət işinin istintaqını öz üzərimə götürürəm.

Cinayət işini Azərb.SSR DTN İstintaq çöbəsinin rəisinin müavini Pivovarov təsdiq edir (ş.iş.səh 10).

Birinci dindirmə protokolunda (s.11) məlum olur:

1945-ci ildə arvadını boşayıb. Filologiya elmlər namizədidir.

**Sual:** Siz harada və nə qədər cəza çəkmisiniz?

**Cavab:** 24 sentyabr 1939-cu ildən 1947-ci ilin yanvarına qədər. Uzaq Şimal tikintidə DASKAN

elektrokombinatında. Bütün cəza çəkmə vaxtı ümumi işdə olmuşam.

**Sual:** Siz nə vaxt azad olmusunuz?

Cavab: Kalım islah əmək düşərgəsindən 4.06.1946-cı ildə azad olub elə oradaca azad muzdlu əməklə orada qalıb işləmişəm. 1947-ci ilin yanvarında Azərbaycana gəldim. Ağdama getdim. İki ay orada qaldım. Gələn kimi yerli milisə öz gəlməyim haqqında müraciət etmişdim. Məni məhz milis idarəsi Laçın rayonuna göndərdi. Martın 31-də Laçına gəldim. Yerim yox idi. 2 ay rayon mehmanxaasında qaldım. Sonra Laçın rayon İcraiyyə Komitəsi məni rayon xəstəxanasına statistik göndərdi. Həbs olunana qədər (21.01.1949) burada işlədim.

4 fevral 1949-cu il, ikinci dindirmə. Başladı 20:00, qurtardı 23:10, yenə Qolovanov dindirir (ş.i.səh.14).

**Sual:** Sizə 1936-cı ildə silahlı üsyan və terror vasitəsilə Azərbaycanı SSRİ-dən ayırıb müstəqil dövlət yaratmaq məqsədini qarşıya qoymuş ıksinqilabi millətçi təşkilata cəlb olunduğunuz üçün ittiham irəli sürülür. Əksinqilabi millətçi təşkilat bu məqsədə çatmaq üçün xalq təsərrüfatında antisovet və ziyankar təxribat işləri aparmışdır. Sizə gəldikdə, siz EA Azərbaycan filialında insitut direktorunun müavini kimi

insitutun tematik istehsalat (elmi tədqiqat – A.B.) planının yeriə yetirilməməsinə çalışmısınız. Bunun nəticəsində 1936-cı ildə həmin plan yerinə yetirilməmişdir (Bundan ötrü kim cavab verməlidir – A.B.). Bundan əlavə, siz professor heyəti arasında əksinqilabi-millətçi fikirlər yaymış, dil (orfoqrafiya) sahəsində Azərbaycan dilini korlamış (aman Allah, Qolovanov Azərbaycan dilinin təmizliyi üçün nə qədər narahat olurmuş – A.B.), onu osmanlı, ərəb sözləri ilə zibilləmiş, Azərbaycan ədəbiyyatı klassiklərinə böhtan atmısınız ki, onlar ədəbi dildə yazmamışlar. Başqa sözlə, siz Az.SSR CM 21, 64, 73-cü maddələri ilə ittiham edilmisiniz. Boynunuza alırsınızmı?

**Cavab:** Elan edilən ittihamnamə mənə aydındır. Mən mənə edilən ittihamı qəbul etmirəm. Belə ki, mən heç vaxt əksinqilabi-millətçi təşkilatın üzvü olmamışam, dil və ədəbiyyat sahəsində heç vaxt ziyankar iş aparmamışam.

18 fevral 1949-cu ildə dindirməsi tamamilə müttəhimin tərcümeyi-halına aiddir. Dindirmə 2 saat 5 dəqiqə davam edir. Yenə də Qolovanov dindirib:

19 fevral 1949-cu il, yenə dindirmə başlanıb 13:50-də, qurtarıb 15:35-də (ş.i.səh. 18).

**Sual:** Cəzanızın çəkəndən sonrakı antisovet fəaliyyətinizdən danışın.

**Cavab:** Cəzamı çəkəndən sonra Azərbaycana qayıtdıqdan sonra mən heç bir antisovet fəaliyyətlə məşğul olmamışam və olmayacağam. Mən bəyan edirəm:

- Mən yalnız Sovet hakimiyyəti sayəsində yaxşı təhsil ala bilərdim və almışam. Biz yalnız Sovet hakimiyyəti sayəsində yaxşı yaşamağa başlamışıq (əcəb yaşayırsan – A.B.)

Burada ondan başqa ziyalılarımızın əksinqilabi işi haqqında soruşurlar, heç bir müsbət cavab ala bilmirlər. Elə həmin gün 19 fevralda istintaqın başa çatması və işin məhkəməyə göndərilməsi haqqında protokol təttib edirlər. Cəmi 3 dindirmə.

Qulam müəllim uzun zaman bir doyunca çörək tapıb yemədiyi halda, əziyyətə, işgəncəyə, təhqirə məruz qalır. Əsəbləri dözmür, ağır xəstələnir. 22 fevral 1949-cu ildə tibbi ekspertizanın arayıçında deyilir ki, müttəhim aortik və kəskin bronxitlə xəstələnmişdir. Ondan yüngül işlərdə istifadə etmək olar.

2 mart 1949-cu ildə Dövlət Təhlükəsizliyi Naziri Yemelyanovun və azərbaycan Respublikası prokuroru Əliyevin təsdiqi ilə Qolovanov və Podarov Qulam Bağırovu Azər.SSR CM 21, 64 və 73 maddələri ilə ittiham edərək işi məhkəməyə

göndərirlər. Qolovanovun tərtib etdiyi ittihamnamədə (cinayət işi № 72) deyilir:

-Bağırov Qulam Kərim oğlunun Azərbaycana qayıtdıqdan sonra antisovet hərəkətləri barədə heç bir sübut-fakt tapılmamışdır. Bağırov Q.K. 1940-cı ildə guya düzgün mühakimə edilməməsi barədə SSRİ Ali Sovetinin Rəyasət heyətinə ərizə vermişdir. Onun ərizəsi təmin edilməmişdir. Onun azadlıqda olması ictimai cəhətdən təhlükəlidir (ş.i.s.22).

Soruşulmamışdır ki, əgər heç bir cinayət faktı tapılmamışdırsa, bəs nə üçün o, təhlükəli hesab edilir. Bir halda ki, Sovet hakimiyyəti üçün təhlükəli deyildir, bəs onda kimin üçün təhlükəlidir.

Həmin ittihamnamənin arayış hissəsində deyilir:

1.Müttəhim Bağırov Qulam Kərim oğlu 22.01.1949-cu ildə həbs edilərək Azərb.SSR DTN-in daxili türməsində saxlanır.

2.İş üzrə əşyayi-dəlil, qiymətli əşyalar yoxdur.

3.İslah əmək düşərgəsinin cəza çəkmə haqqındakı arayış xüsusi paketdə işə əlavə edilmişdir...

4.Həkimin verdiyi arayışa görə Bağırov Qulam Kərim oğlu Şimal iqliminə dözə bilər.

Bundan sonra Xüsusi Müşavirənin qərarı ilə Bağırov Qulam Kərim oğlu yenidən azadlıqdan məhrum edilir.

15 aprel 1949-cu ildə Az.SSR DTN "A" şöbəsi rəisinin köməkçisi Zaslovskinin və 4-cü şöbənin rəisi mayor Burıninin tərtib etdikləri №70844-li təliqə ilə müttəhim Bağırov Qulam Kərim oğlu Canbul şəhərinə göndərilir.

4 aprel 1956-cı ildə Azərbaycan Respublikası prokurorluğu İ.İ.İsmayılovun imzası ilə Azərbaycan SSR Ali məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasına №10/1364-li protest göndərilir. İ.İsmayılov Q.Bağırovun işinə xitam verməyi aşağıdakı haqlı dəlillərlə sübut edirdi:

1. 1949-cu ilin fevral ayının 4-də Bağırov Qulam Kərim oğluna faktik olaraq cəzasını çəkdiyi maddə üzrə yenidən ittiham irəli sürmüşlər

2. 4 mart 1949-cu ildə Az.SSR Dövlət Təhlükəsizliyi Naziri Yemelyanovun və Respublika prokurorunun müavini İbrahimovun təsdiq etdiyi ittihamnamədə göstərilir ki, cəzasını çəkib Azərbaycan qayıtdıqdan sonra Bağırov Qulam Kərim oğlunun antisovet

fəaliyyəti haqqında fakt tapılmamışdır. Bu halda Bağırov Qulam Kərim oğlunun yenidən ittiham olunub həbs olunması qanunsuzdur.

Xahiş edirəm:

SSRİ DTN-in xüsusi müşavirəsinin Bağırov Qulam Kərim oğlunun həbs edilməsi haqqındakı 2.04.1949-cu il tarixli qərarını ləvğ edəsiniz və işdə cinayət tərkibi olmadığı üçün işi xitam edəsiniz.

23 aprel 1956-cı ildə Azərbaycan SSR Ali məhkəməsi cinayət işləri üzrə məhkəmə kollegiyası (Sədr – İmanov S., üzvlər: Beimov və Y.Quliyevin, habelə prokuror İsmayıl Hacıyevin iştirakı ilə) 7-0/396 qərarla SSRİ DTN xüsusi müşavirəsinin Bağırov Qulam Kərim oğlu haqqında 2 aprel 1949-cu il tarixli qərarı ləğv edilmiş və işə xitam verilmişdir.

Bundan sonra Qulam müəllim cəmiyyətdə artıq başıuca gəzə bilərdi. Lakin 17 il nahaq həbsxana rejimi artıq onu əldən salmışdı. O, fiziki cəhətdən zəifləsə də, iradə cəhətdən hələ güclü idi. Buna görə də 1956-cı ildən M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnsitutunda Azərbaycan dili və ədəbiyyatı kafedrasında işləmiş, 1961–1967-ci illərdə isə kafedra müdiri vəzifəsində işləmişdir. Bu sətrlərin müəllifinə bir neçə il-təxminən 9-10 il Qulam müəllimlə birlikdə işləmək qismət olmuşdur. O, çox nikbin

və gülərüz bir insan idi. Həyatda demək olar ki, qazandığı heç nə yox idi. 1964-cü ildə artıq bütün qohum-əqrabanı itirmiş Qulam müəllim Kubra adlı qeyrətli bir qadınla ailə həyatı qurdu. Kubra xanım Qulam müəllimin indiyə qədər kədər içində keçmiş həyatına bir yenilik və sevinc gətirəcəyinə inanırdı. Amma, görünür fələk dediyindən dönən deyilmiş. Az sonra 1964-cü ilin yayında Qulam müəllimin sol tərəfi bütünlüklə iflic oldu. Bu da onu ruhdan sala bilmədi. Bir qıçı və bir qolu ilə dilçilik elmi cəbhəsində çalışmaqda davam etdi. Azərbaycan dilində feillərin leksik-semantik inkişafı yollarını əzmlə araşdırdı. Ərəbcə, farsca, rusca və başqa türk dillərində olan qədim mənbələri araşdırdı. Bunun nəticəsində 1966-cı ildə alimin "Azərbaycan dilində feillərin leksik-semantik inkişafı" adlı kitabı meydana gəldi. Elə həmin ildə Qulam müəllim bu mövzuda doktorluq dissertasiyası müdafiə etdi. Kitab həcmcə o qədər də böyük deyildi. Cəmi 8, 7 şap vərəqi həcmində olan bu əsərdə müəllif şox cəsarətli elmi fikirlər söyləyir. Bu əsərdə Qulam müəllim sanki "pantürkist" damğası ilə döyülüb, işgəncələrə məruz qalmış üst-üstə 17 il həbsxanada qalan adam deyilmiş, yenə də türk dilləri, onların genetik vəhdəti və tarixi birliyi haqqında cəsarətlə danışır. – "Tarixi mənbələrə əsasən demək olar ki, hələ eramızdan əvvəl Azərbaycan ərazisində türk dilində danışan tayfa və qəbilələr var imiş, hətta tarixçilər VII əsrdə Sasanilər dövlətinin quruluşunda türklərdən ibarət Süvari dəstələrinin olduğunu qeyd

edurlər. Türkdilli qəbilələrin Azərbaycan ərazisində yerləşməsinə qədər ölkədə ünsiyyət vasitəsi kimi müxtəlif məhəllə – qəbilə dilləri işlədilmişdir... Azərbaycan dili yerli xırda məhəlli dilləri sıxışdıraraq, ümumi danışıq dili mövqesinə keçir, beləliklə də bütün Azərbaycanda yaşayan xalqlar üçün anlaşılacaq dil olur...Qədim qəbilələrin izlərini bugünkü Sovet və İran Azərbaycanının toponimikasında və etnonimikasında görmək olar. Hələ XV əsrdə belə Azərbaycanda bir sıra türk dilli qəbilələrin adları qeydə alınmışdı. O cümlədən Qacar, Zülqədər, Türkmən, Bayat, Kazak və başqalarını göstərmək olar. Bu qəbilə adlarına hal-hazırda ya tamamilə, ya da qismən dəyişilmiş formada respublikamızın müxtəlif rayonlarıda təsadüf edilir. Məsələn, bayat, cəlayir, qıpçaq, cığatay, moqul, muğal, xalac və s. kimi adlar Azərbaycan xalqının tərkibinə daxil olan qəbilələrin adlarıdır" (adı çəkilən əsər, s.5–6).

Kitabın "Yazılı abidələr və onların Azərbaycan dilinə münasibəti məsələsi" adlı fəslində alim XIII əsr abidəsi olan "Qisseyi Yusif", Xivəli Zəməxşarinin "Muqaddimatul adab" (XIII əsr), ərəbcə–türkcə–monqolca lüğəti, Əbu həyyanın "Kitabül İdrak-lisan-əl-ətrak" (XIV əsr), "Qəvainin əl-külliyyə fil Zabt əl-lüğət ət-türkiyyə", "Əttöhfətüz üz-zəkiyyə fil lüğət it türkiyyə" və onlarla əsərdən Azərbaycan dilinin payını axtarmışdır. Bundan sonra alim Azərbaycan dilində tək və qoşa hecalı, habelə tərkibi feillərin

tarixi inkişaf və təkmilləşdirmə prosesi haqqında geniş məlumat verir. Əsər dilçilik tariximizdə özünə möhkəm yer tutmuşdur. Bu əsərlə müəllif sanki 30 il əvvəlki müstəntiqlərinə cavab vermişdir ki, məni öldürsəniz də Azərbaycan dili Türk dilləri ailəsinə daxildir.

Alim abidələrə əsaslanaraq dilləri iki qrupa bölən Xorezgenin fikrini qətiyyətlə tənqid edərək göstərir ki, "Yazılı abidələrin dil əlamətinə görə iki qrupa bölmək o qədər də dəqiq bölgü deyildir. Belə ki, həmin dövrdə (XIII-XIV əsrdə) üçüncü qrup abidələrin də varlığını inkar etmək olmaz və biz onu şərti olaraq "Yaxın Şərq qrupu" adlandırırıq. Üçüncü qrup dil əlamətlərinə görə Altun Orda və Orta Asiya qruplarından fərqlənir... Bu qrupa eyni zamanda şair Əlinin "Qisseyi Yusif" poeması da daxildir. Eləcə də Sultan Vələddin "rubabnaməsi", Aşıq Paşanın "Qəribnamə"sini və daha bir sıra başqa əsərlər də daxildir (həmin əsər, s.11). Müəllif bu qrupa cəsarətlə Azərbaycan dilini də daxil edir.

Qulam müəllim 1938-ci ildə dil və ədəbiyyat insitutunun elmi-tədqiqat planının yerinə yetirilmədiyi üçün həbs edildiyini sanki unutmamışdı. Buna görə də hər il özü elmi işini vaxtından əvvəl yazıb kafedraya təqdim etdiyi kimi, əməkdaşlardan da bunu tələb edirdi. Biz ona 1963-cü ildə prof.B.Çobanzadənin dilçiliyimizin inkişafında rolu barədə namizədlik dis-

sertasiyası yazdığımızı dedikdə, o, gözləri dolmuş halda: “Zəncir qırılmadı”-dedi. O vaxt mən bu sözün mənasını dərk edə bilmədim. Çünki Qulam müəllimin də B.Çobanzadə kimi heç nəyin üstündə səbəbsiz həbs olunduğunu bilmirdim. O, bir təhər özünü yığışdırıb:

Oğlum, qorxmursan?

Yox, – dedim. Axı mən elmin xatiri üçün edirəm.

–Eh, ay oğul.

Bundan sonra Qulam müəllim mənim elmi rəhbərim oldu. Qulam müəllimin keçirdiyi əzablı günlər 1985-ci il aprelin 15-də sona yetdi. Elmi təfəkkürünün kamilləşdiyi bir vaxtda isə 21 illik ağır xəstəlik onu elmdən ayırdı.

Qulam müəllim kimi istedadlı və savadlı bir adamın yaradıcılıq qüvvələrinin çiçəkləndiyi, oxumaq, yazmaq üçün enerjisi çox olduğu bir vaxtda o, bu sevimli peşəsindən zorla ayrıldı. Düz 17 il türkologiyanın üzünə həsrət qaldı. Xarici dillər insitutunda işlədiyi vaxtlarda filologiyamız üçün heç vaxt əhəmiyyətini itirməyəcək bir neçə əsər yazdı. Bunlardan:

1.Quba dialektinin fonetik, morfoloji və leksik xüsusiyyətləri haqqında. APDİ-nin elmi əsərləri.

Bakı.1959. (Qeyd edək ki, həbs edilməmişdən əvvəl bu mövzuda fundamental bir əsər yazmışdı).

2.Füzulinin Azərbaycan ədəbi dilinin inkişafında rolu. “Azərbaycan məktəbi” № 12, 1958.

3.XV əsr Azərbaycan ədəbi dilinin leksik, fonetik və qrammatik xüsusiyyətlərinə dair. Axundov adına APDİ-nin elmi əsərləri.1961.IX və XI cildlər.

4.Azərbaycan dilində feillərin leksik və semantik inkişafı.Bakı., 1966

5.Bağırzadə Q., Çobanzadə B. Elmi qrammerin əsasları. Bakı, 1932

6.Bağırov Q.K.Marksist-leninçi dilçiliyin saflığı uğrunda. “Kommunist tərbiyəsi uğrunda”, 1932, № 1-2

7.Bağırov Q.Türk dili dərsliklərində formalizm əleyhinə, yaxud B.Çobanzadə türk qrammeri müəllifi kimi. “Azərbaycan elmi cəbhəsi”, B., 1931, № 1-2, s.110-125.

8.M.Axundovun əsərlərinin dil və üslub xüsusiyyətlərinə dair. Axundov adına APDİ-nin elmi əsərləri, 1962, XVIII bur. səh.37–59.

9.Türk dilində yafəs nəzəriyyəsi. Az.FAN əsərləri. III cild, 1936.

Həmişə kimsəsizlikdən gileylənib kövrələn Qulam müəllim kaş bilə idi ki, onun irsi həmişə yaşayacaq. Biz filoloqlar Qulam müəllim, onun elmi irsini dərindən və hərtərəfli araşdırmağa borcluyuq.

# İDRİS MƏŞƏDİ ZAMAN OĞLU HƏSƏNOV







1930-cu illərin əvvəllərində Azərbaycan dilçiliyi sahəsində çalışan məhsuldar alimlərdən biri də İdris Məşədi Zaman oğlu Həsənov idi. 1930-cu illərdə dosent İ.Həsənov ümumi dilçiliyə aid (o vaxt ümumi dilçilik dərsləri APİ-nin dilçilik kafedrasında idi, rəhbəri də B.Çobanzadə idi). “Dil və təfəkkür”, “Dilçilik terminləri” və s. çoxlu dərsliklər yazmışdı. Amma türkə qarşı yönəldilən qırmızı terror ondan da yan keçmədi.

DTK-nin ölüm dəyirmanı əjdaha kimi ağzını açıb doymaq bilməyən bir iştahla yeni-yeni qurbanlar tələb edirdi. №12493-li cinayət işi elə bir quyu idi ki, o, hamını əhatə edə bilərdi. Başqa sözlə desək №12493-li cinayət işi elə bir quyu idi ki, oraya hər yerdən hər cür adamı hər vasitə ilə salmaq olardı.

Saldılar da. Ölüm maşının ən tüğyan etdiyi vaxt 1937-38-ci illər idi. Bu illərdə "Azərbaycanı ziyalısızlaşdırmaq" planı artıqlaması ilə yerinə yetirildi. 12493-cü quyuya salınanlardan biri də 1898-ci ildə Gəncə şəhərində anadan olmuş savadlı ziyalılarımızdan biri İdris Məşədi Zaman oğlu Həsənov idi. İdris Məşədi Zaman oğlu Həsənov Bakıda elmi-tədqiqat, tarix, dil və ədəbiyyat insitutunda işlədiyi 6 il ərzində 18 elmi əsər yazmışdır. Həbs ediləndə özü cavan və 2 uşaq atası idi. Qızı Cülletta 4, Ulduz isə 1 yaşında idi. Amansız cəlladlar heç olmasa, bir yaşlı uşağa belə güzəşt etməmişdilər.

29 mart 1938-ci ildə DTİ 6-cı şöbəsinin 2-ci bölməsinin əməliyyat müvəkkil, Dövlət Təhlükəsizliyi serjantı Dranişnikov №24676-li kollektiv istintaq-həbs işi ilə Zifeld Artur Rudofoviçin, Kazımov Cəfər Ələsgər oğlunun, Həsənov İdris Məşədi Zaman oğlunun və Bağırov Qulam Kərim oğlunun istintaqını eyni vaxtda öz üzərinə götürür. İşə baxın. Adi serjant özündən qat-qat yüksəkdə duran alimlərin taleyini həll edir.

Dranişnikov 29 mart qərarı ilə İdris Həsənovun işini ümumi №10497-li işdən ayırıb ona №25440-li iş açır. Zifeld Arturun işini isə 24676-cı işdə saxlayır. Şəxsi işdəki Azərb.SSR XDİK DTİ 4-cü şöbəsinin rəisi kapitan Raskazçikovun arayışında deyilir ki, Həsənov İdris əksinqilabi-millətçi təşkilatın həbs

edilmiş üzvləri B.Çobanzadə, V.Xuluflu, A.Şərifovun ifadələri əsasında həbs edilib. 1939-cu ilin aperin 3-də İdris Həsənovun evini axtarırlar. Axtarışda IV şöbənin əməliyyat müvəkkil Avanesov və evlər idarəsinin nümayəndəsi Qasımov iştirak edir. Axtarış zamanı aşağıdakılar tapılıb götürülüb:

1.Pasport

2.Hərbi bilet

3.Xidməti vəsiqə

4.Götürülməli kitablar - 44 ədəd

5.İdris Həsənovun çap edilmiş elmi əsərləri-5 qovluq

6.Şəxsi və xidməti yazışmalar (məhv edilmişdir)

7.Fotoşəkil - 1

1935 nömrəli məhbusun anketi:

İxtisası- Pedaqoq

İş yeri və vəzifəsi - tarix, dil və ədəbiyyat insitutunun direktor müavini.

İctimai mənşəyi - kustar oğlu

İctimai vəziyyəti - qulluqçu

Təhsili - ali

Partiyalılığı - bitərəf

Hərbi mükəlləfiyyəti mükəlləfiyyətli mühakimə olunmayıb.

Ailə vəziyyəti – arvadı Asya - 28 yaşında

Qızı – Ulduz -1 yaşında

Qızı– Cületta - 4 yaşında

Müttəhimin şəxsi işində (s.18) Az.FNİ-nin partiya komitəsinə insitut rəhbərliyinin təqdim etdiyi 6 səhifəlik təliqədə deyilir:

-Sizin sorğunuza əsasən insitutun keçmiş direktor əvəzi İdris həsənov haqqında aşağıdakıları bildiririk:İnsitutun keçmiş direktor əvəzi İdris Həsənov uzun müddət Azərbaycan dili sahəsində pantürkist və ziyanlı iş aparmışdır. 1926-cı ildə çap edilmiş "Gəncənin yerli əhalisinin dilində işlənən mənsubiyyət şəkilçili isimlərin hallanması" əsərinin

birinci səhifəsində öz pantürkist mövqeyini bildirir. Məsələn, girişi o, aşağıdakı sözlərlə başlayır (Biz həmin sitatı rusca olduğu kimi veririk – A.B.): «Тюрский язык состоит из множество наречий, употребляемых во многих странах Азии и значителъной части Европы и в некорых облостях Сев. Африки. Обилъный источник этих наречий протекая по обширным пространством веков, должен был, как замечает профессор Казымбек, подвергается бесперерывным волнениям, то е изменяет свои направления и образовывает множество руковов ныне как говорит тот же ученый, разбросанные, как скужные остатки первоначалъного богатства».

İdris Həsənovun bu fikrini görün insitutun keçmiş direktoru A.Klimov və dil ədəbiyyat şöbəsinin rəhbəri Quliyev necə şərh edirlər: Burada öz müstəqil mənası, forması və qanunları olan bütün dillər türk-tatar diləri deyilən sistemin-yəni daha zəngin forma və leksikaya malik “vahid türk dilləri” ləhcələri adlandırılır. XIX əsrin I yarısında yaşamış (əhsən savadınıza belə direktor və şöbə müdiri – A.B.) prof.A.A.Kazımbəyin sözlərini təkrar edərək İdris Həsənov onları tənqid etmir və bununla da dolayısı ilə göstərilən həmin burjua aliminin göstərilən sistemə daxil olan müasir dillərin, o cümlədən Azərbaycan dilinin dialektlərlə birləşdirilmiş olması haqda fikrini təsdiq edir (ş.i.səh.20).

"İ.Həsənov Azərbaycanın əsas türk dialektlərinin toplanması üçün göstəriş və proqram adlı əsərində "Fyüzat" jurnalının dilini qeyri xəlqi mütərəqqi, qeyri xəlqi və xırda burjua adlandırırdı. Bununla da, o, özünü qorumaq istəyirdi". Sonra ardınca İ.Həsənovun 1937-ci ildə insituta rəhbərlik etdiyi dövrdə elmi tədqiqat işlərinin yerinə yetirilməməsindən, maliyyə vəsaitini xərcləyə bilməməsindən bəhs edilir. Hətta 1937-ci ildə insituta rəhbərlik etdiyi dövrdə elmi tədqiqat işlərinə ayrılmış vəsaiti xərcləyə bilməməsindən bəhs edilir. Hətta 1937-ci ildə 43.644 manat 50 qəpik vəsait mənimsənilməmiş qalmışdır.

5 aprel 1938-ci ildə Mustafayev (IV şöbənin müvəqqəti rəisi, leytenant) onu ilk dəfə dindirir:

**İlk sual:** Siz Azərbaycanda mövcud olan əksinqilabi-millətçi təşkilatın üzvüsünüz. Boynunuza alırsınızmı?

**Cavab:** Yox, boynuma heç nə almıram.

**Sual:** Sizin əksinqilabi təşkilatın üzvü olmanız dəqiq müəyyənləşdirilib. Sizin inadınız yersizdir. Düzgün danışın.

**Cavab:** Mən artıq dedim. Mən əksinqilabi təşkilatın üzvü olmamışam və indi də üzvü deyiləm (ş.i.səh.30–32).

Qəribədir, cəmi bir səhifədən ibarət olan protokoldan sonra onu 5 ay yarım dindirmirlər. Nəhayət, 1938-ci il sentyabrın 28-də onu dindirməyə aparırlar. Dindirmə protokolunda istintaqçının familyası yoxdur.

**Sual:** İstintaq tələb edir inadkarlığı dayandırıb, öz təşkilatçı fəaliyyətiniz haqqında ətraflı məlumat verəsiniz.

**Cavab:** Mən inadkarlıq etmirəm. Əksinqilabi fəaliyyətlə məşğul olmamışam.

Bundan sonra müstəntiq 13 müxtəlif xarakterli dolaşdırıcı suallarla müttəhimin əksinqilabi fəaliyyətdə əli olduğunu zorla ondan qoparmaq istəyir. İ.Həsənov bu sualların hamısına rədd cavabı verir: "Mən heç bir əksinqilabi iş aparmamışam, kim nə deyir desin".

İşdə Abdulla Şərifovun 13-14 yanvar 1938-ci il tarixli dindirilməsindən (s.38), B.Çobanzadənin 17–20 aprel 1937-ci il tarixdəki ifadəsindən, yenə onun 16 fevral 1937-ci il ifadəsindən (s.43), Vəli Xuluflunun 19 iyul 1938-ci il tarixli ifadəsindən (ifadəni Avanesyan alıb), yenə V.Xuluflunun 11– 13 may 1937-ci il tarixli ifadəsindən çıxarışlar vardır. Burada onlar İ.Həsənovun əksinqilabçı olduğunu "təsdiq" edirlər. Mayın 11-də həmin Avanesyan

Çiçikanovla V.Xuluflunu üzləşdirərkən yenə onlardan İ.Həsənovun "əksinqilabçı olması haqqında söz çəkmişdir" (s.46).

Hələlik İ.Həsənovun boynuna heç nə qoya bilməmişlər. Sonra Qalstyan da bu işə qoşulur. H.Zeynallının 31.06.37-ci il dindirilməsini də bu işə cəlb edir. H.Zeynallı İ.Həsənovu əksinqilabçı adlandırır. M.F.Köprülüzadə Bakıda I Türkoloji qurultayda olanda İ.Həsənov bir neçə alimlə - mən, İman Həsənov, Xuluflu Vəli ilə birlikdə onun ətrafında toplaşdıq (s.49). Göründüyü kimi, İdris Həsənova sübut ediləsi bir şey tapılmır. Ona görə də öz adamlarını işə cəlb edirlər. Tevosyan Samson Petroviç 1938-ci il dekabrın 15 də şahid kimi Kazımov Cəfəri, Baöırov Qulamı, Zifeld Arturu ləkələdiyi kimi, İdris Həsənovun da adını çəkir. Kimdir bu Tevosyan? DQMV Cirabert rayonunun Vank kəndində anadan olmuş bu daşnak Az.FAN-da vəzifəsi bəlli olmayan bu adam, heç bir faktı olmadan belə adamları ləkələmək üçün əlinə bəhanə keçir. O, demişdir: Onların (C.Kazımovun, Q.Bağırovun, İ.həsənovun, Z.Arturun – A.B.) antisovet və əksinqilabi mövqeləri haqqında konkret faktım yoxdur. Az.FAN-ın xəbərlərində dərc olunmuş əsərlərində A.Zifeld Azərbaycan dilini türk dili ilə eyniləşdirir. İdris Həsənov haqqında heç nə deyə bilmərəm. Kazımov Cəfər siyasi məsələlərə biganə idi. ÜİK(b)P baş xəttinin həyata keçirilməsində fəal rol oynamışdır... Kazımov Cəfər və Xuluflu Vəli ara-

sında mən düşmən münasibəti görməmişəm. Əksinə, mən görürdüm ki, onlar bir neçə dəfə söhbət edir, nədənsə danışırlar (ş.i.səh 51). Deməli, söhbət də etmək olmazmış.

Başqa bir şahidi də işə cəlb edirlər. Bu da Donetsk vilayəti Nijni-Peqorsk çəhərində anadan olmuş Y.D.Kozin idi. Kozin tarix, dil və ədəbiyyat insitutunun əməkdaşı olmuşdur. Yenə müstəntiq Kozini İ.Kazımov, B.Çobanzadə, İ.Həsənov, Q.Bağırov, A.Zifeld haqqında sorğu-suala tutur. Şahid adı çəkilənlərin siyasi baxışları haqqında mənfi heç nə deyə bilmir. Hətta İ.Həsənov haqqında deyir ki, İ.Həsənovla az təmasda olmuşam, ona görə də onun siyasi baxışları haqqında heç nə deyə bilmərəm (ş.i.s.52).

Adları çəkilən adamların əməli fəaliyyəti haqqında isə Kozin gör necə tutarlı faktlardan çıxış edir:

1.Bağırov Qulam...dil quruculuğu sahəsində əsil Azərbaycan xalq dilini və Oktyabr dilini (rus dilini-A.B.) saya salmır. Bunlar Azərbaycan xalqı ilə elm arasında uçurum yaradırdı (ş.işs.54). Kozin cənablarının böyüklüyünə baxın. Dilimizin və elimizin qayğısına necə qalırmış.

2.Zifeld Artur insitutun direktoru olanda ziyankarlığın, düşmənçiliyin nəticələrini aradan qaldırmaq

üçün heç bir tədbir görməmiş, əksinə onlarla birlikdə ziyankarlıq işi aparmışdır. Kozin Bağırov Qulamın, Çobanzadə Bəkirin "ziyankarlıq" işlərini nəzərdə tuturdu.

3. İdris Həsənov A.Zifelddən sonra tarix, dil və ədəbiyyat insitutunun direktoru olmuşdur (1937-ci ilin sentyabrından həbs olunan günə qədər).Düşmənçilik və ziyankarlığın aradan qaldırılması üçün heç bir tədbir görməmişdir. Həsənovun vaxtında insitut tamamilə inkişafdan qaldı (ş.i.səh.55).

Yenə tutarlı fakt əldə edə bilməyən müstəntiqlər başqa bir üsula əl atırlar. 1938-ci ilin iyun ayının 29-da Abdulla Şərifovla İdris Həsənovu üzləşdirirlər.

**Müstəntiq Petruninin sualı:** Sizə İdris Həsənovun əksinqilabi fəaliyyəti haqqında nə məlumdur?

**Cavab:** Mən əvvəlki ifadəmdə dediklərimi yenə təsdiq edirəm ki, tarix, dil və ədəbiyyat insitutunun keçmiş direktoru İdris Həsənov əksinqilabi-pantürkist təşkilatın üzvüdür. Onu mən 1933-cü ilin aprelində bu işə cəlb etmişəm.

**Müstəntiqin İ.Həsənova sualı:**

**Sual:** Siz özünüzün əksinqilabi-pantürkist təşkilatın üzvü olmağımız haqqında Abdulla Şərifovun sözlərini təsdiq edirsinizmi?

**Cavab:** Abdulla Şərifovun ifadəsini mən qəti şəkildə rədd edirəm. Əksinqilabi təşkilatın üzvü kimi özümü heç vaxt təsdiq etmirəm (ş.i.s.60).

30 sentyabr 1938-cı ildə istintaqın qurtarması haqqında protokol tərtib edilir. Lakin işi heç yerə göndərmirlər. Nəhayət, 26 dekabr 1938-ci ildə yenidən işin – istintaqın qurtarması haqqında tərtib edilən protokolda deyilirdi: o, icrada olan istintaq işinin materialları ilə tanış olmuşdur. Özünün millətçi təşkilatın üzvü olmasını inkar edir və onun Az.FAN-dakı təxribat işləri haqqında şahidlərin ifadəsini rədd edir (ş.i.s.64).

Buna görə də onun işini məhkəməyə göndərə bilmirlər. istintaqın hansı metodunu tətbiq edirlərsə heç nə alınmır. İdris müəllim hər əzaba dözür. Amma əzrailin çənginə keçmiş bir adamın oradan qurtarması mümkün deyil. 1939-cu ilin martında XDİK serjantı Dranişnikov istintaqın bitməsini elan etmək üçün müttəhimi dəvət edir. Görün, institut direktorunun, alimin başına bir serjant, Dranişnikov nə oyun açır. İdris Həsənov yenə özünü günahkar bilmir. Dranişnikov əlacsız qalıb akt tərtib edir ki, müttəhim heç nəyi boynuna almır. Buna baxmayaraq, Dranişnikov

Az.SSR XDİK-nın müavini Kərimovun təsdiqi ilə İdris Həsənov haqqında ittihamnamə tərtib edir. Ona qarşı sürülən ittiham:

1.Azərbaycanın SSRİ-dən ayrılmasını qarşısına məqsəd qoymuşdur. Əksinqilabi pantürkist millətçi təşkilatın üzvü olmuşdur (axı müttəhimə bunu sübut edə bilməmisiniz – A.B.)

2.Əksinqilabi təşkilatın iştirakçısı olarkən həmin təşkilatın fəal üzvlərilə əlaqədar olmuşdur. Aparılan əksinqilabi işdə praktik şəkildə iştirak etmişdir (necə – A.B.) (ş.i. s. 67). Vəssalam. Bundan başqa heç nə.

İş prokurorluğa göndərilir. Oktyabrın 22-də Az.SSR prokuroru köməkçisini əvəz edən Valitski işlə tanış olaraq qərara alır: İttihamnamə ilə razılaşmaq və işi SSRİ XDİK nəzdnindəki xüsusi müşavirənin sərəncamına göndərmək. Buna isə Azərbaycan SSR prokurorluğunun müavini Levani razılıq verir. Bundan sonra Azərbaycan SSR prokurorunun xüsusi işlər üzrə müavini K.Selivertsev baxaraq belə bir qərara gəlir: Özünün əksinqilabi-millətçi təşkilatın üzvü olduğunu qəbul etməsə də İdris Həsənov başqalarının ifadələri ilə ifşa olunmuşdur. Göstərilən adamların (A.Şərifov, B.Çobanzadə, V.Xuluflu və Çiçikanov nəzərdə tutulur – A.B.) mühakimə edildiyini və məhkəmədə onların iştirak edə bilməyəcəyini nəzərə

alaraq işin SSRİ XDİK-nin nəzdnindəki xüsusi müşavirəyə göndərilməsinə razıyam (ş.i. səh. 70).

1939-cu il mayın 31-də Komelyov, Balaşov və borovkovun da qərardadında belə hesab edilir ki, özünün boyununa heç nə qoymaq olmur. Şahidlər güllələnmişdir (bu haqda arayışlar da vardır. Ona görə də işə SSRİ XDİK xüsusi müşavirəsində baxılmalıdır (ş.i.s.84). Əgər şahidlər sağ olsaydı İ.Həsənovun işini xüsusi müçavirəyə, hərbi kollegiyanın xüsusi üzvlüyünə göndərəcəkdirlər.

1939-cu il aprelin 8-də İdris Həsənov SSRİ XDİK L.P.Beriyaya yazır. Burada özünün təqsirsiz olduğunu göstərir. Sonra işi Moskvaya göndərirlər. Ərazidən heç nə hasil olmur.Az.SSR CM 70 və 73-cü maddələri ilə "ittiham" edilən İdris Həsənov №25440-li SSRİ XDİK-in xüsusi müşavirəsində baxılır (protokol №14). Həmin müşavirənin 3 iyun 1939-cu il tarixli qərarında deyilir: Əksinqilabi təşkilatın işində iştirak etdiyi üçün İdris Həsənov - İdris Məşədi Zaman oğlu Həsənov islah əmək düşərgəsində 8 il azadlıqdan məhrum edilsin, iş arxivə verilsin (ş.i.s.91). Sonrakı sənədlərdən məlum olur ki, 1946-cı ilin aprel ayının 3-də həbsdən azad olunub. 1947-ci ilin yanvar ayının 1-də öz ailəsinin yanına, Bakıya gəlib. Onu Bakıda qeydiyyata almırlar. Gəncəyə gedir. Orada müəllim işləmək istəyir. Bu işə təzəcə girsə də respublika Maarif Nazirliyi ona müəllimliyi

qadağan edir. Buna görə də 1949-cu ilin sentyabrın 6-da SSRİ DTİ-nə ərizə yazır.Ərizə sentyabrın 15-də Az.SSR DTİ-nə göndərilir. Ərizədən məlum olur ki, İdris Həsənov 1927–31-ci illərdə Moskvada Stalin adına Şərq dilləri Universitetində Azərbaycan dili dərsi demişdir. Ərizədə xahiş edilir ki, əvvəla onu əvvəlki işinə bərpa etsinlər və onun 11 il ayrılıqdan sonra Bakıya qayıtmasına, hər hansı bir elmi idarədə işə girməsinə icazə verilsin (c.i.s.94). Ərizədə İ.Həsənov öz elmi əsərlərinin siyahısını əlavə edir. Bu siyahı başqa heç yerdə olmadığından onu olduğu kimi köçürməyi lazım bilirik. Çünki bu, gələcək tədqiqat işlərində lazım ola bilər:

1.M.F.Axundovun haqqında (məqalə "Gələcək" № 1 jurnalında çap olunub)

2.Gəncə dialektində ismin hallanması (Bakı, 1926)

3.Xalq danışıq dialektlərinin toplanması üçün instruksiya (B.1931)

4.Pedtexnikum üçün qrammatika kursu (I və II nəşr, B.1932)

5. Pedtexnikum üçün qrammatika kursu (III nəşr, fonetika, B.1934)

6. Punktuasiya ("Müəllimə kömək" jurnalı, №4-5, 1935)

7.Dəqiq şrift (rus əlifbası, korlar üçün-1936)

8.Azərbaycan dilinin orfoqrafiyasına dair ("Kommunist" qəzeti, 3 məqalə, 1936)

9.Azərbaycan dilinin orfoqrafiyasına dair ("Müəllim" qəzeti, 1936)

10.Azərbaycan dilininorfoqrafiyası (broşura, B. 1936)

11. Azərbaycan dilinin qazax dialekti (əlyazması)

12.Azərbaycan dilində vurğu haqqında (əlyazması)

13.Azərbaycan dilinin qrammatikası (Morfologiya, ilk işlənmə, B.1936)

14. Azərbaycan dilinin qrammatikası (Sintaksis, ilk işlənmə, B.1936)

15.Dilçilik terminləri (əlyazması)

16.Dilə aid müxtəlif dərsliklər (1934–38)

17.Kürd dili haqqında qeydlər

18.Özbək dili haqqında qeydlər

Bundan sonra İdris Həsənov SSRİ Ali Sovetnin Rəyasət Heyətinə ərizə yazır (Şvernikin ünvanına göndərir). Dərs dediyi orta məktəb direktorlarından da müsbət xasiyyətnamə olur. Heç bir ərizədən ona kömək olmur. Sonra o, Stalinin adına yenə həmin mövzuda ərizə yazır. İdris Həsənovun işində habelə SSRİ XDİK L.Beriyanın adına müttəhimin arvadı Zeynalova Asya xanımdan da ərizə olmuşdur, lakin iddia təmin edilməmişdir. Bundan xeyir gözləyən İdris Həsənov əksini görür. Onu yenidən işə cəlb edirlər.

Cinayət işi № 811. Başlanıb 29.12.1949, qurtarıb 16.01.1950... Cəmi 19 günlük istintaq həmin maddələr üzrə ittiham edilir. 28 oktyabr 1949-cu ildə İdris Həsənov haqqında seçilən, Az.SSR DTİ general-mayoru Yemelyanovun və Az.SSR prokuroru 3-cü dərəcəli ədliyyə müşaviri Əliyevin razılığı ilə qətiimkan tədbiri-həbs seçilməsi haqqında qərar qəbul edilir.

Bu sənədlərdən İ.Həsənovun şəxsiyyəti ilə əlaqədar bəzi qeydlər dəqiqləşdirilə bilər.

Atası 1930-cu ildə, anası isə 1924-cü ildə ölmüşdür. Birinci həbsdən qurtardıqdan sonra 1947-ci ildə oğlu olmuş və ona atasının adını- Zaman qoymuşdur. Yeri gəlmişkən, demək olmaz ki, məhbusun ikinci anketini dolduran adam nə qədər savadsız imiş.

Xətti çox pis olmasından əlavə, görün nə yazır: Qardaşları:

Həsənzadə Həsən İdris oğlu - 1901

Həsənzadə Qafar İdris oğlu - 1890

Həsənzadə Xanım İdris qızı - 1888

Həsənzadə Zərintac İdris qızı - 1898

Belə çıxır ki, müstəntiqin fikrində İdris Həsənovdan başqa bir ad yox imiş ki, Məşədi Zaman da yadına düşə idi. Axı bu bir nəfərin həyat taleyini həll edən sənəddir. Bu, işin bir tərəfi, bəs sonradan bu anket neçə əldən keçməyib... Dekabr 20-də ilk dindirmə. Dindirməni Az.SSR DTN Gəncə şəhər şöbəsinin baş əməliyyat müvəkkili Levkin aparıb. Bu dindirmədə Gəncədə olması və ilkin həbsi barədə soruşurlar. İkinci dindirmə 1949-cu ilin dekabrın 30-da olur. Dindirmə saat 20:00-da başlanıb 24:00-da qurtarıb-düz 4 saat. Bu dəfə artıq müttəhim Bakıda baş leytenant Odinsov tərəfindən dindirili. Burada da ona hansı dilləri bilməsi, niyə tutulması, ondan sonrakı fəaliyyəti haqqında suallar verilir.

Bundan sonra Odinsov və Qukasyan ona ittihamnamə elan edirlər. 1950-ci il yanvarın 4-də onu dindirdikdə hər şeyi yenə də inkar edir.

Nəhayət, 16.01.1950-ci ildə istintaqın qurtarması haqqında protokol tərtib edilir. Yanvarın 20-də onun ittihamnaməsi tərtib edilir. İttihamnaməni yenə əvvəlki maddələr üzrə tərtib edir: Odinsov, Qukasyan, Padarov. Təsdiq edir: Yemelyanov. Sanksiya verir: Respublika prokuroru Əliyev. 1950-ci il 8 apreldə SSRİ DTN xüsusi müşavirəsinin №16-li protokolunda deyilir: İdris Məşədi Zaman oğlu Həsənov antisovet millətçi təşkilatın üzvü olduğu üçün Krosnoyarsk vilayətinə sürgün edilsin (yeni cinayət işi, s.33). Neçə illiyə? Məlum deyil. Mayın 9-da (Qələbə günü) İdris Həsənovu Krosnoyarsk vilayətinə göndərmək haqqında naryad yazılır. Bundan sonra İdris müəllimin başına nə gəlir - Allah bilir. İşdə onun ailə üzvlərinə bildirmək üçün belə bir təliqə yazılır ki, Həsənov İdris Məşədi Zaman oğlu 25 sentyabr 1959-cu ildə bəraət almışdır.

# ABDULLA MƏHƏMMƏD OĞLU ŞƏRİFOV



SSRİ MİK-nin 1 dekabr 1934-cü il tarixli qərarı bütün Sovet ölkəsi üçün verilməsinə baxmayaraq Azərbaycanda daha çox tətbiq edilirdi. Bunun aşağıdakı səbəbləri var idi:

1.Azərbaycan xalqı türk idi (bu o zaman lazımi orqanlarda öz quyruqlarını sərbəst şəkildə sağa-sola bulayan A.İ.Mikoyanın və onun minlərlə soydaşı olan başqa "yan"ların yuxusuna haram qatırdı).

2.Azərbaycan Müsəlman Respublikası idi.

3.Azərbaycan başqa türk və müsəlman respublikalarına nisbətən daha fəal idi. Bunu birinci türkoloji qurultayın Bakıda keçirilməsi də sübut edir.

4.Moskvadan Mikoyan, Bakıdan isə Sumbatov-Topuridze M.C.Bağırovu inandırmağa çalışırdılar ki, sənə qarşı sui-qəsd hazırlanır. Bu fitnə də bir çox

Azərbaycan ziyalısının məhvi üçün bir bəhanə oldu. (Amma M.C.Bağırov öz məhkəməsində özü göstərir ki, mənə qarşı sui-qəsd ola bilməzdi).

Deməli belə, 1934-cü ildən başlayaraq Azərbaycanda ziyalıdan təmizləmə işləri aparılır. Cəmi 4 ildə SSRİ EA Azərbaycan filialında, Azərbaycan Dövlət Universitetində, Azərbaycan Pedaqoji İnsitutunda bircə nəfər də dərin savadlı, elmlər namizədi qalmamışdı (filologiya elmlərini nəzərdə tuturuq).

12493 sayılı cinayət işi üzrə güllələnənlərin sayı ildən-ilə, aydan-aya deyil, gündən-günə artdı. Fövqəladə üçlüyün ölüm dəyirmanı sürətlə işləyir, yeni-yeni qurbanlar istəyir, üçlüyün cəllad üzvləri bircə dəfə də uf demədən Azərbaycan alim-ziyalılarının qətlinə fərman verirdilər. Artıq 1937-ci ilin dekabrına qədər "Məhv edilməli" olan Azərbaycan ziyalılarının birinci hissəsi qurtarmışdı. İndi növbə "ikinci dərəcəlilərin" idi. Bu ziyalılardan biri də SSR EA Azərbaycan filialının tarix, ədəbiyyat və dilçilik insitutunun elmi işçisi, APİ-nin müəllimi Azərbaycan dili və ədəbiyyatı məsələlərinə həsr edilmiş 22 elmi əsərin (dərsliyin) müəllifi Abdulla Məmməd oğlu Şərifov idi. 1893-cü təvəllüdlü Abdulla Şərifov işlə bağlı olaraq həbs edilərək DİK zindanına atılmış B.Çobanzadə, İ.Həsənov, X.S.Xocayev və başqaları ilə əlaqə saxlamalı olurdu. Elə buna görə də 1937-ci il iyul ayının 21-də tutduğu vəzifələrdən azad edilmiş və nəzarət altına alınmışdı. Cəmi 5 aydan sonra onu da 1934-cü il 1 dekabr tarixli qərarın maddəsinə salaraq həbs

etdilər. Bu 1937-ci il dekabrın 20-də oldu. Həbsin motivi əvvəlcədən xalqımızın qatı düşməni-türkün “böyük” qatili Avanesyan tərəfindən hazırlanmışdı... Sovet hökümətinə qarşı silahlı mübarizə mövqeyində dayandığına, elmi cəbhədə ziyankarlıq işi apardığına (aman Allah Avanesyan bizim elmin qayğısına qalırmış! – A.B.) görə və Ruhulla Axundovun ifadəsinə əsasən A.M.Şərifov həbs edilməlidir. Avanesyan Abdulla Şərifovu əksinqilabçı, müsavatçı,burjua-millətçi təşkilatın üzvü kimi Azərbaycan SSR CM-in 64, 69, 70 və 73-cü maddələri üzrə məsuliyyətə cəlb edir. Abdulla Şərifovu DTK zindanında cəmi 6 ay yarım saxlayıb 5 dəfə dindirmişdilər.

I dindirmə alim həbs edildikdən 16 gün sonra, yəni 1938-ci il yanvarın 5-də olmuşdur.

Müstəntiq əvvəlcədən Abdulla Şərifovu səmimi olmağa dəvət edir və hər şeyi “səmimi etiraf etməyə” müttəhimi razı salır. Buna görə də elə birinci dindirmədə – 1938-ci il yanvarın 5-də müstəntiqin verdiyi yaxın tanışlarınızın adını deyin sualına Abdulla Şərifov belə cavab vermişdir: B.Çobanzadə, Ə.Qubaydulin, A.Tağızadə, H.Zeynallı.

Təxminən bir həftədən sonra müstəntiq başqa tərəfdən müttəhimə yanaşır, onun pantürkist, əksinqilabçı olduğunu sübut etməyə çalışır:

**Sual:** Siz nə vaxt, harada və kim tərəfindən əksinqilabi pantürkist təşkilata üzv qəbul edilmisiniz?

**Cavab:** Məni əksinqilabi,pantürkist təşkilata 1928-ci ildə sentyabrın axırlarında SSRİ EA Azərbaycan filialının keçmiş əməkdaşı, professor Ə.Qubaydulin cəlb etmişdir. Mən əksinqilabi işi ancaq Qubaydulinin göstərişi ilə aparırdım. Onun tapşırığı ilə Azərbaycan dilinin qrammatikasında kobud qüsurlara yol verir, dilimizə yad ərəb, fars terminləri gətirirdim. Bu ziyankarlıq işi əsasən 1934–36-cı illərə aiddir. Şəxsən mənim iştirakım ilə bilərəkdən Azərbaycan dilində xarici sözlər lüğətinin nəşri saxlanılmışdır. Halbuki o illərdə bu kitaba tələbat daha çox idi. Lüğət isə 1935-ci ildə nəşrə hazır idi. SSRİ EA Azərbaycan filialının işçiləri İ.Həsənov, A.Tağızadə və Ə.Babazadə tərəfindən hazırlanmış "Azərbaycan dilinin orfoqrafiya lüğəti" əsasən ziyankar, pantürkist mövqedən işlənmişdir.

Möhtərəm oxucu, görürsənmi Avanasyanlar "dilimizin qayğısına" necə qalırlar? Bu 1938-ci il yanvar ayının 13–14-də keçirilən ikinci dindirmədə olmuşdu. Daha sonra müstəntiqin tələbi ilə A.Şərifov və R.Axundov həbs edildikdən sonra tarix, dilçilik, ədəbiyyat sahəsində Vəlibəyovun, İ.Həsənovun, Ə.Babazadənin pozuculuq fəaliyyətindən bəhs edir.

Bir neçə gündən sonra, yəni yanvarın 18-də A.Şərifovu 3-cü dəfə istintaq edirlər. Üzücü, işgəncəli təhqirlər və hədələr, habelə döyülüb əzilmək nəticəsində müttəhim əksinqilabi, pantürkist təşkilata qəbul edilmiş yeni üzvlərin siyahısını deyir. Əslində, bu adların deyilməsinə ehtiyac yox idi. Çünki müstənti-

qin dəftərində bu siyahı çoxdan hazır idi. Bu istintaqın ertəsi günü müstəntiq əvvəllər topladığı material əsasında "cinayət" əməllərini maddələr üzrə ümumiləşdirib müttəhimin yanına gəlir. Yanvarın 19-da keçirilən 4-cü istintaqda Abdulla Şərifovun boynuna qoyurlar ki;

1.1918-ci ildən həbs olunanadək əksinqilabi, millətçi, pantürkist mövqedə olmuşdur.

2. 1920-ci ildən 1938-ci ilədək ÜİK(b)P sıralarında ola-ola ikiüzlülük, xəyanətkarlıq edərək öz əksinqilabi görüşlərini partiyadan gizləmişdir.

3.1938-ci ilin sentyabrında pantürkist təşkilat mərkəzinin üzvü Ə.Qubaydulin ilə sıx əksinqilabi iş aparmışdır.

4.Sovet hökumətinə qarşı inqilabi üsyan hazırlamaq və ziyankarlıq işi aparmaq yolu ilə vahid türk-tatar dövləti yaradılmasında əksinqilabi pantürkist təşkilat ideyalarına tam tərəfdar olmuşdur.

5.1930-cu ildən başlayaraq Ə.Qubaydulinin göstərişi ilə ali məktəb tələbələri və SSRİ EA Azərbaycan filialı elmi işçiləri arasında əksinqilabi təbliğat aparmış və Elm Cəbhəsində ziyankar işlər görmüşdür (Əhsən, Avanesyanlar elmimizin "qayğısına qalırmış" – A.B.).

6.1933–34-cü illər arasında İ.Həsənovu və Ə.Babazadəni əksinqilabi-pantürkist təşkilata cəlb etmişdir.

Müstəntiq 2 ay müttəhimə istirahət verir. Sonra belə qərara gəlir ki, ona daha bir "Cinayət" əməli yapışdırmaq lazımdır. Buna görə də martın 8-də 5-ci dəfə Abdulla Şərifovu istintaqa çəkir. Amma bu dəfə uğursuzluğa uğrayır. Bu dəfə Abdulla Şərifovun boynuna hər hansı bir Xarici dövlətlə casusluq qoymaq istəyir.

Buna nail ola bilməyən müstəntiq belə hesab edir ki, onu güllələmək üçün elə əvvəlki "ittihamlar" da kifayətdir. Onsuz da Abdulla Şərifovun güllələnməsi üçün əsas var idi. Çünki o, həm türk idi, həm də ziyalı! Sumbatov- Topuridzeyə, Gerasimova, Markaryana, Qriqoryana da bundan artıq daha nə lazım idi ki!

Buna görə də heç bir sübuta, fakta söykənməyən yuxarıdakı ittihamlar əsasında martın 9-da Abdulla Şərifovun istintaq işinin başa çatması və onun Az.SSRİ CM 64, 69, 70 və 73-cü maddələri üzrə məsuliyyətə cəlb olunması haqqında protokol tərtib edilir. XDİK-nin müavini Barşov dərhal müstəntiqin qərarını təsdiq edir.

Protokolun axırında göstərilir ki, A.M.Şərifov günahlarını boynuna alır və özünü müqəssir sayır.

1938-ci il iyunun 2-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasında cinayətkar üçülüyün, (Matuleviç, Kalxakov və Kulik) "məhkəmə" icraatını öz üzərinə götürərərk hazırlıq protokolu tərtib edir. Qatillərin qərarı əvvəlcədən hazır idi: "Abdulla Məhəmməd oğlu Şərifovun işi Az.SSRİ CM-nin 64, 69, 70 və 73-cü maddələri üzrə məhkəməyə verilsin. İşə 1 dekabr 1934-cü il qanuna uyğun olaraq bağlı məhkəmə icrasında, müdafiəçisiz, ittihamçısız və şahidsiz baxılsın".

Ertəsi gün yəni 1938-ci il iyunun 3-də həmin fövqəladə üçlüyün bağlı "məhkəmə" iclası keçirilmişdir. "Məhkəmə" 18:15 dəqiqədə açılmışdır. Cəmi 10 dəqiqə ərzində katib müttəhim şəxsiyyəti və sənədləri ilə hakimi tanış edir. Əslində təkcə bu iş üçün 2-3 saat lazım gələrdi. Hökm hazırdı, müvafiq qrafada müttəhimin adı yazılır. Və o 1 nömrəli cəzaya-güllələnməyə məhum edilir. Hökm qətidir, dərhal yerinə yetirilməlidir. Ondan şikayət vermək olmaz.

İşə baxın, müttəhimə son söz üçün imkan verirlər. Savadlı adam özünü müdafiə üçün ən azı 30 dəqiqə danışa bilər. Amma ona belə bir imkanı kim verərdi?! Cəmi ikicə cümlədə öz cəzasının yüngülləşdirilməsini xahiş edir. Ona bildirirlər ki, "hökm qətidir!". "Məhkəmə" icrası saat 18:25-də qurtardı. Elə həmən gecə alim güllələnmiş və bu haqda işə arayış qoyulmuşdur. Əsl akt Moskvada DTK arxivində saxlanılır. Fövqəladə üçlüyün qərarı ilə güllələnmiş şəxslərin ailə üzvləri 8 il həbs cəzasına məhkum

edilərək sürgün edilirdi. Abdulla müəllimin arvadı Fatimə Zinnur qızı Şərifova da 8 illik həbs və sürgün həyatı yaşamışdır.

1953-cü ildən başlayaraq ölkədə vəziyyət dəyişmişdir. Başqa "xalq düşmənləri"nin sahibləri kimi F.Z.Şərifova da ərinin taleyindən xəbər tutmaq üçün 1955-ci il oktyabrın 18-də SSR Baş prokuroru R.Rudenkoya ərizə ilə müraciət edib. Bunun nəticəsi olaraq 1956-cı il, iyulun 27-də A.M.Şərifovun işinə yenidən baxılması üçün qərar qəbul olunur. 1957-ci il mayın 30-da SSRİ ali məhkəməsi hərbi kollegiyası eyniadlı qurumun fövqəladə üçlüyünün 1938-ci il iyulun 30-də qəbul etdiyi qərarı əsassız hesab edərək ləvğ edir. Əsassız ittihamlar əsasında insan əsaslı surətdə məhv edilmişdir. Bunun günahı kimdə idi??? Qoy oxucu özü desin!

# ƏBDÜLƏZƏL MƏMMƏD OĞLU DƏMİRÇİZADƏ



Azərbaycan elminin inkişafı tarixində şərəfli yer tutan alimlərdən biri də Ə.M.Dəmirçizadədir. Azərbaycan dilçiliyinin bu görkəmli nümayəndəsi geniş və hərtərəfli biliyə malik bir alim, gözəl və xeyirxah bir insan idi.

Azərbaycan ədəbi dilinin tarixinin dövrləşdirilməsi, sistem halında tədqiqi məhz Respublika EA müxbir üzvü, filologiya elmləri doktoru, əməkdar elm xadimi, professor Ə.M.Dəmirçizadənin adı ilə bağlıdır. Ə.M.Dəmirçizadə Azərbaycan dilçiliyini yaradan alimlərdən biri kimi, mədəniyyətimizin müxtəlif sahələrində öz qələmini uğurla sınaqdan çıxarmışdır. Onun lirik və ictimai mövzuda yazdığı şeirləri, həcmcə kiçik, məzmunca dərin hekayələri, "Dədə Qorqud" librettosu (musiqisi Q.Salahov və C.Cahan-

girovundur) yüksək bədii təfəkkürə malik olduğunu sübut edir. Dövrünün ədəbi və musiqi həyatı ilə bağlı ədəbi-tənqidi məqalələri onun hərtərəfli inkişaf etmiş bir ziyalı olduğunu göstərir. 4 nəfər elmlər doktoruna məsləhətçi, 40 nəfər elmlər namizədinə rəhbər olması, 20 məsləhətçi, 40 nəfər elmlər namizədinə rəhbər olması, 20-dən artıq dissertantın rəsmi opponenti kimi çıxış etməsi onun böyük vətəndaş olmasından xəbər verir. Yeri gəlmişkən deməliyəm ki, pantürkist damğası təhlükəsi altında, böyük məsuliyyəti boynuma alıb 6 il professor B.Çobanzadənin yaradıcılığını tədqiq edərək işi namizədlik dissertasiyası kimi təqdim etdikdə bəziləri B.Çobanzadənin tələbələri (ruslar Palivanova dissertasiya həsr etməmişlər, Çoban kimdir ki, ona əsər həsr edilsin, – deyə uzun illik zəhmətimi yerə vurduğu bir zamanda) Əzəl çüəllim (Allah ona rəhmət eləsin) mənim bu təşəbbüsümü alqışlayıb dedi: - Öğlum çox ağıllı iş görürsən. XIX əsr türkologiyasında Mirzə Kazımbəy kim idisə, XX əsr türkologiyasında da Bəkir Çobanzaddə olur. Onların tayı yoxdur.

Məhz Ə.Dəmirçizadənin xeyirxahlığı nəticəsində həmin əsəri 1969-cu ildə müdafiə edə bildim.

Azərbaycan dilçilərinin böyük bir qisminə Əzəl müəllim beləcə qayğı göstərib elm aləminə gətirmişdir. Bir alim kimi onun yaradıcılıq dioponozu çox geniş olmuşdur. Azərbaycan dilinin fonetikası, morfologiyası, sintaksisi kimi sahələrdə o, qələmini uğurla sənamışdır. Respublikamızda dilçiliyin üslubiyyat

sahəsinin əsasını Ə.Dəmirçizadə qoymuşdur. O dilimizin tarixini elmi şəkildə öyrənən ilk alimdir. Alim başa düşürdü ki, dilimizin ümumi tarixi kursunu yaratmaq üçün ayrı-ayrı dövrlərdə işlədilmiş dil xüsusiyyətlərini öyrənmək lazımdır. Buna görə də 1935-ci ildən başlayaraq "Qasım bəy Zakirin dili haqqında", "Cəfər Cabbarlının dramaturgiya dili" adlı əsərləri ilə o, Azərbaycan dilinin tarixi üzrə ilk tədqiqat fəaliyyətinə başladı. Bundan iki il sonra "Sabirin satira texnikası", "Azərbaycan ədəbi dili tarixində M.F.Axundovun yeri" kimi əsərlərini yazır. Müəllif klassiklərimizin dili üzərində apardığı müşahidələri 1939-cu ildə "Azərbaycan ədəbi dili tarixi xülasələri" kitabını nəşr etdirmişdir. Burada "Kitabi Dədə Qorqud" dastanlarının, Nəsimi, Füzuli, Xətai, Vaqif, M.F.Axundov və başqa sənətkarların əsərləri əsasında ədəbi dilimizin təşəkkülü yollarını izləmişdir. Müəllif M.F.Axundovun? demək olar ki, bütün yaradıcılığını dil baxımından tədqiq etmiş, 1935-ci ildən 1941-ci illədək "M.F.Axundov dil haqqında və M.F.Axundovun dili" adlı iri həcmli əsərini yazmışdır. Alim Azərbaycan ədəbi dilinin inkişaf yollarını 1948-ci ildən nəşr etdirdiyi "Azərbaycan dilinin tarixi", "Azərbaycan ədəbi dilinin inkişafı yolları", "Azəri ədəbi dili tarixi" kimi əsərlərində inandırıcı şəkildə göstərmişdir. Cəsarətlə demək olar ki, Azərbaycan ədəbi dilinin təşəkkül tarixini ilk dəfə Ə.Dəmirçizadə elmi çəkildə öyrənmiş və dövrləşdirmişdir.

1943-cü ildən ta həyatının son günlərinə qədər, 1979-cu ilə qədər 36 il Azərbaycan Pedaqoji İnsitutunda Azərbaycan dilçiliyi kafedrasının müdiri işləyən Ə.Dəmirçizadə bu ali məktəbdə özünəməxsus bir elmi məktəb yaratmışdı. Bu geniş qəlbli xeyirxah insanın da şəxsi həyatı çox təlatümlü olmuşdur. Belə ki, qanlı represiya illərinin qara tufanı Əzəl müəllimdən də yan keçməmişdir. O, 4 ay bir həftə DTK zindanına atılmış, Qalstyanların qurduğu tora düşmüş, lakin öz həyatını xilas edə bilmişdir.

Dəmirçizadə Əbdül Əzim Mamed oğlu

Po st.72/73 uk.ASSR

Başlanıb: II mart 1937

Qurtarıb: 4 iyul 1937

Qeydə alınıb: 9 iyul 1937

Alimin həbs edilməsi üçün 6-cı bölməniin rəis köməkçisi Dövlət təhlükəsizliyi leytenantı Qalstyan DTİ-nin şöbəsinin rəis müavini Tsinmanın təsdiqi – razılığı ilə 3 mart 1937-ci ildə belə bir arayış tərtib edir:

Dəmirçizadə Əbdül Azem (savada bax – A.B.) Mamed oğlu 1909-cu il təvəllüdlü, bitərəf APİ müəllimi Suraxanı küçəsi 12 №-li mənzildə yaşayan əksin-

qilabçı millətçi təşkilatın üzvü Zeynallı tərəfindən əksinqilabçı kimi ifşa edilir və göstərir ki, onu 1936-cı ilin əvvəlində əksinqilabi təşkilata özü cəlb etmişdir.

H.Zeynallının 13.02.1937-ci ildəki ifadəsindən:

Dəmirçizadə APİ müəllimi bitərəf, professor B.Çobanzadənin keçmiş şagirdidir. Mən ona 1936-cı ilin əvvəlində əksinqilabçı millətçi təşkilatın olması haqqında məlumat verib ona müəllimlər arasında cəlbetmə işi aparmağı təklif etdim.Dəmirçizadəni mən EA AF-də işə götürməli idim, amma, R.Axundovun həbs edilməsi ilə əlaqədar olaraq onun işə qəbul edilməsini dayandırdım. Ondan bir gün sonra H.Zeynallı (14.02.1937-də) yenə "demişdi:" ...mənimlə söhbətlərində Dəmirçizadə məlumat verirdi ki, bu istiqamətdə iş aparır, bitərəf gənc elmi işçilərdən və komsomolçulardan ibarət müəyyən əhatə yaradır. Onları dilə tutur və əksinqilabçı təşkilatın qrupunu yaratmaq üçün hazırlıq işləri aparır (14.02.37).

Buna görə də Dəmirçizadəni həbs edib cinayət məsuliyyətinə cəlb etməyi zəruri hesab edirəm.

6-cı bölmənin rəisinin köməkçisi (Qalstyan).

Həbs qəti imkan tədbiri seçilməsi və ittiham elan edilməsi haqqında qərar vardır.

Qərar martın 7-də mayor Gerasimovun təsdiqi ilə çıxardılıb. Burada qeyd edilir ki, mən VI şöbənin 4-cü bölməsinin rəisi Qalstyan Dəmirçizadə Əbdüləzəl Məmməd oğlunun (1909-cu ildə anadan

olmuş, APİ müəllimi) işi ilə tanış olduqdan sonra müəyyən etdim ki, o, əksinqilabi millətçi təşkilatın üzvü olmuşdur.

Qərara aldım: Dəmirçizadə Abdulla (əhsən savadına belə müstəntiq) Az.SSR C.M. 72/73 maddələri üzrə cinayətə cəlb edilsin və o istintaqdan və məhkəmədən gizlənməməsi üçün AXDİK həbs evində saxlansın.

Qalstyan.

Əslində, Qalstyana həbs etmək – məhv etmək üçün türk alimi lazım idi. Buna görə də alimin adı və kimliyi onu maraqlandırmır. Bu səbəbdən də Əbdüləzəl müəllimin adını gah Abdul Azem, gah da Abdulla, gah Abdul Azim kimi yazır. Bunu heç başqaları da guya "görmür" axı Abdulla ilə Əzim və ya Əzəl ilə Azem ayrı-ayrı adamlar ola bilərdi.

Şəxsi işin 4-cü səhifəsində baxın, martın 7-də həbsi haqqında qərar verilir, 9-da prokuror həbs haqqında sanksiya verir (buna qədər o həbs edilmişdi).

Amma ittiham müttəhimə martın 23-də novruz bayramında elan edilir və qol çəkilir.

Əzəl müəllimin işi o qədər böyük deyil. İş cəmi 28 səhifədən ibarətdir.

Qalstyanın Hənəfi Zeynallının dilindən qopardığı sözlər əsasında tərtib etdiyi arayışa görə heç bir başqa sübut və dəlil olmadan Azərbaycan SSR prokurorunun köməkçisi istintaq şöbəsinin rəis müavini Yarovoy qərara alır:

ASSR XDİK DTİ-nin 4-cü şöbəsinin Dəmirçizadə Əbdüləzəl Məmməd oğlu haqqında ilkin materiallara baxaraq müəyyən etdim:

Dəmirçizadə Əbdüləzən (Əzəl əvəzinə – A.B.) əksinqilabi təşkilatın üzvüdür. Buna görə də qərara alırıq:

1909-cu ildə anadan olmuş Dəmirçizadə Əbdül Əzəm Məmməd oğlu (bitərəf) APİ müəllimi ASSR C.M. maddələri üzrə cinayət məsuliyyətinə cəlb edilsin.

Qəti imkan tədbiri kimi həbs etmə seçilsin.

Aşağıda belə bir qeyd vardır: Dəmirçizadə Əbdüləzəl Mamed oğlunun həbsinə icazə verirəm.

Respublika prokuroru əvəzi (Pinkis)

9 mart 1937-ci il

Bəli, heç bir sübut və dəlili olmadan Pinkis alimin həbs edilməsinə icazə verir.

Martın 9-da Qalstyana tapşırılır ki, iki sutka ərzində Dəmirçizadə Abdulun (orderdə belə yazılıb – A.B.) evi axtarılsın (ş.i.s.5 order №187)

Cinayət işinin 6-cı səhifəsində axtarış protokolu vardır. Protokol martın 7-də tərtib edilib. Axtarışda

iştirak edib: 4-cü şöbənin əməliyyat müvəkkili Xaldıbanov.

Bakı şəhəri Suraxanı küçəsi 12 №-li evdə yaşayan Dəmirçizadə Əbdüləzəm Məmməd oğlunun evi axtarılır. Axtarışda Məlikova Tubu Həsən qızı İştirak edir. Axtarışda aşkar edilib götürülmüşdür:

1.El şairləri kitabı - 1ədəd

2.Mücrim Kərimin əlyazmaları - 1 qovluq

3.Molla Cuma - farsca 1

4.Seyid Əzim (əlyazması I və II cild)

5.Töhfətül məclis -1 ədəd

6.Azərbaycan və fars, rus dillərində kitab - 25 ədad

7.Azərbaycan dilində kitablar - 7ədəd

8.Ümumi ailəvi fotoşəkil - 7ədəd

9.Özünün fotoşəkli - 6 ədəd

10.”Şərhicami” əlyazması

11.”Purqan” əlyazması

12.Müxtəlif müəlliflərin əlyazması

13.”Cavidül ərəb” əlyazması

14.Əlyazması

15. Naməlum müəllifin əlyazması

16.Əlyazması - lüğət

17.Kitab: Osmanlı müəllifləri

18. Ərəbcə - farsca kitablar (9)

19. Şəxsi məktublar (çoxlu miqdarda)

20.Pasport № 5052206 (Dəmirçizadə)

21. Profbilet № 191508 (c.i.səh.6)

Deməli belə! Aşağıda qol da çəkdiriblər ki, axtarış zamanı Dəmirçizadənin ailəsindən şikayət olmayıb, sonra məhbusun özünü axtarıb üstündən Xalıkov götürüb:

1.Bel qayışı

2.Coraba keçirilən rezin

3.Mis zapinkalar

4. 19 qəpik xırda pul

5. Əlcəkləri

6.Vəsiqə № 40 və № 56 (c.i.s.8)

Sonra cinayət işinin 9-cu vərəqəsində 829 №-li məhbusun – Dəmirçizadə Əbdül Əzəlin anketi gəlir. Burada yazılıb:

1.Anadan olub 1909

2.Anadan olduğu yer - Nuxa şəhəri

3.Ünvanı - Bakı şəhəri Suraxanı küçəsi, № 12

4.İxtisası - pedaqoq

5.İş yeri - Lenin adına APİ

6. Pasport beş ilə verilib. BMİ-dən

7.İctimai mənşəyi - kustar oğlu

8.İctimai vəziyyəti - qulluqçu

9.İnqilaba qədər - valideynlərinin himayəsində

10.İnqilabdan sonra oxuyub

11.Təhsili ali

12.Partiyalılığı - bitərəf

13.Milliyəti və vətəndaşlığı - azərbaycanlı, SSRİ vətəndaşı

14.Hərbi mükəlləfiyyəti - xəstəliyinə görə uçotdan çıxarılıb

15. Ağqvardiyaçılara xidmət yoxdur

16. Həbs edilməyib

17.Ailə tərkibi - anası, Əminə xanım - 50yaşında, bacısı Fatma - 20 yaşında.

Anketi doldurdu: Qalstyanın imzası.10.03.1937

Martın 13-də müttəhim dindiriblər. Dindirməni Qalstyan aparıb:

Burada əvvəlki anketdə olmayanları Qalstyan soruşur.

Deməli, 1937-ci ildə Əzəl müəllim subay imiş.

Dindirmə zamanı Qalstyan sual verir:

**Sual:** İstintaqa məlumdur ki, siz ədəbiyyat dərnəklərinə rəhbərlik etmisiniz. Dəqiq-dürüst deyin, nə vaxt və hansı dərnəklərə rəhbərlik etmisiniz.

**Cavab:** Bakı şəhərində mən iki ədəbiyyat dərnəyinə rəhbərlik etmişəm. Bunlardan biri Bül-bülə kənd klubunda, digəri isə Suraxanı mədəniyyət sarayındakı ədəbiyyat dərnəkləri idi. Bu, 1934-cü ilə qədər olmuşdur. Bundan sonra mən bu işlə məşğul olmamışam.

**Sual:** Siz göstərdiniz ki,1926-28-ci illərdə komsomolda olmusunuz, komsomoldan çıxmağınızın səbəbini deyin.

**Cavab:** Mən 1926-cı ildə komsomola girmiş və şəhər özək təşkilatının üzvü olmuşam. Təşkilat məni Bakı şəhərinə oxumağa göndərməkdən imtina etdiyi üçün mən özüm komsomoldan çıxmaq haqqında ərizə verdim. Həmin ərizəm əsasında məni 1928-ci ildə komsomoldan çıxardılar.

**Sual:** İstintaqa məlumdur ki, sizin atanız BSİ tərəfindən həbs edilmişdir. Siz bunu istintaqdan gizlətmisiniz.

**Cavab:** Atamın həbs edildiyi vaxt mən Bakıda olmuşam. Mənə təkcə bu məlumdur ki, atam 1931-ci ildə Nuxada banditlərə kömək etdiyinə görə 4 ay həbs etdikdən sonra buraxıblar. İndi Nuxa şəhərində yaşayır və işləyir.

Cinayət işinin 13-cü vərəqində istintaq dindirməsinin davamı kimi 22 may 1937-ci il tarixli dindirmə protokolu gəlir. Yenə dindirməni Qalstyan aparır.

**Sual:** İstintaqa məlumdur ki, siz həbs olunan günə kimi əksinqilabçı millətçi mövqedə olmusunuz, boynunuza alırsınızmı?

**Cavab:** Yox.Mən qəti şəkildə bunu rədd edirəm. Mən heç vaxt əksinqilabçı millətçi olmamışam və heç bir əksinqilabçı iş aparmamışam.

**Sual:** Siz düz danışmırsınız. İstintaq sizə bir daha düzgün ifadə verməyi tövsiyə edir.

**Cavab:** Mən bir daha bəyan edirəm. Mən əksinqilabçı və millətçi olmamışam və heç bir əksinqilabçı iş aparmamışam.

**Sual:** Siz 1930-34-cü ildə şəxsən bədii yaradıcılıqla məşğul olmuş, şeir yazmısınız?

**Cavab:** Mən AzAP-ın (Azərbaycan Proletar yazıçıları cəmiyyəti-A.B.) üzvü olmuşam və bu dövrdə şeir və bədii əsərlər yazmışam ki, onlardan bəziləri "Allahsız", "Şərq qadını", "Maarif və mədəniyyət" jurnallarında çap olunmuşdur.

**Sual:** İstintaqa məlumdur ki, siz bununla əksinqilabi iş aparmış, əksinqilabi millətçi ruhda şeirlər yazmısınız, istintaq tələb edir ki, yalana son qoyasınız.

**Cavab:** Mən bunu qəti şəkildə rədd edirəm.

**Sual:** Siz yalan danışırsınız. İstintaq sizi faktlarla ifşa edəcəkdir. Siz "Bizim tarixçəmiz" adlı millətçi ruhda yazılmış əsərlərinizi özünüzə yaxın dairədə yaymısınız (1932). Bu əsərdə siz göstərirsiniz ki, azərbaycanlılar başqa xalqlar üzərində ağalıq etməlidir. Bu əsərdə bütün müsəlmanları öz mənafelərini qorumaq üçün birləşməyə çağırırsınız. İndi buna nə deyirsiniz?

**Cavab:** Mən heç vaxt əksinqilabçı və millətçi ruhda şeir yazmamışam.

**Sual:** Bu hələ harasıdır. Siz "Azərbaycan kimindir" adlı əksinqilabçı millətçi şeir də yazmısınız. Burada siz öz əksinqilabi millətçi görüşlərinizi ifadə etmisiniz və Azərbaycandan qeyri-millətlərin çıxarılmasına çağırmısınız.

**Cavab:** Mən bunu rədd edirəm. Mən belə əsər yazmamışam.

Dindirmənin davamı iyunun 9-da aparılır. Yenə 17 gündən sonra lənətə gəlmiş Qalstyan peyda olur. Keçən ayın 22-də Əzəl müəllimin boynuna heç nəyi qoya bilməyən cəllad görək bu dəfə nə axtarıb tapacaq?

**Sual:** İstintaqa məlumdur ki, siz Bakıda əksinqilabçı millətçi təşkilatın üzvü olmusunuz. Boynunuza alırsınızmı?

**Cavab:** Bunu mən tam kəskinlklə, qəti sürətdə rədd edirəm. Mən heç bir əksinqilabçı millətçi təşkilatın üzvü olmamışam.

**Sual:** Siz Hənəfi Zeynallını TANIYIRSINIZMI?

**Cavab:** Mən Hənəfi Zeynallını tanıyıram. Mən onunla 1932-ci ildəAli Pedaqoji İnsitutda tanış olmuşam. Mən onda həmin ali məktəbdə oxuyurdum.

O isə Bizə Qərbi Avropa ədəbiyyatından mühazirə oxuyurdu.

**Sual:** Siz nə vaxt və hansı şəraitdə H.Zeynallı ilə görüşdünüz?

**Cavab:** Mən H.Zeynallı ilə 1935-36-cı ildə görüşmüşəm. 1936-ci ildə mən onunla EA Azərbaycan filialına işə düzəlmək ilə əlaqədar tanış olmuşam. Boş yer olan kimi məni dil şöbəsində elmi işçi kimi işə götürməyə söz verdi. Mən Zeynallıya bir neçə dəfə bu xahişlə müraciət etdim. Bu iş çox uzandı, mən Az.filialında H.Zeynallının 4 martda həbs edildiyindən sonra işə qəbul edildim.

**Sual:** İstintaqa məlumdur ki, Zeynallı həmişə sizinlə əksinqilabi millətçi ruhlu söhbətlər aparmışdır. Bu söhbətlərin məzmununu danışın.

**Cavab:** Mənimlə görüşləri zamanı H.Zeynallı heç bir əksinqilabi söhbətlər aparmamışdır. Bunu mən qəti şəkildə bəyan edirəm.

**Sual:** Siz düz danışmırsız. Müttəhim H.Zeynallı öz ifadələrində deyir ki, 1935-36-cı ildə sizinlə görüşlərdə əksinqilabi millətçi ruhda söhbətlər aparmışdır.

**Cavab:** Mən bunu qəti şəkildə rədd edirəm. H.Zeynallı düzgün danışmır.

Beləliklə, demək olar ki, Qalstyan eyni məzmunda sual adı ilə müttəhimin boynuna əksinqilabçılılıq qoymaq istəyir. Bu cavabdan sonra Əzəl müəllim 3 dəfə eyni cavabı verir.

"Mən heç vaxt əksinqilabçı təşkilatın üzvü olmamışam".

Hər şeydən əli üzülən Qalstyan mayın 21-də Nuxa şəhəri, Zaqatala küçəsi, 13 №-li evdə yaşayan Əli Ovsar oğlu Quliyevi şahid sifətində dindirir.

**Sual:** Nuxa şəhərinin yetirməsi, APİ-nin keçmiş tələbəsi Dəmirçizadə Əbdül Əzəli tanıyırsınızmı?

**Cavab:** Bəli, Dəmirçizadə Əbdül Əzəli mən yaxşı tanıyıram. Onunla qonşu olmuşuq, məktəbdə də bir oxumuşuq.

**Sual:** Ə.Dəmirçizadənin əksinqilabi və millətçi fəaliyyəti haqqında sizə nə məlumdur?

**Cavab:** Əbdül Əzəl Dəmirçizadə mənə şəxsən əksinqilabi millətçi kimi tanışdır. O, 1932, 1933, 1934-cü illərdə Bakıda mənimlə görüşləri zamanı açıq-aşkar əksinqilabçı millətçi baxışlarını bildirirdi. Onda bizim hər ikimiz Ali Pedaqoji İnsitutda oxuyuruq. O, mənə deyirdi ki, əksinqilabi əsər yazır.

Окончено 19/X 1937 г.

УЧТЕНО в 1962 году

ПР-28388.

НА ЛИСТАХ 102

арх 9400

371

г. Баку

НАРОДНЫЙ КОМИССАРИАТ ВНУТРЕННИХ ДЕЛ
Аз.ССР

...РСТВЕН. БЕЗОПАСНОСТИ

...Т Д Е Л

Форма 1
ВОЕННАЯ КОЛЛЕГИЯ ВЕРХСУДА СССР
ВК ВС СССР
№ 4н-025089
Докладчик т. Смирнов
Прокурор
17. 10 1956 г.
Г 299356 17.11 1956 ЦТ МО—7929

...Е ДЕЛО № 12493/72

По обвинению Ходжаева Хамид Саида

по ст. ст. 73, 68 УК Аз.ССР

Начато 4-Июня 1937 г.

Окончено 4-Сентября 193 г.

ПР-26762 НА ЛИСТАХ (57)

956759

АРХ-ПР-

УЧТЕНО в 1962 году

г. Баку

371



~~ПР-28306.~~

С. С. С. Р.

# Н.К.В.Д.

Дело подлежит возврату
в Архив КГБ
Азербайджанской ССР

# АЗЕРБАЙДЖАНСКОЙ С.С.Р.

# ДЕЛО № 25440

УЧТЕНО в 1962 ГОДУ

по обвинению
Гасанова
Идриса Мешади Заман оглы
в преступл. предусмот. ст. 72 и 73 УК АзССР

~~АРХ № ПС-1682~~

ТОМ №

~~АРХ-ПР-28306~~

Начато „ “ апреля 1938 г.

Окончено „ “ 19 г.

~~623544~~

Количество томов



НАРОДНЫЙ КОМИССАРИАТ ВНУТРЕННИХ ДЕЛ
Аз.ССР

УПРАВЛЕНИЕ ГОСУДАРСТВЕН. БЕЗОПАСНОСТИ

4 ОТДЕЛ

№ 1775с
23 ч 6

СЛЕДСТВЕННОЕ ДЕЛО № 12493

УЧТЕНО 1952 году

По обвинению Чобан-Заде Бекира Вагабовича

по ст. ст. 64, 68, 70 и 73 УК Аз.С

Начато 27 Января 193

Окончено 3 Сентя 193

Особый Архив

НА ЛИСТАХ

Арх № ПР 26926

Том второй

956748 т. 2

3

г. Баку


415192

НАРОДНЫЙ КОМИССАРИАТ ВНУТРЕННИХ ДЕЛ
Аз.ССР

УПРАВЛЕНИЕ ГОСУДАРСТВЕН. БЕЗОПАСНОСТИ

4 ОТДЕЛ

5133с
12

СЛЕДСТВЕННОЕ ДЕЛО № 12493/80.

По обвинению Хулудолу Вели Мамед Союн оглы

по ст. 73, 64, 69, 17-70 УК Аз.ССР

193 г.

193 г.

Форма
...АЯ КОЛЛЕГИЯ ВЕРХСУДА СССР

№ 4н-015...

Докладчик

Прокурор

195 г.

Г 299355 22.7.1955 ПТ МО—6767

УЧТЕНО 1962 ГОДУ

ТАХ 50

056770

Центральный архив МВД СССР

г. Баку

пр. 25014

№ 4521 - 4-1

20132

## 11. СОСТАВ СЕМЬИ

| Степень родства | Фамилия, имя и отчество | Год рождения | Место рождения | Место жительства, род занятий и должность |
|---|---|---|---|---|
| Отец | Умер в 1914 г. | | | |
| Мать | Амина Исмаил Кизи | 55 лет | [illegible] | с. [illegible] домохозяйка |
| Жена (муж) | Кязимова Тортагадии Кизи | 1914 | Нах. ССР | гор. Баку ул. Красноармейская 18 |
| Дети 1 | Кязимова Саиго Абдул Кизи | 1934 | -"- | -"- |
| 2 | Кязимова Салма | 1937 | -"- | -"- |
| Братья, сестры | Не Имеет<br>Не Имеет | | | |

Место для фотокарточки



Отпечаток указательного пальца правой руки (при отсутствии его — последующего пальца с соответствующей пометкой). Палец должен быть [illegible] и полностью прокатанным (от одной кромки ногтя до другой)



Личная подпись (арестованного) [signature]

3

# ELİMİZİN VƏ ELMİMİZİN SOYQIRIMI

*(Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyinə ithaf olunur. 2003)*

## Redaktordan

Filologiya elmləri doktoru, professor Adil Babayev neçə illərdir ki, Azərbaycan diiçiliyinin tarixini araşdırır. Bu illərin zəhmətinin bəhrəsi olaraq onun monoqrafiya və dərs vəsaitləri meydana gəlmişdir. Onun bu yaxınlarda çapdan çıxmış “Dilçiliyimizin məbədi” adlı monoqrafik tədqiqatı bu qəbildəndir. Kitabda müəllif Bakı Dövlət Universitetinin ən qocaman kafedralarından biri “Ümumi dilçilik” kafedrasının tarixindən bəhs edir. Burada o, kafedranın dərsləri, dərslikləri ilə yanaşı, kafedra müdirləri və yetirmələri haqqında da məlumat vermişdir. Müəllif Ümumi dilçilik kafedrasının repressiya qurbanı olmuş əməkdaşları haqqında bu kitabında da məlumat verir. “Elimizin, ehnimizm soyqırımı” adlanan indiki kitabda müəllif BDU-nun Ümumi dilçilik kafedrasında işləməmiş, lakin qırmızı terrorun qurbanı olmuş dilçi alimlərimizdən A.R.Zifeld, Abdulla Şərifov, Vəli Xuluflu və

başqaları haqqında sənədlər əsasında maraqlı məlumatlar vardır. Bu kitabı əvvəlkindən fərqləndirən cəhət ilk növbədə onun publisistik səciyyə daşımasıdır. Müəllif əsərin giriş hissəsində ermənilərin türkə qarşı həmişə düşmən mövqedə olması, məkrli siyasət yeritdiklərini inandırıcı faktlarla sübut edir. Müəllif belə bir suala cavab verir ki, nə üçün o vaxtlar bütün DTK orqanlarına ermənilər cəlb edilmişdi. Bu, düşünülmüş bir siyasət idi! Azərbaycan rəhbərliyi isə maymaqlıgı üzündən onların xəyanətinə göz yumurdu. Şəmkirdən olan məktub buna sübutdur. Müəllif sözünə davam edərək göstərir ki, xalqın düşmənləri “Xalq düşməni” damğası ilə Azərbaycanın hər yerində çoxlu alim, ziyalı, kənddə bir balaca dərin düşünməyi bacaran, quran oxuyan adamları məhv edirdilər.

Azərbaycanın rayonlarında da DTK orqanlarında işləyənlər ermənilər idi. Onların arzusu ilə sovet imperiya siyasəti millətimizə qarşı soyqırımı təşkil

etmək üçün bəhanəyə çevrilirdi. Naxçıvan Muxtar Respublikasında təkcə Arto Avanesiyanın 100-dən artıq Azərbaycan türkünün qətlinə fərman hazırlaması bunu aydın şəkildə göstərir.

Müəllif özünün dediyi kimi, bu kitabda o, millətimizə qarşı soyqırımının mində birini göstərə bilmişdir. Ona görə də bu istiqamətdə tədqiqatını davam etdirmək niyyətindədir. Bu kitabı bu mövzuda birinci kitab adlandırması da bu arzudan doğmuşdur.

Kitabda maraqlı bir epizod verilir: Vəli Xuluflunun əksinqilabi fəaliyyəti haqqında suala cavabında B.Çobanzadə deyir: *"Söhbət belə gətirdi ki, mən dedim: Azərbaycan məhkum vəziyyətdədir. Və ədalətsizliyə məruz qalır. Çünki Gürcüstan və Ermənistan büdcədən çox pay alır, nəinki Azərbaycan, və bu, Azərbaycanın sərvətləri hesabına edilir"*. Oxucunun nəzərinə çatdırmaq istərdim ki, bu, təkcə XX əsrin 30-cu illərinin söhbəti deyildir. Çünki biz də gəncliyimizdə belə söhbətlər edirdik. Belə ki,

Azərbaycan ərazisinin və əhalisinin Gürcüstandan çox olmasına, sərvətlərinin isə ondan müqayisəyə gəlməz dərəcədə yüksək olmasına baxmayaraq ta Sovet İttifaqı dağılanadək Gürcüstanın büdcəsi Azərbaycandan böyük olmuşdur; sahəsi və əhalisi Azərbaycandan üç dəfə az olan Ermənistanın isə büdcəsi Azərbaycanınkına bərabər olmuşdur. Yadımdadır. 1970-ci ildə BDU-nun partiya hesabat iclasında mənim verdiyim *"Tbilisi və Yerevan universitetlərində qiyabi təhsil almaq yox dərəcəsindədir, bizim universitetimiz isə az qala qiyabiçilər umversitetinə çevrilmişdir. Bunun səbəbi nədir?"* sualına DPK katibi Cəfər Cəfərov belə cavab verdi: *"Sovet höküməti azərbaycanlılara, gürcülərə və ermənilərə qarşı ayrı-ayrı siyasət yeritmir. Sadəcə olaraq, bizim o qədər əyani tələbəyə dərs demək üçün kadrlarımız yoxdur".* Amma kadrlarımız vardı, milli siyasətimiz yoxdu. Elə indinin özündə də milli şüurumuz yox dərəcəsindədir. Buna görə də Adil Babayevin kitabı tipli çoxlu kitab nəşr etmək lazımdır

ki, biz kim olduğumuzu, dostumuz və düşmənimizin kim olduğunu anlayaq.

**Ə.Ə.Rəcəbli**

*filologiya elmləri doktoru, professor*

## Giriş

Əziz oxucu, əlinə aldığın bu kitabda sənə deyəcəyim sözlərlə səninlə görüşmək rnənim çoxdankı arzum idi. Əgər xalqını, Vətənini, dilini, ədəbiyyatını, tarixini, musiqini, adət-ənənələrini əsl məhəbbətlə, mənim kimi sevirsənsə bu kitabı oxu *(Mən ilk növbədə yuxarıda dediklərimi sevir, sonra isə bütün millətlərə aid olan həmin tarixi-milli dəyərlərə hörmət edirəm).* Əgər millətinin soyqırımını eşidəndə beynində əsəblərin gərginləşdiyini hiss etməyəcəksənsə, öz dilinin, xalqının mənəvi dəyərlərinin məhv edildiyini həyəcansız oxuyacaqsansa, Vətənin alimlərinin, başbilənlərinin, bəzən də adi adamlarının məhv edildiyinə biganə qalacaqsansa və nəhayət xalqımızın əsrlərlə yaradıb, qoruyub saxladığı, dünya xalqlarına sevdirib, özu də sevdiyi milli musiqimizə ağız büzüb, bayağı, mənasız, yüngül estradadan, orada oxunan mənasız və səviyyəsiz sözlərdən zövq alaraq vaxtını barlarda

keçirirsənsə, min bir əyri yolla alınmış xarici qara maşında gündə bir qızla əylənir, min bir fırıldaqla vətəni qorumaqdan qaçırsansa, bu kitabı yerə qoy. Bu kitab sənin üçün deyil!

Bu kitabı cinsindən asılı olmayaraq millətimin o nümayəndələri üçün yazmışam ki, onlar bu əsəri oxuyub fanatikcəsinə (erməni kimi) – "Mən bütün millətlərə düşmənəm" deməyib, öz xalqının başına gətirilən müsibətlər haqqında aldığı kiçik məlumatdan böyük məna çıxarsınlar.

Özümə və yaşıdlarıma yazığım gəlir ki, gənclik illərində bizə başqa cür siyasi tərbiyə vermişdilər. Elə bilirdik ki, dostluq deyəndə Şaumyan-Əzizbəyov, Lenin-Stalin, qardaşlıq deyəndə Hayıstan-Azərbaycan, xalq deyəndə Sovet xalqı düşünülməlidir. Sən demə bizdən başqa xalqlar ozu haqqında düşünürmüş.

1920-ci ildən bizim gözümüzün odunu elə almışdılar ki, biz marksizm-leninizmdən, bolşeviklər partiyasının dediyindən kənarda heç nə düşünə bilməzdik. Nəhayət, 1956-cı ildə (o vaxt mən orta məktəbdə oxuyurdum) Sov. İKP XX qurultayı (14–25 fevral) buzu sındırdı. Bundan sonra Stalinin şəxsiyyətinə pərəstiş aradan qaldırıldı və repressiya qurbanlarına bəraət verilməyə başlandı. 1961-ci ildə Sov. İKP XXII qurultayı (17–31 oktyabr) Stalini tamamilə ifşa etdi, amma "Xalqlar dostluğu" haqqında xüsusi qərar qəbul etdi. Stalinə nə istəyirsən de, hətta onun tarixi xidmətlərini inkar et, amma Şaumyana, Əmiryana və başqa "yanlara" toxunma, çünki onlar vahid Sovet xalqının nümayəndəsidir.

Bəs Zori Balayan 1985-ci ildə niyə bizi, bütün türk xalqlarını vəhşi, qaniçən kimi qələmə verdi, niyə Silva Kaputikyan bizi bütün dünya xalqları qarşısında rüsvay edirdi. Onlarla "yanlar" bizim əleyhimizə min

cür böhtanlar yağdırırdı? Biz isə susurduq! Bax, məsələ bunda idi.

Burada böyük Şəhriyarın sözləri yada düşür:

*Dil acmada karlıq da gedər, korluğumuz da,*

*Çün lallığumz doğmuş idi karlığımızdan...*

*Düşmən bizi əlbir görə təslim olu naçar,*

*Təslim oluruq düşmənə naçarlığımızdan,*

*Düşmənlərimiz qorxulu huşyarlığımızdan.*

Biz isə o illərdə sosialist beynəlmiləlçiliyinə, "xalqların Lenin dostluğuna", "Sovet xalqlarının qardaş birliyi" ideyasına sadiq qalaraq susurduq. İndi danışmaq, müsibətlərimizi dünyaya yaymaqda ermənilərdən geri qalmağımız da təcrübəsizliyin, həmin susmağın nəticəsidir.

1988-ci ildə onlar SSRİ-nin dağılacağını əvvəlcədən görüb öz himayədarlarının dəstəyi ilə bizə

qarşı müharibəyə başladılar. Ermənistanı axırıncı türkdən təmizlədilər, millətimizin namusunu təhqir etdilər, Quqarkda, Xocalıda qətliamlar törətdilər, dünyaya isə çar çəkdilər ki "vəhşi türk bizi qırdı". Bunun nəticəsi olaraq Amerika Konqresi Azadlığı dəstəkləmək haqqında akta 907-ci maddəni əlavə etdi. Bu haqda müasir oxucunun məlumatı var. Əgər 1993-cü ildən başlayaraq Azərbaycan diplomatiyası fəallaşmasaydı ermənilər Xocalını da ermənilərin qətliamı kimi qələmə verərdilər.

Gəlin, ermənilər haqqında bir neçə kompetentli, bitərəf adamların sözlərinə nəzər salaq:

***-Dünyanın hər tərəfinə hər dil ilə elan olunsun: dünya inansın ki, ermənilər beş yüz ildən bəridir Osmanlı dövlətinin adil idarəsində mütləq şəkildə xoşbəxt yaşamışdır.***

*Manuk Əfəndi, Hələb millət vəkili, 1877.*

***-Ermənilərin qovğacı təbiəti özlərinə böyuk fəlakət gətirə bilər.***

*Trotter, İngiltərənin Ərzurum konsulu, 1879.*

***-Vəziyyətini xəbər aldığım erməni: "-Savaş içində türklərin idarəsi altında bundan daha xoşbəxt idim", - dedi.***

*Biliotti, İngiltərənin Trabzon konsulu, 1879.*

***-Ermənilərin əqəliyyətdə olduqları unudulmamalıdır; bir çox yerlərə səpələnib yaşayan ermaninin bir parçasıdır.***

***Bir erməni dövlətin yaratmaq xəyalı ilə eyni intriqalar bu dəfə Anodoluda səhnələşdirilir.***

*Ser Layard, İngiltərənin Osmanlı böyük elçisi, 1879.*

*-Öldürmə hadisələri erməni partizanının ucbatından baş vermişdir. Əgər bunlar olmasaydı və ya səssiz otursaydılar, kimsənin burnu qanamazdı. İnkar imkansız olan həqiqət budur! Aranı qatıb-qarışdıran özləri oldu. Nəticəsini erməni kütləsi çəkməli oldu. Qan sulayanlar qaçıb canlarını qurtardılar.*

*-Əgər İngiltərənin və Rusiyanın hüsn-rəğbəti və təşviqi olmasaydı, ermənilər heç nə bacarmayacaq qədər sakit və farağat qalardılar.*

**Georgi Hipvort, Amerika qəzetçisi, 1897.**

*Andranik qardaş!*

*Gedəlim Türkiyəyə,*

*Qıralım türkləri –*

*Olsun Ermənistan!..*

*Ermənilərin "Hıncaq" marşından.*

*-Ərzurum bir xərabə halında idi. Camilər tamamən hamam və anbarlara çevrilmişdi. Geeə səkkizdən sonra türklərin evlərindən çölə çıxmaları kəsinliklə yasaqlanmışdı.*

**Otto Fenşer, 1918.**

*-Mən ermənilərin vəhşətindən özümü qoruya bildim və Ulu Tanrıya çox şükürlər olsun ki, ermənilərə deyil, türklərə təslim oldum. Kiyevdə sağlığımı duysunlar deyə bunları yazdım.*

**Yüzbaşı İvan Qokilaviç Pılyat, 1918.**

*-Soyqırımın qarşısını almaq tamamilə erməni başçılarının əlində idi: buna görə də qırğınlarda təkcə*

*quldur-qaçaq ermənilər deyil, eyni zamanda erməni ziyalıları da iştirak edirdilər.*

**Vladimir Nikolayeviç Tverdoxlebnikov,**

**Ərzurum Kala Topçu Alayı komandiri, 1918.**

*-Kütləvi qırğınları təşkil edənlər Andranik paşa fransız albayı Moreldir. Ərzurum daxilində toplanan cəsədin miqdarı dörd mindir. Bir çox qadın və uşaq bura daxildir.*

**Yüzbaşı Rəfiq, May, 1918.**

*-Ərzurumda elə acı mənzərələr gördük ki, insanı insan olduğundan iyrəndirirdi. Sag qalanlar gözüyaşlı ora-bura qaçır, kimi oğlunu, kimi atasını, kimi arvadını süngülənmiş və yıxılmış halda tapır, dəhşətli saçlarını yolurdu. Küçələrdə həyat əlaməti*

*görünmürdü. Yerlərdə çocuq, qadın, yaşıl qanlar içində yatırdı.*

*Yalnız son gecə (11–12 mart, 1918) içində üç min boğazladıqlarını ermənilər öyünərək ruslara da söyləmişlsr.*

*Dəmir yolu stansiyasında sanki bir məzarlıq qoynundakı ölülərin birdən-birə fırladıb torpağın üstünə atmışdı.*

**Kazım Qarabəkir Paşa. 25 sentyabr, 1919.**

*-Mənə elə gəlir ki, siz erməniləri səkkiz yaşında çox təmiz və məsum bir qız kimi zənn edirsiniz. Bunda çox yanılırsınız. Zira ermənilər xüsusilə son vəhşi davranışları ilə nə qədər qantökücü bir toplum olduqlarını bilavasitə özləri isbat etmişlər...”*

**Lord Kurzon, “Tan” qəzeti. 12 mart, 1920.**

*-İnsanın vicdanı dəyərli almaz kimi ləkəsiz yaradılmışdır və ləkəsiz qalmalıdtr. Ermənilər vicdan əzabı nədir bilməzlər.*

**Yarbay Tverdoxlebnikov**

*-Ermənilər rüzgar əkdilər. Fəqət rüzgar əkənin firtına biçəcəyini unutdular.*

**Leo, erməni tarixçisi.**

*-İlıcadan kəndlərə gedən yollarda bədən üzvləri kəsilib eybəcər hala salınmış türk cəsədləri ilə qarşılaşırıq. Ermənilər bunları söyə-söyə və tüpürərək keçib gedirdilər. Bir caminin dəhlizinə iki arşın dərinlikdə quyu qazmışdılar. Qadınları, körpələri, qocaları dəşhətlər içində vəhşicəsinə qətlə yetirib bu quyuya tökmüşdülər. Öldürməzdən əvvəl qadınlarla*

*namussuzcasına davranmışlar – o cəsədlərə sakit baxmaq mümkün deyildi.*

*Erməni birlikləri yanında telefon-rabitə xidməti ilə məşğul olan bir-iki qız vardı: onları ibrət üçün cami, dəhlizindəki quyuya tökdükləri qadın-qız qarışıq bu cəsədlərə baxmağa çağırdım. Axçiklərin bu vəhşət mənzərəsi qarşısında üzüləcəklərini düşünmüşdüm. Əksinə, necə fəxrlə baxıb güldüklərinin şahidi oldum. İndi anladım ki, qadınları da olmaqla erməni xalqı nə qədər rəzil və qəddar bir xalqdır. Hərbçinin tükünü ürpədən bu mənzərə qarşısında təhsil görmüş, guya tərbiyə almış bir qızın insanlığın bu halına sevinməsi gəldiyim qənaətin dəlil-dəlaləti sayılar.*

**Qryaznov, Rus hərbçisi, albay. 1918.**

*-İlıca qəsəbəsində qaça bilməyən ixtiyarların hamısını ermənilər küt baltalarla ənsənələrindən parçalayıb qətlə yetirmişdilər.*

**General Odişelidze, rus ordusunun Ərzurum baş komandanı.**

*-Ermənilər qaçarkən Axırkələkdə dörd aydan bəri vəhşicəsinə əzab verməkdə olduqları kənd əhlini topdan qırdılar. Cəsədlərin bir çoxunu quyulara töküb qaz yağı ilə odladılar. Cəsədləri bu halları ilə də qoymadılar; evlərini başlarına yıxaraq aradan çıxdılar.*

*Budur XX yüzilin Ermənistanında yaşayan mədəni ermənilərin törətdikləri vəhşət.*

**Xoroşenov, Birinci Aksigin dairəsi müfətişi. May, 1918.**

*-Rus qızışdırıcılığına tutularaq və rus silahına güvənərək qarışıqlıq və üsyanlar çıxaran erməni komitələri qarşısında Osmanlı hökuməti özünü*

*qoruma tədbiri göstərmişdir (söhbət təhqirdan – erməniləri başqa yerə köçürmədən gedir).*

**Leo, erməni tarixçisi**

Qeyd etmək lazımdır ki, Sovet imperiyasında antitürk əhvali-ruhiyyəsi ilə ermənilərin türkə qarşı düşmənçilik ideyası üst-üstə düşürdü. Erməni xisləti – imperiya siyasətindən bacarıqla istifadə edərək Azərbaycan xalqına qarşı amansız divan tutardı.

Qeyd etmək yerinə düşərdi ki, erməni xarakteri – erməni xəstəliyi hər yerdə, hər an özunü göstərir. Bu da ondan ibarətdir ki, erməni harda varsa, orada insan övladına dinclik, sakit həyat yoxdur. Öz mənafeyi xatirinə hansı cildə desən girməyi bacaran erməni xəstəliyi yeri gələndə göz yaşı tökər, ağlayıb-sızlayar, başqa bir şəraitdə amansız canavara dönər, 200 uşağı diri-diri böyük bir trubaya doldurub ağzını qaynaqlayar, başqa bir şəraitdə namusundan keçərək işi düşdüyü adamı evinə dəvət edib onunla kirvə olar.

Bütün bunlar üçün kimin hansı millətə mənsub olmasının fərqi yoxdur. Çünki erməni özündən başqa bir milləti sevməz. Doğrudur, yaradan ermənini yalnız türkün düşməni kimi yaratmışdır. Amma elə tarixi faktlar da vardır ki, onlar ermənin bütün millətlərə qarşı qeyri-insani münasitəini bildirir. Məsələn: deyək ki, türkə qarşı onun qəlbində uşaqlıqdan nifrət oyadırar; 1000 ildən bəri onlar türkə qarşı hər cür alçaq hərəkətlər etmişlər. İstər açıq, istərsə də gizli şəkildə türk millətinə qarşı hər cür xəyanətlər etmişlər. Yuxarıda dediyimiz kimi, erməni harda varsa, özünə hər vasitə ilə yaxşı şərait yaradacaq, hansı xalq olursa olsun ona min bir xəyanətlər və alçaqlıqlar edərək özünə yol açacaq, sonra başqa erməniləri mütləq yanına yığacaq yeni tədbirlər hazırlayacaq. Biz bu mövzuya ötəri toxunmuşuq. Dediklərimizi sübut etmək üçün Azərbaycanın qeyrətli oğullarından biri Məmməd Cəfərlinin "Политический террор и судьба Азербайджанских немцев" kitabında SSRİ KDİK Azərbaycanın Şəmkir

rayonunda sürgün həyatı keçirən almanlara qarşı yeritdiyi cəza tədbirlərində ermənilərin necə iştirak etdiyini göstərmək kifayətdir. Orada oxuyuruq: *"Almanların sıxışdırılması, vətəndaş hüquqlarının pozulması təkcə hakimiyyət orqanları tərəfindən həyata keçirilmirdi, habelə bu iş başında ermənilər duran təşkilatlar tərəfindən də icra edilirdi. Bu işdə nə vaxtsa Ermənistandan gəlib həmin regionda (söhbət Şəmkir rayonundan gedir – A.B.) koloniyalarda muzdurluq edən ermənilər onlara fəal kömək edirdi. Ermənilər əvvəlcə kənd təsərrüfatında vaxtamuzd işləyərək ildən-ilə koloniyadakıları və yerli əhalini (azərbaycanlıları – A.B.) sıxışdırırdı…"* (səh. 77)

Həmin əsərda (həmin səhifədə) öyrənirik ki, 1928-ci ilin yanvarın 1-nə olan məlumata görə Yelenendorfda kaloniyada işləyən və heç bir əmlakı olmayan 150 erməni muzdurluq etməyə məcbur olmuşdur. Müəllif sonra yazır: *"Yaranmış vəziyyəti*

*yaxşı başa düşərək, hakimiyyət orqanlarının almanları sıxışdırdığı vaxt ermənilər bu vəziyyətdən öz məqsədləri üçün bacarıqla istifadə etdilər. Hakimiyyət orqanları da öz növbəsində kaloniyada öz siyasətini yeritmək üçün erməni faktorundan istifadə edirdi".* (səh.77)

*"Xalq Daxili İşlər Komissarlığı tərəfindən repressiyaya məruz qalanların və Sibirə göndərilən alman ailələrinin evlərini və torpaq sahələrini tuturdular. Yerli əhali (kolonıyalarda yaşayan almanlara gəlincə ermənilər arasında lokal toqquşmalar olurdu ki, bunlar ilk baxışda məişət xarakteri daşıyırdı. Almanların hakimiyyət orqanlarına rəsmi müraciətləri ən yaxşı halda cavabsız qalırdı. Çox halda müraciət edənləri millətçilikdə ittiham edirdilər). Baş siyasi idarənin məlumatlarına görə 1934-cü ilin may ayının 14-də Yelenendrof klubunda divara Ermənilər həşəratdır,*

*onlar kəndlilərin son damla qanını sorurlar"* sözləri yazılmış vərəqə yapışdırmışdılar. (səh.78)

1940-cı ilin oktyabrında almanlar Şəmkir rayonunda ermənilərin zorakılığı haqqında məktub tərtib etmişdilər. Bu məktubda onlar alman dəqiqliyi ilə rayonda yaranmış vəziyyətin sosioloj təhlilini vermişdilər. Ermənilər Şəmkir rayonunda əhalinin cəmi 10 faizini təşkil etdikləri halda rayonun müxtəlif müəssisələrindəki rəhbər vəzifələrin 90 faizini tuturdular. Məktubda yerli əhali olub 90 faiz təşkil edən azərbaycanlıların hüquqlarının pozulması da göstərilirdi. Tərtib edilmiş məktub poçt şöbəsindən göndərilmədi. Çünki poçtda da əsas kütləni ermənilər təşkil edirdi. Buna görə də məktubu Almaniyanın konsulluğu olan Batumidən göndərmişdilər. Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırovun adına ünvanlanmış həmin məktub 22 oktyabr 1940-cı ildə Azərbaycan KP MK-nın katibi Karkaryanın stolunun üstünə qoyulur. Kitab müəllifi (Məmməd

Cəfərli) həmin məktubu olduğu kimi vermişdir. Biz də onu tərcümə etmədən, üslubuna toxunmadan veririk. Qoy oxucular onunla daha yaxşı tanış olsunlar:

***Секретарю ЦК КП Азербайджана Т.М.Багирову.***

Доводим до Вашего сведения о том, что в Шамхорском районе имеется 26 сельских советов, из коих только 7 армянских и 2 немецких.

В Шамхоре всего будет не более 10% армян, а если считать количество руководящих и не руководящих работников то 90% армяне. Азербайджанцы составляют самое незначительное количество.

Например:

1. Райком партии-первый секретарь Юсибов. Сидит просто во главе райкома (как фигура), руль находится в руках 2-го секретаря Манучарова, который является ярым националистом. В течении двух лет в Шамхоре выживая азербайджанцев везде расстановил армян. Третий секретарь Назаров несмотря на то, что русский, фактически играет под диктовку Манучарова.

Возьмем остальных работников РК КП (б):

Заведующий отделом пропоганды- Васканян.

Заведующий орган изационно-иструкторским отделом- Назарян.

Заведующий учетным отделом-Габрилян и другие.

В райкоме комсомола кроме первого секретаря остальные руловики армяне.

В исполкоме только председатель Шабанов и то не рыба-не мясо. Основную роль играет заместитель председателя Согомонян и заведующий кадрами-Симонян.

Управляющий ОМП- Яндиян.

Заведующий производственно-каменным карьером при ОМIТ бывший старшина-Данелян.

Заведующий НХУ-Баграмов.

Заведующий комунхозом- Согомонян.

Заведующий строительством при ОКХ-Вирабян.

Заведующая баней-Мария (армянка)

Заведующая гостинцей-Баласанова.

Заведующий сберкассой-Захарян.

Упаравляющая госбанком-Абрамова.

Управляющий сельхозбанком-Ходжанян.

Уполкомзаг-Арутюнов.

Управляющий объединением конторы шерсть-кожа- Данелян Арменяк, турецкий армянин-гахтанаган

Заведующий районным магазшюм-Ходжаян.

Заведующий артелем-Захарян.

Заведующий пищеблоком-Данелян.

Заведующий военторгом-Осипов и весь состав военторга, армяне.

Заведующий культмагом-Марго (армянка)

Председатель горпо-Варян.

Заведующий сенопуктом-Карапетян, кахтаган.

Директор МТС-Саркисян

Заведующий школой в центре района армянин, 80% преподавателей армяне.

Начальник детдома-Баграмов

Заведующий артели инвалидов -Гагарин Данелян.

Парторг Анинского немецкого колхоза-Акопджанов Исаак.

Секретарь парткома РИКа-Ходжанян.

Секретарь парткома артелей при кооперации-Мелик и т.д.

Кроме того, где руководители армяне, там весь состав состоит из армян. 20.10.40 г. (səh.80)

Kommunist (bolşeviklər) Partiyası bileti arxasında gizlənmiş Daşnak Karkaryan bu məktubu alan kimi, onu AXDİK-ə deyil, Xalq Daxili İşlər Komissarlığının DTI-in Şəmkir rayon şöbəsinə göndərir və tələb edir ki, raykom katibi Manuçarovu

(Manuçaryan) millətçilikdə günahlandıran anonim məktub müəllifini tapıb cəzalandırsın. Bu məlumatı verməklə oxucunu bir daha inandırmaq istəyirik ki:

1) Erməni harada varsa, maqnit kimi o birini yanına çəkəcək.

2) Onlar birləşib hamıya, xüsusilə türkə qarşı mübarizə edəcək.

3) Keçən əsrlərdə çar Rusiyasının, sonra isə Sovet dövlətinin Azərbaycan xalqına qarşı apardığı cəza tədbirlərindən öz məqsədləri üçün istifadə edə bilirdilər.

4) Bu iş 1937-38-ci illərdə də (biz bu kitabda bəhs etdiyimiz hadisələrdə də) fəal rol oynamışlar.

5) Azərbaycan xalqının görkəmli oğul və qızlarının "Kolxoz düşməni", "Sovet quruluşunun düşməni", "Müsavatçı", "Əksinqilabçı", "Pantürkist", "Panislamist" və s. damğalarla məhv edilməsində 90-

95 faiz rolu bütün Azərbaycan DTK-na məqsədli şəkildə soxulmuş ermənilər oynamışlar.

**Sual olunur** – nə üçün Azərbaycanın istər mərkəzdə, istərsə də rayonlarda olan DTK orqanlarının hamısında ermənilər 90-95 faiz təşkil etməli idi? Bəs nə üçün Ermənistanın müvafiq orqanlarında bircə nəfər də olsun azərbaycanlı yox idi?

Buna göra də Azərbaycan xalqı təkcə 1937-1938-cı illərdə 27854 nəfər qurban verdi. Bu iş sonralar da davam etdirilirdi (1956-cı ildə səngidi).

Oxucuya təqdim olunan "Elimizin və elmimizm soyqırımı" adlı kitab bu mövzunun mində birini əhatə edə bilmir. Hər halda oxucuda kiçik bir məlumat yarada bilər. Əsər iki hissədən ibarətdir:

Birinci hissədə - "Elmimizin-türkologiyanın soyqırımı" hissəsində dilçi alimlərin repressiyasından, ikinci - "Xalqın düşmənləri" "Xalq düşmənlərini

məhv edir" adlı hissəsində isə adi adamların başına gətirilən müsibətlər qələmə almır.

# ƏSLİNDƏ O VAXTLAR XALQIN DÜŞMƏNLƏRİ "XALQ DÜŞMƏNLƏRİ"Nİ MƏHV EDİRDİ

Cəlladlıqda, qəddarlıqda, amansızlıqda bəşəriyyət tarixinda bəlkə də misli-bərabəri olmayan sovet bolşevizmi o qədər məharətlə pərdələnmişdi, öz əməllərinin üstünü o qədər ustalıqla suvayıb rəngləmişdi ki, həmin pərdənin, həmin rəngin altında nələr olduğunu adi gözlə görmək, adi idrakla dərk etmək mümkün deyildir. Hələ indinin özündə də elə adamlar vardır ki (onları qınamıram), keçmişi yadına salıb dərindən bir ah çəkir, "Heyf o günlər, kolbasanı, yağı, əti filan qiymətə alırdıq, istədiyimiz vaxt gedib sanatoriyada dincəlirdık, ucuz biletlə Moskvaya gedirdik", deyirlər. Onlar sovet rejiminin "insanlıq" dövrünü yadlarına salır, onu indiki müvəqqəti keçid dövrünün çətinlikləri ilə müqayisə edərək belə ötəri fikrə gəlirlər. Belə adamlar unudurlar ki, 1920-ci ilin 28 aprelindən başlamış 1991-ci ilin 18 oktyabrına

qədər sovet-bolşevik rejimi bizim xalqımızı əzib yox etmək yolu tutmuşdu. Deyilənləri Respublika Milli Təhlükəsizlik naziri general-leytenant Namiq Abbasovun sözləri ilə möhkəmlətmək istərdik:

"Aprel çevrilişindən sonra aparılan yeni bolşevik siyasəti təhlükəsizlik orqanlarının da işində həlledici rol oynadı. İmperiya siyasəti həyata keçirən və Azərbaycanda bolşevizmin möhkəmlənməsi istiqamətində işini quran Azərbaycan Fövqəlada Komissyası, bir qədər sonra Azərbaycan Dövlət Siyası İdarəsi və Xalq Daxili İşlər Komissarlığı... minlərlə adamın məhvinə səbəb oldu. Repressiya və deportasiyalar başlandı... Çox ciddi elmi araşdırmalar gözləyən arxiv materiallarından görünür ki, 1920-ci ilin mayından 1921-ci ilin əvvəllərinə qədər 40 mindən çox adam Azarbaycan Fövqəlada Komissiyası tərəfindən məhv edilmiş, 1934–38-ci illərdə 27854 nəfər Xalq Daxili İşlər Komissarlığı tərəfindən birinci kateqoriya ilə məhkum olunmuş, yəni güllələnmişdir.

Ümumiyyətlə, 20-50-ci illərdə məhv olunanların sayı 400 mini keçmiş, yarım milyondan çox adam isə sürgünlərə göndərilmişdir. Məzmununda həmişə, hər şəraitdə fəlakət ifadə edən “repressiya”, “deport asiya”, “soyqırımı” sözləri, dilimizdə olduğu kimi, taleyimizdə də yaddan gəlmiş bir bəla kimi ciddi rol oynamışdır. Deportasiya, repressiyaya və soyqırımının təşkilatçıları və icraçıları da əsasən yadlar olmuşlar. “Sərhəd” qəzeti, 17.04.99, say 07)

Bununla mən sovet hakimiyyəti illərində elmi və mədəni həyatda qazandığımız uğurlara kölgə salmaq istəmirəm. Bu dövrdə bir sıra uğurlarımız olmuşdur və olmalı idi də. Amma...

Respublika prezidenti Heydər Əliyevin sözləri ilə desək “Ölkəmizin XX əsrdəki tarixini doğru, düzgün əks etdirmək, yazmaq üçün mütləq tədqiqatlar, tarixi araşdırmalar aparılmalıdır və obyektiv, ədalatli əsərlər yaradılmalıdır”. Amma nədənsə alimlərimiz bu işə girişməkdən çəkinir. Bu

sahədə tədqiqat işləri lazım olduğundan az aparılır. İndi əli qələm tutan səriştəli alimlər yeni yetişən nəslə göstərməlidilər ki, “müsəlman respublikalarına mərkəzdən münasibət başqa respublikalara nisbətən çox fərqli idi” (H.Əliyev). Biz xalqımızın gənc nümayandələrinə və keçmişdən ötrü ah çəkənlərə göstərməliyik ki, sovet rejimi xalqımıza qarşı müxtəlif vaxtlarda azalıb-artmaqla həmişə həmlələr etmiş, onun qaymağını yığmışdır.

1920–1929-cıı illərdə “sovet hakimiyyətini istəmir”,

1929–1935-ci illərdə “kollektivləşmənin, kolxozun düşmənidir”,

1935–1938-ci illərdə “antisovet, əksinqilabçı, millətçidir”.

1940–1945-ci illərdə “sovet ordusunun qələbəsinə inanmır”,

1945–1950-ci illərdə “pambıqçılığı istəmir” (o cümlədən Ermənistandan deportasiya) və sairə kimi damğalar altında yüzminlərlə azərbaycanlını məhv etmişlər. Sonra 1987–1991-ci illərdə “yazıq erməniləri incitdiyi üçün açıqca xalqımıza qarşı sovet genosit siyasəti yeridildi. Tariximizə nəzər salaq.

1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda qırmızı terrordan 48 min adam öldürülmüşdür ki, bunun da çox hissəsi ziyalıların payına düşürdü: (Ş.Nəzərli “Cümhuriyyət generalları” – Bakı, 1995. s.197)

Azərbaycanda sovet hakimiyyəti qurulan kimi, sovet hökuməti inqilabi doktrinasını insanların şüuruna yeritmək üçün ali və orta məktəblər açdı, savadsızlığı ləğvetmə kursları yaratdı. Bunu hamıya Lenin beynəlmiləlçiliyi, Lenin siyasəti kimi çatdırmaq istədi. Nail də oldu. Amma sovet hökuməti “Torpaq kəndlinin, hakimiyyət fəhlənin olacaq” kimi nidalarla xalqı özünə tərəf çəkmişdi. Az keçmədi ki, bolşevik

hökuməti bu vədini unudub torpağı kəndliyə yox, kolxoza verməyə başladı. Buna görə də Azərbaycanın hər yerində hamı şok vəziyyətinə düşdü. "Axı dünən torpaq sənindir deyən hökumət niyə bugün onu məndən alıb kolxoza versin?" sualına cavab tapmayan kəndlilər çaşqın halda özlərini ora-bura vururdular. Buna görə də 1920–25-ci illər arasında Azərbaycanda 60-a yaxın üsyan olmuşdu. M.Ə.Rəsulzadə bu üsyanları xalqın "əməli müqaviməti" adlandıraraq yazırdı: "Bu əməli müqavimət hadisələri ilə bərabər məmləkətdə siyasi konspirasiya, yəni gizli çalışma aktları da güclü şəkildə davam etdi" (sitat C.H.Qasımovun "Repressiyadan deportasiyaya doğru" kitabından B. 1998. s.35 götürülmüşdür).

Azərbaycanın elə bir bölgəsi yox idi ki, orada bu və ya digər dərəcədə sovet rejiminin qəddarlığına qarşı narazılıq hərəkatı olmasın. Buna görə də Moskvanın göstərişilə 1921-ci il 29 mayda Azərbaycan XKS-nin qərarı ilə Azərbaycan

Fövqəladə Komissiyasının sədri başda olmaqla bolşeviklərin vətənimizin azadlığı və müstəqilliyi uğrunda hərəkata qoşulanlara və ya bu işə rəğbəti olanlara qarşı amansız bir zərbə aləti “Fövqəladə üçlük” yaradıldı. Xalqın bir qədər “baş bilən” adamlarına qolçomaq, quldur, bandit, qaçaq damğası vuraraq məhv etdilər. Bu fövqəladə üçlüklər hər yerdə yaradılırdı. Mərkəzi fövqəladə üçlüyə icazə verilirdi ki, onlar bütün qaçaq, quldur, qolçomaq, kulak, bandit və s, “elementləri” dərhal güllələsinlər. Qəza fövqəladə üçlüklərinə isə səlahiyyət verilmişdi ki, işə baxıb onu Qəza Ali İnqilab Tribunalına və ya Azərbaycan Fövqəladə Komissiyasına göndərsinlər. Qəza fövqəladə üçlükləri isə vəzifə hədlərini - səlahiyyətlərini aşaraq özləri adamları güllələyir, qoca qadınları, mollaları, seyidləri - bir sözlə, günahsız adamları məhv edirdilər. Mən sizi təkcə 1930-cu ildə Naxçıvanın Keçili, Ərafsə, Ərəzin. Xanaqa, Nəhəcir və başqa kəndlərində həmin fövqalada üçlüyün törətdiyi ağır cinayətlərlə tanış etmək istəyirəm. Yeri

gəlmişkən deyim ki, mən yalnız dilçi alimlərin işləri ilə maraqlanırdım. Milli Təhlükəsizlik Nazirliyimizin (bəli mən çəkinmədən nazirliyimiz deyirəm, çünki o artıq KQB deyil) işçilərinin xeyirxah münasibətlərini görüb maraq dairəmi daha da genişləndirdim. Bütün həmkarlarıma müraciət edərək deyirəm ki, qorxmayın. Siz də bu işə girişin, bolşevizmin erməni əməkdaşlığının xalqımıza qarşı apardığı, həyata keçirdiyi genosidi yazmaq, tədqiq etmək bir-iki adamın işi deyil. Siz də başlayın, burada nazirdən tutmuş qapıçıya qədər hamı milli məslək, əqidə sahibidirlər.

Yuxarıda adlarını çəkdiyim kəndlərdə kütləvi surətdə adamlara qarşı repressiya işində A.Avanesyan, Seyranov və başqa ermənilər çox fəal işləmişlər. Deyək ki, mərkəzdə Qriqoryan, Makaryan, Avanesyan, Ohanesyan, Badalyan, Xaçaturyan və onlarla "yanlaın" olması o qədər də təəccüb doğurmazdı. Bəs rayonlara onlar necə gedib

çıxmışdılar? Bu sualın cavabı çox sadədir. Görünür, ermənilərin lap böyüyü Moskvadan bu işə nəzarət edirmiş. Deməli, əgər hər bir erməni-daşnaq serjantı 200 Azərbaycan türkünü məhv etmək imkanı qazanmışdısa, bunun günahı kimdə idi. Necə olurdu ki, Ermənistan KQB-sində bircə nəfər azərbaycanlı olmathğı halda, Azəraycan KQB-sində bu qədər erməni "çalışırdı".

Təkcə Arto Avanesyan yuxarıda adlarını çəkdiyim kəndlərdə 200-dən artıq adamı fövqəladə üçlüyün girdabına atmışdır. Qeyd edək ki, məhbusu dindirmə protokolunda müstəntiqin adı, familiyası və atasının adı göstərilməlidir. Daşnak isə öz familiyasını heç yerdə yazmır. İttiham sənədlərində təkcə Arto sözü ilə kifayətlənir.

Yuxarıda adlarını çəkdiyimiz kəndlərdəki kəndli hərəkatı cinayət hesab edilərək 270 N-li cinayət işi açmışdır. Cinayət işinin preambulunda deyilir (bu hər bir müttəhimə şamil edilir): "Naxçıvan kəndlərində,

Naxçıvanda sovet hakimiyyətini devirmək üçün üsyanda fəal iştirak etmiş və silahlı üsyan etmiş, bandit hərəkatı yaratmışlar. Kəndlilər arasında antisovet təbliğatı aparmışlar”. Bu cinayət işi 4 cilddən ibarət olub. MTN-in arxivində 30831N ilə saxlanılır. Cinayət işinin birinci cildində 278 vərəq, ikinci cildində yenə 278 vərəq (bir neçə arayış əlavə edilmiş). Hər ikisi tutulanların anketidir. Üçüncü cilddə ittiham protokollarıdır - səhifələnməmişdir. Dördüncü cild isə fövqəladə üçlüyün protokolları, bəraət sənədləri və arayışlardan ibarətdir.

Fövqəladə üçlüyün ən yüksək cəzaya - güllələnməyə məhkum etdiyi adamların çoxu haqqında yaxınlarının dəqiq məlumatı yoxdur. Çünki, çox vaxt güllələnmiş hər bir adam haqqında sonralar ərizə vermiş oğluna və ya başqa yaxınlarına məlumat verirdilər ki, “Sizin filankəs cəzasını çəkərkən ürək iflicindən ölmüşdür”. Bu 270 N-li cinayət işi üzrə ittiham olunmuş adamların hamısı haqqında məlumat

verməklə gözü yolda qalan həmvətənlərimizə səbr və ölənlərinə Allahdan rəhmət diləyirəm.

Əvvəlcə cinayət işi qaldırmaq üçün Arto Avanesyanın protokolları üzrə siyahını, sonra isə fövqəladə üçlüyün qərarlarını olduğu kimı veririk. Fövqəladə içlüyün sədri İ.Vəliyev, üzvləri: Yaqubov (Az.BSİ Nax. şöbəsinin rəisi), Nikişev (4IN-li Naxçıvan sərhəd qoşunlarının idarə rəisi).

Cinayətə cəlb olunanların siyahısı:

1. Əliyev Kərim Rəhim oğlu 01.10.30 Naxç. DSİ-nin xüsusi üçlüyü tərəfindən 7 il həbs cəzasına məhkum edilir. Banditlərə kömək edib (Az.CM 54 maddəsilə)

2. Məmmədov Kərbəlayi Qurban Məhərrəm oğlu Nax. MSSR fövqəladə üçlüyün tərəfindən (Az.SSR CM 17-72 və 79-cu maddələri ilə 19.09.30-cu il tarixdə 10 il həbs cəzasına məhkum edilib.

3. Həsənov Hüseyn Məhərrəm oğlu - 40 yaşında Şahbuz, Keçili kəndi, 1 evi, 5 camışı olub, ailəsi - 6 nəfər. (CM 17-7, 2, 79)

4. Abbasov Mustafa Məmməd oğlu - 25 yaş, Keçili kəndi

5. Məmməd Əli Cəfər oglu - 35 yaş, 12.04.30 - Keçili k., evli

6. Məmmədov Əli Məmmədhüseyn oğlu - 42 yaş, Keçili k., evli

7. Şahsuvar Kərim oğlu - 35 yaş, Keçili k., 12.11.30, evli

8. Eyvaz Kərim oğlu - 25 yaş, 12.09.30, evli

9. Ələkbər Ləmi oğlu - 29 yaş, 12.09.30, evli

10. Müslüm Gülmalı oğlu - 25 yaş, 12.09.30, evli

11. Zeynalov Əli Musa oğlu - 25 yaş, 12.09.30, evli

12. Məmmədhüseyn Mazan oğlu - 13.09.30. məlumat yoxdur.

13. Paşan Hüseynəli oğlu - 45 yaş, 17.09.30. məlumat yoxdur.

14. Allahverən Xəlil İbrahim oğlu - 26 yaşında, Biçənək kəndi, evli.

15. Bayramov Bayram Əli oğlu - 22 yaş, subay.

16. Mustafayev Məmmədhüseyn Nəsir oğlu - 24 yaşında, Biçənək kəndi IX.30.

17. Sədri İsmayıl oğlu - 45 yaş, 13.09.30, Keçili kəndi, məlumat yoxdur.

18. Novruz Əli Məmmədkərim oğlu - Kərki kandi, 13.09.30.

19. Qurbanov Əli Qurban oğlu - 40 yaş, Biçənək kəndi, evli, 12.08.30.

20. Babayev Yunius Məmiş oğlu – 50 yaş, Keçili kəndi, 13.09.30, evli

21. Məmmədəliyev İmanqulu - 60 yaş, 13.09,30, evli

22. Əsgərov Zülfüqar Hüseyn oğlu - 55 yaş, 13.09.30, evli

23. Molla Həşim Əliməmməd Abdulla oğlu - 65 yas, 24.09.30.

24. Məmmədhəsənov Şahsəməd Abdulla oğlu – 24.09.30.

25. Kərbəlayi Nəcəfqulu - 25.09.30.

26. Kərbəlayi İbrahim oğlu İsmaylov - 45 yaş, 22.09.30, evli

27. Bilal Xalıqverdi oğlu - 23 yaş, 24.09.30, evli.

28. Kənkərlinski Barat - 27 yaş, 25.09.30, evli

29. Haşım İbrahim oğlu - 45 yaş, 25.09.30, evli

30. Mustafayev Lətif Salman oğlu – 27 yaş, Ləkə taq., 22.09.30, evli

31. İmaməliyev Kərbəlayi Qubat Bəyraməli oğlu – 55 yaş, 22.09.30, evli

32. Məmmədov Əliyan İmamqulu oğlu - 21 yaş, 26.09.30, subay

33. Abdullayev Xəlil Əli oğlu – 23 yaş, 26.09.30, evli

34. Xəlilov Ağakişi Ağababa oğlu - 30 yaş, 26.09.30, evli

35. Yusifov Baxşəli Ələkbər oğlu - Xanağa kəndi, 25 yaş, azsavadlı, kooperativdə işləyib manqa müdiri, qulluqçu, 1 evi, 1 atı, 1 inəyi, 5 qoyun olub, hərbi mükəlləfiyyətlidir, dindirilib. CM-nin 72-ci maddəsi, PR. 41368, Arx. N 30881. I cild, vərəqə səh.38

36. Musayev Kərbalayi Cabbar Xəlil oğlu – 32 yaş, 26.09.30, evli

37. Hüseynov Həsən Səyyad oğlu - 35 yaş, 20.09.30, evli

38. Hüseynov Kərbalayi Hüseyn Həsən oğlu - 27.09.30, 35 yaş, Xanağa kəndi

39. Məmməd Ağaməmməd oğlu - 25 yaş, 27.09.30, Xanağa kəndi, evli

40. Dilavər Hasan - 30 yaş, Xanağa kəndi, 27.09.30, evli

41. Hüseynov Adıgözəl Murad oğlu - 27 yaş, 27.09.30, evli

42. Kənkərlinski Qaraxan Sultan oğlu - 35 yaş, Solt, kəndi, 27.09.30

43. Məmmədəliyev Talıb Qənbər oğlu - 62 yaş, 26.09.30, evli

44. Quliyev Həsənqulu Kərbalayi Zellabdin oğlu – Solt. kəndi, 35 yaş, 26.09.30, evli

45. İbiş Məmmədəli oğlu - 50 yaş, Əbrəqunus r., Noraşen kəndi, 27.09.30

46. Əliyev Kərim Rəhim oğlu - 50 yaş, Əbr., Noraşen, kəndi, evli

47. Kərb. Ələkbər İrza oğlu - 80 yaş, Əbr., Noraşen, 27.09.30

48. Hacıyev Xəlil Hacıağa oğlu - 23 yaş, 23.09.30, evli

49. Həsənəliyev Şahqulu Səməd oğlu - 20 yaş, Keçili, 26.09.30

50. İmanəl Tarverdi oğlu - 47 yaş, Qarabağlar kəndi, 25.09.30

51. Əliyev Ağaəli Əli oğlu - 40 yaş, 01.09.30

52. Sadıqov Rəhim Ələkbər oğlu - 40 yaş, 01.09.30

53. İrzayev Tağı Əli oğlu - 28 yaş, 01.09.30

54. Cəfərxan Baba oğlu - 80 yaş, Qaraquştilov kəndi, 31.10.30

55. Məmmədov Gülməmməd Vəli oğlu - 02.10.30, Şərur r., evli

56. Ramazanov Teymur Akim oğlu - 50 yaş, 02.10.30, evli

57. Allahverdiyev Hacı Baba oğlu - 65 yaş, 02.10.30, evli (Səh. 63. Əbrəqunis r., Xanağa kənd sakini Yusifov Baxış, keçmiş milisioner, partiyaçı, bandit hərəkatı rəhbəri,01.10.30. 25.09.30-cu ildə baş əməliyyat müvəkkili Bakulçik başqaları ilə birlikdə Yusifov Baxşəli Ələkbər oğlunu ittiham etmək haqqında qərar qəbul edir. Bunların hamısını Arto Avanesyan həbs edib, dindirib. Həmin Arto 22.09.30-da)

58. Məmmədov Əli Cəfər oğlu

59. Məmmədov Əli Hüseyn oğlu

60. Şahsuvar Kərim oğlu

61. Eyvaz Kərim oğlu

62. Müslüm Gülməmməd oğlu 23.09.1930-da

63. Əli Qurban Qurbanov

64. Babayev Yunis Məmiş oğlu

65. Ələkbərov Zülfüqar Dünyamalı oğlu

66. Mebdiyev Kərəm Əli Məmməd oğlu

67. Məmmədəliyev İmamqulu Dünyamalı oğlu 26.09.1930-da

68. Molla Haşım Əliməmməd oğlu

69. Aslan Məmməd oğlu

70. Şahvəli Əbdül Həsən oğlu

71. Kərbalayi Rəhim Qafar oğlu

72. Kərbalayi Nəcəfqulu Abbasqulu oğlu

73. Balakişi Ağa oğlu

74. Kərbalayi İbrahim Cəbrail oğlu

75. Bilal Xalıqverdi oğlu

76. Kənkərlinski Xanca oğlu

77. Qaraş Kənkərlinski

78. Haşım İbrahim oğlu

79. Lətif Salmnan oğlu

80. Kərbalayi Nabat Bayram oğlu

81. Əlixan İmamqulu oğlu

82. Xəlil Əli oğlu

83. Ağakişi Məhərrəm oğlu

84. İmanqulu Bayram oğlu

85. Qurban Məhərrəm oğlu 30.09.1930-cu il qərarı.

Baxşəli Ələkbər oğlu Yusifov, Xanağa kəndi, 35 yaşında, kənd kooperativ işçisi, bitərəf, az savadlı, evli.

Mart hadisələri zamanıı Xanağa üsyançılarına rəhbərlik etmiş, Ərəzin qrupuna da rəhbər olmuşdur. Öz qrupu ilə Ərəzin döyuşündə fəal iştırak etmişdir. Öz qrupu ilə Əbrəqunusda olanda (dağ tərəflərində) Xanağa kəndində kənd sovet binasının qapısını sındırıb sənədləri və kağızları götürüb cırmış və atmışdır. Demişdir ki, daha yeni hakimiyyət olacaq.

Bu hərəkat məğlub olandan sonra, o, üzə çıxmış, amma yenə banditlərlə əlaqə saxlayır. Kəndliləri banditləri müdafiə etməyə çağırmışdır Beləliklə, kəndliləri öz tərəfinə çəkərək onları banditizmə yoluxdurmuşdur. Ona görə də, həmin kəndə silahlı mühafizə olmadan rayon şöbəsinin işçilərinin getməsi

mümkün deyil. Yuxarıdakı faktlar şahid ifadələri ilə təsdiq edilir.

Bu, Arto Avanesyanın bir nəfər haqqındakı qərarı idi. Həmin gün (30.09.1930) Arto aşağıdakı adamlar üçün də oxşar ittihamlar irəli sürmüşdür:

1. Kərbalayi Cəbrail Xəlil oğlu Musayev, 32 yaş

2. Səyyad Həsən oğlu Hüseynov - ortabab

3. Kərbalayi Həsən oğlu Hüseynov - 38 yaş, bitərəf

4. Məmmədağa Məmmədoğlu Hüseyn - azsavadlı

5. Dilavər Həsən oğhı Niftəliyev - 30 yaş, kasıb, bitərəf

6. Əsəd Ramazan oğlu Yusifov - 65 yaş

7. Adıgözəl Hüseynov Kırna - 27 yaş, ortabab, azsavadlı

8. Qaraxan Sultan Kənkərlinski - 35 yaş, savadsız, bitərəf

9. Talıb Qənbər Məmmədəliyev - 42 yaş, savadsız, bitərəf

10. Kərbalayi Qulu, Kərbalayi Zeynalabdin oğlu Quliyev - 30 yaş, savadlı, bitərəf

11. İbiş Məmmədqulu Məmmədov - 50 yaş, savadsız

12. Kərim Rəhim oğlu Əliyev - 50 yaş, Noraşen kəndi, savadsız

13. Kərbalayi Ələkbər Rza oğlu - 80 yaş, Noraşen kəndi, savadsız, bitərəf

14. Xəlil Qoea oğlu - 26 yaş, savadsız, bitərəf

15. Şahququ Səməd oğlu Həsənəliyev - 22 yaş, Keçili k., çoban, evli

16. İmaməli Tarverdi oğlu - 47 yaş, Qarabağlar k., bitərəf 02.10.1930

İttiham qərarları 270 N-li iş üçün:

1. Ağaməli Əli oğlu Əliyev - 40 yaş, Şərur rayonu, evli, bitərəf

2. Keçəli Əhməd oğlu Rzayev - 28 yaş, Yayçı kəndi, savadsız, bitərəf

3. Rəhim Ələkbər oğlu Sadıxov - 40 yaş, Keçəzur kəndi, savadsız, evli

4. Cəfərxan Baba oğlu - 50 yaş, Qaraquş kəndi, savadsız, bitərəf

Arto Avanesyan

Bu adları çəkilənlərin işinin istintaqı dayandırılmış və xüsusi fövqəladə üçlüyün (Naxç. ASS.) sərəncamına göndərilsin (səh. 275) Arx.30891.1 cild.

III cild. Arx. 30891 270 N-li iş üzrə - Fövqəladə üçlüyün 22.09.30 tarixli iclasının protokulu. Keçili kəndi üzrə:

1. Məmmədov Əli Cəəfər oğlu

2. Məmmədəli Məmmədhüseyn oğlu

3. Salman İsmayıl oğlu

4. Şahsuvar Kərim oğlu

5. Eyvaz Kərim oğlu

6. Ələkbər Məlik oğlu

7. Müslüm Gülmalı oğlu - Güllələmək, əmlakını müsadirə etmək, əmlakın müsadirəsi Şahbuz R. həvalə edilsin. Protokol №3, 22.09.30 - Şahbuz k., Sədr: İbrahim Tağıyev AzQPU Nax. şöbəsinin rəisı Yaqubov, Naxç. sərh. hərb id. rəisi Nikişev

1. Məmmədhüseyn Mazan oğlu

2. Paşan Hüseynəli oğlu – güllələnmiş, əmlakı miisadirə edilmiş.

Protokol №4 - 22.09.30. Şahbuz kəndi

1. Xəlil İbrahim oğlu

2. Bayram Əli oğlu

3. Məmmədhəsən Nəsir oğlu - güllələnmiş, əmlakı müsadirə edilmişdir. Protokol N5 - 23.09.30. Şahbuz kəndi – yenə Tağıyev, Yaqubov, Nikişev

1. Sədri İsmayıl oğlu

2. Novruzəli Məmmədqulu oğlu – güllələnmiş, əmlakı müsadirə edilmiş.

Protokol №6 - 23.09.30

1. Əliqurban Qurbanov

2. Babayev Novruz Məmiş oğlu

3. Məmmədəliyev İmanqulu Dünyamalı oğlu

4. Əsgərov Zülfüqar Dünyamalı oğlu - güllələnsin

5. Mehdiyev Kərəməli Məmmədoğlu - 80 yaşında, həbs edilsin

Protokol №7 - 22.09.30

Bir bənddən ibarət qərar qəbul edilir ki Əbrəqunusa əlavə üzvlər göndərilsin. Bənd 7. Banditizmə qarşı mübarizəni gücləndirmək üçün 60 nəfərdən ibarət zərbə qrupu 6 aya göndərilsin.

Protokol №8 - 20.09.30

Yenə Tağıyev, Yaqubov, Nikişev. tştirak etmişlər - Musabəyov və Rəsulzadə

1. Molla Haşım Əli Məmməd oğlu - 45 yaş, güllələnsin

2. Şahvələd Əbdül Həsən oğlu - güllələnsin

3. Aslan Məmməd oğlu - 28 yaş, güllələnsin

4. Kərbalayi Rəhim - 36 yaş, güllələnsin

5. Kərbalayi Nəcəfqulu - 32 yaş, güllələnsin

6. Balakişi Ağa oğlu - 28 yaş, güllələnsin

Protokol №9 - 29.09.30

Üçlük, daha heç kəs.

1. Xanməmmədov Mazi Şıxməmməd oğlu - güllələnsin

2. Məmmədov Mütəllim Fətulla oğlu - 28 yaş, güllələnsin

3. Həmzəyev Qafar Kərbalayi Əli oğlu - güllələnsin

4. Yaqubov Kərbalayi Muxtar Səfərəli oğlu - Nəhəcir kəndi, güllələnsin

5. Ramazanov Həsənxan Həsənqulu oğlu – 40 yaş, Nəhəcir kəndi, güllələnsin

6. Xoşməmmədov Teymur Pirməmməd oğlu - 50 yaş, Nəhəcir kəndi, güllələnsin

7. Ramazanov Mustafa İmaməli oğlu - 55 yaş, Nəhəcir kəndi, güllələnsin

8. Ramazanov Balağa Həsənquhı oğlu - 37 yaş, Nəhəcir kəndi, güllələnsin

9. Nurəli Şükür oğlu Həsənov - 22 yaş, Köynük kəndi, 5 il

10. Ağəli Ş2kür oğlu Həsənov - 22 yaş, Köynük kəndi, 5 il

11. Rəsəbov Məmməd Həsən oğlu - 28 yaş, Nəhəcir kəndi, 5 il

12. Hüseynəli Cəfər oğlu - 28 yaş, Nəhəcir kəndi, 5 il

13. Mazanov Adıgözəl Həsənqulu oğlu - 32 yaş, Nəbəcir kəndi, azad edilsin

14. Piriyev Vəli Gülməmməd oğlu - 55 yaş, Nəhəcir kəndi, 3 il

15. Hüseynov Heydər Abbas oğlu - 45 yaş, Köynük kəndi, 10 il

16. Abbasov Həbib Məhərrəm oğlu - 25 yaş, Köynük kəndi, 8 il

17. Ələsgər Mirəsəd oğlu Seyidov - 55 yaş, Qeyvaz kəndi, güllələnsin

18. Hüseynov Allahqulu Həsən oğlu - 31 yaş, Ləkətac kəndi, güllələnsin

19. Məmmədəliyev Ələkbər Mahmud oglu - 25 yaş, Köynük kəndi, azad edilsin

20. Həsənov İmran Mahmud oğlu - 25 yaş, Köynük kəndi, 2il

21. Hacıyev Şahhüseyn Qurban oğlu - 32 yaş, Nəhəcir kəndi, 2 il

22. Həsənov Yusif Şükür oğlu - 45 yaş, Köynük kəndi, buraxılsın

23. Əhməd Bədəl oğlu İskəndərov - 15 yaş, Köynük kəndi, buraxılsın

Protokol №10 29.IX.30.

Yenə həmin üçlük.

1. Kərhəlay İbrahim Cəbrail oğlu - 45 yaş, Ərəfsəli kəndi, 5 il

2. Xancan Kənkərlinski - 21 yaş, İstintaqı davam etdi

3. Bilal Xalıqverdi - 23 yaş, buraxılsın.

4. Qaraş Kənkərlinski - 27 yaş, sürgün edilsin.

5. Haşım İbrahim oğlu - 45 yaş, buraxılsın.

6. Lətif Salman oğlu - 30 yaş, Ləkətac kəndi, 3 il

7. Kərbəlayi Nabat oğlu - 55 yaş, 5 il ailəsi sürg.ed.

8. Əlixan İmanqulu oğlu - 19 yaş, Ləkətac kəndi, çoban, buraxılsın.

9. Xəlil Əli oğlu - 23 yaş, kasıb, buraxılsın.

10. Ağakişi Ağabala oğlu - 30 yaş, buraxılsın.

11. Qurban Məhərrəm oğlu Ləkətac - 38 yaş, buraxılsın.

12. İmanqulu Bayram oğlu - 32 yaş, Ərəfsəli kəndi, kasıb, buraxılsın.

Protokol №11 01.X.30.

1. Baxşəli Ələkbər oğlu Yusifov - 35 yaş, Xanağa kənd sakini, qulluqçu, bitərəf, azsavadlı. Mart ayında silahli üsyana başçılıq etdiyi üçün, “antisovet” işi apardığı üçün, həmin rayonda banditizmin yayılmasında fəal iştirak etdiyi üçün, həmin kənddə

antisovet elementlər və kulaklar arasında böyük hörmətə malik olduğu üçün - güllələnsin.

2. Kərbəlayi Cabbar Xəlil oğlu Musayev - 32 yaş, Xanağa kəndi, 5 il.

3. Sayad Həsən oğlu Hüseynov - 35 yaş, Xanaga kəndi, 5 il.

4. Kərbəlayi Hüseyn Həsən oğlu - 38 yaş, Xanağa kəndi, buraxılsın.

5. Məmmədağa Məmməd oğlu Hüseynov - 31 yaş, Xanağa kəndi, buraxılsın.

6. Dilavər Həsən oğlu Nağdəliyev - 30 yaş, Xanağa kəndi, buraxılsın.

7. Əsəd Ramazan oğlu Yusifov - 65 yaş, Xanağa kəndi, buraxılsın.

8. Adıgözəl Murad oğlu Hüseynov - 27 yaş, 6 il

9. Qaraxan Sultan oğlu Kənkərlinski - 35 yaş, Solt. kəndi, - güllələnsin.

10. Talıb Qənbər oğlu Məmmədəliyev - 42 yaş, Solt. kəndi, 6 il.

11. Kərbəlayi Qulu Kərbalayi Zeynalabdin oğlu Quliyev - 35 yaş, Solt kəndi. 7 il.

12. İbiş Məmmədəli oğlu Məmmədov - 50 yaş, Noraşen kəndi, güllələnsin.

13. Kərbəlayi Ələkbər Salahov - buraxılsın.

14. Xəlil Qoca oğlu - 26 yaş, Ərəfsəli kəndi, çoban, 7 il.

15. Şahqulu Səməd oğlu Həsənəliyev - Keçili kəndi, çoban, 5 il.

16. İmaməli Tarverdi oğlu - 47 yaş, Qarabağlar kəndı, güllələnsin.

Protokol №12. 02.10.30.

Həmin üçlük iştirak edir. Nax.MSR XKS sədri Vəlibəyov - Naxçıvan şəhəri,

Eşidildi: Banditizmə qarşı gələcək mübarizə tədbirləri haqqında.

Qərar: Keçili kəndində banditizmin mövcudluğunu Dərələyiz və Zəngəzur zonalarından banditləri Nax. ölkəsinə keçə biləcəklərini nəzərə alaraq həmin rayonlarda silahlı dəstələri saxlamağı zəruri hesab edirik. Şahbuz rayonunda zərbəçilərdən və milislərdən ibarət - 50 nəfər. Ebriqunus rayonunda 1 atlı, vızvod - Nax. siyasi şöbəsinin 41 qrupu saxlanılsın. Həmin qruplara həvalə edilsin ki, banditizm halları müşahidə edilsə dərhal ləğv edilsin.

2. Baş siyasi idara rəisi Sumbatov yoldaşın 8-ci polkunun divizionunun 05.09.30 Naxçıvandan Erevan - Tiflisə göndərilməsi haqqında teleqrafi.

Qarar: Yoldaş Sumbatovun teleqrammına əsasən 8-ci polkun divizionu 5.09.30 Naxçıvandan Erevan – Tiflisə göndərilsin.

Başa düşmək olmur, oktyabrın 2-də neçə qərar qəbul etmək olar ki, sentyabrın 5-də həmin divizion göndərilsin. Bəlkə savadları qıcqırıbmış.

Protokol №13-03.10.30

Həmin üçlük. İştirak edir: Naxç. XKS sədri Vəlibəyov.

Mart hadisələri zamanı Həbibbəyin qaçaqlar dəstəsinə qoşunları:

1. Ağamalı Əli oğlu Şərur - 40 yaş, Yayçı kəndi, bitərəf, gülələnsin.

2. Sadıqov Rəhim Ələkbər oğlu - 40 yaş, Keçəzurlu kəndi, bitərəf, evli, gülələnsin.

3. Qoçəli Əhməd oğlu Rzayev - 28 yaş, Yayçılı-Şərur, bitərəf, subay, gülələnsin.

4. Cəfərxan Bab oğlu - 50 yaş, bitərəf, evli, kulak, güləlænsin.

5. Gülməmməd Vəli oğlu, Teymur Akim oğlu, Allahverdi - azad edilsinlər.

Protokol №14

Fövqəladə üçlük 04.10.30-il tarixli iclas protokolu.

Nax.ş.Tağıyev, Nikişev, Yaqubov

1. Mustafa Məmməd oğlu Abbasov - 35 yaş, Keçili kəndi, savadsız, bitərəf, 5 il.

2. Qocali Məmməd oğlu Əliyev - 20 yaş, Keçili kəndi, bitərəf, savadsiz, 8 il.

3. Ağamməd Fətulla oğlu Nəcəfəliyev - Keçili kəndi, bitərəf, evli, azad edilsin.

4. Əlimərnməd Hacı Kərim oğlu - 55 yaş, Keçili kəndi, bitərəf, evli, 5 il.

5. Gülməmməd Nurməmməd oğlu - 35 yaş, Keçili kəndi, bitərəf, kasıb, azad edilsin.

6. Kəblə Qurban Məhərrəm oğlu Məmmədov - 45 yaş, Keçili kəndi, bitərəf, evli, 10 il.

7. Sultan Süleyman oğlu - 30 yaş Keçili kəndi, bitərəf, savadsız, azad edilsin.

8. Məmməd Novruzəli oğlu - 30 yaş, Keçili kəndi, bitərəf; savadsız, azad edilsin.

9. Vəliqulu Ağa oğlu Ağayev - 33 yaş, Keçili kəndi, bitarəf, 6 il.

10. Hüseyn Məhərrəm oğlu Həsənov - 40 yaş, Keçili kəndi, bitərəf, evli KL., 6 il.

11. Bunyat Şirəli oğlu Məmmədov - 25 yaş, Keçili kəndi, bitərəf, evli, azad edilsin.

12. Kərbəlayi Fatma Məşədi Mehdiqulu q. - 50 yaş, Keçili kəndi, bitərəf, evli - Mart hadisələrində

iştirak edib. Əri Keçili banditiərinin rəhbəridir - savadsız, kasıb, 5 il icbari iş.

13. Züleyxa Xudakərim qm - 50 yaş, Keçili kəndi, bitərəf, savadsız, evli, kulak. Mart hadisələrində iki oğlu iştirak edib. Əri banda başçısı kimi güllələnib. Qaçaqlara patron paylayıb. Onun göstərişilə yoldaş Qənbərovun qızıl dişini tüfəngin qundağı ilə sındırıblar. Bütün Keçili kişilərini Hakimiyyətə qarşı çıxarıb - 5 il icbari.

14. Kərbəlayi Şahvəli Məmməd oğlu Mehdiyev - 35 yaş, Ərəfsə kəndi, bitərəf, güllələnsin.

15. Yusif Abbasqulu oğlu və Murad Quliyev - Arab kəndi, kasıb, azad edilsin.

16. Qəmbər Cəfərqulu oğlu - 35 yaş, Ərəfsə kəndi, bitərəf, evli, iş təkm. İstintaq üçün Naxçıvan BSİ-nə göndərilsin.

17. Quliyev Məmi Mikayıl oğlu - 29 yaş, Kükü kəndi, savadsız, güllələnsin.

18. Quliyev Yusifəli Mikayıl oğlu - Kükü kəndi, komsomol, qardaşı ilə birlikdə həbs edilib, azad edilsin. Nax. Vilayət Komsomol Komitəsinə bildirilsin ki, o komsomola layiq deyil.

19. Mikayıl Kərbəlayi Hüseyn oğlu - 80 yaş, Keçili kəndi, ailəsi ilə birlikdə Şərurdan sürgün edilsin.

20. Əliməmməd Pirverdi Pirəli oğlu - 45 yaş, Keçili kəndi, bitərəf, 8 il

21. Piriyev Xanış Əli oğlu - 35 yaş, Nurs kəndi, bitərəf, ortabab, azad edilsin.

22. Hacıyev Qəhrəman Həmzə oğlu - 29 yaş, Naxç. evli, qull., azad edilsin.

23. Əliquliyev Kərim Yusifəli oğlu - 40 yaş, Keçili kəndi, kasıb, azad edilsin.

Teymur Nəcof oğlu Həsənquliyev - 37 yaş, Xanağa kəndi, bitərəf, evli, 5 il.

I. Onları aşkar etmək məqsədilə Keçili əməliyyatı zamanı həbs edilmiş 14 keçili ailəsi haqqında. Bu ailələri Şərur rayonundan sürgün etmək. Qeyri-sərhəd zonasında yerləşdirilsin.

II. Həbs edilib güllələnməyə məhkum edilənləri axtarış zamanı götürülən 447 manat 45 qəpik pul BSİ Naxç. şöbəsinə verilsin.

Protokol №15

Fövqəladə üçlüyün 12.X.30-cu il tarixli iclası.

Tağıyev, Nikişev, Yaqubov. Bu iclasda kütləvi surətdə yığıb apardıqları adamları mühakimə ediblər.

1. Ağayev Zeynalabdin oğlu İmanov - Ərəzin kəndi, 41 yaş, evli, kulak, 8 il.

2. Əliqulu Hacı Cabbar oğlu – Ərəzin kəndi, 40 yaş, bitərəf, evli, kulak, gullələnsin.

3. Hümbətəli Ələmqulu oğlu Həsənov - Ərəzin kəndi, bitərəf, evli, kulak, 6 il.

4. Yusif Nəcəf oğlu İmanov - Ərəzin kəndi, evli, bitərəf, k/s üzvü, azad edilsin.

5. Qasm Kərbəlayi Əli oğlu Qasımov - 23 yaş, Ərəzin kəndi, bitərəf, evli, kasıb, azad edilsin.

6. Heydər Əli oğlu - Cəlladdin kəndi, 23 yaş, bitərəf, subay, kasıb, azad edilsin.

7. Mürşid Mirzə Məmməd oğlu - Gülüs kəndi, 50 yaş, bitərəf, evli, ortabab, güllələnsin.

8. Eyniş Əlixan oğlu Məhərrəmov - Gülüs kəndi, 25 yaş, birəf, evli, güllələnsin.

9. Əliməmməd Məşədi Mustafa oğlu - Gülüstan kəndi, 43 yaş, bitərəf, evli, 3 il.

10. Canəli Mansur oğlu - Külüs kəndi, 40 yaş, bitərəf, savadsız, kasıb, azad edilsin.

11. Əliabbas Cabrayıl oğlu - Külüs kəndi, bitərəf, 50 yaş, evli, savadsız, azad edilsin.

12. Qəmbər Həzrətqulu oğlu - Ərəfsə kəndi, 35 yaş, bitərəf, savadsız, evli, 3 il.

13. Pirməmməd Nurməmməd oğlu Atakişiyev - Gülüs kəndi, 50 yaş, evli, azad edilsin.

14. Xancan Abbas oğlu Kənkərlinski - Ərəfsə kəndi, 31 yaş, subay - Səlim bəylə əlaqəsi olmuş, dvoryandır, sürgün edilsin və Naxçıvan kənd təsərrüfatı texnikumundan çıxarılsın.

15. Novruz Kərbəlay Həsən oğlu Məhərrəmov - Gülüs kəndi, 45 yaş, evli, gülələnsin.

16. Əkbər İbrahim oglu – Ərəfsə kəndi, 30 yaş, bitərəf, savadsız, evli, azad edilsin.

17. Rəhim Dünyamalı oğlu - Ləkətac kəndi, 50 yaş, bitərəf, savadsız, evli, 5 il.

18. Novruz Qasıməli oğlu Bədəlxanov - Keçili kəndi, 36 yaş, kasıb, azad edilsin.

19. Ziyad Şirin oğlu Əsədov - Keçili kəndi, 30 yaş, savadsız, evli, azad edilsin.

20. Əli Mehdi oğlu - 45 yaş, bitərəf, savadsız, ortabab, azad edilsin.

Cinayət işinin 4-cü cildinin üstündə qeyd vardır ki, həmin iş üzrə 139 nəfər müxtəlif illərdə həbs edilmişdir. 2 nəfər bəraət alıb I. 1964 və 1968.

Bu, cinayət işi üzrə cəzalandırılanların tale yazısı idi.

Görün bir erməni serjantı bu qədər Azərbaycan türkünü məhv edəndə, onların böyükləri nə qədər soydaşımızı qırıb.

## Mirəhməd Mirfəttah oğlu Abdullayev

*C.İ. №15214, İttiham edilir CM 72-ci maddəsilə*

*Başlanıb: 3 mart 1938. Arxiv PR 20466*

Sovet imperiya rejiminin repressiya tufanı gücləndikcə dalğaları da öz əhatə dairəsini genişləndirirdi. Bu dalğa Azərbaycanın ən ucqar kəndlərinə də çatmışdı, günahsız insanları süpürüb ölüm – qan dənizinə tökürdü. Belə günahsız insanlardan biri də Ordubadın dağ kəndlərindən Dırnısda yaşayan, heç kimə mərdiməzarlıq etməyən, gecəsini-gündüzünü Allah qarşısında ibadətlə keçirən, ağzı dualı, əli təsbehli, dilindən "Allaha təvəkül" kəlməsi düşməyən Mirəhməd oldu.

İşin birinci səhifəsində deyilir: Mirəhməd Mirfəttah oğlu 1891-ci ildə anadan olmuş, Ordubad rayonu Dırnıs kənd sakini, 1937-ci ilə qədər səsdən məhrum, heç yerdə işləmir, b/t, evli. Dini imanlardan

istifadə edərək kolxozçuları inandırlr ki, kolxoz çörəyi yemək günahdır. Sistematik olaraq antisovet, antikolkolxoz təbliğatı aparır. Qadınların kölə vəziyyətində olmasını təbliğ edir. Evdə arvadına və qızına oxumağı qadağan edir. Evində əksinqilabı dini intibahnamələr saxlayır. Sovet quruluşuna böhtan atıb keçmiş quruluşu tərifləyir. İşdə evinin axtarılması barədə 28.02.38-ci il tarixli 143 N-li order vardır. Həmin gün Abdullayevin evində XDİK Ordubad əməkdaşı Məmmədovun və k/s sədri Cəfərovun iştirakı ilə axtarış aparılıb heç nə tapılmadı. Martın birində özünü axtarırlar, heç nə tapılmır. Martın 1-də Ordubad həbsxanasında anket doldururlar.

Məlumat: ailə tərkibi: arvadı 38 yaşında, qızı Səkinə 17 yaşında, oğlu Fəttah 13 yaşında, oğlu Əli 8 yaşında, oğlu Abbas 4 yaşında, oğlu Sadıq 2 yaşında.

Əmlakı haqqında arayış: 0,3 hek. torpağı, bir otaqlı evi, bir atı, bir inəyi, yer əkməkdən gəliri 500 manat, verdiyi 13 manat, könüllü vergi 50 manat,

heyvanlardan gəlir 200 manat, ticarətdən 200 manat, camaat verdiyi seyid haqqı 1929-cu ilə qədər 2000 manat, 1927-ci ildən 1935-ci ilə qədər səsi alınıb.

3 mart 1938-ci il tarixində Dırnıs kənd aktivi “iclas” keçirir. Sədr Hüseynov, katib Həsənov. Kənd sakini Abdullayev Mirəhməd Mirfəttah oğlunun əks-inqilabi fəaliyyəti haqqında. Çox, savadsız şəkildə Latın əlifbası ilə tərtib edilib. Protokolu rus dilinə Barseqyan tərcümə edib.

Əvvəlcə, onu qeyd etmək lazımdır ki, tərcümə sərbəst edilib. Əli Əliyev çıxış edib, məruzə yox, sonra Əhəd Cəfərov və Hüseyn Hüseynov çıxış edir. Burada Azərbaycanca: yuxarıdakıları nəzərə alaraq Dırnıs kənd əhli Mirəhməd Mirfəttah oğlu Abdullayev haqqındakı verilən materiallar düzgün, doğru və haqlı olaraq həbs olunmuşdur. Rusca: о вышеизложенной деятельности Абдуллайев Мирахмед Мирфаттах оглы довести до сведения соответствующих

органов для принятия мер (Berqasyan), Savina tərcümənin düzgünlüyünü təsdiq edib.

İşin 7-ci səhifəsində kənd sovetinin arayışı verilir. Burada da Abdullayev müzür element kimi səciyyələndirilir.

İşin 9-cu vərəqəsində onu Seyranov dindirir.

**Sual:** Siz sistematik olaraq antisovet təbliğatı aparmaqda kifayət qədər ifşa olunmusunuz.

**Cavab:** Mən heç bir əksinqilabi, antisovet işi aparmamışam və bu haqda heç bir tapşırıq almamışam..

**Sual:** Siz düzgün ifadə vermirsiniz. İstintaq tələb edir, düzgün danışmırsınız. Siz öz həmfikirlərinizin adını deyin.

**Cavab:** Mən düzgün danışıram. Mən heç bir əksinqilabi tədbir aparmamışam. Mənim heç bir həmfikirim yoxdur.

**Sual:** Siz hələ də qadınların kölə vəziyyətdə qalmasına çalışmısınız. Dini inamlardan istifadə edirsiniz. Boynunuza almırsınızmı?

**Cavab:** Mənim günahım bundan ibarətdir ki, arvadım hələ də çadra örtür. Qızım məktəbə getməmişdir. Amma mən başqalarından ötrü günahkar deyiləm.

**Sual:** Siz hələ bunda da təqsirləndirilirsiniz ki, kolxoz qurulmasının əleyhinə təbliğat aparırsınız..

**Cavab:** Mən heç bir təbliğat aparmamışam. Nə kolxoz əleyhinə: nə də onun inkişafının.

Qeyd etməliyəm ki, görünür, Seyranov rusca da pis bilirmiş.

Cümlələri savadsız və səhflərlə doludur. Amma öz "işini" yaxşı bilirmiş. Hər səhifənin sonunda "Mirəhməd Abdullayev" kəlməsini ərəb əlifbasında müttəhimin özünə yazdırırmış.

Martın 2-də həmin Seyranov Həsənov Həmid Allahverdi oğlunu dindirir /C.İ. səh.12/. Dindirilərkən şahid pasportunu evdə qoymuşdur. İnqilaba qədər valideynlərinin himayəsində böyümüşdür. İnqilabdan sonra isə kolxozçu olmuşdur. Görün Seyranov nə dərəcədə savadsız imiş ki, yazıq Həmid Həsənova yazdırır ki, inqilabdan sonra kolxozçu olmuşdur. Məgər inqilabdan dərhal sonra kolxoz var idi? Rayon mərkəzinə dəvət olunan H.Həsənova bildirır ki, əgər düzgün ifadə verməsə, CM-nin maddəsi ilə məsuliyyət daşıyacaq. Buna görə də Həmid Həsənovun nə deməsindən asılı olmayaraq, Seyranov öz bildiklərini yazır. Guya o deyib: Abdullayev Mirəhməd kulakdır. Səsi alınmışdır. Həmişə zəhmətsiz gəlir hesabına yaşamışdır. 1920-ci ildə torpaqlar paylananda Mirəhməd nümayişkəranə özgə torpağını almaqdan imtina etmiş və başqa kəndliləri də özgə torpaqlarını da almamağa çağırmışdır. 1931-ci ildə demişdir ki, kolxozda sizin bütün əmlakınız qarışdırılacaq. Kolxozun malını yemək günahdır.

Elə həmin gün Seyranov 1906-cı ildə Unus kəndində anadan olmuş, Xalq Tədarük Komissarlığının Ordubad rayonu üzrə müvəkkili Əliyev Yunis Cəbrayıl oğlunu da M.Abdullayevin əleyhinə ifadə vermək üçün dəvət edir. Ona 130-cu maddə ilə hədə-qorxu gəldikdən sonra Yunis də deyir. M.Abdullayev seyiddir, böyük hörməti vardır. 1927-1937-ci ilə qədər səsdən məhrum edilmişdir. M.Abdullayev sistematik olaraq kəndlilər arasında antisovet, antikolxoz təbliğatı aparır. Deyir ki, özgə torpaqlarını götürməyin. Elə həmin gün Seyranov 1904-cü ildə anadan olmuş, Dırnıs kənd sovetinin sədri Cəfərov Əhədi dəvət edir. Onu da 130-cu maddə ilə hədələyəndən sonra özü Mirəhmədin əleyhinə yazdığı ittihamnaməyə qol çəkdirir. Qəribədir, yəni bunların hamısı eyni cür necə ola bilər ki, hamısı desin: *"Qovaril, çto çujoy zemli ne berite, çujoy zemli qreşno"*. Savadına qurban olasan, Seyranov, heç olmasa, ruscanı öyrənə idin!

Yenə həmin gün dindirmə. Bu dəfə kənddəki kolxozun üzvü Mirzəyev İsmayıl Müseyib oğlunu dəvət edir. Vahiməli kabinetə girən kimi yazıq İsmayıl da qorxuya düşür. Seyranov nəriltili səsi ilə onu da 130-cu maddə ilə hədələyir. Yenə özü yazdığı, üslubca başqalarından fərqlənməyən bir səhifəlik "ifadə". Burada da güya İsmayıl Müttəhimi ifşa edir. Amma burasını demək yerinə düşərdi. Görünür, İsmayıl Seyranovun özündən də savadlı imiş. Onun dindirmə protokolunda etdiyi imza o qədər savadlı və mənalıdır ki, belə adamlara adamın hayıfı gəlir. Bir gündə dörd nəfəri "dindirdikdən" sonra sabahı gün yəni 1938-ci ilin mart ayının 3-də Seyranov 1903-cü ldə həmin kənddə anadan olmuş, kənd sakini, kolxozun anbarı, kasıb kəndli ailəsindən çıxmış, hamının tanıyıb hörmət etdiyi Məmmədov Yaqub Cəfər oğlunu dindirməyə dəvət edir. Yaqubu da həmin maddə ilə qorxutduqdan sonra Seyranov bir qədər orijinallıq etmək istəyir. Yəni əvvəlkilərdən fərqli cümlələr yazır. Xahiş edirəm, Seyranovun

Yaqub Məmmədova qol çəkdirdiyi “ifadənin” savadına və keyfiyyətinə diqqət ediniz. Cümləni olduğu kimi verirəm: “Он Абдуллайев Мирахмед не позвал темнотой религиозности не которые крестян, среди их систематическое вел разложенческое работу”. Cümləyə fikir verdinizmi? Hə, nə qədər savadsız və mənasızdır. Əvvəla, Yaqub Məmmədov rusca bilmirdi, onun sözlərini tərcümə etdikdən sonra o təsdiqləməli idi, ikinci də Seyranovun özünün tərtib etdiyi bu cümlə mənasızdır.

Seyranov tələsirdi. Xalqın hörmət etdiyi, islam dininin bilicisi olan Mirəhmədi ortadan tezliklə götürməli idi. Ona görə də martın 3-də Mirəhmədlə Əliyev Yunisi, Həsənov Həmidi, Məmmədov Yaqubu üzləşdirir. Bu yazıqları da ayrı-ayrılıqda hər biri guya Mirəhmədi ifşa edirlər. Hörmətli oxucu, xahiş edirəm nə Yunis, nə Həmid, nə İsmayıl, nə də Yaqub, Əhəd haqqında pis fikrə düşəsiniz. Mən də vaxtilə belə düşünürdüm ki, sakit bir adamı, qarışqanı da

ayaqlamayan hörmətli seyidi, axundu, ağzı dualı, quran oxuyan, dinimizi təbliğ edən, böyük iman sahibi olan Mirəhməd kimi bir adamı necə ələ vermək olardı. Sonradan bir sıra repressiya qurbanları olan alimlərin bədbəxtlik taleyini tədqiq edərkən bu qərara gəldim ki, o vaxt KQB, NKVD, QPU adlanan ifadənin xofu, buraya doluşmuş ermənilərin qisas almaq ehtirası hamını məcbur edirdi ki, onlar deyənə qol çəksin. Bu səbəbdən də doğma kəndimizdən də tutulub məhv edilmiş adamlar haqqında həqiqəti üzə çıxarmaq üçün istifadə etmək, yazmaq qərarına gəldim. Çünki belə mövzuda yazmaq imkanı həmişə hamıya nəsib olmur.

Bəli, martın 3-də Dövlət Təhlükəsizliyi kiçik leytenantı, XDİK Ordubad RŞ rəisi Seyranov tələsik "ittiham qərardadı" hazırlayır. Həmin qərardad XDİK Naxçıvan idarəsinin rəisi mayor Qranski tərəfindən martın 6-da təsdiqlənir. Görün ittihamlar nədən ibarət imiş:

1. Dini mülahizalərə əsaslanaraq sistematik olaraq kolxoz əleyhinə təbliğat aparmışdır ki, kolxoz çörəyi yemək günahdır.

2. Arvadını və qızını oxumağa qoymamışdır. Qadınların çadra örtməsini təbliğ etmişdir.

3. Evdə dini kitablar və yazılar saxlamışdır.

4. Köhnə quruluşu tərifləmişdir. Sovet quruluşuna qarşı böhtan almışdır.

Vəssalam. Bundaıı başqa heç nə!

Bu dəlillərlə Mirəhməd Abdullayevi Az. SSR CM 72-ci maddəsilə təqsirkar bilib onu Fövqəlada üçlüyün sərəncamına göndərirlər. Allah aparsın, gətirməsin o üçlüyü...

Cinayət işinin 30-cu (pozulub 33 yazılıb) səhifəsində FÜ-ün 10 mart 1938-ci ildə keçirdiyi iclas protokolu gəlir. Protokol cəmi ikicə cümlədən ibarətdir. İclasda müttəhim olubmu, prokuror və başqa

məhkəmə komponentləri olubmu, heç nə yoxdur. Dediyimiz kimi, ikicə cümlə:

Eşidildi: 1891-ci ildə anadan olmuş, bitərəf Abdullayev Mirəhməd Mirfəttah oğlunun 15214 №-li cinayət işi.

Qərara alındı: 1891-ci ildə anadan olmuş Mirəhməd Mirfəttah oğlu Abdullayev əksinqilabi təbliğat apardığı üçün güllələnsin. Əmlakı müsadirə edilsin.

Üçlüyün katibi Savçenko təsdiq etmişdir. Dəhşətli sənəd işin 34-cü səhifəsindəki aktdan çıxarışdır. Oraya yazılmışdır ki, Abdullayev Mirəhməd Mirfəttah oğlunun güllələnməsi haqqında FÜ-ün qərarı 1938-ci ildə martın 19-dan 20-ə keçən gecə yerinə yetirilmişdir. Sənədi daxili həbsxananın rəisi DTİ 1-ci xüsusi şöbəsinin rəisi imzalamışdır.

İyirmi il keçir, zaman dəyişir. Sovet vahiməsi azalır. Sonra müttəhimin oğlu Sadıq və başqa

yaxınları hələ də hamının sevib hörmət etdiyi, alicənab bir insanın - Mirəhmədin yolunu gözləyir. 1956-cı ilin sentyabr ayının 13-də Sadıq Abdullayev SSRİ Ali Sovetinin sədri KJ.Voroşilova yazır: “Anamın söylədiyi dəlillərə əsasən mən atamı təqsirkar bilmirəm. Bunun üçün də atam haqqında məlumat (ölüb, ya qalır) bilmək istəyiram. Sizin əmrinizlə axtarılmasını rica edirəm”.

Ərizəyə əsasən Azərbaycan SSR Ali məhkəməsinm cinayət işləri üzrə məhkəmə kollegiyası J.Quliyevın sədrliyi, S.Atakişiyev və M.Mehdiyevin, habelə prokuror A.Krujkovun iştirakı ilə işə baxır və qərara alır: Abdullayev Mirəhməd Mirfəttah oğhı haqqında SSR XDİK Fövqəladə Üçlüyünün qərarı ləğv edilsin və onun hərəkətlərində cinayət tərkibi olmadığı üçün iş xətm edilsin. Abdullayev Mirəhməd ölümündən sonra bəraət alır /Cİ səh.35/

Bundan sonra Sadığın ərizəsinə əsasən müsadirə edilmiş əmlakın qaytarılmasına təşəbbüs göstərilir. Müttəhimin evi axtarılarkən şahid kimi iştirak etmiş adamlar dindirilir. 21.12.59-cu ildə Abdullayeva Siddiqə xanım ərinin tutulması və evlərinin axtarılması haqqında dindirmədə ifadə verir. Bu da bir tarixdir. Siddiqə xanımın dediklərindəki bəzi məqamları sizə çatdırıram: - 1938-ci ilin əvvəllərində, axşamüstü çörək yeyilən vaxt idi. Mən, yoldaşım və uşaqlar çörək yeyirdik. Həmin gün qonşuda toy vardı. Mən çörək yeyib toya getdim. Toy Kəblə Nağı kişinin qızı Löbənin idi. Bu vaxt yoldaşım çağırdı ki, evə gəlim. Onun yanında bir milis nəfəri var idi, bir də NKBD naçalniki Seyranov. Bu adamlarla birlikdə evə getdik. Onlar evimizi axtardılar. Bır şey tapmadılar. Akt yazıb surətini ona verdilər, sonra ərimi apardılar.

**Müstəntiqin sualı:** Əriniz tutularkən ev əşyalarınızı nə zaman müsadirə etdilər.

**Cavab:** Ərimin tutulması novruz bayramına iyirmi iki gün qalmış olmuşdur. Lakin evimizin müsadirə edilməsi dəqiq yadımda deyil. Gecə saat 12-də NKBD-dan Mamedov, kənddən isə Əlibəy, Əhəd, Səfdər, Hüseyn, Həbib və Yaqub bizə gəldilər. Mamedov stolun arxasında oturub akt tərtib etdi. Götürülmüş ev şeylərinə, məsələn, 1 ədəd xalça, 3 arşm enində bəzəkli, 2 dəst yorğan-döşək, 1 ədəd məcməyi, 1 ədəd qazan, tövlə, samanlıq və limon ağacları 5 dənə.

Həmin gün yəni, 1959-cu ildə günorta saat 14-40 dəqiqədə Məmmədov Səftər Qəmbər oğlu, 15-50 dəqiqədə Abdullayev Həbib Qasım oğlu, 21-40 dəqiqədə Tağıyev Abtalılb Məhərrəm oğlu şahid qismində dindirilir. Onlar da Siddiqə xanımın dediklərini təstiq edirdilər.

Tağıyev Abutalıb həmin vaxt rayon maliyyə şöbəsində işlədiyi üçün dindirilir. O deyir ki, yadımda deyil. Bəli, hər şey yerinə gəlir, bircə insandan başqa.

Soyuq, donuq kağızlar, rəqəmlər, sual-cavablar... oxuduqca qəlbi sıxılır. O, dövrü lənətləyirsən. İşdə rəhmətlik Mirəhmədin pasportu da var. Orada yazılıb ki, pasport 1937-ci ilin 8 oktyabrında 5 ilə, yəni 1942-ci ilin 8 oktyabrına qədər etibarlıdır. Doğru deyirlər ki, hər şey insandan etibarlıdır. Onun ömrü pasportunun verdiyi ömrün beşdə biri qədər də olmadı. Cəmi 4 ay yarım bu pasportu gəzdirə bildi.

Allah sənə rəhmət eləsin.

**1. Həmid Mərdan oğlu Bağırov**

*XDİK Culfa rayon şöbəsi, Cinayət işi №1481.*

Həmin ış üzrə ttiham edilir:

İş MTN-nin arxivində 4714№li iş kimi saxlanılır. Cinayət işi 2 cilddən ibarətdir.

Erməni xisləti öz işini görürdü. Seyranovdan sonra Naxçıvan DTN Ordubad rayon şöbəsinə kapitan Arutunyan təyin ohınur. Niyə Arutunyan? Cavab aydındı... Azərbaycanlıya erməni divan tutmalıdır. Seyranyan Ordubaddan gedəndə öz daşnak məsləkdaşı Arutyunyana "tövsiyələrini"da idarə sənədi kimi təhvil vermişdi ki, "kim olmasına baxma, təki çoxlu Azərbaycan türkünü məhv edəsən". Artunyan belə etdi. Amma Ordubadda həbsxana dolu idi və müstəntiqlər "məşğul idi". Ona görə də Culfaya müraciət etdi və işə azərbaycanlıları cəlb etdilər. Sonra isə axtarıb adamları tapa, onlardan bu və ya digəri haqqında məlumat qoparmağa başladılar.

**2.Qasım Şıxəli oğlu Quliyev**

Naxçıvan XDTK-nın Culfa rayon şöbəsinin müstəntiqi, baş əməliyyat müvəkkili, təhlükəsizlik serjantı Kərimov 23 iyun 1941-d ildə Qasım Şıxəli oğhı haqqında gəldiyi qərarda yazırdı: "Quliyev Qasım Şıxəli oğlu 1936-cı ildə 15 apreldə kənddə camaata deyib: sovet hökumətinin sonu çatıb, Yaponiya SSRİ-yə müharibə elan edib. Yaponiya 1050 verst SSRİ ərazisini tutub və Moskvaya yaxınlaşır". /c.i. vərəqə 17/.

Əvvəla, onu demək lazımdır ki, Qasım kişini tanıyanlar onun savadsız olduğunu təsdiq edirlər. Bu adam hardan bilərdi ki, Yaponiyi kimdir, 1050 verst nə qədərdir və s. Sonra görün müstəntiq nə yazır. "Quliyev Qasım Molla Qafar, Mirəhməd Fəttahla /hər ikisi tutulub/ sıx əlaqə saxlayır". Vicdanına tula bağlasınlar, a belə müstəntiq. Sən bilmirdin ki, o vaxt

azadlıqdan məhrum edilmiş adamla nəinki sıx, habelə adi əlaqə saxlamaq olmazdı. Sonra yalanın böyüklüyünə baxın /Ay vicdansız heç olmaza yoxla, sonra yaz, axı bu, insan taleyidir/. Axı heç olmazsa, faktı dəqiqləşdirəydin. Mirəhmədov Fəttah kimdir. Belə adam həbs olunmayıb. Həbs olunan Qasım Şıxəlı oğlunun həmkəndlisi, hamının hörmət etdiyi Abdullayev Mirəhmədov Fəttah oğludur. Ən əsası odur ki, Abdullayev Mirəhməd 1938-ci il martın 19-da gecə güllələnmişdir. Sənin vicdanın harada qalmışdır ki, 4 il əvvəl öldürülmüş bir adamla Qasımın əlaqədar olduğunu yazırsan. Guya, daha sonra Qasım Şıxəli oğlu deyib ki, əhalini ona görə siyahıya alırlar ki, görsünlər kim mömindir, onu tutsunlar.

Sonra: guya 20.06.37-ci ildə deyib ki, Almaniya Sovet hakimiyyətini /savadına bərəkallah/ götürəcək, əgər belə olsa, yaxşı olar.

09.06.40-cı ildə isə deyib: Türkiyə SSRİ ilə müharibə edəcək. Onda bütün Azərbaycan Türkiyənin əlində olacaq. Onda məscidlər işləyəcək, kommunistləri öldürəcəyik.

Bundan sonra A.Kərimov haqqında heç nə demək olmur.

Yaxşı, 1937-ci ildə yəni Almaniyanın SSRİ-yə hücum etməsindən 4 il iki ay əvvəl bu sözləri yazıq savadsız Qasım kişi necə deyə bilərdi.

29 iyun 1941-ci ildə isə həmin A.Kərimov, Quliyev Qasım haqqında ittiham qərardadı çıxarır. Onda da eyni şeylərdir. Xahiş edirəm diqqət edin: "Mən DT serjantı A.Kərimov 1484№-li iş üzrə - nəzərə aldım ki, Quliyev Qasım kifayət qədər ifşa edilir":

1. Molla Qafar Rəhimovla və Mir Əhmədov Fəttahla /hər ikisi məhkumdur/ və başqaları ilə sıx əlaqə saxlayır. /Diqqət edin bu, təhlükəsizlik serjantı

A.Kərimovun əsas – ən tutarlı faktıdır ki, Qasım kişi 4 il əvvəl ölmüş adamla sıx əlaqə saxlayırmış – A.B./

Daha sonra yuxarıda sadaladığımız “ittihamlar” gəlir: 32.05.41-ci ildə həbs etmək üçün qərar qəbul edilir /s.17/. Quliyev Qasıma Az.SSR CM-nin 72-ci maddəsilə ittiham irəli sürülür. Həbs olunmaq üçün qərardada da yuxarıda dediklərimizi yazırlar. Ən əsası isə Mirəhməd və Molla Qafarla “əlaqə” saxlaması göstərilir. Əvvəlki anketlərdə Qasım kişının anadan olma ili 1862-ci il göstərilir. Bu anketdə isə 1842-ci il yazılıb (Savadına bərəkallah. Deməli, düz 99 yaşlı kişinin həbs edibsiniz).

23 iyun 1941-ci ildə Qasım Şıxəli oğlunun evini axtarırlar /c.i.s.19/. 1484№li iş üzrə məhbus anketindən öyrənirik ki, onun ailəsi aşağıdakılardan ibarət imiş:

1. Arvadı – Leyli Məmmədqulu qızı 55 yaşında kolxozda işləyir.

2. Oğlu – Quliyev Bəşir Qasım oğlu 24 yaşmda, Dırnıs kəndində siravi kolxozçudur.

3. Oğlu – Musa Qasım oğlu 11 yaşında – məktəblidir.

4. Oğlu – İsa Qasım oğlu 6 yaşında, anasının himayəsindədir. Bir bacısı var.

Dediyimiz kimi, iyunun 24-də A.Kərimovun rəhbərliyi, kənd sovetinin sədri Artuş Nazaretyan və kolxoz sədri Hüseyn Hüseynovun şahidliyi ilə Şıxəli oğlu Qasımın evi axtarılır. Evdən köhnə xəncər və qını tapılır. Vəssalam.

Sonra Kərimov 28.06.41-ci il tarixdə müttəhimin özünü axtarır: 567253№-li pasport, 1 ədəd bel kəməri, 1 ədəd cib bıçağı götürülür /s.25/.

1941-ci iyunun 15-də Naxçıvan MSSR prokuroru Ağayev işlə tanış olduqdan sonra müəyyən edir ki, 73-cü maddəyə aid işdə heç bir əsas yoxdur. 72-ci maddə üzrə isə iş əsaslandırılmalıdır /s.35/.

Belə də olur. 15 sentyabr 1941-d ildb Kərimov işdə yalnız 72-ci maddənin I hissəsini saxlamaqla işi prokurora göndərir. C.İ.51-ci vərəqində 1481-ci işlə əlaqədar olaraq Culfa rayon şöbəsinin rəisi təhlükəsizlik leytenantı Baxışov 1862-ci ildə anadan olmuş Quliyev Qasım Şıxəli oğlunun dindirir.

**Sual:** Siz istintaqa öz tərcümeyi-halınızı danışın.

**Cavab:** Mən əkinçiliklə məşğul olan kəndçi ailəsində anadan olmuşam. Atam mənim 3 yaşım olanda ölüb.

**Sual:** Oktyabr inqilabına qədər nə ilə məşğul olmusunuz.

**Cavab:** Mən öz təsərrüfatımla məşğul olmuşam. Kiçik təsərrüfatım olmuşdur: 1 öküzüm, 1 inəyim, 15 qoyunum olmuşdur. 1 otaqdan barət evim vardır.

**Sual:** Oktyabr inqilabından sonra nə ilə məşğul olmusunuz.

**Cavab:** 1935-ci ilə qədər öz təsərrüfatımda, 35-ci ildən sonra isə Dırnıs Stalin adına kolxozda işləmişəm.

**Sual:** Xaricdə olmusunuzmu?

**Cavab:** Xeyr, heç vaxt xaricdə olmamışam. /I səhifədə müttəhimin 2 yerdə barmaq izi qoyulub-A.B./

**Sual:** Öz yaxın adamlarınızı deyin.

**Cavab:** Danağırtda Xaçumyan Aleksanla, onun oğlu Xaçı ilə /bunları yazıq kişi beynəlmiləlçilik xatirinə deyib-A.B./, Dırnısda isə Məcid Bayraməli oğlu ilə, Məmmədov Hüseynlə, İbadulla Zeynalabdin oğlu ilə, Əsgər Əmrah oğlu ilə.

Sonra dindirmə 10 iyul 1941-ci il saat 21-də davam etdirilir. Bu dəfə dindiməni ayrı adam aparır. Dindirmə gecə saat 23.05 dəqiqədə dayandırılıb /s.54/.

15 iyulda dindirmə davam etdirilir. Bu dəfə dindirmədə 3 nəfər iştirak edir. Culfa RŞ əməliyyat müvəkkili Əliyev, onun köməkçisi Zuyçenko, habelə Şərifov.

**Sual:** İstintaq sizdən səmimi etiraf tələb edir. Deyin, kimlə yaxın əlaqədə olmusunuz və bu əlaqə nədən ibarət olmuşdur.

**Cavab:** Mənim aşağıdakılarla yaxın münasibətim vardır:

1. Əbülfəz Nadir oğlu - mənim qonşumdur.

2. Məcid Bayraməli oğlu - qonşumdur.

3. Hüseyn Məmməd oğlu - qonşumdur.

4. İbadulla Zeynalabdin oglu.

5. Bağırov Həmid Mərdan oğlu - onu Danağırt kənd sakini kimi tanıyıram. /Bunu müstəntiqlər özləri əlavə edib. Yoxsa onun Həmidlə nə işi var idi ki, adını da çəksin/.

Bundan sonra rusca bilməyən Qasım kişiyə nə istəsən yazıb barmağını basdıra bilərsən. /Burada o heç bir antisovet təbliğat aparmadığını qeyd edir./

2 ay keçir. Sentyabrın 7-də onu Kərimov və rayon prokuroru Novruzov yenidən dindirir. Sən demə, sentyabrın 5-də Məmmədov Kazımı məcbur edib Qasım kişi ilə üzləşdiriblər. Nazaretyan Artuş da həmin gün Qasım kişi ilə üzləşdirilib. Onu "ifşa" edib. Sentyabrın 7-də dindirmədə son olaraq müttəhim deyir:

-Təkrar deyirəm: mən əksinqilabi təbliğatla məşğul olmamışam. Bunu qəti şəkildə inkar edirəm. Habelə özümü heç bir şeydə təqsirkar bilmirəm. /Rus dilinə tərcümə edilib, sağ əlinin şəhadət barmağının işi ilə təsdiq edilib. /s.55-56/

Sonra yanvarın 20-də müstəntiq Hacı Məmmədov şahid sifətilə Həsənov Həmid Allahverdi oğlunu dəvət edir. /Yeri gəlmişkən deyim ki, həm

1941-ci ildə anketlərdə “milliyyəti” sözünün qabağında türk sözü yazılırdı/.

**Sual:** Əldə olan məlumatlara əsasən Dırnıs sakini Qasım Şıxəli oğlu Məmmədov (əhsən savadına, belə müstəntiq müttəhimin əvəzinə öz familiyasını yazır. Müttəhimin familiyası Quliyevdir. – A.B.). Əhali arasında antisovet təbliğatı aparır və 3.1.37-ci ildə deyib ki, əhalinin siyahıya alınmasında kim desə “möminəm” onu tutacaqlar.

**Cavab:** Mən Şıxəli oğlu Qasımdan heç nə eşitməmişəm. Amma Əlverdiyev Əlverdi deyirdi ki, kim desə “möminəm” onu tutacaqlar.

Elə həmin gün Nağı Məmmədov Dırnıs kənd sakini Əlverdiyev Əlverdi Kərəm oğlunu dindirir. /Əlverdi ailə tərkibi haqqında məlumat verir ki, ailəm cəmi 1 nəfər arvadım Bəyaz Hüseynəli qızı - 25 yaşdan ibarətdir./

**Sual:** Əldə olan məlumata görə Dırnıs kənd sakini Qasım Şıxəli oğlu Məmmədov /müstəntiq, müttəhimin familiyasını hələ öyrənməyib/ əhali arasında antisovet təbliğatı yayır. 2.1.37-ci ildə deyib ki, siyahıyaalma vaxtı kim desə ki, "mən Allaha inanıram", onu tutacaqlar.

**Cavab:** 3.1.37-ci il tarixdə mən heç nə eşitməmişəm. 5.1.42-ci ildə /yaddaşa baxın 4 il 5 aydan sonra nələr yadda qalarmış. Bunu müstəntiqin özünün qondardığı aydın olur/.

5.1.37-ci ildə Dırnıs kənd çayxanasında aşağıdakılar iştirak edib. Orda olanda deyib:

1. Zəkiyev Məşədi Zeynalabdin Abdulla oğlu

2. Mirzəyev İsmayıl Müseyib oğlu

3. Cəfərov Əhəd Cəfər oğlu

4. Məmmədov Mehdi Həsən oğlu /Azərbaycan KON üzvü/

5. Mehdiyev Teymur Mehdi oğlu

6. Quliyev İbrahim Əhməd oğlu /Qasımın əmisi oğlu/

7. Əlverdiyev İdn Yamin /kolxozun hesabdarı/

8. Məmmədov Kazım Mövsüm oğlu

9. Quliyev Məhərrəm Həsənqulu oğlu

Bundan sonra-səhəri gün 21 yanvar 1942-ci ildə aşağıdakılar dindirməyə dəvət olunurlar.

1. Məmmədov Kazım Mövsüm oğlu 1912-ci ildə anadan olub, k/e katibi: Əlverdi bir gün əvvəl guya deyib ki, Qasım Şıxəlı oğlunun dediklərini Kazım təsdiq edir. Buna görə də müstəntiq Kazımdan soruşur.

**Sual:** Əlverdiyevin ifadəsinə görə siz 5.1.37-ci il tarixində demisiniz ki, Qasım Şıxəli oğlu antisovet söhbətlər edir.

**Cavab:** 5.1.37-ci il tarixdə mən heç kimə heç nə deməmişəm.

**Sual:** Sən çayxanada camaatın içində /yuxarıdakı adamlar nəzərdə tutulur.-A.B7 demisiniz ki, Qasım Şıxəli oğlu siyahıya alınma haqqında pis sözlər deyir, deyir ki, siyahıya alma möminləri tapmaq üçündür.

**Cavab:** Mən 5.1.37-ci ildə çayxanada heç kimə heç nə deməmişəm.

Bu dindirmədə də bir nəticə alınmır. Nağı Məmmədov plan doldurmalı idi. Ona görə də 23.1.37-ci ildə Əlverdiyev İbn Yamini, 25.1.37-ci ildə Mirzəyev İsmayıl Müseyib oğlunu yenidən dindirir. İsmayıl qəti şəkildə bildirir ki, Qasım Şıxəli oğlu belə söz deməyib.

Hörmətli oxucu, kaş mən bu cinayət işinə baxanda sən də mənimlə birlikdə ola idin. Müstəntiqlərin savadsızlıqlarını öz gözünlə görəydin, mən yazsam da inanmazsan.

4 avqust 1936-38 /bilmək olmur ki, hansı ildə çağırıb/ Ohanesyan Ohanes Mıkırtıçoviçi dəvət edir. Danakert kənd sakini 47 yaşlı Ohanes isə deyib: bəli, elədir, iki ay bundan əvvəl Danağırt kənd sakini Xaçumyan Aram Arakeloviç kənd klubunun qabağında 6-7 nəfərin yanında deyib ki, yol fəhlələrimdən eşitmişəm ki, Qasım kişi deyir: Çin hökumət qoşunları 200 km. ərazini tutub.

**Sual:** Dediniz ki, Qasım Şıxəli oğlunu tanıyırsınız. O, anti söhbətlər-təbliğat aparır, ya yox.

**Cavab:** Bəli Qasım kişini tanıyıram. Əfəl adamdır. Yaşı 75 olar. O keçmişdə kasıb olub. Gözü görmür. Amma o lağlağıçıdır. Siyasətdən başı çıxmır. Ona görə də hər şeyi şişirdir. /s.76/

Bundan sonra 1938-ci ildə 12 apreldə 60 yaşlı Zəkiyev Həmdulla Abdulla oğlunu - 1903-cü ildə anadan olmuş Məmmədov Yaqub Cəfər oğlu

dindirilir. Müstəntiq Yaqubdan “Qasım kişi deyir ki, kolxoz müvəqqətidir” sözünü zorla qoparır.

7 iyun 1940-cı ildə Ramazan İbrahim oğlu /1893-cü ildə anadan olub/ dindirilir. Ramazan kişi belə bir hadisə danışır: 1940-cı ilin aprelin 8 və ya 9 olardı. Mən, Tağıyev Tağı, Mahmudov İsgəndər və Qasım kişi Qoruxlar və Danağırt arasındakı yolu təmir edirdik. Qasım birdən dedi: məsciddə çay olanda öz dostlarınmdan savayı heç kimə verməyəcəyəm. /Yəqin belə deyib indi burada bir məscid samavarı olsa idi, hamısını özüm içərdim-burada nə var ki...- A.B7 /s.82/.

Dindirmə çoxdur.

5 iyul 1941-ci ildə Culfa RŞ əməliyyat müvəkkili Kərimov, Məmmədov Kazım Mövsüm oğlunu dindirir. O Qasımı etibarsız adlandırır. Elə həmin gün yəni, 5.7.41-də Tağıyev Tağı Mirzə oğlunu dindirir, o da həmin “samovar” məsələsini deyir. /s.91/

5 iyulda müstəntiq Kərimov Rza Baba oğlunu dindirir. /1870-ci ildə anadan olub, arvadı və 2 uşağı var/. Burada qoca Baba oğlu Rzanın boynuna qoyub, dedirdirdilər ki, bəli Qasım antisovet olub /s.94/.

Axı Baba oğlu Rza nə bilsin ki, orada rüsca nə yazılıb. Yazıq qol çəkməkdən başqa bir iş bilirdimi?

Yenə həmin gün 5.7.41-ci ildə Dırnıs kənd sakini 1906-cı ildə anadan olmuş Əhmədov İsgəndər Mahmud oğlu dindirilir /s.96/. "Samovar" məsələsini ona danışır və təsdiqləyir /s.97/.

Guya Qasım kişi deyib, sənə çay verəcəyəm. Tağı bəy onunla dalaşıb. Bu hadisə yolda olub.

İyulun 6-da 1941-ci ildə müstəntiq Kərimov Quliyev Məşədi Səyyad Hüseyn oğlunu dindirir. Məşədi Səyyadın 73 yaşı vardır, arvadı Sarabəyim və 5 övladı vardı. Məşədi Səyyadın əslində Qasım Şıxəli oğluna qohumluğu da çatır. Amma işdə o, Qasımı antisovet adlandırır. İnandırıcı deyil. Kərimov bunları

özü quraşdırıb, ya da qocanı döyməklə bu sözləri qoparıb. /s.102/

İyulun 6-da dindirməyə cəlb edilən Ayvazyan Osip Ayvazoviç /1908-ci ildə Danağırtda anadan olmuş, arvadı və 1 uşağı var. Dindirilərkən o da Qasımı və Həmid Bağırovu antisovet adlandırıb /s.107/.

6 iyun 1941-c ildə 65 yaşlı, Dırnıs kənd sakini Qasımov Abdulla Qasım oğlu /mənim babam - A.B./ O özü, arvadı və uşağı haqqında məlumat verir. İmzası ərab əlifbası ilədir /s.11-113/.

Əvvəlcə müstəntiq Kərimov Qasım Abdulladan Naqapetyandan Sarkis Ayrapetoviç haqqında soruşur.

**Cavab:** Naqapetyan Sarkis Ayrapetoviç keçmiş daşnakdır. Eqiş adlandırılan bir nəfərin oğludur. O antisovet elementidir.

**Sual:** Siz nə vaxt Vənəddə olmusunuz.

**Cavab:** Təxminan 3 il bundan əvvəl mən Vənəndə getmişdim.

**Sual:** Siz düz danışmırsınız. 3 il bundan əvvəl siz Vənəndə Naqapetyanla görüşmüsünüz. Orada o kolxozun əleyhinə danışıb, buna nə deyirsiniz.

**Cavab:** Bəli, mən Vənəddə olanda Naqapetyan Sarkislə görüşdüm. Kolxozdan danışırdıq. O kolxozdan narazı idi /s.112/.

6.6.41-ci ildə Kərimov, Haşımov Əbdüləli Hüseynoğlunu dəvət edir. Əbdüləli 1891-ci üda anadan olmuş, arvadı və uşağı vardır, kolxozçudur /s.114-115/. Burada Əbdüləlidən əvvəlcə Naqapetyan Sarkis haqqında, sonra isə Qasım Şıxəli oğlu haqqında soruşur.

**Sual:** Qasım Şıxəli oğlunun xarakterizə edin. Siz onun keçmişi haqqında nə bilirsiniz.

**Cavab:** Qasım Şıxəli oğlunun keçmişi haqqında mənə heç bir şey məlum deyil.

Sonra müstəntiqin təsiri altında Əbdüləli nə deyir, nə demirsə rusca belə yazırlar: является враждебно настроенным елементом систематически среди колхозников ведет к.р. провокационные агитации /s.116/.

Bir sözlə müttəhimlər haqqında bir şey qoparda bilmədiklərinə görə çoxlu adamlar dindirilir. Məsələn:

1. Adıgözəlov İbiş Qara oğlu 6.7.41.

2. Nazarpetyan Artus Ovetisovi 7.7.41.

3. Qevorkyan Aram Karapetoviç 8.7.41.

4. Matevosyan Ambarsum Stepanoviç 2.9.41.

5. Ayrapetov Qriqor Sardaroviç 2.9.41.

6. Safarov Müzəffər Əli oğlu 10.9.41.

7. Məmmədov Ağabala Abbas oğlu 13.9.41.

Bu adamlar Qasım Şıxəli oğlu, Həmid Bağırov və Naqapetyan Sarkis haqqında "lazımi" sözləri

deyirlər. Bura qədər aydın olur ki, müttəhim haqqında elə bir tutarlı fakt yoxdur və hamını eyni sözləri deməyə məcbur ediblər. Heç ola bilməz ki, dindirilən yeddi nəfərin yeddisi də eyni fikri, eyni üslubda desin. Nəhayət adamları üzləşdirmək yolu ilə müttəhimi "ifşa etmək" istəyirlər. Bunun üçün də, onsuz da QPU /BSİ/-dən qorxan adamlara əməlli-başlı təpinib, onları müttəhimin üzünə durmağa məcbur edirlər. İşdə müxtəlif adamların Naqapetyan Sarkislə üzləşdirilməsi haqda çoxlu material vardır. Amma Sarkis kimilər haqlı cəzalarını alıblar. Biz isə günahsız ittiham edilən Qasım Şıxəli oğlu haqqında yazmaq istəyirik. Bu həm də mənim uşaqlıq və məktəb dostum Qasım Şıxəli oğlunun oğlu İsaya atasının taleyi haqqında bir hədiyyəm ola bilər.

Dediyim kimi, üzləşdirmələr başlayır. C.İ.142-ci vərəqində Şıxəli oğlu Qasımla Dırnıs kənd sakini Tağıyev Tağı Mirzə oğlunun 30 ayqust 41-ci il tarixdə üzləşdirmə protokolu vardır.

Müstəntiq Kərimov əvvəlcə iki kəndlini üz-üzə bir-birləri ilə ədavəti və ya qohumluğu olub-olmadığını soruşur. Onlar hər ikisi bir-birini tanıdığını və heç bir ədavətləri olmadığmı söyləyirlər. Müstəntiq Tağı Mirzə oğluna sual verir ki, siz 5 iyul 1941-ci il tarixdə müttəhim Şıxəli oğlu haqqında verdiyiniz ifadəni təsdiq edirsinizmi? Şahid "bəli" cavabı verib, müttəhimi əksinqilab element kimi xarakterizə edir. Və deyir ki, o yolda işləyəndə deyirdi ki, onsuz da bunun heç bir xeyıi yoxdur. Sizə heç nə verməyəcəklər. Sonra müstəntiq Qasım Şıxəli oğluna belə bir sual verir: Siz şahid Tağıyev Tağı Mirzə oğlunun sizin haqqınızda dediyi əksinqilabi mövqeyinizi təsdiq edirsinizmi?

**Cavab:** Mən Tağıyev Tağı Mirzə oğlunun mənim haqqında dediklərini qəti şəkildə rədd edirəm. O düz demir /s.143/.

Müstəntiq istədiyinə nail ola bilmədi Ona görə də yeni adamları işə cəlb etmək lazım idi. 31.8.41-ci

ildə yenə Dırnıs kənd sakini Haşımov Əbdüləli Hüseyn oğlunu çəkib gətirib Qasım kişinin üzünə durmağı tələb edirlər.

4 sentyabr 41-ci ildə hamının sakit adam kimi tanıdığı Əhmədov İsgəndər Qasım Şıxəli oğlu ilə üzləşdirilir /s.149/.

Burada söhbət məsciddə çay içməkdən gedir. İsgəndər kişi guya deyib: *“Qasım dedi ki, vaxt gələr məsciddə samovar qoyub çay içərəm sənə vermərəm”.*

Döyülüb əldən düşmüş Qasım kişi təsdiq edir: *“Bəli, mən demişəm ki, məsciddə samovar qoyacağm, partiyaçılaza verməyəcəyəm”*. /C.İ.S.179/

Əziz oxucu, xahiş edirəm nə Tağı bəyi, nə Əbdüləlini, nə də İsgəndəri qınayasan. Onlara acığın tutmasın! Əvvələn, ona görə ki, bu adamlar savadsız olduğundan öz hüquqlarını belə bilmirdilər. QPU müstəntiqini görəndə qorxudan əsirdilər. Bundan əlavə həmişə müstəntiqlər hər cür alçaqlığa, hədə-

qorxuya, işgəncəyə əl atıb istədiklərini onlardan qoparırdılar. Daha sonra, bu adamların heç biri rusca bilmirdi. Müstəntiq nə yazsa, ona da qol çəkməli idilər. Sonra, onların yerində sən olsaydın, nə edərdin?

İrəli gedək. İşin 193-cü səhifəsində Ordubad RİK sədri Mehdiyevin 29 iyun 41-ci il tarixdə imzaladığı 10/d saylı arayışda da maraqlı cəhətlər vardır. Gəlin müqayisə edək. Rayon İcraiyyə Komitəsinin sədri hara, yazıq kəndli hara. İkincilər qorxaq ola bilərdi. Bəs sən, Mehdiyev?!

Mehdiyevin arayışında deyilir: "Revolyusiyaya qədər kənd təsərrüfatı ilə əlaqəsi olub, 2-3 hektar torpağı olmuşdur. /Cümlə quruluşundakı səhv mənim deyil-A.B./ Bu zamanlar Quliyev muzdur əməyindən istifadə etmiş və bir istismarçı kimi kənddə hərəkət etmişdir".

Danağırt kənd zəhmətkeşləri şosse yoluna işləməyə gedərkən işçilər arasında əks təbliğat aparıb bunları şosse yolundan qayıtmağa məcbur etmişdi. Quliyev Qasımın peşəsi həmişə yaramaz şəxslərlə oturub durmaq və öz fikirlərini Molla Qafar, Əsədov Cabbar, Mirəhməd Seyidov, /belə adam Dırnısda olmayıb, a bolşevik Mehdiyev, heç olmazsa qol çəkdiyin sənədin doğruluğuna bax-A.B./ və başqa bu kimiləri ilə kütlə arasında yaymaq idi".

İşin 194-cü səhifəsində Dırnıs kənd sakini sovetin sədri Nazarpetyan Artuşun /kənddə azərbaycanlı yox idimi?-A.B./ 24.06.41-ci il tarixdə imzaladığı 0095№li arayış həm savadsız, həm də mövqeyi ilə seçilir.

25.09.41-ci ildə Quliyev Qasım Şıxəli oğlu və Bağırov Həmid Mərdan oğlu haqqında açılmış 1481№-li CM-nin qərardadı tərtib edilir. Burada həm Bağırov üçün, həm də Quliyev üçün 9 maddədən

ibarət ittiham tərtib edilir. Görün bu maddələrin birində cinayət tərtibi varmı?

1. Ət alınma vaxtı mövcud quruluşu pisləyib. /Sübut- A.B./

2. 1941-ci ildə kolxoz işinə getmək istəməyib.

3. Köhnə quruluşu tərifləyib və s.

Bunlar hələ ən “tutarlı ittihamlar” idi.

Beləliklə işi CM-nin 72-ci maddəsi ilə ali məhkəməyə göndərmək üçün Naxçıvan Respublika prokurorluğuna verməyi Qərara alırlar /c.i.s. 207/ 19.11.41-ci ildə Naxçıvan MSSR Ali Məhkəməsi A.Gevorkyanın sədrliyi ilə hazırlıq iclasına toplaşır. Gevorkyan həmin gün Qasım Şıxəli oğlundan qəbz alır ki, mənə itihamnaməni verdilər.

Qəribədir, CM-də Bağırova Lalə 4 dəfə müxtəlif təşkilatlara müraciət etmişdir. Qasım Şıxəli oğlu haqqında isə heç bir ərizə verilməmişdir. 26-27

noyabr 1941-ci ildə Ordubadda A.Gevorkyanın sədrliyi və prokuror B.Tarverdiyevin iştirakı ilə Naxçıvan MSSR Baş Məhkəməsinin səyyar iclası keçirilir. /c.i.s.242, forma №8/ Tarverdiyevin ittiharamdan sonra birinci olaraq Bağırov Həmid danışır. O, deyir: "Mən özümü bu işdə müqəssir bilmirəm". Sonra Qasım kişi deyir: "Mən özümü təqsirnamə üzrə müqəssir bilmirəm. Mən keçmişdə nökər olmuşam. 55 il erməni rəncbər olmuşam. Mən sonra Bakıya getdim. Orda üsyan elədik... Heç bir sözlər danışmamışam. Gözüm şikəst olduğu üçün yol işindən azad ediblər. Tağı buna şahiddir. Başqa şahidim yoxdur". /c.i.s.244/

Qasım kişinin sözlərini olduğu kimi yazırıq.

Şahidlər burada nisbətən sərbəst danışır. Burada onlar əvvəlcə verdikləri ifadələri sanki inkar edirlər.

Məhkəmə Naxçıvan MSSR adından 26-27 noyabr 1941-ci ildə 103№-li hökm çıxarır, hökmdə

həm Bağırov Həmidə, həm də Quliyev Qasım Şıxəli oğluna 5 il həbs cəzası, 2 il isə seçkidə səsdən məhrum etmək göstərilir.

İşə SSRİ prokurorunun protesti əsasında SSRİ Ali Məhkəməsinin Cinayət İşləri üzrə məhkəmə kollegiyası A.Q.Qusyevin sədrliyi ilə kassasiya qaydasında baxılmış və özünün 29 avqust 1942-d il tarixli 521/42 seriyalı qərarı Naxçıvan MSSR Ali Məhkəməsinin 27.11.41-d il və Azərbaycan SSR Ali Məhkəməsinin 6.12.41-ci il tarixli hökmünü ləğv etmiş və işə yenidən baxılmaq üçün istintaqa qaytarılmışdır. /c.i.s.271/

Rejimin iş qaydasına baxın. Deməli, işə yenidən baxılmalı, müttəhimlər azad edilməlidirlər. Əslində isə necə olur. Naxçıvan MSSR Ali Məhkəməsi iclasının protokoluna baxırıq. /s.282/ İclas 15 fevral 1943-cü ildə olub. İclas protokolunun qərar hissəsində deyilir: Quliyev Qasım Şıxəli oğlunun və Bağırov Həmid Mərdan oğlunun A.C.K. 72-ci maddəsilə olan

işlərinə baxılması-mütəhimlər tapılana kimi dayandırılsın. Deməli belə. Adamı həbs edirlər, hara göndərirlər özləri də bilmirlər. Sən demə, işinə yenidən baxıb rəhmə gələrək bəraət vermək istədikləri Qasım Şıxəli oğlu bir il ondan əvvəl Naxçıvan həbsxanasında ölmüş imiş, Naxçıvan həbsxanasının rəisi Nağıyevin 3.3.42-ci ildə imzaladığı 155/40 saylı arayışla bildirilir ki, Quliyev Qasım 18.12.41-ci ildə həbsxanada vəfat etmişdir. Bu da bir insanın taleyi.

*****

## Məşədi Feyzulla Hacı Allahverdi oğlu[1]

*Досье товарищу Андреву*

Житель селения Солтанлы, что находится на границе с Ираном – Мешади Фейзулла появляясь на своем земляном участке, несколько часов занимается с оброботкой земли. Каждый день регулярно в обедном перерыве стоит лицом обращенным к Ирану, где на берегу Аракса находятся люди. С помощью разнообразных движений, что то передает им. То стоит под командой смирно, то руки поднимоет вверх, то наклоняется, то сидит на колени руку поднимоет. В это время те люди, которые находятся на берегу, реки, повторяют те же движения. Это, бессомненно говорить о том, что они солидарны, и хорошо понимают друг-друга. Толковая значения движения обеих сторон, можно сделать следующие выводы.

[1] Ən yaxın dostum Kamal Hacıyevin babasıdır (Cəbrayıl rayonu).

а) стоя смирно, без движения-значиг мы почему должны бездействовать?

б) наклонение – значит нас сгибают, эксплоатируют;

в) спуск на колени – значит нас поставили на колени;

г) вставание поднятие обе рука вверх на уровен головы – значит надо подняться и действовать;

д) обеими руками терет лицо – значит, мы должны руками показать свое лицо советскому строю.

*Сотрудник отряда Садко*

42-ci sərhəd zastavasına yenicə gəlmiş Sadko bu məlumatı verən kimi dəstəsinin rəisi Andreyev adam göndərib səhərisi gün Məşədi Feyzullanın şəklini çəkdirdi. Özü də inandı ki, nə isə deməkdir. Şəkilləri

idarəyə göndərdi ki, bu hərəkətlərinə nə demək olduğunu onlar da təsdiqləsin. Oradan belə bir cavab aldı.

-Вы слишком увлеклись с дезинформациями.

Эти движения ничего не означают. Это называется намаз! Который совершается мусулманами 3 раза в день. Последний раз вас предупреждаем: Если еще раз будете нас дезинформировать, будете наказаны!

Andreyev göndərdiyi məktuba "molodes" gözləyirdi. Amma əksinə oldu. O da eyni şəkildə Sadkonu xəbərdar etdi. Sadko isə – Хорошо, Мешади, погоди! – deyib günahsız və savadsız Məşədi Feyzullanı nə cür olursa olsun, "ilişdirmək" qərarına gəldi ki, "почему я должен был из-за тебя наказан?"

1931-ci ilin yazı təzəcə girmişdi. Novruz bayramından altıca gün keçmişdi. Hələ bayram əhval-

ruhiyyəsi adamları tərk etməmişdi. Cəbrayıl rayonunun Soltanlı kəndi aranda olduğu üçün dağ kəndlərinə nisbətən burada havalar istiləşmişdi. Kəndin sakini Məşədi Feyzulla səhər çayını içib beli çiyninə alanda arvadı Peykər arxadan onu səslədi:

-A kişi, nə olub səhərin gözü açılmamış işə gedirsən? Qoy bir hava isinsin də!

-Yox arvad, bu gün-sabah kolxoz işi başlayacaq, ondan sonra öz yerimi əkə bilmərəm!..

Məşədi Feyzulla öz dirrik yerinə gələndə günəş artıq yeri isitmişdi. Torpaqdan buxarla qarışıq gözəl bir qoxu da qalxırdı. Torpaqdan torpaq ətri gəlirdi. Qanı və canı ilə torpağa bağlı olan Məşədi Feyzulla bir neçə dəqiqə beləcə dayanıb dirrik yerini gözdən keçirdi. Sanki ürəyinə dammışdı ki, bu gözəlliyi son dəfə görür...

Nəhayət, içində bir neçə bayram qoğalı və bir bərni qatıq olan heybəni çiynindən götürüb özü əkib

becərdiyi, tumurcuqlanb, lakin hələ çiçək açmamış ərik ağacının haçasına keçirdi. Yavaşca ovcunun içinə tüpürüb əllərini bir-birinə sürtdü və beli əlinə alıb içi dolmuş arxı təmizlədi. Bu arxla suyu gətirib dirriyini suvaracaqdı. Bu vaxt elə bil kişinin bütün vücudu qurudu. Hannan-nana ağır bir tək səbir gətirdi. “İlahi, şükür sənin böyüklüyünə” deyib işə başladı (Sən demə tək səbir başqa şey deymniş). Kişinin başı isə o qədər qarışmışdı ki, gətirdiyi yemək də yadından çıxmışdı. Günorta keçmiş, gün əyilməyə başlamışdı. Onu oğlanları Muxtarla Bayramın səsi işdən ayırdı. Muxtar 21, Bayram isə 15 yaşında idi.

-Dədə, ay dədə!

Məşədi Feyzulla qəddini düzəldib alnının tərini sildi. Uşaqlar dirriyin o başında dayanmışdı. İt zəncir gəmirirdi.

-Dədə, ay dədə! Evə gəl, nənəm çağırır, – deyə Muxtar səsləndi.

-Nə olub, a bala, siz gedin mən indi gəlirəm.

Bayram daha diribaş idi, dirriyin ortasından palçığa bata-bata atasının yanına qaçdı.

-Dədə, bizə qazaxlar gəlib, nənəm də ağlayır. Quyunun yanındadırlar.

Məşədi Feyzulla:

-Əstafrulla, rəbbi tövbeyi ileyk! – deyib fikrə getdi:

-Deyəsən indi də məni qaralayıblar. Dalağı sancdı.

O, heybəni ağacın haçasından alıb çiyninə saldı, beli isə kolun içində gizlətdi ki, sabah götürər (nə bilə idi ki, bu, onun öz dirriyi, öz əmək aləti-illərdən bəri səliqə ilə işlətdiyi bel ilə son görüşüdü!).

Məşədi Feyzulla, oğlanları Muxtar və Bayram da yanında həyətə girəndə 4 yaşlı qızı Pakizə onun qabağına qaçdı, Qız ağlamaq istəyirdi.

-Dədə, tez gəl, iki adam gəlib, nə deyirsə nənəm bayaqdan ağlayır.

M.Feyzulla rusca, Andreyev və Sadko isə azərbaycanca bilmədiyinə görə kəndliyə dedilər:

-Пойдем, там поговорим, – deyə onu qabaqlarına qatıb apardılar. Kişi başını döndərib ailəsini süzdü: Möhkəm olun! - dedi. Bu Məşədi Feyzullanın arvadı Peykərlə, oğlanları Muxtar, Bayram, Məhərrəm, Allahverdi və qızı Pakizə ilə son görüşü oldu.

Sonradan məlum olub ki, bu iki nəfər Cəbrayıl rayon Sərhəd dəstəsinin 42-ci süvari alayının nümayəndələri Andreyev və Sadko imiş.

Beləliklə, Məşədi Feyzulla Hacı Allahverdi oğlu heç nədən, heç kəsdən xəbəri olmadan günahsız həbs edildi.

***Cinayət işi №1841***

1. Məşədi Fevzulla Hacı Allahverdi oğlu.

2. Nurullah Əmənullah oğlu.

3. Nazaralı Səfəralı oğlu.

Başlamb: 10 aprel 1931-ci ildə.

Qurtanb: 28 may 1931-ci ildə.

Soltanlı banditlərinə kömək edib, evlərində yer verdiklərinə və antisovet təbliğat apardıqlarına göra Azərbaycan Cinayət Məcəlləsinin 18, 79 və 72-ci maddələri ilə həbs edilmişlər.

Cəbrayıl rayon 42-ci süvari /kavaleriya/ sərhəd dəstəsindən Andreyev cinayət işi qaldırıb.

Şahidlər: Qaraş Abdulla oğlu, Ayna Cəbrayıl qızı, Zülfüqar Həsənov, Zeyni Həmzə oğlu, Səkinə Məhəmməd qızı, Gövüş İsmayil oğlu, Xıdır Əliyev, Qaragöz Mirhüseyn qızı.

Ayna Cəbrayıl qızı (Kənd arasında Şura Ayna adlanıb, kor Fərmanın qohumu Arvad Süleymanın arvadı olub, arvadın uşağı olmadığına, Şura üzvü olduğuna və əməllərinə görə arvadı Arvad Süleyman boşayıb) 35 yaş.

1930-cu ilin martında Sadkoya deyib: Мешеди Фейзулла Хаджы Аллахверди оглы является человеком настроенным против Советской Власти. Кроме этого, систематически вел агитацию, говорил *“старайтесь не вступать в колхоз, так как Советской Власти конце концов не будет. Ваши имущество колхоз не вернет. Рано или поздно Персия будет воевать Советской Россией”.*

**Orucov Qaraş Abdulla oğlu** /Orucov Lətifin qardaşı, Fərman müəllimin arvadı Orucova Məhluqənin atası/, 29 yaşında. 1931-ci ilin martında

şahid kimi deyib: Машади Фейзулла Гаджи Аллахверди оглы совместно с членом сел. Совета Абдул Али Гусейн оглы /Abışov Heydərin dediyinə görə, Hacı Mirzə/ вели открытую агитацию о том, что в селе необходимо иметь две колхоза... этим самым он хотел внести раздор в среде колхозников. Кроме этого, Машади Фейзулла производил своим скотом по траву колхозных посевов, так осенью 1930-го года Машади Фейзулла и его родственники испортили около 30 гектара посева колхоза.

**Həsənov Zülfüqar Məhəmməd oğlu**, 21 yaşında. 2 aprel 1931-ci ildə deyib: *"Сам Машади Фейзулла Гаджи Аллахверди оглы является злостным антиколхозником Постоянно вел активную агитацию против колхоза"* (Hacıyev Allahverdinin dediyinə görə, M.Feyzullanın qızı gözəllər gözəli Şamamanı istəyib, Məşədi verməyib).

**Zeyni Həmzə oğlu** /Məmmədov Süleymanın qardaşı/ 27 yaşında. 4 aprel 1931-ci ildə deyib: *"Машади Фейзулла Гаджи Аллахверди оглы в последнее время ведет усиленную агитацию против колхозного строительства... Maşadi Фейзулла по слухам, имеет связь со своим родственником бандитом Гасаном Назаралы оглы"*.

Feyzulla Allahverdi oğlunun anket məlumatı: 60 yaşında, savadsız, bitərəf, həbs olunmayıb. Ailə üzvləri:

Arvadı - Peykər Mənsumalı qızı, 50 yaşında, savadsız, evdar qadın.

Oğlu - Muxtar, 21 yaşında, əkinçi.

Oğlu - Bayram, 15 yaşında, əkinçi.

Oğlu - Məhərrəm, 9 yaşında.

Oğlu - Allahverdi 6 yaşında.

Qızı - Pakizə, 4 yaşında.

1/8 desyatin bağı olan bir daş evi olub, əvvəllər mühakimə olunmayıb. 28 mart 1931-ci ildə öz evində həbs edilib.

Sadkonun imzaladığı 42010/20 saylı orderlə həbs edilib.

28 mart 1931-ci ildə evində axtarış olub. Axtarışda iştirak edib: Sadko, zastavanın rəisi Medvedyev, Soltanlı kənd sovetinin sədr müavini Məhəmməd /protokolda Məmməd/ Əliyev.

Evində axtanş zamanı heç nə tapılmır, protokolda heç nə yoxdur. Kənd sovet sədrinin 5 aprel 1931-ci il tarixli arayışına əsasən əmlakı: bir dəvəsi, bir atı, iki inəyi, iki öküzü, on qoyunu, iki putluq balı, daş evi /daş damı/, daş tövləsi vardır.

9 aprel 1931-ci ildə özünü axtarıblar, 20 manat pulunu alıblar.

10 aprel 1931-ci ildə ilk dindirilməsi olub.

10.04.1931. POM. Up-qo 22 DPO Andreyev dindirir.

***İlk dindirmə protokolu***

**Sual:** Sizin banditlərdən İranda qohumlarınız varmı?

**Cavab:** Mənim İranda uzaq qohumum Həsən Nəzərəli oğlu yaşayır. O çoxdan İrana qaçıb və banditliklə məşğuldur.

**Sual:** Sizin Həsən Nəzərəli oğlu və başqa banditlərlə əlaqəniz varmı? Bu barədə nə deyə bilərsiniz?

**Cavab:** Mənim banditlərlə heç bir əlaqəm olmayıb, bu haqda mənə heç nə məlum deyil.

**Sual:** Siz kəndlilər arasında kolxoz əleyhinə nə danışmısınız?

**Cavab:** Mən hakimiyyət əleyhinə və kolxoz əleyhinə heç vaxt, heç yerdə heç nə danışmamışam.

**Sual:** Dediklərinizə daha nə əlavə edə bilərsiniz?

**Cavab:** Heç nə əlavə edə bilmərəm.

İmza yerində M.Feyzullanın barmaq izi var. /səh.33/

1931-ci il aprein 10-da həbs olunma haqqında qərar var. /səh.34/

28 may 1931-ci ildə işin qurtarması haqqında Andreyev protokol /səh.41/ tərtib edir. M.Feyzulanın barmağı basılır.

Azərbaycan SSR Baş Siyasi İdarəsi nəzdində xüsusi müşavirənin kollegiyasının protokolu: 7 aprel 1932- ci il.

**Eşidildi:** Azərbaycan SSR Cinayət Məcəlləsinin 18/79 və 22-ci maddələri ilə ittiham edilən Cəbrayıl rayonu Soltanlı kənd sakini Feyzulla Allahverdi oğlu /ortabab, təktəsərrüfatçı, savadsız, evli/ haqqında cinayət işi üzrə - 7579/ qərara alındı:

Заключить в концлагер на три года. Считая срок с 30.05.1931 г.

01.04.1932-ci il, 392 saylı arayışda xəstəxananın rəisi Qayıbov Bakı həbsxana işlər rəisinə yazır: Согласно распоряжению уполномоченно СПО Аз. ГНУ тов. Дмитрееву сообщаю, что при медицинском соведительствании заключенных найдено следующее:

1. Нурулла Аманулла оглы - 27 лет неполное расширение левой руки в локтевой суставе. Хроническое молозрение. Катарат первой верхушки. Труду годен.

2. Фейзулла Аллахверди оглы - 60 лет. Полное отсутствие зубов. Резкое исгошение. Состаяние тяжелое, находится в больнице.

***Ölüm haqqında akt***

Xəstəxanada müalicə olunan Feyzulla Allahverdi oğlu 1932-ci il aprel ayının 8-də sınqa və qocalıq mərəzi xəstəliyindən ölmüşdür.

**Xəstəxananın müdiri:** Qayıbov

**Dəftərxana müdiri:** Liberman

Зам.нач.отряд. ДПО Бусарев и делопроизводител. Челканов Началнику УСО Аз. ГПУ гор. Баку. КОПИЯ нач. УСО. Зас. ГПУ г. Т-в.

Фейзулла Аллахверди оглы по имеющимся сведениями 1932 году в в УСО Аз. ГПУ тов. Воронову.

Нач. Бак. Дом. Зак. Качер, и нач. канц. Либерман. Направляем копию акта о смерти Фейзулла Аллахверди оглы. 07.04.1933

***АКТ***

1932 апреля 8 дня пока на излечении в больнице. И.Г.З. М.Фейзулла умер от цинги и старчески маразма. Зав. Бол. Гаибов, нач. канц. Либерман.

Выписка из протокола особого совещания от 21 июня 1932 г.

Beləliklə, heç kəsdən, heç nədən xəbəri olmayan sakit, mömin bir bəndə Məşədi Feyzullanın ömrünə son qoyuldu.

*********

**Kazımov Abdulla Rəcəb oğlu**

1936-cı ildən başlamış olan repressiya davam etməkdə idi. Bu, 1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması ilə bağlı olaraq bir qədər də şiddətləndi. Müharibə gedən ölkədə əks-təbliğat bayrağı altında adamları, xüsusilə Azərbaycan vətəndaşlarını məhv etmək üçün böyük bəhanə yaranmışdı. Erməni fitnəkarlığı xalqımıza qarşı Stalinin yanında düşmən obrazı yaratmışdı. Krım tatarlarını və başqa türkdilli tayfaları tamamilə öz ata-baba yurdlarından köçürən şovinistlər Mikoyan öz havadarlarının köməyilə Azərbaycan xalqını da köçürmək haqqında layihə hazırladı. Bəli, tək bircə Stalinin imzası qalmışdır ki, Mikoyan və başqa mənfur "yanların" böyük Ermənistan ideyası reallaşa bilsin. Bu, çirkin iş baş tutmadısa da, xalqmızın qeyrətli oğullarının soyqırımı davam etdi. Belə ki, mərkəzdən ziyalı təbəqəsi, kənddə isə "başbilənlər" məhv edilirdi. Repressiya qurbanı olmuş dilçi

alimlərin taleyini araşdırarkən filologiya elmləri namizədi, Azərbaycan Dövlət Universitetinin dosenti Yaqub Əliyevin işinin içində Kazımov Abdulla Rəcəb oğlunun da işinə rast gəldik. Hər ikisi üçün bir cinayət işi başlanıb. Kimdir Kazımov Abdulla?

3 avqust 1942-ci ildə başlanmış 5119 №li cinayət işindən məlum olur ki, 1912-ci ildə Ordubad rayonunun Dəstə kəndində anadan olmuş, ədəbiyyat müəllimi "Yevlax stansiyasında təşviqat məntəqəsinin müdiri" işləmiş Kazımov Abdulla Rəcəb oğlu guya 1939-cu ildən başlayaraq əksinqilabi təxribat şayələri yaymışdır. Guya o, partiyanın milli siyasətinə qara yaxmışdır. Sovet xalqlarının rifahının pisliyi haqqında şayələr yaymışdır. "Sovinformbüro"nun məlumatlarına inamsızlıq göstərmişdir. İddia etmişdir ki, Hitler Almaniyası müharibədə qalib gələcək. O, millətçilik ruhunda köklənmiş elementdir. Qatı türkofildir. Həmişə türk şair və yazıçılarının

yaradıcılığını tərifləyir. SSRİ-nin İrana və Türkiyəyə qarşı qəsbkarlıq niyyəti olduğunu təbliğ edir.

Bu sözlər Kazıınov Abdullanın 25 iyul 1942-ci ildə həbs edilməsi uçün tərtib edilmış protokolun "müəyyən etdim" hissəsidir. Həmin qərar yenə təhlükəsizlik xidməti mayoru Qriqoryanın göstərişi ilə qəbul edilmişdir. Təxminən dörd aydan sonra Kazımov Abdulla Rəcəb oğlunun ittiham qərardadı hazır olur. 6 dekabr 1942-ci ildə Həmidov, Papov və Qriqoryanın tərtıb etdikləri Azərbaycan SSR XDİK Yaqubovun və Azərbaycan SSR prokuroru Cəbrayılzadənin təsdiq etdikləri ittihamnamədə əvvəlcə deyilmiş sozlər təkrar edilir. İttihamnamənin 3-cü səhifəsində deyilir: *"Kazımov Abdulla Rəcəb oğlu Əliyev Yaqub Fərəc oğlunun /ş.i.s. 12, 28, 44, 43 və 47/ dindirmələri ilə ifşa edilir"*. Qəribədir, onun ardınca da cinayət işindəki /43, 47, 15, 19, 24-26, 27-ci səhifələrdə/ Əliyev Yaqubu da guya Kazımov Abdulla ifşa etmişdir.

Buna görə də, istintaq işi tamamlandığı, müttəhimlərin ictimai təhlükəsizliyi müəyyən edildiyi üçün həmin cinayət işi Azərbaycan XDİK sərhəd dairəsinin hərbi tribunalına göndərilsin /s.66/. 1942-ci il dekabrın 20-də Bakı şəhərində XDİK Azərbaycan SSR üzrə hərbi tribunalı 3375 №li hökmü ilə Sovet Sosialist Respublikaları İttifaqı adından Kazımova Sima üçün məlumat vermək istərdim ki, atanızın şikayətinə cavab olaraq 22 may 1947-ci ildə Azərbaycan SSR DİN-in hərbi prokurorunun müavini ədliyyə mayoru Mirzoyan guya işi nəzərdən keçirib qərara gəlir:

Müttəhim Kazımov Abdulla Rəcəb oğlunun şikayəti təmin edilməsin və həmin şikayət üzrə nəzarət işi dayandırılsın. Sizin 26.11.58-ci ildə atanızın bəraət verilməsi haqqındakı ərizəyə qədər atanız bir neçə dəfə görünür, ərizə ilə şikayət etmişdir. 1950-ci il 18 fevral tarixində DİN Azərbaycan SSR üzrə hərbi prokuroru Kupsovun təsdiqi ilə onun

köməkçisi ədliyyə kapitanı Arutyunov belə bir qərar qəbul edib:

1. Kazımov Abdulla Rəcəb oğlunun şikayəti əsassız olduğu üçün təmin edilməsin.

2. 6 yanvar 1950-ci il tarixli 2/3 №29219-47 saylı tələbnaməyə əsasən həmin qərarın surəti SSRİ DİN hərbi prokurorluğuna göndərilsin.

3. Qəbul edilmiş qərar haqqında şikayətçiyə məlumat verməmək. Çünki bunu SSRİ DİN Hərbi Prokurorluğu edəcək /ş.i.səh.90/.

Görünür, Kazımov Abdulla 1950-ci ildə sag imiş, çünki cinayət işinin 109-cu səhifəsində SSRİ DİN 3 şöbəsinini birinci xüsusi bölməsinini rəis müavini Çijov Azərbaycan SSR NS yanında DTK-ın İstintaq şöbəsinin rəisi Məmmədovun 19. UP-1958-ci il tarixdə etdiyi 6/815, 6/816 saylı sorğuya cavab olaraq yazır: Kazımov Abdulla Rəcəb oğlu cəzasını çəkmək üçün 13. UP. 1947-ci ildə Kizellaq şəhərinə

gəlmiş, amma azad edilməsi haqqında məlumat yoxdur. Onunla birlikdə buraya gələn Əliyev Yaqub Fərəc oğlu 30 mart 1943-cü ildə ölmüşdür. Qəribədir. Sizin ərizənizə əsasən, 12 yanvar 1959-cu ildə işə yenidən baxılmışdır. Yəqin müstəntiq bir də yoxlanmışdır. Kazımov Abdullanın 1949-cu ildə vəfat etməsi haqqında sizin ərizəyə əsaslanmışdır. Bundan sonra hərbi tribunalın qəranın əsaslı hesab etmişdir /səh.114-116/. “Dünya xali deyil” – deyiblər. 1960-cı il 7 iyulda SSRİ Baş prokurorunun müavini birinci dərəcəli ədliyyə müavini A.Mişutkin Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə Məhkəmə kollegiyasına müraciət edərək xahiş edir: Azərbaycan SSR XDİK hərbi tribunalının Kazımov Abdulla Rəcəb oğlu və Əliyev Yaqub Fərəc oğlu haqqında 20 dekabr 1942-ci il tarixli hökmü ləğv edilsin. İttihamın sübut edilmədiyi üçün Kazımov Abdulla Rəcəb oğlu və Əliyev Yaqub Fərəc oğlunun işinə xitam verilsin /səh.124 №li 3878/. Cinayət işinin 127-ci səhifəsində Azərb.SSR Ali Məhkəməsinin Cinayət işləri üzrə

Məhkamə kollegiyasının Əliyev Yaqub və Kazımov Abdullaya bəraət verilməsi haqqında qərarı vardır.

# PARLAQ ZƏKA ÜÇÜN QARANLIQ BUCAQ YOXDUR

Biz Azərbaycanda ilk dəfə olaraq bir sahə üzrə repressiya qurbanları haqqında kitab yazdıq. Qeyd edək ki, sovet-bolşevik rejimi dövründə həyatın və elmin elə bir sahəsi yox idi ki, repressiya tufanı oranı yerlə yeksan etməsin. İnanırıq ki, gələcəkdə bütün elmlər üçün repressiyanın qurbanı olan alimlər haqqında monoqrafik əsərlər yazılacaqdır.

Onu qeyd etmək lazımdır ki, 70 il törədilmiş bu repressiya gizli – xüsusilə, tamamilə məxfi şəkildə saxlanılırdı. Bunun üçün güclü ədalətsiz qatil repressiya olmalı idi. Son söz olaraq, KQB (DTK) orqanlarına işverən və onların Azərbaycandakı daşnak icraçıları haqqında və zülmətdə törədilən qətliamları əvvəlcədən və ya kənardan, içəridən görüb onu qiymətləndirən, habelə ifşa edən insan idrakı

haqqında, bundan əlavə öz çirkin məqsədləri üçün insanları qırğına verən, ərazilərini zəbt edən mənfur kateqoriyalar haqqında kitaba bir qədər əlavə etmək istərdik.

Çox vaxt insanlar düşdüyü şəraiti düzgün qiymətləndirə bilmədikləri kimi ətrafda baş verən hadisələrin mahiyyətini düzgün dərk edə bilmirlər. Bunun səbəblərindən biri və birincisi hadisə və şəraitə yanaşma bucağının optimal olmasıdır. Optimal yanaşma isə dərin zəka və obyektiv qiymətləndirmə bacarığı tələb edir. Bu problemin düzgün dərk edilməsi işıqlı, parlaq zəka, obyektiv yanaşma tələb edir. Hər hansı bir hadisəyə savadlı – geniş prizmalı yanaşma onu düzgün qiymətləndirməyə kömək edən əsas şərtdir. Bunu kiçik insani münasibətlərdən tutmuş qlobal hadisələrin qyimətləndirilməsinə qədər təzahür edən subyektiv münasibətlərdə də görmək olar. Bu gün İran adlandırılan qədim türk diyarında baş verən, beynəlxalq miqyasda insanlığa utanc gətirən

hərəkətlərin qiymətləndirilməsində gedən mübahisələrdən bunu aydın şəkildə görmək olar. Çünki biri fars – molla rejiminin siyasi mahiyyətini başa düşmədən onları dünyaqoruyucusu kimi dəyərləndirir. Bəziləri isə məsələyə aydın idrak duyğusu ilə yanaşaraq fars – molla rejiminin faşist-despot xarakterini aça bilir. Bu haqda geniş danışmaq bizi məqsəddən uzaq sala bilər. Məqsədimiz keçən əsrin əvvəllərindən başlayaraq Azərbaycana qənim kəsilən bəzi hadisə və təsirlər haqqında qısaca bəhs etməkdir. Keçən əsrin əvvəllərində xalqımızın başına gətirilən müsibətlər məhz hadisələri və onu törədənləri düzgün qiymətləndirə bilməməyimiz olmuşdur. Amma burada məcburiyyət faktorunu da unutmaq olmaz. Belə ki, adamlar məcburiyyət şəraitində olduğu yanlış məlumatlar dənizində yalanlar dünyasına qərq olur, obyektiv aləmi görə bilmir. Məsələn, Biz tələbə olanda bizə belə çatdırırdılar ki, dostluq simvolu Şaumyan – Əzizbəyovdur. Buna görə də A.İsaakyan öləndə mən

birinci kurs tələbəsi olaraq ona matəm elegiyası yazmışdım:

*Dolanıb qəlbimdə kədərli xəbər,*

*Birdən iynə kimi qanı sıxıldı.*

*Mənalı ömründə göstərib hünər,*

*Avetik cərgədən artıq yox oldu.*

Məqsəddən uzaq düşməmək üçün qeyd edək ki, burada məcburiyyət yox, düşüncə qaranlığı əsas faktor olmuşdu.

Yenə tarixə müraciət edək: Oktyabr inqilabına adamlar bəşəriyyətin xilaskar hadisəsi kimi baxırdı. O vaxtlar bu hadisəni düzgün qiymətləndirmək çox çətin idi. Çünki bolşevik-proletar diktaturası haqqında bircə obyektiv fikir demək olardımı?

Amma C.Məmmədquluzadə hadisələrin gedişini işıqlı zəka ilə qiymətləndirərək başa düşürdü ki, fəhlə və kəndlidən – savadsız proletariatdan hökumət

olmaz. Bundan əlavə, 300 ilə qədər bir dövrdə Azərbaycan-türk-müsəlman xalqlarına zülm etmiş bir dövlət heç vaxt bizə dost kimi yanaşmayacaq. Ona görə də Əli Nəzmiyə mövzunu verib fikrini şeirə çevirməyi xahiş etmişdi. Bolşevik rejimi kimə nə verəcək sualını belə anladırdı:

*Ölkəmizdə mövcud olan hürriyyət*

*Millətlərə böylə eyləsin qismət,*[2]

*Fin xalqına yırtıq-yarım istiqlal,*

*Polyaklara dolu vədə bir çuval.*

*Ukraynalıya muxtariyyət su, torpaq,*

*Türküstanlı müslümlərə şapalaq,*

*Litvalıya istəyincə ixtiyar,*

*Buxaralı, xivəliyə zəhrimar.*

*Qazaxlara zər zad ilə Quban, Don,*

---

[2] Əslində *edəcək qismət* demək istəmişdir.

*Ləzgilərə, çərkəzlərə, poşol von!*

*Latışlara, ayrımlara pay çox az,*

*Cuhudlara, tatarlara beş qapaz.*

*Xaxollara yerləşməyə buyuruq,*

*Krımlıya, qırğızlara yumuruq.*

*Rumınlərə yurd və yuva, yol, iqbal,*

*Yerli-yurdlu gürcülərə infial.*

*Qreklərə hər nə desə çal çəpik,*

*Azərbaycan türklərinə vur təpik!*

*Uruslara mumtaziyyat, ağalıq*

*Erməniyə imperiyada darğalıq!*

Bu şeir Mirzə Cəlilin satirik üsulla verdiyi açıqlama onun hadisəyə necə parlaq zəka ilə yanaşdığını göstərirdi.

Əslində, qaranlıq-zülmət törədən də onu işıqlandıran zəka ziyası da insana aiddir. Elə insan vardır ki, nəyinsə xatirinə elə işlər görür ki, milyonlar bu işdən zərər çəkir, elə insan da vardır ki, öz zəkası ilə milyonlara həyat verir. Bu fikri bir neçə il bundan əvvəl yazdığımız bir şeirdə belə ifadə etmişdik:

*Əl var ki, millətin qanına batıb,*

*Cibinə pulları doldurmaq üçün.*

*Əl var ki, gecəni gündüzə qatıb,*

*Vətəni göylərə qaldırmaq üçün.*

*Əl var ki, asanca mətləbə çatıb,*

*Bir daş qoymamışdır bir daşın üstə.*

*Əl var ki, işləməkdən qabar atıb,*

*Manatı görməyib manatın üstə.*

*Əl var ki, yaranıbdır "əl tutmağa",*

*Əl var ki, cinayət işləsin gərək.*

*Əl var el malını evə dartmağa,*

*Əl var ki, hamıya o verir çörək.*

Bu dediklərimiz insanın işi – praktik fəaliyyəti ilə bağlıdır. Amma burada əlin gördükləri işin beyindən, zəkadan idarə olunduğunu da unutmaq olmaz.

Yeri gəlmişkən, insan ağlının idarə – fəaliyyət istiqamətləri də bu problemlə bağlıdır. Yeri gəldiyi üçün iki nəfər XX əsr insanı ötəri müqayisə etmək istədik. Bunlardan biri mənfur erməni xalqının sevimli oğlu (sovetlər dönəmində hamının sevimli rəhbəri olmuş) A.İ.Mikoyan.

İkincisi, bütün dünyaya – Şərqə öz müdrik zəkası ilə örnək ola bilən M.Ə.Rəsulzadə.

**Anastas Mikoyan (1895–1978)**

Tiflisdə erməni ruhani seminariyasını bitirmiş, Bolşeviklərdən istifadə etməyin mümkünlüyünü görüb 1917-ci ildən onlara qoşulmuşdur. Bir ildən sonra – 1918-ci ildə "Известия Бакинского Совета" qəzetinin redaktoru kimi Şaumyanla çiyin-çiyinə işləmişdir. Bakı Soveti – Şaumyan hökuməti devrildikdən sonra Qafqaz ölkə komitəsinin üzvü kimi Moskvaya getmiş Leninlə görüşmüş, erməni yaltaqlığı ilə onun qəlbinə girmişdir. 1920-ci ilin aprelində XI Qızıl Ordu ilə Bakıya gəlmiş və məkrli siyasətinin və erməni ikiüzlülüyünün köməyi ilə Azərbaycan Həmkarlar təşkilatının rəhbəri olmuşdur.

Sonra Nijni-Novqorod sonra isə Rostov vilayət Partiya Komitəsinin katibi olmuşdur. 1925-ci ildə Levan Mirzoyanın Azərbaycan Kommunist Bolşeviklər Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçilməsinə kömək etmişdir. 1926–1946-cı illərdə Moskvaya getmiş Leninin yoxluğundan

Stalinin yaltaq sevərliyindən istifadə edərək SSRİ xalq xarici ticarət, daxili ticarət, yeyinti sənayesi komissarı, XKS sədrinin müavini işləmişdir. 1936-cı ildə Stalinin repressiya yaratmaq meylindən istifadə edərək sentyabr ayında Beriyanı da özü ilə götürüb İrəvana gedir. Oradan belə bir sənəd gətirir ki, Ermənistanda Sovet hökumətini istəməyənlər Ermənistanda da vardır. Onlar yalnız azərbaycanlılardır. Buna görə də minlərlə azərbaycanlının repressiya dəyirmanına atılmasına nail olur. Bəs 1929-cu ildə Azərbaycanın rəhbəri KP MK-nın birinci katibi Levon İsayeviç Mirzoyan Azərbaycan-Ermənistan sərhədlərinin delimatasiyası və demarkasiyası üçün yaradılan Azərbaycan Komissiyasının rəhbəri İşxanyanı təsdiq etdirmək üçün Mikoyan kömək etmişdir. Bu komissiya Meğri dəhlizini araya gətirib Naxçıvanı Bakıdan ayırdı. Meğri və iki rayonu Ermənistana verdi.

**Daha başqa bir misal:**

*"Jurnalist Musa Bağırov Hindistanın Mədrəs şəhərində olarkən latış mühacirləri və fars tacirləri ilə tanış olur. Onlar Musaya deyirlər ki, keçmiş Bakı Komissarı Şaumyan axır vaxtlara qədər (1965-ci ilə qədər) burada yaşayırdı. M.Bağırov 26 Bakı komissarı A.Çaparidzenin qızı ilə də söhbət aparır. Lutsiya Çaparidze S.Şaumyanın 1918-ci ildə öldürüldüyünə əsaslı şübhələr olduğunu bildirir" ("Xalq" qəzeti, 7 may 1993).*

*"1918-ci ildə ara qarışdığını görən A.Mikoyan mart qırğınlarından dərhal sonra T.Əmiryanla birlikdə Bakıda xalqın 20 milyon qızıl pulunu toplayıb aparmışdır" (A.Mansurov. "Tarixin ağ ləkələri və yenidənqurma". Bakı, 1991, səh.102).*

Böyük Ermənistan yaratmaq üçün böyük ərazi və böyük məkrli siyasət lazımdır. Yenə Mikoyanın məkrli planı jurnalist Musa Bağırov 1972-ci ildə

istefada olan Marşal Q.K.Jukovla görüşərkən sərkərdə ona aşağıdakıları danışır: *"1942-ci ildə Stalinin yanında olarkən təsadüfən ali rəhbərliyin Azərbaycan xalqının köçürülməsinə dair məsləhətləşmənin şahidi oldum. Beriya soruşdu ki, bu kimin təklifidir? Stalin əlindəki 5-6 vərəqlik sənədi göstərib dedi ki, Anastasın".* Jukov deyir ki, *"hamı, hətta mən də Azərbaycanın köçürülməsinə razılaşdım. Yalnız Beriya etiraz etdi. Göstərdi ki, Azərbaycanın qələbəmizə köməyi əvəzsizdir. Azərbaycan xalqı sədaqətli xalqdır, müharibədə qəhrəmancasına vuruşur".* Jukov demişdi ki, *sonra Beriya M.C.Bağırovla Stalinin qəbulunda oldu və Mikoyanın planı pozuldu ("Haqqın üstünü örtsələr də zaman açır". "Xalq" qəzeti 7 may 1993, səh.3).*

Başqa bir misal 1963-cü ildə Mikoyanın təşəbbüsü ilə Amerikada yaşayan erməni diasporu adından Sov. İKP baş katibi N.S.Xruşova məktub yazıb ona erməni xalqına kömək üçün təşəkkür edir

və xahiş edirlər ki, Naxçıvan və Qarabağı da Ermənistana versin. Siyasi büroda məsələ müzakirə edilir. Azərbaycan KP MK-nın katibi Nazim Hacıyev də bu iclasda iştirak və çıxış edərək bu təklifin qeyri-qanuni və mümkünsüz olduğunu deyir.

Bu vaxt Sov.İKP MK siyasi bürosunun üzvü olan A.Mikoyan deyir: *"Bu, millətçidir. Onun çıxışı beynəlmiləlçiliyə düşməndir".*

Buna cavab olaraq Xruşşov deyir:

-*Yaxşı, o öz xalqının mənafeyini müdafiə edir. Bəs sən kimi müdafiə edirsən? ABŞ-da yaşayan diasporu?*

Bununla məsələ bitir. Amma gecə N.Hacıyevin qapısı döyülür ki, "Sən xəstəsən". Ona elə bir iynə vururlar ki, N.Hacıyev 2 ay da yaşamadı.

1965-ci ildə A.Mikoyan SSRİ Ali Sovetinin sədri kimi, erməni genosidinin 50 illiyi adlı qondarma bir tədbir keçirilməsinə icazə verir (alır). Həmin il

qondarma genosidin 50 illiyi 1965-ci ilin aprel ayının 23-də 400 min nəfərlik bir mitinq keçirir ki, İrəvan indiyədək belə bir tədbir görməmişdi. Bu hadisə haqqında Yakov Zarobyan Mikoyanla danışanda demişdi: *"İndi hər şey öz əlimizdədir"*.

Anastas Mikoyanın belə qeyri-insani hərəkətlərindən çox danışmaq olar. Adam düşünür Mikoyan Stalinə hansı yaxşılığı etmişdi ki, bu daşnak ən böyük uca mərtəbəyə qalxıb istədiyini edirdi.

Düşünülə bilər ki, "Mikoyan öz xalqına xidmət etmişdir". Amma bilmir ümumbəşəri norma da vardır ki, başqasının zərərinə (nəinki milyonların məhvinə) səbəb olan bir iş – fəaliyyət müsbət dəyərləndirilə bilməz. Bu ali insani qanundur. Belə adamlara şöhrət heykəli də qoyula bilməz. Ədalət, vicdan, insanlıq buna etiraz edər. Mikoyan da insanlığına etiraz edilən "dövlət xadimi"dir.

Bu dediklərimiz məlun daşnak kommunist bolşevik titulu arxasında gizlənmiş A.Mikoyanın törətdikləri zülmət arxasındakı cinayətlərin bir qismi idi. Bu mahir yaltaq, ikiüzlü daşnak-bolşevik qiyafəsində 21 oktyabr 1978-ci ildə türklərin cəhənnəminə vasil olana qədər bircə gün də zülmətdə – xəlvətcə türkə-müsəlmana qarşı genosid fəaliyyətini dayandırmamışdır. Bunların hamısını humanist zəka ziyası işıqlandırıb dünyaya çatdırır.

İndi də yuxarıda dediyimiz kimi, Şərqin böyük humanist dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə haqqında bir neçə məqamı yada salaq. Əvvələn, oxucuda belə bir sual yarana bilər ki, Mikoyan hara? Məhəmməd Əmin hara? Bunları necə müqayisə etmək olar? Əlbəttə, insanlıq görüşlərinin əks qütbləri kimi onları müqayisə edə bilərik. Bəzi ümumi cəhətlərə baxaq:

1) Onların hər ikisi Stalinlə yaxın idi.

2) Hər ikisi dövlət xadimi idi.

3) 1920-ci ilə qədər hər ikisi Stalinə lazım idi.

Ayrılan cəhətləri:

1. Mikoyan çox sırtıq və yaltaq idi. 90-cı illərdə "Огонёк" jurnalı onun haqqında deyilməsi mümkün olmayan Mikoyan-Stalin münasibətləri vardı.

2. Mikoyan öz alçaq daşnak məqsədinə çatmaq üçün hər cür həqarəti rəva görərdi və gördü də.

Məhəmməd Əmin Rəsulzadə isə:

1. Kişi türk, əqidəli müsəlman idi.

2. O, istəsə idi Stalinə Mikoyandan daha yaxın ola bilərdi. Amma bunu öz kişiliyinə, qeyrətinə, milli mənliyinə sığışdırmadı.

3. Rəsulzadənin Stalin üzərində haqqı Mikoyandan min dəfə çox idi.

Belə ki:

1. Məhəmməd Əmin Rəsulzadənin atası oğru Stalini Novxanı məscidində öz minbərinin altında gizlətmiş, yedizdirib içirtmişdi. Soruşanlara isə belə cavab vermişdi:

-Koba burada yoxdur!

Polis-jandarmlar nüfuzlu ağsaqqal mömin kişinin sözünə baxıb oradan ayrılmışdılar.

2. Hüquq orqanları Kobanı həbs etmişdilər. Onu ölüm hökmü gözləyirdi. Ali dini ruhani ağsaqqal Məhəmməd Əmin Rəsulzadənin atası Hacı Molla Ələkbər lazımi şəxslərə təmənna edərək onu ölümdən xilas etdi.

3. Stalin də bu yaxşılığı unutmur.

**Haşiyə:**

*1920-ci il aprelin 27-də Sovet Rusiyasının qoşunları Azərbaycana hücum edəndə bir çox deputat hakimiyyəti Bolşeviklərə təhvil verməyi təklif*

*etmişdilər. Rəsulzadə bir sədr kimi bu təklifə qarşı çıxmış, xalqı bolşeviklərə qarşı mübarizəyə qaldırmağı təklif etmişdi, lakin Parlament təslim olmağa qərar verir. Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Rəsulzadə Azərbaycanı tərk etməkdən imtina edir. Partiyasının gizli təşkilatını yaradır və müstəqillik uğrunda mübarizəni davam etdirmək istəyir. Sovet kəşfiyyatı onu addım-addım izləyir. Buna görə də 1920-ci il avqust ayının 17-də Lahıc kəndində həbs olunur.*

*Stalin Rəsulzadəni azad etmək üçün Bakıya gəlir. O vaxt bir neçə ay DTK-nın sədri olan S.A.Pankratova həbs edilib güllənməli olan 20 nəfərin içində Məhəmməd Əminin də adı verilmışdı (siyahını aldadılmış bolşevik, sonradan DTK-nın qurbanı kimi güllələnən Ə.Q.vermişdi).*

*S.Pankratovun kabinetində Məhəmməd Əminlə görüşən Stalin onu özü ilə bərabər qatarla Moskvaya aparır. Buradan o, Sankt-Peterburqa göndərilir.*

*M.Ə.Rəzulzadə başa düşürdü ki, Bolşevik rejimi 26 Bakı Komissarlarından daha amansız olacaqdır. Buna görə də 1922-ci ildə Stalinə bir məktub yazaraq*[3] *Finlandiyaya gedir.*

Burada da öz əqidəsindən dönməyən Məhəmməd Əmin 1953-cü il mayın 28-də "Amerikanın səsi" radiosu ilə doğma xalqına müraciət edir.

**Stalina məktub**

*"Möhtərəm Stalin,*

*Qurtuluşum dostlarım üzərində xoş bir heyrət təsiri buraxmışdır. Onlar, təbii, haqlıdırlar. Fəhlələrdən bir çoxu müsavatçı olduqları üçün güllələnmədilərmi? Bu saatlar daxilində, adı çəkilən partiyanın rəisi olmaq hesabilə mənim qurtuluşum bir növ möcüzə imiş. Vaqiənin tərifi, bu tədbirə layiqdirsə, insaf tələb edir, qeyd edim ki, bu möcüzənin səbəbi-kəraməti Sizsiniz; çünki keçmiş*

[3] Məktub əlavə edilir.

*dostluğu unutmayaraq məni Bakı zindanından çıxarmağa lüzum gördünüz.*

*Moskvada olduğum iki il əsnasında dostluğumuzdan faydalandım. Bəzi məhrumiyyətlərə məruz qaldımsa da bunlar hər kəsin ümumiyyətlə yükləndiyi məhrumiyyətlərdən ibarət olub, mənə aid bir xüsusiyyətə malik deyildir. Əksinə, bəzən elə olurdu ki, bir sıra imtiyazlardan belə faydalanırdım. Bunun üçün Sizə təşəkkür edirəm.*

*Moskvadan ayrılarkən Sizinlə görüşə bilmədim. Çünki Rusiyanı gizlincə tərk etməyə qərar vermişdim. Bu hərəkətimdə Sizə qarşı hörmətsizlik görməyəcəyinizə ümid edirəm. Səfər üçün icazə istəmədim; işin mənfi tərəfini mülahizə etdim. Bəlkə Siz icazə verməzdiniz; o zaman hər nə cür olsa da Rusiyanı tərk etmək haqqındakı qərarımdan tamamilə vaz keçmək lazım gəlirdi. Halbuki bu, mənim üçün mümkün olan iş deyildi. Çünki bu, özümü təcrid etmək və əbədi olaraq tam bir fəaliyyətsizliyə məhkum etmək*

*demək idi. Eyni zamanda bu, Rusiyada cərəyan edən hadisələrin və hüsulə gəlməkdə olan halın dilsiz bir müşahidi qalmaq olardı.*

*Hazırda Rusiyada hüsulə gələn hadisələr isə bundan yüz il əvvəl cərəyan edən hadisələrdən başqa bir şey deyildir. Yüz il əvvəldə olduğu kimi indi də Rusiya müstəmləkələri bir yerə toplamaqdadır.*

*Taleyin hökmü ilə hakimiyyəti ələ keçirmiş kommunist firqəsi ideologiyanın bütün cəbhələrində geri çəkilə-çəkilə keçmiş rus imperiyasının bərpası fikrinə dayandı. Bu fikir isə firqənin ideoloji şüarlarından ziyadə hakim olduğu mühitin cahangiranə təmayüllərindən doğmuş bir sıra mənafe və hədəfə malikdir. Bir hökumətin rəsmi ideologiyası zadəgan şovinizmindən fəhlə kosmopolitizminə təbəddül edərsə, bundan məsələ çox da dəyişməz və ən sonunda geridə qalmış və az inkişaf etmiş millətlərin milliyyətlərindən məhrum olmasına (denasionalizə olması), digər bir milliyyətə təmsilləri (assimilizə*

*olmaları) kimi bir nəticəyə səbəb olur. Yerli fəhlə (proletariat) sinfinə istinad iddiasilə əldə silah Qafqaz və Türküstan kimi ucqar vilayətlərdə əmələ gəlmiş olan demokratik siyasi təşəkkülləri işğal etdiyiniz zaman ümumiyyətlə, sabiq imperiyanın çarizm siyasətiylə ruslaşdırılmış müstəmləkə şəhərlərindəki rus fəhləsindən ibarət ən kiçik azlığın arzusuna uyğun olaraq böyük bir çoxluq təşkil edən yerli əhalinin ən qanuni bir haqqını kobud bir surətdə çeynəmiş olursunuz. Fəhlənin Azərbaycan və ya Türküstanda diktatura elan etməsinin Moskva diktaturasından başqa bir şey olmadığı günəş kimi aşkardır.*

*Əski Petroqrad dövrünün siyasəti də bundan başqa bir şey deyildi. Ucqar vilayətlərin muxtariyyat şəklindəki zahiri görünüşü də ciddi bir şey ifadə etməz. Azərbaycan xanlıqlarının ilk Qafqaz "namesnikləri" (canişinləri) zamanındakı istiqlalları indiki Qafqaz cümhuriyyətlərinin "Zakkraykom" (Zaqafqaziya vilayət komitəsi) baş katibləri*

*zamanındakı istiqlallarından heç də az deyildi. Ortadakı fərq olsa-olsa, indiki cümhuriyyətlərin dağılması prosesi o zamankı xanlıqların dağılma prosesindən daha artıq olmasından ibarətdir.*

*Bolşevik partiyasının mərkəziyyətçi olduğunu bildiyimdən bu partiyanın növü özünəməxsus bir imperialist olduğunu sezmiş və zəruri bir dəyişikliyə keçə biləcəyini daha əvvəl söyləmişdim. Qeyri-ixtiyari müşahidəçi durumunda olduğumdan bu dəyişmə gözlərimin önündə baş verirdi. Moskvada olduğum iki il ərzində mən Şərq millətlərinin və xüsusilə türk ellərinin nicatının yalnız özlərində, özünü bir millət kimi tanımalarından ibarət olduğuna qəti surətdə inandım. Bunun üçün sisteminizdə millətin özünə bəslədiyi bu inamın kökündən yox edildiyini və milli anlamının milli inqilab anlamına təbdil edildiyinə soyuqqanlı baxa bilmirdim.*

*Sizin istədiyiniz bu mübadilə baş tuta bilməz. Şərq millətləri kommunist həyatı ilə deyil, öz milli həyatları ilə yaşamaq istəyirlər.*

*Bu məqsədlə də onlar özlərini əsir edən qüvvələrə qarşı mübarizə aparırlar və bu mübarizələrində onlara yardım edə biləcək müttəfiqlər axtarırlar. Bir zaman onlar Vilsonun prinsiplərinə inandılar; sizin şüarlarınız isə onlara daha cəlbedici göründü. Fəqət, heyhat, Vilson prinsipləri Versal, Trianon və Sevr müqavilələrinə müncər oldusa, sizin şüarlarınız da Ukrayna, Türküstan və Qafqazın yenidən istilası ilə nəticələndi. Buna görə də vətənim Azərbaycanın sizin işğal və əsarətinizə qarşı mübarizəyə qəhrəman Türkiyənin Antantaya qarşı yürütdüyü mücadilə qədər bir haqqı vardır.*

*Öz siyasi əqidəmə sadiq qalmaqla bərabər, mən eyni zamanda Sizin də xeyirxahınız qalır, şəxsinizə qarşı ehtiram hissi bəsləyirəm. Nəticədə mənə qarşı*

*göstərdiyiniz əlaqəni heç bir zaman unutmayacağıma inanmanızı xahiş ilə Sizə yaxşı bir xidmət göstərmək fürsətini can-dildən təmənni etdiyimi ərz edirəm.*

*Ehtirami-tamla: Rəsulzadə Məmməd Əmin. Yanvar 1923 (bu məktub vaxtilə İstanbulda çıxan 23.01.1923-cü il tarixli və 5 nömrəli "Yeni Qafqaziya" dərgisində nəşr olunmuşdur).*

Möhtərəm oxucu, fikir verdinmi M.Ə.Rəsulzadə Stalin kimi böyük bir dövlət xadiminə çəkinmədən sübut edir ki, sizin qurduğunuz Kommunist Bolşevik rejimi bütün bəşəriyyətin faciəsi olacaqdır. Ona görə də burada yaşamağı mümkünsüz hesab edir. Halbuki, Mikoyan kimi o da Stalinin ətrafında dolana bilər və özünə böyük vəzifələr qazana bilərdi. O, sübut etdi ki, dünya sirlərini, örtülü məqamları Stalindən daha yaxşı bilir və qiymətləndirir. Buna görə də tarixə mənfur bir şəxs kimi yox, gizli-qapalı zülmət pərdəsi ilə örtülmüş faciələri parlaq zəka şüarı ilə işıqlandırıb həm özü üçün, həm də başqalarına nümayiş etdirdi.

Mikoyan erməni xisləti – yaltaqlığı ilə bolşevik rejimində uca məqamlara yüksəldi. Amma ölən kimi özü də, sözü də, əməlləri də Lenin və Stalin kimi zülmət-qaranlıq içində qalan bir məchul məqama köçdü.

Amma 70 il adının belə çəkilməsi qadağan olunan M.Ə.Rəsulzadənin əsərləri çap olunur, əməlləri həyata keçirilir, məsləki təqdir olunur.

Bax həyatda olan qaranlıq bucaq yaratmaqla zəka ziyası saçmağın sonu budur!!

M.Ə.Rəsulzadə hamıya bildirdi ki, kommunist ideologiyası, proletar məfkurəsi əsası olmayan bir mifdir. Hələ yeni eradan əvvəl İranda mövcud olmuş məzdəkilik haqqında da M.Ə.Rəsulzadə yazırdı: *"Məlum olduğu üzrə, Sasanilər dövründə Məzdək Sasani Key Qubad zamanında peyda olmuş bir kommunist Peyğəmbər idi ki, öz təlimi ilə şahı öz dininə döndərmiş məmləkətində* ***mallarla qadınların***

***ictimailəşməsini*** *nəzərdə tutan* ***kommunist*** *məzhəbinin rəğmən qəbulunu təmin etmişdi. Sonra Ənuşirəvanın qəti bir müdaxiləsi ilə bu məzhəb tərəfdarları* ***payaya*** *keçirilmiş, Məzdək də edam edilmişdi (bax həmin mənbə)".*

Bununla Rəsulzadə dahiyanə şəkildə göstərmişdir ki.  kommunist bolşevizminin də Məzdək Kommunist ideyası kimi sonu yoxdur. M.Ə.Rəsulzadə bolşevizmin iç – daxili-qaranlıq simasını necə görürdüsə. H.Əliyev o aləmi varaq-varaq çevirib qiymətləndirirdi.

Azərbaycanda gizli sirlərin toplandığı dəniz Bolşevik rejiminin ölüm dəyirmanı olan QPU, NKVD, MQB, MVD, KQB orqanlarının da özünəməxsusluğunu ümummilli Lider görmüşdü. Buradakı gizlinlər, zülmət içində olan hadisələr heç kəsə məlum deyildir.

Azərbaycan DTK-KQB-si Moskvadan idarə olunurdu. Bu orqan formalaşmağa başlayanda cəmi 7 ildə 5 nəfər adam bu orqana rəhbərlik etdi. Vaxtlar belə hesab edirdilər ki, azərbaycanlılar burada iş apara bilməz. Bu, Moskvadan mikoyanların verdiyi dəstur idi. İndi bu orqanda kimlər və nə vaxt rəhbər olmuşdur? Ona baxaq.

1. M.S.Şeyxzamanov – 1919-1919.

2. N.S.Şeyxzamanov – 1919-1920.

3. S.A.Pankratov – 1920-1920 (Apreldə gəlib bir neçə aydan sonra Bakıdan gedib).

4. B.E.Əliyev – 1920-1920.

5. E.Ş.Xanbudaqov – 1920-1921.

6. M.C.Bağırov – 1921-1927.

7. N.K.Rizayev – 1927-1929.

8. M.C.Bağırov – 1929-1930.

9. M.R.Frinovskiy – 1930-1933.

10. A.S.Aqrba – 1933-1934.

11. Y.D.Sumbatov (Topuridze) – 1934-1938.

12. M.Q.Rayev-Kamenskiy – 1938-1938.

13. S.F.Yemelyanov – 1939-1953 (ən böyük cəllad).

14. A.M.Quskov – 1953-1956.

15. F.M.Kopilov – 1956-1959.

16. A.V.Kardaşov – 1959-1963.

17. S.K.Sviqun – 1963-1967.

18. H.Ə.Əliyev – 1967-1969.

19. V.S.Krasilnikov – 1969-1979.

20. Z.M.Yusifzadə – 1980-1988.

21. İ.İ.Qorolevskiy – 1988-1989.

22. V.Ə.Hüseynov – 1989-1991.

23. İ.R.Hüseynov – 1991-1992.

24. F.A.Təhməzov – 1992-1993.

25. N.S.İmranov – 1993-1994.

26. N.R.Abbasov – 1994.

Bu orqanın rəhbərlərini sadalamaqla məqsədimiz bu idi ki, onun başında uzun müddət qeyri-millətlər dayanmışdır.

Azərbaycanlılar orada işləsə də onlara heç bir vəzifə verilmir və ciddi işlər aparmırdılar.

Amma Ermənistanda bu orqanın bütün işçiləri öz adamları idi. Bundan əvvəlki məqalələrdə faktlar verilmişdir. İndi həmin faktlara başqa prizmadan yanaşdığımız üçün, elə bilirəm ki, təkrar olmaz. Çünki bu idarənin əlçatmaz erməni məskəni olduğunu, onun tam məxfi xislətini, habelə kommunist-bolşevik

maskası geymiş erməni daşnaklarının nəyə qadir olduğunu və niyə qadir olduğunu göstərmək istəyirik.

Bunu 1950-ci ildə Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsinə gənc (27 yaşlı) mütəxəssis kimi öz parlaq zəkası ilə gəlmişdi. Həmin il bu orqanda 1035 zabit olmuşdur. 404 nəfər (39%) rus, 303 nəfəri (28,9%) erməni və başqa millət 328 nəfəri (31%) azərbaycanlı idi. Amma azərbaycanlıların heç biri nəinki şöbə, hətta bölmə rəisi də deyildi.

Heydər Əliyev bu barədə ovaxtki DTK sədrinin müavini, cahil azərbaycanlıya demiş, amma qaneedici cavab almamışdır. Ona görə də özü ciddi işə başlayır. 1965-ci ildə buradakı 300 zabitdən 169 nəfəri (51%) azərbaycanlı, 80 nəfəri (26,6%) rus, 33 nəfəri (9,7%) erməni idi. Bu faiz getdikcə xalqımızın xeyrinə dəyişirdi. 2 il bu orqanın sədri olduğu üçün müəyyən işlər görmüşdü. Belə ki, 1970-ci ildə buradakı 345 zabitdən 211 nəfəri (61%) azərbaycanlı, 80 nəfəri (23,7%) rus, 32 nəfəri (9,2%) erməni idi.

Heydər Əliyev buradakı “yanlar”ın çoxluğunun Moskvadakı Mikoyanla bağlı olduğunu bilirdi. Buna da bilirdi ki, Ermənistanın bu orqanında bircə nəfər azərbaycanlı yoxdur. Ulu öndər deyirdi ki, bir dəfə Andropovla söhbət zamanı bildirmişdi ki, mən Ermənistan DTK-na rus göndərən kimi Mikoyan Dövlət telefonu ilə mənə zəng vurub dedi ki:

-Nə üçün Ermənistan DTK-na qeyri-millət göndərmisiz. Buna sizin ixtiyarınız yoxdur.

Bu, həmin Mikoyan idi ki, 1965-ci ildə Aprelin 25-də İrəvanın Mərkəzi Meydanında “Erməni Genosidinin 50 illiyi”nə həsr olunmuş böyük mitinq keçirmişdi. Ona söhbət zamanı təşəkkür edən Ermənistan KP MK-nın birinci katibi Zarobyana demişdi:

-İndi hər şey öz əlimizdədir.

Nə oldu H.Əliyev dühası onların zülmət-qaranlıq dünyada törətdikləri genosid siyasətini ifşa edib qabağını aldı.

# KİTABIN İÇİNDƏKİLƏR

Müəllifdən.........................................................5
Türkçülüyə qarşı soyqırım.................................... 21
Xuluflu Vəli Məmmədhüseyn oğlu.......................45
Zifeld Artur Rudolfoviç........................................86
Bəkir Vahab oğlu Çobanzadə..............................103
Yaqub Fərəc oğlu Əliyev....................................144
Abdulla Məmməd oğlu Tağızadə.........................158
Əkrəm Cəfər...............,,.....................................168
Xalid Səid Xocayev.............................................191
Qulam Kərim oğlu Bağırov..................................216
İdris Məşədi Zaman oğlu Həsənov.......................241
Abdulla Məhəmməd oğlu Şərifov........................259
Əbdüləzəl  Məmməd oğlu Dəmirçizadə...............267
Məhşur adamların və ermənilərin özlərinin erməni
xisləti haqqında...................................................289
Yaxşı ki, həmin illərdə tufanlar içində yanan çiraq
kimi azərbaycançılığı yaşatmışdır........................304
Son söz əvəzi – vicdan.........................................322
Arxiv sənədləri....................................................328
Elimizn və elmimizin soyqırımı...........................335
Redaktordan........................................................336
Giriş.....................................................................341
Əslində o vaxtlar xalqın düşmənləri “Xalq
düşmənləri”ni məhv edirdi...................................367

Mirəhməd Mirfəttah oğlu Abdullayev..................411
Həmid Mərdan oğlu Bağırov................................427
Qasım Şixəli oğlu Quliyev ...................................428
Məşədi Feyzulla Hacı Allahverdi oğlu.................456
Kazımov Abdulla Rəcəb oğlu...............................473
Parlaq zəka üçün qaranlıq bucaq yoxdur..............480

**ADİL BABAYEV**

# REPRESSİYA QURBANI – AZƏRBAYCAN DİLÇİLƏRİ

**Naşir**:Valeh Mayılov
**Korrektor:** Xanəhməd Novruzov

Çapa imzalanıb: 10. 05. 2023
Kağız formatı 60x84 1/16.
H/n həcmi: 32,25 ç.v.
Tiraj 25.

“MSV NƏŞR” MMC-nin mətbəəsində
çap edilmişdir.
Tel:. 012 539 54 69
Mob:. 055 640 00 94